**Şahismayıl İsmayılov**

# XVII ƏSRİN 80-90-CI İLLƏRİNDƏ SƏFƏVİ DÖVLƏTİNİN SOSİAL-İQTİSADİ HƏYATI

Dərs vəsaiti

*ADU-nun Elmi Şurasının 30 noyabr 2022-ci il 22 saylı iclas protokolu ilə təsdiq edilmişdir.*

**Bakı – 2023**

Elmi redaktor: Professor, tarix elmlər doktoru, Bakı Dövlət Universitetinin Qafqaz xalqları tarixi kafedrasının professoru, Azərbaycan Universitetinin Humanitar fənlər fakültəsinin İctimai elmlər kafedrasının müdiri – **Qabil Əli oğlu Əliyev**.

Rəyçilər: Azərbaycan Dillər Universitetinin Beynəlxalq əlaqələr fakültəsinin dekanı, professor – **İbrahim Feyzulla oğlu Kazımbəyli.**

Bakı Slavyan Universitetinin "Beynəlxalq münasibətlər kafedrası"nın professoru, tarix elmləri doktoru – **Habil Nurkişi oğlu Məmmədov**.

Azərbaycan Dillər Universitetinin tarix elimləri üzrə fəlsəfə doktoru, "Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrası"nın müdiri – **Xatirə Hacıyeva Ziya qızı**.

Azərbaycan Dillər Universitetinin "Fəlsəfə və ictimai elmlər kafedrası"nın müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru – **Ədalət Abdiyeva Murad qızı**.

Bu dərs vəsaitində Azərbaycan tarixinin XVII əsrin 80-90-cı illərində Səfəvi dövlətinin sosial-iqtisadi həyatı hərtərəfli işıqlandırılıb, müəllim və tələbələr üçün faydalı hesab olunur.

© Şahismayıl İsmayılov
Bakı, 2023

# MÜNDƏRİCAT

**GİRİŞ** ........................................................................ 4

**I fəsil. AQRAR MÜNASİBƏTLƏR** ............................... 21
1.1. Kənd təsərrüfatı ........................................................ 21
1.2. Torpaq və vergi münasibətləri .................................... 36

**II fəsil. SƏNƏTKARLIQ VƏ TİCARƏT** ........................ 56
2.1. Sənətkarlıq ................................................................ 56
2.2. Ticarət ....................................................................... 75

**III fəsil. SOSİAL MÜNASİBƏTLƏR VƏ İDARƏÇİLİK SİSTEMİ** ................................................. 93
3.1. Şəhər həyatı və sosial struktur məsələləri ..................... 93
3.2. İdarəetmə orqanları ................................................. 121
3.3. Azərbaycan türkcəsi, tədris ocaqları və bilik sahələri ................................................................ 147
3.4. Səfəvi ordusu .......................................................... 158

**NƏTİCƏ** .................................................................. 166
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** ............................ 173

# GİRİŞ

Azərbaycan milli müstəqilliyini yenidən bərpa etdikdən sonra xalqımızın tarixinin bir çox problemlərinin yenidən araşdırılıb öyrənilməsi, tarixi gerçəkliklərin üzə çıxarılması böyük elmi ehtiyyac duyulurdu. Məlum olduğu kimi, xalqımız zəngin dövlətçilik ənənələrinə malik olmuş və bu orta yüzillərdə Baharlı, Bayandurlu sülalələrinin başçılıq etdikləri dövlət,Səfəvilər kimi qüdrətli imperiyanın timsalında özünü göstərmişdir. Sovetlər dönəmində istər Azərbaycan və istərsə də xarici tarixşünaslıqda Azərbaycan Səfəvi imperiyasının tarixinə bir çox əsərlər həsr edilsə də, bu dövlətin tarixi ilə bağlı bəzi problemlər təhrif edilmiş, onun son dövr tarixi isə ayrıca hərtərəfli araşdırılmamışdır. Elə buna görə də tarixşünaslığımızda XVII əsrin ortaları və ikinci yarısında Azərbaycan Səfəvi imperiyasının sosial-iqtisadi tarixinin öyrənilməsinə böyük ehtiyac yaranmışdır. Azərbaycan xalqının dövlətçilik tarixinin parlaq səhifələrindən olan Səfəvi imperiyasının son dövrünün sosial-iqtisadi problemlərinin araşdırılıb öyrənilməsi tarixşünaslığımız üçün çox böyük elmi əhəmiyyət kəsb edir.

Azərbaycan Səfəvi imperiyasının XVII əsrin ortalarında və ikinci yarısında sosial-iqtisadi vəziyyətinin, tənəzzülünün səbəblərinin hərtərəfli araşdırılıb öyrənilməsi siyasi baxımdan çox böyük elmi əhəmiyyət kəsb edir. Səfəvi imperiyasında XVII əsrin son onilliklərində baş vermiş iqtisadi böhran imperiyanın siyasi müstəqilliyini təhlükə qarşısında qoymuş, ancaq müəyyən müddət dövlətçilik qorunub saxlanılmışdır. Bu mərhələdə dövlətçiliyin qorunub saxlanılması xalqımızın özünəməxsus idarəçilik ənənəsi ilə bağlı olub,

onun pozitiv cəhətlərinin üzə çıxarılması xüsusi əhəmiyyət daşıyır. Xüsusilə Azərbaycan Səfəvi dövləti üçün səciyyəvi olan orijinal idarəçilik və dövlət quruluşu formasının tədqiqi milli-tarixi zərurət olub, bu,dərs vəsaiti aktuallığını şərtləndirən cəhətlərdəndir.

XVII əsrdə Avropanın inkişaf etmiş dövlətləri arasında Şərqdə satış bazarları, xammal mənbələri, müstəmləkələr və əlverişli karvan yolları ələ keçirmək uğrunda rəqabət daha da kəskinləşmişdi. Bu dövrdə Şərqdə təbii zənginlikləri ilə fərqli yer tutan Səfəvi məmləkətinin bir çox bölgələri, xüsusən də İran körfəzi Avropa dövlətlərinin maraqlarının toqquşduğu əsas məntəqə idi. Avropa dövlətləri Şərqdə işğalçılıq planlarını həyata keçirmək üçün Asiyanın bir çox ölkələri kimi, Səfəvi dövlətinə də ardı-arası kəsilmədən missioner, tacir, elçilər göndərir və onlar xüsusi təlimatlar əsasında hesabatlar, gündəliklər tərtib edirdilər. Onların tərtib etdikləri bu gündəlik və hesabatlarda Səfəvi dövlətinin sosial-iqtisadi və mədəni həyatı incəliklərinə qədər öz əksini tapmışdır. Bu dövrün Avropa ədəbiyyatları əvəzolunmaz mənbələrdir. Səfəvi dövlətinə Avropadan müxtəlif məqsədlərlə göndərilmiş elçilər, tacirlər, missionerlərdən almaniyalı Engelbert Kempfer və fransız Sansonun gündəliklərində Azərbaycanın, İranın sosial-iqtisadi həyatı, əlverişli hərbi-strateji mövqeyi, təbii sərvətləri, qonşu dövlətlərlə münasibətlərinə dair zəngin məlumatlar verilmişdir.

Azərbaycan Səfəvi dövlətinin sosial-iqtisadi həyatı ilə yanaşı, mənəvi mədəniyyətinin bir çox sahələri də E.Kempfer və Sansonun əsərlərində öz geniş əksini tapmışdır. Ancaq XVII əsrin ikinci yarısına aid olan Avropa mənbələri tarixşünaslığımızda xüsusi tədqiqat obyekti olmadığına görə qeyd

olunan yüzilin ortaları və ikinci yarısında Səfəvi dövlətinin sosial-iqtisadi həyatına aid tədqiqat əsəri yazılmamışdır. Bizcə, həm tədqiq etdiyimiz mövzunun, həm də Engelbert Kempfer və Sansonun əsərlərinin aktuallığı bununla izah edilməlidir. Ona görə də zəngin dövlətçilik ənənəsi olan Azərbaycan Səfəvi dövlətinin sosial-iqtisadi tarixinin tədqiqi üçün yaranmış şəraitin indiki mərhələsində səyyahların bu barədə verdikləri məlumatların tarixşünaslığımızın mövqeyindən öyrənilməsi çox böyük elmi-nəzəri əhəmiyyət kəsb edir. Bu həm də Azərbaycan Səfəvi dövlətinin Qərb aləmi ilə qarşılıqlı iqtisadi və mədəni əlaqələri tarixini öyrənmək baxımından da aktual səciyyə daşıyır. Tədqiqata cəlb etdiyimiz Avropa səyyahlarının əsərlərindən əldə etdiyimiz materialların araşdırılması zamanı qarşımıza yeni problemlər də çıxmışdır ki, bütün bunlar monoqrafiyada kompleks şəkildə öyrənilmişdir.

Bu gün Azərbaycan xalqının, onun mütərəqqi fikirli adamlarının dövlətimizin suverenliyi, müstəqilliyi uğrunda inadlı, ardıcıl mübarizələri və ona nail olmaları, əldə etdikləri uğurlar tamamilə təbiidir. Bu mənada Avropa qaynaqları əsasında əski çağlardan bəri tarixşünaslıqAzərbaycanın sosial-iqtisadi həyatının, orijinal dövlətçilik ənənələrinin öyrənilməsi və onun özünəməxsus cəhətlərinin aşkarlanması, xalqımızın tarixən zəngin dövlətçilik ənənəsinə, idarəetmə bacarığına malik olduğunu isbat edir ki, bu da öz növbəsində araşdırdığımız mövzunun çox böyük elmi əhəmiyyət və aktuallıq kəsb etməsini təsdiq edir.

Vətən tarixşünaslığında Səfəvi dövlətinin sosial-iqtisadi, siyasi tarixi, mədəni həyatı araşdırılmış, kitablar, elmi məqalələr yazılmışdır. Bu tədqiqat işlərində Azərbaycan Səfəvi

dövlətinin XVII əsrin 80-90-cı illərində sosial-iqtisadi tarixi, mədəni həyatının bəzi problemlərinə də toxunulmuş və Engelbert Kempferin, Sansonun əsərlərindən isə az da olsa istifadə edilmişdir.

Səfəvi dövlətinin XVII əsrdə sosial-iqtisadi tarixinə aid olan tədqiqatlar içərisində M.X.Heydərovun əsərləri xüsusi yer tutur. Onun 1966-cı ildə nəşr etdirdiyi "XVII əsrdə Azərbaycan şəhərlərinin sənətkarlıq istehsalı" adlı kitabı tarixşünaslığımızda Azərbaycanın iqtisadi həyatına həsr edilmiş ilk fundamental əsər idi. M.X.Heydərovun qeyd edilən əsərindən sonra tədqiqat dairəsini genişləndirmiş və onun bir çox monoqrafiyaları işıq üzü görmüşdür. Onun əsərlərində Səfəvi dövlətinin şəhərləri mühüm sənətkarlıq və ticarət mərkəzi kimi tədqiq edilmişdir. Çoxsaylı mənbələri elmi dövriyəyə cəlb edən müəllif tədqiqat işində Səfəvilər dövründə sənətkarlıq, sənətkarlıq təşkilatları, sosial münasibətlər, vergi və mükəlləfiyyətlər, gömrük sistemi, sənətkarlığın inkişaf xüsusiyyətləri kimi mürəkkəb problemləri araşdırıb tarixi gerçəklikləri üzə çıxarmış və Azərbaycan Səfəvi tarixşünaslığına dəyərli töhvələr bəxş etmişdir. O, XVII əsrin son illərində dövlət səviyyəsində iqtisadiyyatın zəifləməsi, şəhərlərdə istehsalın ümumi həcminin azalmasının səbəblərini də araşdırmış, düzgün elmi nəticələr əldə etmiş və bütün bu məsələlər barədə zəngin məlumatlar vermişdir.

Orta əsrlər tarixinin çox görkəmli tədqiqatçısı əməkdar elm xadimi, Akademik, professor Y.M.Mahmudov Avropa və Şərq səyyahlarının, elçilərinin Səfəvi dövlətinin tarixi ilə bilavasitə bağlı olan səyahətnamələrini, dövlət başçılarının məktublarını Azərbaycan dilinə tərcümə etmiş, həm də onları araşdırıb yazdığı çoxsaylı əsərlərində tarixi gerçəklikləri

üzə çıxarmışdır. Onun əsərlərində Səfəvi dövlətinin sosial-iqtisadi həyatı, diplomatik əlaqələri, məktəb və maarif, dövrün elmi bilik sahələri haqqında olduqca dəyərli məlumatlar vardır ki, bütün bunlardan monoqrafiyanın yazılmasında geniş şəkildə istifadə olunmuşdur.

Vətən tarixşünaslığında Səfəvi dövləti tarixinin Azərbaycan dövlətçilik tarixində çox mühüm mərhələ təşkil etməsini ilk dəfə görkəmli alim, AMEA-nın müxbir üzvü O.Ə.Əfəndiyev araşdırmış, tarixi gerçəklikləri üzə çıxarmışdır. O, “Azərbaycan Səfəvilər dövləti” adlı monoqrafiyasında bir çox Qərb və Şərq tarixşünaslığında Səfəvilər dövlətinin “İran dövləti” adı ilə təqdim edilməsi konsepsiyasını tutarlı elmi faktlarla təkzib edərək bu dövlətin Azərbaycan dövləti olmasını elmi cəhətdən əsaslandırmışdır. Onun tədqiqat işlərində Azərbaycanın siyasi tarixi ilə yanaşı, sosial-iqtisadi həyatı haqqında da qiymətli məlumatlar vardır ki, bütün bunlar monoqrafiyanın yazılmasında bir örnək kimi qəbul olunmuşdur.

Azərbaycan orta əsr şəhərlərinin tarixinə həsr olunmuş monoqrafiyalar içərisində S.M.Onullahinin “XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi” adlı əsəri xüsusi elmi əhəmiyyətə malikdir. Əsərdə Təbriz şəhərinin meydana gəlməsi, şəhərin Azərbaycanın daxili və xarici ticarətində rolu, şəhər sənətkarlığı və mədəniyyəti, şəhərin müxtəlif dövrlərdə tərəqqi və tənəzzülü zəngin qaynaq materiallarının təhlili əsasında araşdırılmışdır. Müəllif Səfəvilər dövründə Təbriz şəhərinin ticarət həyatı, istehsal və peşə sahələri, şəhər əhalisinin sosial tərkibi, şəhər mədəniyyəti haqqında ətraflı məlumatlar vermişdir. Monoqrafiyanın yazılmasında onun da əsəri xüsusi əhəmiyyət kəsb etmişdir.

Azərbaycanın orta əsrlərdə şəhər həyatına həsr olunmuş tədqiqat işlərindən görkəmli tarixçi S.Aşurbəylinin əsərləri də xüsusi əhəmiyyət kəsb edir. Onun “Bakı şəhərinin tarixi” adlı monoqrafiyasında XVI-XVII əsrlərdə şəhərin siyasi tarixi, iqtisadi həyatı, sənətkarlıq və ticarət, şəhər əhalisinin sosial tərkibi zəngin mənbə materialları əsasında araşdırılmışdır. Onu da göstərmək lazımdır ki, müəllif Abşeronda neft hasilatı problemini araşdırarkən bir çox Qərb və Şərq səyyahlarının əsərlərindən, o cümlədən Engelbert Kempferin də səyahətnaməsindən istifadə etmişdir.

Ə.Ə.Rəhmaninin “Azərbaycan XVI əsrin sonu və XVII əsrdə” adlı monoqrafiyasında Azərbaycanın sosial-iqtisadi həyatının bir çox problemləri araşdırılmış, 1639-cu ildə Osmanlı dövləti ilə imzalanmış müqavilənin Təbriz şəhərinin iqtisadi həyatına göstərdiyi təsirlər haqqında məlumatlar verilmişdir.

Son illərdə işıq üzü görmüş əsərlərdən Zabil Bayramlının "Səfəvi dövlətinin quruluşu və idarə sistemi" adlı monoqrafiyasında Səfəvi dövlətinin etnik kimliyi, quruluşu, idarəetmə orqanları, inzibati ərazi bölgüsü yeni konsepsiya əsasında araşdırılmışdır. Müəllifin əsəri xalqımızın dövlətçilik tarixinin öyrənilməsi baxımından çox böyük əhəmiyyət kəsb edir.

Müstəqillik dövrünün tədqiqat işlərindən N. Süleymanovun “Səfəvi dövlətinin təsərrüfat həyatı” adlı monoqrafiyası da mövzunun araşdırılmasında xüsusi əhəmiyyət kəsb etmişdir. Onun monoqrafiyasında Səfəvi dövlətinin kənd təsərrüfatı, istehsal və peşə sahələri, daxili və xarici ticarəti, dövlət büdcəsinin gəlir qaynaqları, maliyyə orqanlarının fəaliyyəti kimi mühüm iqtisadi problemlər ilk mənbələr əsasında araşdırılmışdır.

X. Qasımovun 2008-ci ildə işıq üzü görmüş "Azərbaycan mədəniyyəti XVI-XVII əsrlərdə" adlı kitabı dövrün mədəniyyət tarixi mövzusunda yazılmış ilk tədqiqat əsəridir.

Mövzu araşdırılarkən Azərbaycan tədqiqatçılarından Ş.F.Fərzəliyev ,V.Piriyev , A.B.Baxşəliyev, R.Dadaşova, S. Məmmədov , M.X.Nemətova, M.Dadaşzadə , R.Məmmədov, Z. M.Həsənalıyev və bir çox başqalarının da əsərlərindən istifadə edilmişdir.

Rus tarixçiliyində XVI-XVII əsrlərdə Azərbaycan tarixinin hərtərəfli şəkildə araşdırılması İ.P.Petruşevskinin adı ilə bağlıdır. Onun əsərlərində Azərbaycan tarixinin müxtəlif problemləri, o cümlədən torpaq sahibliyi, vergi və mükəlləfiyyətlər, ümumən sosial münasibətlərə aid məlumatlar mövzunun araşdırılmasında əhəmiyyət kəsb etmişdir.

V.V. Bartoldun "Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri" adlı əsəri 1924-cü ildə Azərbaycan Dövlət Universitetində oxuduğu 20 mühazirədən ibarət olub, ciddi maraq doğursa da, burada təzadlı fikirlər də vardır.

Rus tarixçilərindən P.P.Buşev, M.S.İvanov, N.Q.Kukanova , A.P.Novoseltsev, N.V.Fexner və bir çox başqa tədqiqatçılarının da əsərlərindən istifadə olunmuşdur.

İran tarixşunaslığında da Səfəvi dövlətinin tarixi geniş şəkildə araşdırılmış, müxtəlif mövzularda tədqiqat əsərləri yazılmışdır. Ancaq onu da qeyd etmək lazımdır ki, İran tarixçiləri Səfəvi dövlətinin əsasən siyasi tarixini araşdırmış və onların əsərlərində sosial–iqtisadi məsələlərə demək olar ki, toxunulmur. İran tarixçilərindən Əbülqasım Tahiri,Əhməd Tacbəxş , Məhəmməd Cavad Məşkur , Nəsrullah Fəlsəfi və bir çox başqalarının əsərlərindən istifadə olunmuşdur. Ancaq onu da qeyd etmək lazımdır ki, İran tarixşünaslığında Səfəvi

dövlətinin tarixinə həsr edilmiş əsərlərdə bəzən obyektivlik və elmilik öz əksini tapmır, tarixi gerçəkliklər, həqiqətlər ya danılır, ya da onların üzərindən sükutla keçirlər.

Mövzu əsas etibarilə məşhur Almaniya səyyahı Engelbert Kempfer və Fransa missioneri Sansonun əsərləri əsasında araşdırılmışdır. Problemin hərtərəfli öyrənilməsi üçün qeyd edilən müəlliflərin əsərləri ilə yanaşı, bir çox başqa Avropa və Şərq səyyahlarının səfərnamələrinə, rəsmi sənədlərə, farsdilli, türkdilli mənbələrə də müraciət edilmişdir.

## Səfəvi dövlətinin sosial-iqtisadi tarixi

Engelbert Kempfer (1651-1716) 16 sentyabr 1651-ci ildə Almaniyanın Lemqo şəhərində keşiş ailəsində anadan olmuşdur. O, ilk təhsilini Lemqo, Hameln, Luneburq, Lübek şəhərlərində almışdır. 1672-ci ildə Hollandiyada universitetə daxil olmuş, bir müddət burada oxuduqdan sonra, Krakov və Gönsberqdə təhsilini davam etdirərək fəlsəfə, tarix, qədim dilləri, təbiət elmlərini, təbabəti mükəmməl öyrənməyə müvəffəq olmuşdur. O, 1681-ci ildə Gönsberqdən İsveçə köçmüş və 1683-cü ildə İsveçdən Lüdviq Fabritiusun başçılığı altında Səfəvi dövlətinə ticarət məsələləri barədə danışıqlar aparmaq üçün göndərilən elçiliyə katib təyin edilmişdir. 1683-cü ilin mart ayında Stokholmdan yola düşən elçilik həmin ilin noyabr ayında Həştərxana çatır və buradan hərəkət edərək Şamaxıya gəlir. Elçilər Şamaxıda dörd həftə qalır ki, bu müddətdə Engelbert Kempfer Şirvan əyalətinin bir çox məntəqələrində, idarə, o cümlədən Bakıda da olur. 1684-cü ilin yanvar ayında elçilər Şamaxı-Rəşt-Qəzvin-Savə-Qum-Kaşan-Nətənz karvan yolu ilə hərəkət edib, həmin ilin mart

ayıında İsfahana çatırlar. Engelbert Kempfer karvan yolunda rast gəldiyi bütün yaşayış məntəqələrinin sosial-iqtisadi həyatını ətraflı yazıya almışdır. O, təxminən 20 ay İsfahanda olmuş və bu müddətdə gündəlik qeydləri əsasında Səfəvi ölkəsinin bitkilər aləmi haqqında ilk əsərini yazmış, ancaq onun bu əsəri çap olunmamışdır. Onun yazdığı risalələrdən ən maraqlı və elmi əhəmiyyət kəsb edəni dövlət quruluşu haqqında əsəridir. O, 1683-1684-cü illərdə Azərbaycan və İranın bir çox şəhərlərini gəzmiş və elçiliklə geriyə qayıtmamış, Rafael dyu Mansın zəmanəti ilə İran körfəzindəki Hollandiya hərbi dəniz donanmasında qulluğa götürülmüşdür. Engelbert Kempfer 1693-cü ildə vətəninə qayıdır, xatirələrini latın dilində yazıb tamamlayır və 1712-ci ildə beş cilddə çap etdirir. Engelbert Kempferin səfərnaməsini Latın dilindən Alman dilinə Valter Hins tərcümə etmiş və sonra müxtəlif dillərdə çap olunmuşdur. O cümlədən Keykavus Cahandari tərəfindən fars dilinə də tərcümə olunub 1350-ci ildə Tehranda nəşr edilmişdir.

Ümumiyyətlə, bütövlükdə Səfəvi dövlətinin, o cümlədən bu dövlətin metropoliyası olan Azərbaycanın XVII əsrin II yarısında sosial-iqtisadi həyatının ən vacib məsələlərinin hərtərəfli şəkildə araşdırılması üçün E.Kempferin "Səyahətnamə"sindəki materiallar və faktlar çox qiymətli mənbə rolunu oynayır.

Fransalı missioner Sanson 1683-cü ildə XIV Lüdoviqin zəmanət məktubu ilə xristian dinini təbliğ etmək məqsədilə Səfəvi dövlətinə Şah Süleymanın (1666-1694) sarayına göndərilmişdi. O, Azərbaycan və İranın bir çox şəhərlərində, o cümlədən yolüstü Təbrizdə, 8 ay Qəzvində, 3 il İsfahanda olmuşdu. Uzun illər Səfəvi ölkəsində yaşayan Sanson burada

fars dilini öyrənmiş, Səfəvi dövlətinin xüsusiyyətləri, yerli əhalinin adət-ənənələri ilə yaxından tanış olmuş və bütün bu məsələləri gündəliyində təsvir etmişdir. O, bütün bu məsələləri bir avropalı kimi və ona verilən tapşırığa əsasən aydın və olduğu kimi yazıya almağa cəhd göstərmişdir. Fransaya qayıtdıqdan sonra 1695-ci ildə çap etdirdiyi əsəri Səfəvi dövlətinin tarixinin bir çox problemlərini özündə əks etdirməklə, olduqca diqqətəlayiq, həm də elmi əhəmiyyətlidir. Xüsusilə onun əsərində Səfəvi sarayının əzəməti, rəsmi idarə orqanlarının statusları haqqındakı məlumat olduqca maraqlıdır.

Sansonun Səfərnaməsi Tağı Təfəzzülü tərəfindən fars dilinə tərcümə edilmiş və h. 1346-cı ildə Tehranda nəşr olunmuşdur. Biz mövzunun araşdırılmasında əsasən onun tərcüməsindən istifadə etmişik.

Sanson baş vəzir (etimad-əd-dövlə) və ədliyyə-icra məmurlarının başçısı divanbəyi haqqında, onların səlahiyyət dairələri haqqında danışır və qeyd edir ki, xarici işlər və ticarət idarələri də baş maliyyə müşaviri etimad-əd-dövlənin ixtiyarındadır. Bütün ənamlar, aylıq maaşlar onun sərəncamı ilə ödənilir. O, şahın fərman və sərəncamlarının üzünü köçürtdürür, təsdiq edir, möhür vurur. Arxasında yazır: «Bənde-ye dərgah aliyətül-aliyə etimad əd-dövlə,-yəni mən ki, dövlətin qoruyucusu astanın bəndəsiyəm və ən yüksək ali vəzifə də astanlardandır». O, hər ay dövlət xəzinəsindən xərcləri üçün 1000 tümən götürürdü, ancaq onun məvacibi bu məbləğdən çox idi.

Beləliklə, Sansonun səfər gündəliyində toplanmış materiallar XVII əsrin II yarısında Səfəvi dövlətinin sosial-iqtisadi həyatının bir çox məsələlərinə aydınlıq gətirilməsi baxımından çox əhəmiyyətlidir.

Tədqiqat işində bir sıra konseptual məsələləri, mövzu ilə bağlı dəlil və faktları düzgün öyrənmək, elmi baxımdan əsaslandırmaq və ümumiləşdirmələr aparmaq məqsədilə Avropa dövlətlərindən Səfəvi imperiyasına göndərilmiş bir çox başqa səyyahların gündəliklərindən və eyni zamanda Şərq mənbələrindən də istifadə edilmişdir.

XVII əsrin 80-90-cı illərində Səfəvi dövlətinin sosial-iqtisadi və mədəni həyatının lazımi səviyyədə tədqiq olunmamasının başlıca səbəblərindən biri I Şah Süleymanın (1666-1694) hakimiyyəti dövrünə aid fars və türkdilli qaynaqların demək olar ki, azlığı, digər tərəfdən isə mövcud olan qaynaqlarda Səfəvilərin orta əsr tarixinə dair faktların son dərəcə cüzi olmasıdır. Bu dövrün tarixçilərindən ən məşhuru Məhəmməd Tahir Vəhidin kiçik qardaşı Məhəmməd Yusif Qəzvinidir. O, I Şah Süleymanın dövründə saray tarixçisi olmuş və "Xolde bərin" adlı əsərin müəllifidir. Bu mənbə iri həcmli ümumi tarix əsəri olub, səkkiz bölmə və xatimədən (sonluq) ibarətdir. I-VII bölmələrdə peyğəmbərlər, islama qədərki hökmdarlar, Həzrəti Məhəmməd və imamlar, Əməvi və Abbasi xəlifələri, Çingiz xan və Teymurlu sülaləsi, Qaraqoyunlu və Ağqoyunlu xanədanın tarixi əks olunmuşdur. Səkkizinci bölmə yeddi hissədən, yəni I Şah İsmayıl, I Şah Təhmasib, II Şah İsmayıl, Məhəmməd Xudahəndə, I Şah Abbas, I Şah Səfi, II Şah Abbas haqqında rövzələrdən ibarətdir. Əsərin sonluq hissəsində Şah Süleyman Səfəvinin dövrünün tarixi hadisələri şərh edilmişdir.

Seyid Hüseyn Astrabadinin "Əz Şeyx Səfi ta Şah Səfi" adlı əsəri Azərbaycanın orta əsrlər tarixindən bəhs edən qiymətli məxəzlərdən olub, araşdırılan mövzu ilə bilavasitə bağlıdır. Əsərdə Şeyx Səfidən (1252-1334) başlayaraq geniş bir

dövrün tarixi hadisələri öz əksini tapmışdır. O cümlədən I Şah Səfi (1629-1642) dövrünün tarixi hadisələrinə də toxunulmuşdur.

Molla Kamalın "Zübdət ət-təvarix" əsərinin h. 1334-cü il çapına müəllifi məlum olmayan "Xülasət ət-təvarix" adlı müxtəsər bir mənbə də daxil edilmişdir. Mənbədə 1653-cü ilə qədər Səfəvi dövlətinin tarixinin geniş bir dövrü əksini tapmışdır.

Mövzu ilə bağlı farsdilli qaynaqlar içərisində Mirzə Səmianın "Təzkirət əl-müluk" adlı əsəri çox böyük elmi əhəmiyyət kəsb edir. Bu əsərdə dövlət quruluşu, məmurların statusu, həm də onların məvacibləri, titullarının şərhi öz əksini tapmışdır. Əsərdə karxanalar və onların quruluşu, daxili əmək bölgüsü və araşdırılan mövzu ilə bağlı bir çox başqa məsələlər də öz əksini tapmışdır.

Monoqrafiyada həmçinin ümumiləşdirmələr və müqayisələr aparmaq üçün Fəzli İsfahaninin «Əfzəl ət-təvarix» adlı əsərindən də istifadə edilmişdir. Bəhs etdiyimiz dövrün ən dəyərli və iri həcmli qaynağı, Azərbaycanın məşhur tarixçisi İskəndər Münşinin (1560-1638) «Tarix-i aləmara-yi Abbasi» əsəridir. Mövzunun bir sıra məsələlərinin həllində bu qaynaqdan istifadə edilmiş, bəzi faktlar dəqiqləşdirilmişdir.

Rəsmi sənədlərdə, xüsusilə dövrün fərmanlarında Səfəvi dövləti tarixinin sosial-iqtisadi məsələlərinə dolayı yolla toxunulmuşdur. Bu sənədlərdə XVII əsrdə Azərbaycandan aparılan yerli və tranzit malların adları, qiymətləri göstərilir, xarici görnüşü təsvir edilir, sənətkarlıq məmulatlarının (xüsusilə parçanın) rəngi və digər xüsusiyyətləri qeyd edilir. Həmin məmulatların istehsal olunduğu yerlərin adları tez-tez xatırlanır. Lakin yuxarıda göstərilən sənədlərin məlumatları

əsasında XVII əsrin 80-90-cı illərində Səfəvi dövlətinin sosial-iqtisadi həyatı barədə tam təsəvvür əldə etmək çətindir. Həmin məlumatları narrativ mənbələrdən əldə edilmiş materiallarla ciddi müqayisə etdikdə tədqiq etdiyimiz məsələ barədə müəyyən təsəvvür əldə etmək mümkündür.

Səfəvi dövlətinin vergi sistemi və mükəlləfiyyətlərin mahiyyətini araşdırmaq baxımından Matenadaranda saxlanılan farsdilli sənədlər mühüm elmi əhəmiyyətə malikdir. Bu sənədlərin böyük qismi bilavasitə Azərbaycana aiddir və feodal münasibətləri tarixinin öyrənilməsi baxımından da müəyyən maraq doğurur. Qeyd edilən sənədlər A.D.Papazyan tərəfindən tərtib edilib "Matenadaranın farsdilli sənədləri" adlı bir cild və iki hissədən ibarət kitabda verilmişdir.

Mövzu ilə bağlı qiymətli qaynaqlardan biri də Fransa taciri Jan Battist Tavernyenin səyahətnaməsidir. J.Tavernye 1605-ci ildə Parisdə maarifçi ailəsində doğulmuşdur. 1631-1668-ci illərdən Şərqin bir çox iri şəhərlərinə səyahət etmiş, dəfələrlə İsfahan, Kaşan, Təbriz, Naxçıvan, Şamaxı, Ərdəbil və Culfa kimi ticarət mərkəzlərində olmuşdur. O, burada şəhər həyatı, bazar iqtisadiyyatı, malların dəyəri, sənətkarların verdikləri vergi və mükəlləfiyyətlərdən danışır. J.Tavernye ahıl vaxtında yenə də Rusiya vasitəsilə səyahətə çıxmağı qərara aldı. Lakin 1689-cu ildə dünyasını dəyişdi. Təhsilli, enerjili və müşahidəçi səyyah iqtisadi həyata, etnoqrafiya və mədəniyyətə dair gözəl irs qoyub getmişdir. Tavernyenin əsəri XVII əsr Səfəvi dövləti tarixinə aid qiymətli qaynaqdır. Onun əsəri bir neçə dəfə müxtəlif Avropa dillərində nəşr olunmuşdur. Paralellər aparmaq üçün, bəzi halda J.Tavernyenin əsərindən istifadə etmişik. Tavernyenin Səyahətnaməsini Əbuturab Nuri fars dilinə tərcümə etmiş və h. 1336-cı il-

də Tehranda nəşr olunmuşdur. Kitabda əsas etibarilə mənbənin fars nəşrindən istifadə edilmişdir.

Səfəvi dövlətinin sosial-iqtisadi və mədəniyyət tarixini öyrənmək baxımından fransız səyyahı J.Şardenin (1643-1713) iri həcmli əsəri dəyərli qaynaqdır. Onun özü zərgər ailəsində doğulduğu üçün sənətkarlığa maraq göstərirdi. Ona görə də o, 1664-1667-ci illərdə almaz və digər qiymətli daş-qaş almaq məqsədilə iki dəfə Şərqə səyahət etmiş, səyahətdən sonra Avropaya qayıdaraq «İran səfəri» adlı məşhur əsərini yazmışdır. Onun əsəri 10 hissədən ibarətdir. Müəllif Azərbaycanın bir sıra vilayətləri və bölgələrində–Naxçıvan, Culfa, Mərənd, Təbriz, Ərdəbil, Xoy, Dəhərqan və digər şəhərlərində olmuşdur. J.Şarden şəhər əhalisinin sayı, dükanlar, emalatxanalar, ticarətin vəziyyəti, sənətkarlıq istehsalının əsas məhsulları, şəhərlərin xarici görkəmi, memarlıq abidələri, coğrafi şərait, əhalinin məişəti və s. məsələlər barədə maraqlı məlumat verir. Onun əsərində XVII əsr Səfəvilər dövlətinin sosial-iqtisadi, siyasi və mədəni həyatının müxtəlif məsələlərinə dair dəyərli məlumatlar vardır. Şərqşünas alimlər onun əsəri və özü haqqında yüksək fikirlər söyləyirlər. Geniş görüş dairəsinə malik olan Şardenin fars və türk dilini bilməsi ona sənətkarlıq təşkilatlarının daxili quruluşu və özünüidarəsi məsələlərini təhlil eməyə imkan vermişdir. XVII əsr Səfəvi imperiyasını səyahətə çıxan çoxlu Avropa səyyahları içərisində J.Şarden hadisələri əhatə etmək, onları dərindən öyrənmək baxımından fərqlənir. Şarden sələflərindən tamamilə fərqli olaraq öz əsərlərində səyahət etdiyi ölkələrin adət-ənənəsi barədə tam məlumat verir.

J.Şardenin əsərində maraqlı cəhətlərdən biri də odur ki, o, Səfəvi ölkəsinə birinci (1664-1667) və ikinci səfəri vaxtı

(1671-1674) uzun müddət İsfahanda yaşamışdır. Şardenin Səyahətnaməsini İran tarixçilərindən Məhəmməd Abbasi fars dilinə tərcümə etmiş və Tehranda 10 clddə h. 1335-1336-cı ildə çap etdirmişdir İran tarixçilərindən Eqbal Yəğmai də Şardenin Səyahətnaməsini farscaya tərcümə etmişdir. Onun tərcüməsi beş kitabdan ibarətdir. H. 1372-1375-ci illərdə Tehranda çap olunmuşdur. Dissertasiya işində əsasən mənbənin İran çaplarından istifadə olunmuşdur. Ancaq nəzərə almaq lazımdır ki, Avropa səyyahlarının Səfəvilər dövləti haqqında verdikləri məlumatlar bir qədər tendensiyalıdır və onların dəyəri də eyni deyildir. Bu səyyahların çoxu Azərbaycan və İran xalqlarını bir-birindən seçə bilməmiş, onların hamısını İranlı adlandırırmışlar. Eyni adət-ənənə, məişət və mədəni səviyyəni Səfəvi imperiyası ərazisində məskunlaşan xalqların, demək olar ki, hamısına aid edirlər. Əlbəttə, deyilənlər Qərbi Avropa səyyahlarının verdikləri materialların dəyərini azaltmır, bu materialları təhlil etmədən XVII əsrdə Azərbaycanın sosial-iqtisadi və mədəni həyatını öyrənmək bir qədər çətindir. Dövrün Qərb ədəbiyyatlarında subyektivlik, mövcud hüquq normalarının formal cəhətlərini əhatə edən səthilik də nəzərə çarpır. Elə buna görə də J.Şardenin, E.Kempfer, Sansonun, həmçinin digər səyyahların əsərlərinə ciddi, tənqidi yanaşmaq tələb olunur.

Azərbaycan Səfəvi dövlətinin şəhərləri, sənətkarlıq, ticarət, ictimai münasibətlər, əkinçilik, mənəvi mədəniyyət və dövlət quruluşu barədə dəyərli məlumatlar vermiş avropalı səyyahlardan biri də Yan Streysdir. Hollandiya dənizçisi Yan Streys 1668-ci ildə Moskvaya gəlib Xəzər dənizindəki Rusiya hərbi-dəniz donanmasında hərbi qulluğa girmişdi. O, Xəzər dənizində xidmət işi zamanı əsir götürülmüş və kölə

kimi Dərbənddə, Şamaxıda yaşamışdır. Azadlığa çıxdıqdan sonra Şamaxı-Ərdəbil-Qəzvin-İsfahan yolu ilə vətəninə qayıdan Yan Streys burada "Ecazkar, olduqca başıbəlalı səyahətlər" adlı kitab yazmışdır. Bu kitabda Azərbaycandan keçən karvan yolları, karvansaraylar, pirlər, Dərbənd, Niyazabad, Beşbarmaq, Şamaxı, Cavad, Ərdəbil, Zəncan, Qəzvin, Sultaniyyə şəhərləri, Səfəvilər dövləti ərazisində məskunlaşan müxtəlif tayfa və etnik qruplar, Kür ilə Araz arası ərazidə yaşayan əhali, onların məşğuliyyəti, xüsusilə əkinçilik, maldarlıq və müxtəlif peşə sahələri barədə son dərəcə dəyərli məlumatlar verir. Bununla belə, deyildiyi kimi, səyyahların məlumatlarını dövrün digər qaynaqları ilə müqayisə etmədən düzgün nəticəyə gəlmək mümkün deyil. XVII əsrdə Avropa tacirləri, səyyahları, katolik missionerlərin fasiləsiz olaraq Səfəvilər dövlətinə axını Azərbaycan haqqında eşitdiklərini, gördüklərini qələmə almaları, onları öz gündəliklərində, yol qeydlərində təsvir etmələri, heç şübhəsiz tədqiqata cəlb olunmalıdır. Bu qəbildən olan qaynaqlar Azərbaycan tarixinin orta çağlarını öyrənmək baxımından xüsusi əhəmiyyətə malikdir. Bu mənada Holland səyyahı Yan Streysin yol qeydlərinin xüsusi yeri vardır. Y.Streysin əsəri də paralellər aparmaq məqsədilə tədqiqata cəlb olunmuşdur və mənbəşünaslıq bazasını təşkil edir.

Katolik missioneri Rafael dyu Mans XVII əsrdə uzun müddət İsfahanda yaşamışdır. Onun Səfəvi dövlətinin sosial-iqtisadi həyatına, sənətkarlıq istehsalının xüsusiyyətinə dair materiallarının da mövzunun araşdırılmasında xeyli əhəmiyyəti vardır. Rafael dyu Mans Səfəvi dövlətinin bir çox şəhərlərində olmuşdur. Onun əsərində Azərbaycanın şəhər həyatı, şəhər mühiti, onun sosial-iqtisadi durumu barədə tez-

tez danışılması, istilahların düzgün seçilib işlədilməsi və onların izahı xüsusi elmi əhəmiyyət kəsb edir. O, əsərində Azərbaycan – fars tərkibli 40-dan artıq istilah işlədir, onların fransızca əlamətini göstərir, aydın, səlist izahını verir. Rafael dyu Mans Səfəvi dövlətinin şəhər əhalisinin, sənətkarlığın vəziyyəti, əhalinin üzərinə qoyulan vergi və mükəlləfiyyətlərin icrasından bəhs edir. O, Səfəvi şəhərlərini idealizə etmir, əksinə, V.V.Bartoldun sözləri ilə desək «hətta» o, Şərqə kəskin mənfi münasibətdə idi.

Monoqrafiyada Engelbert Kempfer və Sansonun səyahətnamələrindən əldə edilən materiallar dövrün digər Avropa ədəbiyyatları, yerli mənbələr, elmi tədqiqat əsərlərindəki uyğun məlumatlarla müqayisəli şəkildə təhlil edilmiş, ümumiləşdir-mələr aparılmış tarixi gerçəkliyin üzə çıxarılmasına cəhd göstərilmişdir.

# I FƏSİL
# AQRAR MÜNASİBƏTLƏR

## 1.1. Kənd təsərrüfatı

Səfəvi şahı dövlətin iqtisadi həyatını normal hala salmaq və dövlətin xəzinəsinə vəsait axınını artırmaq üçün ilk vaxtlar kəndlilərin vəziyyətini müəyyən qədər yüngülləşdirmişdi. Çünki ölkənin əhalisinin əsas məşğuliyyəti əkinçilik təsərrüfatı idi. Doğrudur, XVII əsrin birinci yarısında qonşu dövlətlərlə fasilələrlə davam etmiş sərhəd münaqişələri, daxili çəkişmələr ölkənin iqtisadi inkişafını ləngitmiş, ancaq xalqın maddi və mənəvi qüvvələrinin artmasına tamamilə mane ola bilməmişdi. Əvvəllər olduğu kimi, XVII əsrdə də kənd təsərrüfatı Səfəvi məmləkətinin iqtisadiyyatında mühüm yer tuturdu. Ə.Ə. Rəhmaninin yazdığı kimi, XVII əsrdə Azərbaycanda Yaxın və Orta Şərqə məlum olan kənd təsərrüfatı bitkilərinin bütün növləri becərilirdi.

Bir çox Şərq ölkələrində olduğu kimi, Səfəvi dövlətində illik yağıntı az olduğuna görə əkinçilik təsərrüfatında suni suvarma əsas yer tuturdu. Səfəvi məmləkətinin ayrı-ayrı bölgələrinin coğrafi və təbii şəraitdən asılı olaraq təkcə torpaq deyil, həm də su ehtiyatları və suvarma şəbəkəsi də sahibkarın mülkiyyəti idi. Bu dövrdə əkinçilik təsərrüfatı çaylardan su arxlarının çəkilməsi, yeraltı su ehtiyatlarının müxtəlif yollarla üzə çıxarılması yolu ilə inkişaf etdirilirdi. Eyni zamanda çaylardan aralı yerləşən bölgələrdə su quyularından, dağlarda isə çaylardan, bulaqlardan istifadə olunurdu. XVI əsrdə olduğu kimi, XVII əsrdə də Səfəvi məmləkətində suvarmanın dörd əsas növü vardı. Arəs (kiçik çay), çay (kanal və eh-

tiyat su anbarları) yerüstü, kəhriz və quyu isə yeraltı suvarma növü idi.

Azərbaycanda qədimdən şəhər və kəndlərin su ilə təchiz olunmasında kəhrizlərdən daha çox istifadə edilirdi. Arxeoloji tədqiqatlardan və mənbələrin verdiyi məlumatlardan aydın olur ki, yaşayış məntəqələrinə 20 verstdən (1 verst=1,06 km.-İ.Ş) çox aralı dağlardan, yeraltı kəhrizlər vasitəsilə su gətirilmiş və ondan istifadə edilmişdir. Yağıntı yağması Sansonun gündəliyində Səfəvi məmləkətində suni suvarma sisteminin ümumi vəziyyəti və bəzi hallarda dövlət məmurlarının şəxsi maraqlarına uyğun olaraq yeni su arxlarının çəkilməsinə mane olmaları haqqında maraqlı məlumatlar verilmişdir. Sanson yazır ki, I Şah Abbas (1587-1629) dövründə İsfahan ətrafında bağlar salınmış, çoxlu ağaclar əkilmişdi. Səyyah sözünə davam edərək yazır ki, başlanğıcını dağlardakı bulaqlardan götürən Zayəndərud çayı üzüaşağı sürətlə axır və yatağı çox enli olub, bəzən aşıb-daşır, yatağından çıxırdı. Çaydan çoxlu arxlar çəkilmişdi ki, bu arxlardan İsfahan ətrafında tarlalar suvarılırdı. Ancaq Zayəndərud çayının suyu İsfahan ətrafındakı geniş ərazinin suvarılması üçün kifayət deyildi. Elə buna görə də II Şah Abbas İsfahandan təqribən 10-12 fərsəh (1 fərsəh=6-7km.-İ.Ş) aralı üst tərəfində çox böyük çay olan Kuhrəngdən Zayəndəruda kanal çəkdirib onları birləşdirməyi qərara alır. Şahın göstərişi ilə Fransalı mühəndis Lene bu iki çayı birləşdirmək üçün işə başlayır. Bu iki çay arasındakı kiçik dağı yarıb kanal çəkmək üçün mina lazımdı. Ancaq bu zaman baş vəzir olan Şeyx Əli xan bu işin həyata keçməsinə mane olur. Ona görə ki, bu layihə baş tutsa, Zayəndərudun suyu artacaq və İsfahan ətrafındakı geniş ərazilərdən çoxlu məhsul əldə edilməsi mümkün olacaqdı. Bu za-

man Şeyx Əli xan Kirman və Həmədan ətrafındakı tarlalarından götürdüyü taxılı İsfahan bazarında istədiyi qiymətə sata bilməyəcəkdi. Hakimiyyətdə kifayət qədər nüfuzu olan Şeyx Əli xan həddindən artıq tamahkar olub, şəxsi mənfəətini dövlətin maraqlarından üstün tutaraq Şahı inandırdı ki, Kuhrəngin suyu çirkli və zərərli olub, İsfahan əhalisini içməli su ilə təmin edən Zayəndərudun suyunu xarab edəcəkdir. Bir çox dövlət böyükləri, əmirlər də şəxsi maraqlarına görə Şeyx Əli xanın fikirini təsdiq etdilər. Nəticədə bu layihənin reallaşmasına mane oldular.

Azərbaycanda şəhərlərin, kəndlərin, əkinçilik təsərrüfatının su qaynaqları məşhur Osmanlı səyyahı Evliya Çələbinin də diqqətini özünə cəlb etmişdi və onun "Səyahətnamə"sində bu barədə ətraflı məlumatlara təsadüf edilir. Səyyah Təbriz və onun ətraf bölgəsinin su təchizatına xüsusi diqqət yetirmişdir. Onun yazdığına görə, şəhərdə 6 çeşmə, 7000 su quyusu, şəhərin daxili və ətrafında isə 100 kəhriz, yeraltı su arxları vardı. Bulaq və axar sular mənbəyini Səhənd dağından götürürdü. Su quyularının dərinliyi 30-40 qulac (1 qulac=1m. 50 sm.) olub, suyu qışda normal, yazda isə soyuq olurdu. Səyyahın yazdıqlarından məlum olur ki, kəhriz suyu quyu suyundan daha tamlı, yəni keyfiyyətli idi. Sansona görə Səfəvi məmləkəti əsasən dağlıq ölkə olub, onun münbit və qeyri-münbit düzənliklərindəki təsərrüfatlar arxlarla suvarılırdı. Engelbert Kempfer isə yazırdı ki, Səfəvi ölkəsində başlanğıcını dağlardan götürən çayların qarşısında məharətlə su bəndləri qurulur, xüsusi bacarıqla çayların suyu arxlara bölünüb bir kənddən o biri kəndə aparılır və tarlalar suvarılır.

Ancaq onu da göstərmək lazımdır ki, XVII əsrin 20-30-cu illərində baş vermiş Osmanlı-Səfəvi savaşlarının Səfəvi döv-

lətinin şimal-qərb bölgələrində suni suvarma sisteminə də ciddi zərbəsi dəymiş, bir çox kəhrizlər, su arxları dağıdılmışdı. Tavernyenin əsərində bu barədə ətraflı məlumatlara təsadüf edilir. O, yazır: «Burada çoxlu kəhrizlər və su quyuları vardır. Əkin yerlərini həmin kəhrizlər vasitəsilə suvarırlar. Lakin aramsız müharibələr nəticəsində kəhrizlərin sayı xeyli azalmışdır. Azərbaycanın maliyyə naziri Mirzə İbrahim ilə söhbət vaxtı mənə bildirdi ki, «indi ölkədə əkinçilik çox tənəzzül etmiş, məhsuldarlıq xeyli azalmışdır. 80 ildən bəri baş vermiş hadisələr və baxımsızlıqdan təkcə Təbriz və onun ətrafında 400 kəhriz məhv olmuşdur. Həm müharibə, həm də baxımsızlıq üzündən bu kəhrizlərdən istifadə edilmir. Bu Səfəvilər ölkəsi üçün çox zərərlidir. Çünki burada kəhrizlərlə əkinləri suvarmadan heç nə bitirmək mümkün deyil. Bağları öküz qoşulmuş çarxı fırlatmaqla quyulardan çıxarılan su ilə suvarırlar. Lakin ağaclar üçün daha çox axar su sərfəlidir. Axar su quyu suyundan isti olmaqla yanaşı, həm də ağaclara və torpağa çox qida verir. Dağlarda yağış suyundan qidalanan ağacların meyvəsi dadlı olmaqla, həm də bağ meyvələrindən davamlı olur». Engelbert Kempfer yazır ki, çayların yataqlarından çox uzaq olan kəndlərdə quyular qazılır, bağlar, tarlalar bu quyuların suyu ilə suvarılırdı.

Səfəvi məmləkətinin şimal-qərb və cənub-şərq sərhədlərində müxtəlif vaxtlarda qonşu dövlətlərlə baş vermiş savaşların, o cümlədən bir çox təbii hadisələrin ölkənin iqtisadiyyatına göstərdiyi mənfi təsirlərə baxmayaraq, onun təsərrüfat həyatında əkinçilik təsərrüfatı xüsusi əhəmiyyət kəsb edirdi. Ancaq suvarma sistemləri dağıldıqda, işçi qüvvəsində çatışmazlıq olduqda bütün bunlar əkinçilik işini pozur və təsərrüfatda məhsuldarlığı azaldırdı. A.Oleari yazır ki, torpağı ək-

mək üçün yerli əhali xışdan istifadə edir. Torpağın bərk və sulu olduğu yerlərdə, məsələn, İrəvanda istifadə olunan xışlar o qədər nəhəngdir ki, onları idarə etmək üçün dörd nəfərdən çox adam tələb olunur. Xışlara 12-dən 24-ə qədər öküz qoşulur və bunlarla dərinliyi bir, eni iki fut (30, 479 sm.) olan şırımlar açılır. Bu da, öz növbəsində burada bütün Yaxın Şərqdə məşhur olan buğdanın yetişdirilməsinə və məhsuldarlığın artırılmasına şərait yaradırdı. Osmanlı səyyahı Evliya Çələbi Təbriz və onun ətrafında əkin sahələri -tarlalar barədə məlumat verir və burada iri dənəli 7 buğda növü, paxla və arpa yetişdirildiyini qeyd edir. Görünür, Təbriz ətrafında taxılın yetişdirilməsi, onun iqtisadiyyatında mühüm rol oynamışdır. Bu da Təbrizin əhalisinin çoxluğu və çörəyə olan tələbi ilə əlaqədar idi. 1664-cü ildə Azərbaycana gələn fransız səyyahı J.B.Tavernye də Təbriz ətrafında geniş taxıl tarlalarının olduğunu qeyd edir. "Azərbaycan dağlarında yetişdirilən taxıl məhsulunun bolluğu" J.B.Tavernyenin diqqətini cəlb etmişdi. Görünür, J.B.Tavernye "dağlarda yetişdirilən bol taxıl məhsulu" deyəndə dağətəyi ərazilərdə dəmyə və ya süni suvarma yolu ilə yetişdirilən taxılı nəzərdə tutur. Azərbaycanda bol taxıl istehsalı tədqiq etdiyimiz digər mənbədə də öz əksini tapmışdır. Belə ki, Y.Streys yazır ki, Ərdəbil dağlarının ətəkləri isti olub burada münbit zəmilərdə bol buğda yetişdirilir ki, bu da çox ucuzdur. O, əlavə edir ki, bu buğdadan son dərəcə keyfiyyətli, süd kimi ağ çörək bişirirlər. Bir steyverə dörd girvənkə (1 girvənkə=420 qr.) çörək almaq olar. Dənli bitkilərin və xüsusilə də buğdanın keyfiyyəti torpaq və sudan asılı idi ki, bu məsələ Tavernyenin də diqqətindən kənarda qalmamışdır. O, yazır ki dəmyə əkilən buğdanı uzun müddət saxlamaq olur, ancaq suvarılmış tor-

paqlardan əldə edilən buğda altı aydan artıq qalmır. Çox saxladıqda bu buğdaya bit düşür. Onu çox saxlamaq mümkün olmadığına görə tez üyüdüb istifadə edirlər. Dənli bitkilər nadir hallarda bir ildən artıq saxlanılırdı. Buğda və digər dənli bitki məhsulu dayaz və quru quyularda saxlanılırdı. Bu barədə İsgəndər bəy Münşi də məlumat verir.

XVII əsrin birinci yarısında Səfəvi dövlətinin şimal-qərb və cənub-şərq sərhədlərində baş vermiş müharibələr ölkənin bir çox mərkəzi iqtisadi bölgələrinə, o cümlədən İsfahana mənfi təsirləri çox olmamışdı. O cümlədən II Şah Abbas dövründə İsfahan ətrafındakı münbit torpaqlarda suni suvarma şəbəkəsi genişləndirilmişdi. Qeyd etdiyimiz bu səbəblərlə əlaqədar olaraq XVII əsrin 80-90-cı illərində ölkə miqyasındakı iqatisadi böhranın İsfahanın təsərrüfat həyatına o qədər də ciddi əks təsir göstərməmiş, taxılçılıq təsərrüfatında əmək məhsuldarlığını çox azaltmamışdı. Engelbert Kempferin icarədarlıq və vergi sistemi barədə məlumatında taxılçılığın xüsusi əhəmiyyət kəsb etməsini qeyd etməsi fikrimizin doğruluğunu təsdiq edir.

Bu dövrdə Səfəvi məmləkətinin bir sıra yerlərində çəltik yetişdirilirdi. Evliya Çələbi Gəncə və Şirvan, Marağa vilayəti ətrafında geniş çəltik zəmilərinin olması barədə məlumat vermişdi. Səyyah Gəncə haqqında yazırdı: "Bağlı-baxçalı olan bu şəhər düzənlikdə yerləşir... Əhalisinin əsas məşğuliyyəti düyü əkmək və ipək istehsal etməkdir". Sözünə davam edən səyyah Şirvanın da məhsuldar torpağında çəltik əkilib becərilməsi barədə məlumatlar verir. Marağa vilayəti ətrafında çoxlu çəltik zəmilərinin olması barədə Əylisli Zəkəriyyə şahidlik edir. 1677-ci ildə Marağada olan Əylisli Zəkəriyyə də qeyd edir ki, "burada öz keyfiyyətinə görə hind

düyüsünü arxada buraxan əla növ çəltik-düyü yetişdirilir". Engelbert Kempfer Zayəndərud çayından çəkilmiş arxlarla İsfahan ətrafında geniş çəltik zəmilərinin suvarıldığını müşahidə etmişdir.

XVII əsrin ikinci yarısında Səfəvi məmləkətində paxlalı bitkilərin əkininə də az əhəmiyyət verilmirdi. Bu cəhətdən İsfahan, Təbriz və Ərdəbil vilayətləri daha çox şöhrət tapmışdılar. Evliya Çələbiyə görə Ərdəbil bölgəsinin əkinçilik təsərrüfatında paxlalı bitkilərin becərilməsi üstünlük təşkil etmişdir. O, yazır ki, Ərdəbilin qışı çox soyuq olmasına baxmayaraq, dənli bitkilər o qədər çoxdur ki, əldə edilən məhsulun bir hissəsi gələn məhsul ilinə qədər qalır. Səyyah sözünə davam edərək bir gilə toxumdan 80 gilə dənli bitki götürülür - dedikdə sözsüz ki, paxlalı bitkini nəzərdə tutmuşdu.

Kənd təsərrüfatı istehsalında pambıq xüsusi yer tuturdu. Mənbələrdə çox pambıq əkilən yerlər arasında daha çox Naxçıvan, Qarabağ, Ərəsbar (Cənubi Azərbaycan) və Xorasanın adını çəkirlər. Evliya Çələbiyə görə Şirvan, Xoy, Gəncə, Naxçıvan tarlalarında zaği, munlayi, zəfərani, ləli, xas və bəyaz adlı 7 növ pambıq yetişdirilirdi.Təbriz və onun ətraf bölgəsində də yeddi növ pambıq məhsulu əldə edilirdi. Azərbaycanın digər bölgələrində, o cümlədən Marağa və Abşeronda da pambıqçılıq əhəmiyyətli təsərrüfat sahələrindən olmuşdur. Evliya Çələbinin yazdığına görə, Marağada, Bakı qəzalarında yaxşı pambıq əmələ gəlirdi. Engelbert Kempferin əsərində isə İsfahan ətrafında pambıq əkilib becərilməsi barədə məlumat verilmişdir.

Azərbaycan Şərqdə öz meyvəsi ilə (alma, nar, şaftalı, armud, ərik, badam, gavalı, əncir, fındıq, qoz, şabalıd və s.) həmişə şöhrət tapmışdır. Ərdəbil ətrafındakı Çənli kəndinin

meyvə bağlarının zənginliyi və bolluğu səyyahları həmişə heyran etmişdir. Bu illərdə müharibə olmayan ayrı-ayrı bölgələrdə belə meyvə bağlarına tez-tez təsadüf etmək olardı. Lakin səyyahların məlumatına görə, əsrin ortalarında Azərbaycanın bir çox vilayətləri yüksək dərəcədə inkişaf etmiş bağçılıq bölgələri hesab olunurdular. Belə ki, Evliya Çələbi Şirvanda Mərənddə, Təbrizdə meyvənin bolluğundan söz açır. O, yazır ki, Təbrizdəki "nəcəm-i xələf", "peyğəmbəri", "səbet-i meylan" armud növləri, "nəcm-i əhmədi" ərik növü, "xırda", "razeki", "mələki", "təbərzəd", "cəzirey-i məcidəddin", üzüm, armud və digər meyvə növləri çox məşhurdur.

İskəndər bəy Münşi yazır ki, Araz çayı kənarında yerləşən Dizmar ulkasının bağlarında müxtəlif növ meyvələr yetişdirilir. Buranın şirin narı, Yəzd, Əbərğu, Şahvar, Savə və Qum narından olduqca tamlı və xoşməzədir. Dizmar narı da o yerlərin narlarından üstün tutulur. Orada uzunsov giləli və dadlı üzümlər də yetişir. Burada o qədər nar yığılır ki, satmaq üçün Şirvan, Aran və Kürdüstanın bütün şəhər və qəsəbələrinə aparırlar. İskəndər bəy Münşi Ordubad və Qumda da dadlı və sulu narın becərildiyini qeyd edir, lakin Dizmarın nazikqabıq narını onlardan üstün tutur. Engelbert Kempfer İsfahan bağları haqqında ətraflı məlumat vermişdir. Onun bu məlumatlarından xüsusilə üzüm bağı barədəki qeydləri diqqəti daha çox cəlb edir. Burada təkcə üzümün bolluğundan deyil, onun yeni texniki qaydada əkilməsindən, yəni xüsusi qaydada üzüm bağı salınmasından danışılır. O yazır ki, bu bağda üzüm tənəkləri cərgə ilə əkilmiş və onların diblərinə dirəklər basdırılmışdır. Saray üzümlə həmin bağdan əldə edilən məhsulla təmin edilirdi.

E.Kempfer yazır ki, xassə ərazisindəki meyvə bağlarının barı toplanılan zaman məhsula nəğd qiymət qoyulduqdan sonra ona 15 faiz də əlavə olunurdu. Dənli bitkilərin barı yığıldıqda isə hər yüz batmana (1 batman=8 kq.) əlavə olaraq beşdə dörd mahmudi (1 mahmudi=100 dinar) nəğd alınırdı. Hər il vergilərin alınmasından bir qədər əvvəl xassə dəftərxanasında hesablamalar aparılır və alınacaq məhsulun nəğd qiymətləri müəyyən olunurdu.

XVII əsrin ortalarında dövlətin üzümçülük təsərrüfatında xeyli canlanma müşahidə olunur. E.Çələbi Şamaxı, Gəncə (Qarabağ), Təbrizi daha çox varlı üzümçülük bölgələri hesab edir. O, Şamaxıda–7, Təbrizdə-5 əla üzüm növünün yetişdirildiyini qeyd edir. XVII yüzilin 70-80-ci illərində də ölkənin bir çox regionlarında, xüsusən də İsfahan ətrafında salınmış yeni bağlar arasında Engelbert Kempfer "Ənqurstan", yəni üzüm bağı haqqında məlumat vermişdi.

Engelbert Kempferdən bir qədər əvvəl Şardenin Təbriz və onun ətraf bölgələrində xırda, razeqi, mələki, təbrəzəd kimi üzüm növlərinin yetişdirilməsi haqqındakı qeydləri də XVII əsrin 70-ci illərində üzümçülüyün ölkənin təsərrüfat həyatında əhəmiyyətli yer tutduğunu göstərir.

Səfəvi ölkəsində əhalinin əsas təsərrüfat sahəsindən biri də ipəkçilik idi. Xorasanda, Mazandaranda, Gilanda, Şirvan və Qarabağda ipəkçilik daha çox yayılmışdı. Hətta monqol zülmü Orta Şərqdə ipəkçiliyin inkişafına və digər istehsal sahələrinə ağır zərbə vursa da, yenə də onu istehsal sahəsindən çıxara bilmədi, sonralar daha geniş inkişaf tapmışdı. İ.P.Petruşevski belə hesab edir ki, XVII əsrin 70-ci illərində ipəkçilik öz inkişafının yüksək mərhələsinə çatmışdı. Əvvəlki illərdə olduğu kimi, XVII əsrdə də ipəkçilik Səfəvi dövlətinin iq-

tisadiyyatında əsas yer tuturdu. İqtisadiyyatın bu gəlirli sahəsi Avropa tacir və səyyahlarını daha çox maraqlandırırdı. Çünki Səfəvi dövlətinin ipəyi dünya şöhrəti qazanmışdı və beynəlxalq ticarətdə onun xüsusi yeri vardı. Belə ki, məhsuldar torpaqlar ölkədə təsərrüfatın başqa sahələri kimi ipəkçiliyin də inkişafına gözəl şərait yaratmışdı. Təsərrüfatın bu sahəsi digər səyyahların da diqqətini cəlb etmişdi. Səyyahlar bağçılıq və meyvəçiliklə yanaşı, ipəkqurdu (barama qurdu) bəsləmək üçün tut ağaclarının yetişdirilməsi barədə ətraflı söhbət açırlar.

Səfəvilər dövlətində ipəkçilikdən böyük gəlir götürülürdü. Adam Oleari qeyd edir ki, təsərrüfatın bu sahəsi ilə məşğul olanların çoxu, xüsusən ipəkqurdu yetişdirilən bir neçə mərəkləri olanlar daha çox mənfəət əldə edirlər.

XVII əsrin 30-cu illərində bu ölkələrdə ildə 10-20 min tay (hər tay iki kisədən ibarətdir, tay 216 funta, funt isə 409,5-ə bərabərdir. Ş.İ.) ipək istehsal olunurdu. Təkcə Gilanda 8 min tay, Şirvanda 3 min tay, Xorasanda 3 min tay, Mazandaran, Qarabağda hər birində 2 min tay ipək istehsal olunurdu. Azərbaycanda istehsal olunan ipəyin min tayı daxili ehtiyac üçün sərf edilir, qalanı isə xarici ölkələrə ixrac olunurdu. Təbriz çəkisi ilə bir batman 6 funta, Şamaxı və Qarabağ çəkisi isə 16 funta bərabər idi. Bu hesabla hər il Şirvanda 40 min batman və ya 20 min pud, Qarabağda isə 30 min batman və ya 15 min pud ipək istehsal olunurdu. Prof. S.A.Məmmədov haqlı olaraq qeyd edir ki, A.Olearinin gətirdiyi rəqəm çox ehtimal ki, şah xəzinəsinə daxil olan ipəyin miqdarıdır. Şirvan və Qarabağda daha artıq ipək istehsal olunurdu. XIX əsr məşhur alman tarixçisi V.Heyd "Levant ticarəti tarixi" adlı əsərində qeyd edir ki, XVII əsrdə Şirvandan ildə 100

min pud xam ipək ixrac olunurdu. Maraqlıdır ki, 1679-cu ildə Şirvan tacirləri xam ipəyi Rusiyadan Avropaya daşımaq üçün hökumətdən icazə istəmişlər. Onlar bu icazəni aldıqdan sonra “birinci il 48.000 pud”, sonrakı illərdə isə “48.000 puddan" çox xaricə ipək daşımışlar. Bu rəqəmlər üzrə hesablamalar göstərir ki, ildə Şirvanda 100-125 min pud xam ipək istehsal olunmuşdur.

J B. Tavernye Səfəvi dövlətinin xam ipək ixracatından danışarkən Avropa dövlətlərinin şirkətləri arasında ipək ticarətində üstünlüyü ələ keçirmək uğrunda mübarizə aparmalarından da bəhs edir. Bu mübarizədə öndə gedən hollandiyalılar Səfəvilər dövləti ilə sıx əlaqə saxladıqları vaxtda belə ildə 1000 taydan artıq ipək ələ keçirə bilmirdilər. Əlbəttə, bu rəqəm ölkədə ipək istehsalının azlığını göstərmir, sadəcə olaraq onu əldə etmək çətin idi. Ölkədə toxuculuğu inkişaf etdirmək, bu sahədə çalışan əhalinin rifahını yaxşılaşdırmaq üçün ipəyin yalnız bir qismini xaricə göndərirdilər. Bu da 200 yükdən artıq deyildi. Bundan əlavə, keçmişdə hər il Səfəvilər dövlətində toxunmuş çoxlu məxmər və tafta Avropa ölkələrinə ixrac olunurdu. Xüsusilə Azərbaycan və İran məxmərinin çox hissəsini Polşa və Moskvaya daşıyırdılar. Lakin indi onun bütün növləri çox yaxşı və ucuz qiymətlə Avropada istehsal olunurdu. Bundan əlavə, hər il xeyli xam ipək Azərbaycan və İrandan Osmanlı ölkəsinə, Moskvaya və Polşaya da göndərilirdi.

Avropa ölkələrində manufaktura sənayesinin inkişafı ilə əlaqədar olaraq Azərbaycanın xam ipəyinə tələb xeyli artmışdı. Azərbaycan və İranda istehsal olunan xam ipəyin hamısının Avropa ölkələrinə ixrac edilməsi yerli toxucuların vəziyyətini son dərəcə ağırlaşdıra bilərdi. Bu dövrdə ipəkçi-

lik və ipək parça toxuma peşəsi Azərbaycanın şəhərlərinin iqtisadi həyatında üstünlük təşkil edirdi. R.A.Məmmədov Təbriz, Ərdəbil, Şirvan, Ərəş ipək parçalarından Naxçıvan toxucularının geniş miqyasda istifadə etdiklərini göstərərək yazır: “müxtəlif parçalardan don, çuxa, arxalıq, canamaz və s. tikilirdi” .

XVII əsrin ortalarında ipəkçilik Azərbaycanın iqtisadi həyatında mühüm yer tuturdu. İpək ticarətindən şah külli miqdarda gəlir götürürdü. A.Oleari bu barədə yazır: “Mallar, xüsusən ipək böyük qazanc verir, ölkədə istehsal olunan ipəyin hər kisəsindən şah 10 reyxstaler alır. İstehsalı o qədər də çox olmayan, lakin hər halda yenə də yaxşı məhsul verən Xorasan və digər yerlər nəzərə alınmadan Gilan 8000, Mazandaran 2000, Şirvan 3000, Gürcüstan və Çuxur-Səd 3000, Qarabağ 2000 tay ipək verir”. A.Olearinin hesablamasına görə Xorasanı çıxmaq şərtilə, Azərbaycan və İranda istehsal olunan ipək 200000 reyxstaler gəlir verirdi. Ancaq XVII əsrin 90-cı illərində mərkəzi hakimiyyətin zəifləməsi, xam ipəyin keyfiyyətinin aşağı düşməsi və bir çox digər amillər kənd təsərrüfatında xam ipək istehsalının həcminin xeyli azalmasına səbəb olmuşdu.

XVII əsrin ortalarında Səfəvi dövlətinin iqtisadi həyatında pambıqçılıq da mühüm yer tuturdu. Evliya Çələbi yazır ki, Naxçıvanda, Mərənddə, Kərkənə adlı abad bir kəndin də tarlalarında yüksək keyfiyyətli pambıq becərilirdi. Səyyah Naxçıvan bölgəsində becərilən yeddi növ pambığın adını çəkmişdir. Evliya Çələbi hətta Abşeronun da təsərrüfat həyatında bir çox kənd təsərrüfat bitkiləri ilə yanaşı pambıqçılığın da əhəmiyyət kəsb etməsinə toxunur. O, yazır ki, Bakının qəzalarında çəltik və kətan əkilir. Yaxşı pambıq da əmələ gə-

lir. Ancaq Evliya Çələbidən xeyli sonra, yəni XVII əsrin 80-ci illərində Bakıda olan Engelbert Kempfer Bakı əhalisinin əkinçiliklə çox məhdud miqyasda məşğul olduğunu qeyd etmiş, ancaq ölkənin bir çox iqtisadi bölgələrində, xüsusilə İsfahanda pambıqçılığın gəlirli təsərrüfat sahəsi olduğunu yazmışdır.

XVII əsrdə kətan kənd təsərrüfatında az istehsal sahələrdən biri idi. Qaynaqlar onun Azərbaycanda yalnız Bakı ətrafında yetişdirildiyini qeyd edirlər. Evliya Çələbi Bakı qəzalarında düyü ilə yanaşı, kətan da əkildiyini qeyd etmişdi. Ancaq İ.P.Petruşevski belə hesab edir ki, XVII əsrdə Səfəvilər dövlətində pambıq əkininin sahəsinin artması ilə əlaqədar olaraq, kətan təsərrüfatdan sıxışdırılıb çıxarılır və demək olar ki, ölkənin bütün nahiyələrində pambıq tarlaları üstünlük təşkil edirdi.

Kənd təsərrüfatı istehsalında yeni texniki bitkilərdən biri də tütün idi. İ. P. Petruşevskinin fikrincə, bu texniki bitki növünün Səfəvi ölkəsində becərilməsi XVI əsrin sonu - XVII əsrin əvvəllərindən başlanmışdı. Artıq XVII əsrdə bütün ölkə miqyasında tütün əkilirdi.

Dövrün bir çox mənbələrində o cümlədən Engelbert Kempferin əsərində də Səfəvilər dövləti ərazisində becərilən bostan məhsulları haqqında da məlumat verilir. Onlardan qarpız, yemiş, xiyar, pamidor, şamama, qabaq, badımcan və s. haqqında məlumat verilir. Hələ vaxtilə Tavernye yazırdı: "Yayın əvvəllərində yetişən yemişə gərmək deyilir. O çox sadədir və su dadı verir. Lakin ölkənin həkimləri gərmək yeməyi məsləhət görürlər. Onlar deyirlər ki, insan üçün gərmək, at və digər heyvanlar üçün bahar ələfi kimidir. Bədənin ətini təzələyir. Gərməkdən sonra yetişən yemiş növü daha

çox yaxşı və dadlı olurdu. Onu yay fəslinin sonunda bazara gətirir və qışda da saxlayardılar. Təzə yemiş çıxana qədər köhnələri saxlayır və satırdılar". Bu barədə A.Oleari də geniş məlumat verir.

XVII əsrdə Səfəvi dövlətinin demək olar ki, bütün iqtisadi bölgələrində tərəvəzçilik və bostançılıq geniş yayılmışdı. İri şəhərlər adətən əkilən tarlaların əhatəsində olub, bu tarlalarda əla növ tərəvəz və bostan bitkiləri əkilib becərilirdi. Bu da şəhər əhalisinin bostan bitkilərinə olan böyük tələbi ilə əlaqədar idi. Ancaq tez korlanan və ixracı demək olar ki, mümkün olmayan tərəvəz və bostan bitkilərinin istehsalı yalnız yerli əhali üçün nəzərdə tutulurdu. Tavernye, Şarden və Engelbert Kempferin əsərlərində İsfahan, Təbriz, Şamaxı, Naxçıvan şəhərlərinin ətrafında bol tərəvəz və bostan bitkilərinin yetişdirilməsi barədə məlumat verirlər.

Azərbaycan qədimdən bütün Şərqdə heyvandarlığın ən inkişaf etdiyi ölkələrdən biri olmuşdur. XVII yüzillikdə də ölkənin iqtisadiyyatında başlıca yer tuturdu. Əvvəlki dövrlərdə olduğu kimi, XVII əsrdə də Azərbaycanda hələ əhalinin müəyyən hissəsi yaylaq-qışlaq maldarlığı ilə məşğul olurdu. Şirvan, Mil, Muğan, Qarabağ çöllərində qışlaqları, Kiçik Qafqazda, Talışda, Savalan və Qaradağda yaylaqları olan əhali əsasən heyvandarlıqla məşğul olurdu. Yaylaq-qışlaq maldarlığı ilə məşğul olan əhalidən toplanan qoşun–çərik dövlətin dayağı olduğu üçün onların imtiyazları saxlanılırdı. İ.P.Petruşevskinin yazdığı kimi, onlar otlaqdan istifadə əvəzində dövlətə ancaq "çobanbəyi" adlı vergi verirdilər. Başqa vergi və mükəlləfiyyətlərdən azad idilər. Onlara verilən bu imtiyaz heyvandarılığın inkişafında az rol oynamırdı. Digər

tərəfdən daxili və xarici tələb də bu sahənin inkişafına öz təsirini göstərdi.

İ.Petruşevski Azərbaycan türk tayfalarından yarımköçəbə həyat tərzində yaşayanların XVI əsrdə olduğu kimi, XVII əsrdə də dövlət vergilərindən azad olub, İrəvan, Naxçıvan, Urmiya, Qarabağ, Şirvanın vilayət və mahallarında geniş yaylaq-qışlaq sahibləri olduğunu etiraf edir.

Ə.Ə.Rəhmaninin tədqiqatlarından da aydın olur ki, XVII əsrdə Azərbaycan iqtisadiyyatında heyvandarlıq mühüm rol oynayırdı. Təsərrüfatın bu sahəsi yerli əhalinin, daxili bazarın tələbini ödəyir, həm də qonşu ölkələrə çoxlu müxtəlif iri və xırda buynuzlu heyvanlar satmağa imkan verirdi.

Dövrün bir sıra qaynaqlarında heyvandarlıq təsərrüfatı ilə bağlı məlumatlar iqtisadiyyatın bu mühüm sahəsinin vəziyyəti barədə aydın təsəvvür yaradır.

1631-ci ildə Çuxur-Səd hakimi Təhmasibqulu xan kürdlərə qarşı hücuma keçərkən saysız miqdarda yük heyvanı, iri və xırdabuynuzlu mal-qara ilə geri qayıtmışdı. I Şah Abbasın vəqf əmlakı haqqında bəhs edən İskəndər Münşi heç bir padşahın onu qədər müxtəlif, saysız-hesabsız cins at ilxılarına, dəvə, iri və xırda buynuzlu mal-qara sürülərinə sahib olmadığını xatırladır.

Qaynaqlardan məlum olur ki, Səfəvi şahlarının xüsusi ilxıları vardı. Bu ilxılar Azərbaycanda-Marağa, Mərənd, Qarabağ vilayətində saxlanırdı. Məhəmməd Yusif Qəzvini 1641-ci ildə I Şah Səfinin hərbi sərkərdələri arasında ilxıda sürətlə qaçan atların bölünməsi barədə məlumat verir.

Sansonun əsərində Şaha məxsus cins atlar haqqında verdiyi məlumat Səfəvi məmləkətinin heyvandarlıq təsərrüfatında atçılığın xüsusi əhəmiyyət kəsb etməsindən xəbər verir.

XVII əsr Avropa səyyahları Azərbaycanın heyvandarlıq təsərrüfatında dəvəçiliyin də xüsusi əhəmiyyət kəsb etdiyini qeyd edirlər. Azərbaycanda müxtəlif cinsli dəvələr, o cümlədən iki hörgüclü dəvələr də vardı. İki hörgüclü dəvəni "buğur" adlandırırdılar. Bir hörgüclü erkək dəvəyə isə "nər" deyilirdi. Dəvə əsas yük daşımaq vasitəsi olduğu üçün Azərbaycanda və bütün Səfəvi imperiyasında xüsusi əhəmiyyətə malik idi. Dəvə XVII əsrdə də, əvvəlki illərdə olduğu kimi "səhra gəmisi" ləqəbini şərəflə yerinə yetirirdi.

XVII əsrin son illərində Səfəvi dövlətinin iqtisadi və siyasi böhranı, yerlərdə hakimlərin vəzifə səlahiyyətlərini aşması, xarici ticarətin bir sıra amillərlə əlaqədar zəifləməsi ölkə miqyasında kənd təsərrüfatının məhsuldarlığına mənfi təsirlər göstərirdi.

## 1.2. Torpaq və vergi münasibətləri

XVII yüzildə dövlətin torpaq siyasəti-vergi sistemi, mərkəzi və yerli idarə orqanlarının təminatı ilə bağlı olub, torpaq sahibliyinin beş əsas növü vardı:

1. Dövlət torpaqları, yaxud divan və daha dəqiqi xəzinə torpağı-əraziy-i divani
2. Padşah və onun ailə üzvlərinin xüsusi əmlakı-xassə, xassey-i şərifə
3. Dini müəssisələrə vəsiyyət olunmuş torpaqlar-vəqf (dini müəssisələrin başqa əmlakları da bu adla bəllidir-ev, dükan, sənətkarlıq emalatxanası, karvansaray və s.)
4. Xüsusi sahibkar torpaqları-mülk, yaxud ərbabi
5. Kənd icmalarının mülkiyyəti (camaat-i deh)

Birinci iki kateqoriyaya daxil olan əmlak birlikdə çox böyük torpaq fondu olub dövlətə məxsus idi. Hər iki kateqoriyadan olan torpaqlara şah başçılıq edirdi. Bu iki kateqoriya arasında fərq ondan ibarət idi ki, birinci kateqoriyadan olan torpaqların gəliri qoşuna, mərkəzi və yerli dövlət aparatına xərclənirdi. Və ikinci kateqoriya torpaqların gəliri isə şahın sarayı və şah ailəsinin saxlanmasına sərf olunurdu.

I Şah Abbasın (1587-1629) həyata keçirdiyi islahatlar və onun aqrar siyasətinə uyğun olaraq torpaq sahibkarlığı kateqoriyaları arasında nisbət xeyli dəyişmişdi. Bu dəyişikliklər daha çox şah sülaləsinin xüsusi domen fondunun (xassə, xassey-i şərifey-i padişah, xalisə) görünməmiş dərəcədə və divan əmlakının isə qismən genişlənməsi ilə qabarıq şəkildə nəzərə çarpır. Bir çox mahallar və hətta əyalətlər, o cümlədən Azərbaycan və İrəvan əyalətlərində geniş əraziləri, bütün Gilan və Mazandaranı I Şah Abbas xassə əmlakına çevirmişdi. O cümlədən Azərbaycan əyalətinin Ərdəbil mahalını II Şah Abbas (1642-1666) xassə əmlakı tərkibinə daxil etmişdi. Rafael dyu Mansın sözlərinə görə təqribən 1660-cı ildə Qızılbaş dövlətində torpağın çox hissəsi şahın xüsusi mülkiyyəti, yəni mülk-i şah idi. Və ərbabi torpaqlar-xüsusən mülk olduqca az idi. Hələ I Şah Abbasın aqrar siyasətinə uyğun olaraq feodal dağınıqlığına qarşı mübarizə güclənmiş və bu prosesdə qismən uğur qazanan şah xüsusi mülklərin hesabına divan və xassə əmlakını xeyli genişləndirib möhkəmləndirə bilmişdi. Engelbert Kempferin yazdığına görə, artıq XVII əsrin 80-ci illərində Mazandaran, Gilan, İsfahan, Qəzvin, Kaşan, Yəzd, Qum, Savə, Lar, Şiraz nahiyələri və çox məşhur olmayan bir çox mahal da xassə əmlakı idi. Əvvəllər olduğu kimi bu məntəqələrin gəliri şah sarayına xərclənir,

həmçinin dövlət məmurlarına, ordu və maliyyə işçilərinə əməkhaqqı ödənildikdən sonra qalanı xəzinəyə verilirdi.

Şah həddindən çox icma torpağı-otlaq və örüş sahibi idi. Ancaq şahın və dövlətin geniş torpaq sahələri bir nəfərin əlində cəmlənməmişdi. Dövlət torpaqlarının çoxu yerli canişinlərin əlində idi ki, bu torpaqlardan götürülən gəlirin bir hissəsini onlar özlərinə götürür və yerdə qalan qismini isə məmurlara, xidmətçilərinə, yerlərdəki hərbiçilərə maaş verirdilər. Ancaq xassə torpaqlarının gəlirinin bir hissəsi birbaşa şaha verilirdi. Xassədən şaha çatası vergini Şardenin təsərrüfat müdiri adlandırdığı səlahiyyətli nümayəndələr alırdılar ( III., 1132-1233, 1346). Engelbert Kempfer bu barədə daha müfəssəl məlumat verərək yazır ki, xassə əmlakını Şahın vəzir adlanan təsərrüfat müdirləri idarə edirdi. Şahın təsərrüfat müdirləri rəhbərlik etdikləri ərazidə çox geniş iqtisadi və həm də siyasi hüquqlara sahib idilər. Onların əsas vəzifəsi dənli bitkilərin vergisini almaq və mədaxildən xərcləri müəyyən etmək və bütün bunları tozi dəftərxanasında qeydiyyatdan keçirməkdən ibarət idi.

Xassə əmlakının xeyli hissəsi isə əyanların istifadəsində idi. Çox vaxt şahın qohumlarına, yaxud yaxınlarına xidmətlərinə görə xassədən torpaqlar verirdi. Elə şahın xassə əmlakının getdikcə azalmasının əsas səbəbi bu əmlak növündən müxtəlif lenlərin (bəxişlərin) paylanması idi. Şahlar tərəfindən lenlər verilməsi bu dövrdə çox geniş yayılmışdır. Səlcuqlardan başlayaraq Qaraqoyunlu və Ağqoyunlu sülalə hökmdarları da xidmət müqabilində lenlər verilməsi təcrübəsinə dayanaraq dövlətin sosial-iqtisadi dayaqlarının möhkəmləndirilməsi siyasətini geniş şəkildə həyata keçirmişdilər. Engelbert Kempfer xassə torpaqlarının bu ərazilərdə

məskun olan kəndlilərə icarəyə verilməsi qaydaları barədə yazır ki, bu torpaqların icarəsi bəlkə də adi bir qayda olmayıb, əkib-becərmək üçün ömürlük dehqanlara (kındlilərə) verilirdi. Onlar isə bunun qarşılığında hər il əldə etdikləri məhsulun bir hissəsini Şaha verir və yerdə qalanını isə zəhmətlərinin haqqı olaraq özləri götürürdülər. Mənim fikrimcə, bu cür ömürlük icarə fəndgirlik olub, dehqanları daha çox işləməyə məcbur edirdi. Çünki onlar bilirdilər ki, nə qədər çox işləsələr, o qədər də qazancları çox olar.

Xassə əmlakına daxil olan bəzi bölgələrdə becərilən buğda və arpa məhsullarının 1/3-i kəndliyə, 2/3 hissəsi şah ailəsinə çatırdı. Xassə əmlakının bir xüsusiyyəti də vardır ki, şah toxum verir və arxlar qazıb, su aparılmasına icazə verirdi. Şah, təsərrüfatları kömək məqsədi ilə işçi qüvvəsi ilə təmin etdikdə isə əldə edilən məhsulun səkkizdə biri kəndliyə verilirdi. Kəndli ona heç bir köməkçi verilmədən düyü, darı, pambıq, yonca, qarpız, yemiş, lumu yetişdirdikdə məhsulun beşdə iki hissəsi kəndliyə, beşdə üç hissəsi şaha çatırdı. E. Kempfer yazırdı ki, bu bölgü ədalətlidir, çünki düyü və s. bitkilərin əkini ağır zəhmət tələb edir, baha da satılır, gəliri az olan məhsulun becərilməsi isə az zəhmət tələb edir, baha da satılmır. Lakin tiryək hazırlamaq üçün xaşxaş əkildikdə 55 faizi muzd kimi əkinçiyə verilir. Qalanı, yəni 45 faizi şaha çatırdı. Məhsul bəhrəsi torpağın vəziyyətindən asılı olaraq nəğd, yaxud məhsulla alınırdı.

E.Kempfer İsfahan ətrafında kəndlilərin əldə edilən məhsulda payı haqqında daha dəqiq məlumat verir. Əgər şah toxum, su verir və kəndlinin şəxsi əməyi ilə yanaşı, iş öküzü, gübrə də ona aid olursa və o, əlavə köməkçi də gətirirsə, onda kəndli məhsulun 1/3-i deyil, 2/3 hissəsini götürüdü. Əgər

şah öküzü, əmək alətini və əlavə olaraq divandan başqa xidməti köməkliyi də edirdisə, onda kəndlinin payı ¼-ə düşürdü, yəni azalırdı. Əgər şah işçi qüvvəsi də versə, onda kəndliyə məhsulun 1/8-i çatırdı. Əgər düyü, buğda, pambıq, paxla, yemiş və balqabağı kəndli şəxsən özü əkib becərirdisə, məhsulun üçdə iki hissəsini götürürdü. Tiryəkdə isə kəndliyə 55/100-i verilirdi. Qovuna gəldikdə kəndlinin payı natura ilə deyil, mövcud bazar qiymətinə uyğun və 15 faiz əlavə ilə ödənilirdi. Taxıl natura ilə hər manına (3,6 kq.) ½ mahmudi əlavə olunmaqla verilirdi.

Bütün bunlar göstərir ki, dövlət və xassə torpaqlarının gəlirinin iqtisadi cəhətdən mənimsənilməsində yardarlıq-paydarlıq sistemi mövcud olmuşdur.

Qeyd olunan qaydalar ölkənin bir çox nahiyələri və xüsusilə də İsfahana aid idi. Ölkənin digər nahiyələrində əski (əvvəlki) qanun-qaydalar əsasən olduğu kimi qalırdı. Belə ki, torpağın münbitliyi nəzərə alınaraq əvvəllər olduğu kimi bəhrə pul və natura ilə alınırdı. Bəzi yerlərdə bəhrənin ödənilməsi rəiyyət üçün o qədər də çətin deyildi. Ancaq bir çox nahiyələrdə torpağın keyfiyyətinin təxmini dəyərləndirilməsində məmurların tamahkarlığı bəhrənin ödənilməsini çox çətinləşdirirdi.

E.Kempfer daha sonra yazırdı ki, yazda və yayda bağ və bostan bitkilərinin əkinçilər əkib becərdikdə xassə dəftərxanasında məhsulun miqdarından asılı olmayaraq bəhrənin natura ilə alınması bəyənilmirdi. Şahın payına düşən məhsulun qiyməti bir qayda olaraq 15/100 qədər artılırdı. Ancaq taxılın bəhrəsi qəbul olunmuş qaydada alınsa da, hər yüz batmanın (8 kq.) məbləği 4/5 mahmudi, yaxud bir gümüş dinar artılırdı.

İş bununla sona çatmırdı. Əlavə olaraq dənli bitki və göyərti də alınırdı ki, bu bəhrənin 2%-i olub, nəğd ödənilməli idi.

Vəqf dini məqsədlər və xeyirxah işlər üçün ayrılmış və bilavasitə dini müəssisələrlə bağlı əmlak növü olub, onun alqı-satqısı şəriətlə qadağan idi. Eyni zamanda alqı-satqısı və bağışlanması qadağan olan bu əmlak dövlət vergilərindən də azad idi. Vəqf yerləri və ona aid olan başqa əmlak növləri, yəni kəhrizlər, dükanlar, rastabazarlar vəqfi-xeyriyyə, vəqfi-əhli adı ilə iki yerə bölünürdü. Bunlardan birincisi dini idarələrə və digəri isə seyidlərə, dərviş şeyxlərinə və başqalarına aid idi.

Məlum olduğu kimi, vəqfi xeyriyyə-vəqfi am və vəqfi əhli isə vəqfi xas adı ilə də mövcud olmuşdur. Vəqf olunmuş əmlakın gəliri məscidlər, məktəblər, mədrəsələr, xəstəxanalar, yoxsullar, kasıb tələbələr, sahibsiz yetimlər üçün xərclənməsi nəzərdə tutulduqda ona "vəqfi am" deyilirdi. Vəqf olunmuş əmlakın gəliri yuxarıda qeyd olunduğu kimi seyidlər, şeyxlərlə yanaşı, xüsusi adamlara-qohum-əqrabaya, övlada, qardaşa verildikdə ona vəqfi xas deyilirdi. Əslində vəqfi övlad /övlada vəsiyyət olunmuş/, vəqfi boqae mütəbərrikə /Məşhəd, Qum və s. Müqəddəs büqlər/ istilahları xas qəbilindəndir. Vəqflər öz idarəolunma strukturlarına görə də ovqafe təfvizi və ovqafe şəri adı ilə iki yerə bölünürlər.

Vəqf əmlakının idarə olunması və onun strukturu ilə bağlı məsələlərə Engelbert Kempferin əsərində də müəyyən məlumatlara təsadüf edilir. Belə ki, vəqflərin idarə strukturunda mustoufilərin, vəzirlərin, mütəvəllilərin xədəmə və əmələlərin olduqları qeyd edilmişdir. Vəqflərin mustoufisi bu təsərrüfatın gəlirinin hesaba alınması və onun moqufat dəftərində qeyd edilməsi işlərinə baxırdı. Xədəmə, yəni xadimlər də xidməti işlərlə məşğul olurdular. Daha doğrusu, ibadətə gə-

lənlərə təsbeh, möhür və sairə verir, onların xidmətində dayanırdılar. Vəqf əmlakı idarələrində fiziki işlərlə isə əmələlər məşğul olurdular. Təfvizi vəqflər birbaşa şaha tabe olmaqla, vəqfi boqaye motobərrikeyeyə bilavasitə o nəzarət edirdi. Ancaq vəqfi şəriləri şəriət qaydaları üzrə tərtib olunmuş vəqfnamələr əsasında mütəvəlli adı ilə məlum olan məmurlar idarə edirdilər. Əmlakını övladına vəqf edən şəxs də mütəvəllilik vəzifəsini özündə saxlayır, ya da övladlarına, yaxud yaxın adamlarından birinə həvalə edirdi. Ancaq əmlakının hamısını, yaxud bir qismini hər hansı bir vəqfə vəsiyyətlə verən şəxs isə bir qayda olaraq vəqfin idarə işlərinə qarışmamaqla yalnız gəlirdən pay götürmək hüququnu özündə saxlayırdı. Əmlakını bir qrup adama vəqf edən sahibkar isə həmin vəqfin mütəvəllisi ola bilərdi.

Mirzə Səmia yazırdı ki, ayrı-ayrı şəxslər tərəfindən verilmiş vəqf əmlakına qulluqçuların təyin olunması, yaxud işdən azad edilməsi sədr xassə və sədr ammənin (ali ruhani idarəsinin başçıları) səlahiyyətlərinə aiddir. Əgər vəqf əmlakı şəri olsa, sədrlərin və şəri hakimlərdən heç kimin onun işinə qarışmağa hüququ yoxdur. Belə ki, şəriət üzrə (əmlakını) vəqf edən şəxs kimi mütəvəlli-ixtiyar sahibi müəyyən etmişsə, onu dəyişdirmək müqəddəs peyğəmbərin şəriətinə ziddir.

Səfəvilər dövründə vəqf əmlakı xüsusi əhəmiyyət kəsb etməklə ölkənin torpaq fondunun xeyli hissəsi onlara məxsus idi. İsgəndər bəy Türkman yazır ki, 1606-cı ildə I Şah Abbas bütün əmlakını vəqflərə vermişdir. Əslində mütəvəllilik vəzifəsi I Şah Abbas və onun gələcəkdə şahlığa keçəcək övladlarına aid olması şərtilə bütün mülkləri vəqf olunmuşdu. Şeyx Bahəddin tərəfindən bu barədə yazılmış vəqfnamədə göstərilirdi ki, vəqf yerlərinin bütün gəliri mütəvəllinin, yəni

I Şah Abbasın sərəncamına verilməlidir. Mütəvəlli isə öz tovliyyat haqqını (1/10) götürdükdən sonra qalan vəsaiti vaxtın məsləhəti və zamanın tələbinə uyğun olaraq istədiyi yerə xərcləməlidir. Əslində burada şəri vəqflər yox, bilavasitə övlada vəsiyyət olunan və mütəvəllilik statusunun vəqf edən şəxsin özünə aid olduğu təfvizi vəqf nəzərdə tutulur. Göründüyü kimi, vəqfnamə əsasında şah idarə edəcəyi təfvizi vəqfdən gəlirinin 1/10 hissəsini özünə götürməli, qalanını isə dövlət və başqa ümumi işlər üçün sərf etməli idi. Şahın bu təşəbbüsünə yüksək qiymət verən İsgəndər bəy sözünə davam edərək yazır ki, o, dəfələrlə deyərdi ki, mənim bütün sərvət və əmlakım, hətta barmağımdakı iki üzük də vəqfdir. Lakin bu şərtlə ki, onlar mütəvəlli olan şahın xeyirxah rəyi əsasında din və dövlət yolunda sərf edilsin.

XVII yüzildə dini müəssisələrin vəqfləri müxtəlif əmlak növləri və xüsusilə müxtəlif yollarla onlara verilən torpaqlar hesabına daha da böyüyürdü. Bu dövrdə, yəni XVII yüzilliyin əvvəllərində Ərdəbilin böyük məscidinin vəqf əmlakına təkcə yardarlar tərəfindən becərilən 650 “kotan sahəsi” /4-5 min hektar suvarılıb becərilən/ torpaq daxil idi. Məlum olduğu kimi, “kotan sahəsi” bir gün ərzində iki öküz qoşulmuş kotanla becərilən ərazi olub bu bir istilah kimi XVI-XVII yüzillərdə Azərbaycanda daha çox istifadə olunurdu. Ömər Lütfi Barkanın əsərində bir cüt ilə, yəni iki öküzlə şumlanıb-becərilən sahələrin ölçüləri verilmişdir. Onun qeyd etdiklərindən məlum olur ki, o qədər də münbit olmayan torpaqların yüz dönümünə, suvarılan sahələrin isə 80 dönümünə bir cütlük deyilirmiş. Hər bir dönümün eni və uzunluğu 40 adi addım imiş.

Mülk əmlak növünün məhdud kateqoriyası olub, məmləkətin torpaq fondunun az hissəsini əhatə edirdi. Mülk, ərbabi və xurdemalek xüsusi mülkiyyət institutları idi. Şardenə görə şahın 99 il müddətinə icarəyə verilən torpaqlarına ərbabi deyilirdi. Göründüyü kimi, müqavilə əsasında istifadə müddəti uzun olduğuna görə mahiyyət etibarilə mülkədar sahibkar kimi çıxış edirdi. Əlahiddə torpaq sahəsi olan mülk irsi olub, xüsusi sahibkarlıq növü kimi dövlət xidməti ilə bağlı deyildi. Mülk başqa feodal torpaq sahibliyi növlərindən öz xüsusiyyətləri ilə fərqlənirdi. Onu almaq, satmaq və irsən vermək olardı. Və həm də mülk dövlət qarşısında müəyyən bir xidməti qulluğun yerinə yetirilməsi ilə bağlı deyildi. Bu dövrdə mülk istilahının əsas mənalarından biri onun xüsusi əmlak olmasıdır. Ancaq nəzəri cəhətdən ölkənin bütün torpaq fondunun ali sahibkarı dövlət və şah olmaqla bu fonda dair sərəncam vermək hüququ da onlara aid idi. Qızılbaş hakimiyyəti dövründə mülk həmişə eyni mənanı ifadə etmir. XVI-XVII yüzillərdə bir çox yerli oturaq feodal əyanları sabiq mülklərində irsi sahibkarlıq və irsi idarə statuslarını saxlamaqla faktiki olaraq əmlaklarını kiçik "hökmdar" hüququ ilə idarə edirdilər. Engelbert Kempfer bu cür mülklərin xassədən fərqləndiyini qeyd edərək yazır ki, onlar maaf olub vergilərdən azad idilər. İ.P.Petruşevski də qeyd edir ki, "mülk" istilahı daha çox bütöv knyazlıqları göstərməklə, bu və digər sülalələr bu knyazlıqları xüsusi irsi əmlakları hesab edirdilər. Şərəf xan Bidlisi şah tərəfindən onlara idarə üçün irsi verilmiş mahalı xüsusi əmlak hesab edərək və bəzən onu "ocaq", "ocaqlıq" kimi türk istilahları ilə adlandırır. Belə bölgələrə sahib olan sülalələr bura şəxsi mülkləri kimi baxırdılar. Ancaq bu mülklər əsas mülkdən mahiyyətinə görə fərqlənir.

Əslində bu mülklərin sahibləri idarə etdikləri mülklərdən şahın məmurları olmaqla tabeliklərində olan əhalidən yığdıqları verginin bir qismini dövlətə verirdilər. Engelbert Kempferin yazdıqlarından belə məlum olur ki, bu cür mülklər maliyyə məsələlərinə xassə mustoufisi qarışır və o, bir qayda olaraq onlardan daha çox vergi alınmasına cəhd edirdi. Faktiki onlar vassal hakimlər olub, sahibkarlıq hüququ ilə idarə etdikləri mülkləri müqabilində ilk çağırış zamanı qoşunları ilə şahın xidmətində olmalı idilər. Bu cür mülklərə qeyri-şərti və dövlətə xidməti qulluqla bağlı olmayan əmlak növü kimi baxmaq olmaz. Şah ehtiram əlaməti olaraq bəzi senyor mülklərinə vergi immunineti hüququ verirdi. Axırıncı halda bu mülklər faktiki olaraq soyurqaldan heç nə ilə fərqlənmirdi. Dövrün mənbələrində bu qəbildən olan mülklərin satılması haqqında məlumatlar da yoxdur.

Bir və ya bir neçə kəndin irsi torpaq sahibkarı /malik, yaxud mülkədar/ senyor-hakim deyil, adi mülkədardır. Belə ki, bütöv knyazlıq necə ki, mülk adlandığı kimi ayrı-ayrı kəndlər üçün də "irsi mülk" ifadəsi qəbul olunur. Ancaq bu mülklər knyazlıqlardan tamamilə fərqlidir. Belə ki, əvvəl qeyd olunduğu kimi, şərtsiz əmlak növü olub dövlətə xidməti qulluqla bağlı deyildilər. Belə mülklərin sahiblərinin hüquqları ayrı-ayrı kənd icmalarının istifadəsində olan, həm də torpaqsız, yaxud aztorpaqlı kəndlilərin yardarlıq şərti ilə icarə götürdükləri torpaq sahəsini və becərilən təsərrüfatları əhatə etdiyindən həmin kəndlilər sahibkara renta ödəməli idilər. Belə ki, mülk sahibləri bir qayda olaraq bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalı proseslərinə qarışmırdılar. Və ancaq rəiyyətdən aldıqları məhsul rentası və onların yerinə ye-

tirdikləri biyar mükəlləfiyyəti hesabına təmin olurdular. Bu qəbildən olan mülklər sərbəst alınıb satılırdı.

Mülk malikin yalnız torpaq deyil, özünün çəkdirdiyi suvarma arxı və həm də onun malikanəsinin ərazisindən keçən ancaq başqasına məxsus su arxı üzərində də sahibkarlıq hüququnu əks etdirir. Kəndlilər bu cür kanallardan istifadə müqabilində onun sahibinə vergi ödəməli idilər. Əgər malikin çəkdirdiyi suvarma arxı başqasının ərazisindən keçərdisə, hər iki tərəfin varisləri bu arx üzərində sahibkarlıq hüququnu bölməklə ondan birlikdə istifadə edirdilər. Sahibkar malikanəsi ərazisindəki kənd icması üzvü olan kəndlinin icma əmlakına aid olmayan bağ, arıxana və emalatxanaları mövcud idi. Bu tərpənməz əmlak növlərinin gəlirindən kəndlilər malikə müəyyən vergi ödəyirdilər. Bu tərpənməz əmlak növlərinin sərbəst alqı-satqısına malikin mane olmaq hüququ yoxdur. Ancaq həmin əmlakı alan şəxs onun əvvəlki sahibi kimi gəlirdən malikə yenə də vergi verməli idi.

Soyurqal institutu /"soyurqal" moğol istilahı olub XIII-XIV əsrlərdə hədiyyə, bəxşiş mənasını ifadə edirdi/ XIV yüzilin sonu XV yüzildə hərbi len sisteminin çiçəkləndiyi dövrdə formalaşaraq irsi sahibkarlığın forması olan iqta institutunun davamı, inkişaf etmiş forması olub Orta Asiya, İran və Azərbaycanda feodalizmin inkişafında görkəmli yer tutur. Soyurqal da iqta kimi irsi olaraq nəsildən-nəslə keçən mülk idi. Lakin soyurqal sahibi padşahın hərbi və mülki işlərində xidmət etməli idi. İqta kimi soyurqal sahiblərinə də maaf, yəni vergi imtiyazları verilirdi. Soyurqal ərazisində sakin olan rəiyyətlərin xəzinəyə ödədikləri vergilərin toplanması hüquqi soyurqal sahibinə verilirdi. Soyurqal iqtaya nisbətən daha geniş ərazini özündə birləşdirirdi. Soyurqal sahibi vergi

immunineti hüququ ilə yanaşı, ona verilmiş ərazidə inzibati məhkəmə səlahiyyətlərinə malik idi. Soyurqal ərazisində sakin olan rəiyyətlərlə bərabər mənsəb sahibləri də ona tabe idilər. Mərkəzi idarə məmurlarının soyurqalın işlərinə müdaxilə etməsinə icazə verilmirdi.

Ancaq soyurqal torpaq sahibliyi institutunun güclənməsi dövlətin daxili iqtisadi siyasəti və əmlak sahibliyi növləri üzərində hakimiyyəti möhkəmləndirməsi tədbirlərinin həyata keçirilməsi ilə uzlaşmırdı. V. Minorski yazır ki, soyurqal verilmiş nahiyyədə sahibkarlığın daimiliyi, irsiliyi, maaflıq hüququ ona dövlət ərazisi tərkibində muxtariyyət hüququ qazandırır. Doğrudur, soyurqal meydana çıxdığı ilk gündən müəyyən sayda hazır qoşun saxlamaq öhdəliyi ilə bağlı olmuşdur. Buna baxmayaraq artıq soyurqala verilmiş hüquq və səlahiyyətin məsuliyyətini dövlət dərk edir, ancaq onun müalicəsinə çarə tapmırdı

İ.P.Petruşevski qeyd edir ki, I Şah İsmayıl qızılbaşlara könüllü tabe olmadan və müstəqillik cəhdlərini hələ də saxlamış hakimlərin soyurqallarını alaraq bu əraziləri qızılbaş əsilzadələrinə soyurqal deyil, tiyul hüququ ilə verdi. Ancaq yenə də soyurqal paylanması dayandırılmamışdır. Ancaq Şah Təhmasib və onun xələfləri tərəfindən ruhanilərin, bürokratiyanın nümayəndələrinə verilən soyurqallar qədər hərbi qulluqçulara verilmirdi. Müəllif yazır ki, indi onlara daha çox tiyul verilir, ancaq əvvəl verilmiş soyurqallar onların varislərinin yenə də əlində qalırdı. Soyurqal xidmət müqabilində verilən əmlak olmasına baxmayaraq daimi və irsi xarakter daşıyırdı. Faktiki olaraq yenə də soyurqal dövləti xidmətlə bağlı olub məvacib müqabilində verilirdi. II Şah Abbas məhərrəm h.1057 (fevral 1647)-ci il fərmanı ilə Aranın Xaçın

mahalından alınan 45360 dinar dövlət vergisini hərbi xidmətlərini nəzərə alaraq məvacibi müqabilində böyük qorçulardan olan Göycə sultana vermişdi. Fərmanda qeyd olunur: "Mübarək fərman verildi o haqda ki, əzəmətli mustoufilərin təsdiqindən sonra məlum və aydın oldu ki, dörd tümən beş min üç yüz əlli səkkiz dinar (45358 dinar) malcəhət və vocuhat hesabından adı çəkilən Aranın Xaçın mahalı torpaqlarından əzəmətli qorçular cərgəsinə keçmiş Göycə sultana soyurqal təyin olundu və qərara alındı ki, buna görə o, divandan məvacib tələb etməsin... Kətxuda və rəiyyət onu adı çəkilən ərazidə qoy soyurqal kimi tanısınlar və hər il malcəhət, vocuhat və digər divan vergilərini ona verərək heç bir xətaya yol verməsinlər...". Soyurqalın xidmət müqabilində məvacib əvəzi kimi verilməsi onun irsiliyi, sahibinin xüsusi vergi imtiyazı kimi xüsusiyyətləri fərmanda öz əksini tapmışdır. 1559-cu il fərmanı din xadimlərinə soyurqal verildiyini təsdiq edir. Bu fərmanda qeyd olunur ki, İsmayıl və Təhmasib Şeyx Zahid Gilaninin ailəsinin adına olan soyurqalı təsdiq etmişlər. Bu şeyxin övladları-seyidlərə Ərdəbil ətrafındakı bütün əkin yerləri verilmiş və bu əkin yerlərinin vergiləri də onların sərəncamındadır. Buranın gəlirinin artmasından asılı olmayaraq dövlətin maliyyə məmurları onların işinə qarışmamalıdır. Məmurlar buranı əbədi soyurqal və daimi bəxşiş hesab etməlidirlər. Onların tərəfindən soyurqal sahiblərinin vergi toplamasına heç bir maneçilik törədilməməlidir. Bu fərmanın aydın və dəqiq tərzdə soyurqalın daimi, həm də irsi olması öz əksini tapmışdır. Torpaqdan vergilərini soyurqal sahibləri dövlətin maliyyə idarələrindən asılı olmadan özləri alırdılar.

Şah Hüseynin 1701-ci il fərmanında hərbi lenin sahiblərinin hüquqları ilə yanaşı, öhdəlikləri də əks olunmuşdur və Qaracadağ hakimi Bayandur sultanın adına yazılmaqla onun soyurqal sahibi olmaq hüququnu təsdiq edir. Fərmanda bu mahalı əvvəllər irsən almış sahibkarların adları ətraflı göstərilir. Və qeyd olunur ki, şah ona görə mahalın 6 tümən 3096 ½ dinar gəlirini onlara vermişdir ki, onlar şahın yürüşlərinə yeddi nəfər tam təchizatlı, silahlı adam verməli idilər. Malcəhət və dövlət vergilərini kənd ağsaqqları və rəiyyət tədarük edib soyurqal sahibinə çatdırmalıdırlar. Hakimlər və məmurlar soyurqal ərazisinə daxil olmamalı və buranın əhalisindən dövlət vergiləri, həm də soyurqal haqqında yeni fərman tələb etməməlidirlər. Fərmanda soyurqal sahibinin hüquq və vəzifəsi əks olunmuşdur. Ona verilmiş irsi sahibkarlıq hüququ müqabilində o, dövlətə təyin olunmuş sayda əsgər verməli idi. O, soyurqaldan bütün vergiləri sərbəst toplamaq və inzibati toxunulmazlıq hüququ ilə təmin edilmişdir. Bütün bunlar soyurqal institutu üçün xarakterik və həm də tipik xüsusiyyətlərdir.

Soyurqal verilmiş bölgənin dövlət vergilərindən azad olması və vergi toplamaq hüququnun soyurqal sahibinə verilməsi haqqında başqa fars dilli mənbələrdə də məlumatlar vardır. Maaf-yəni dövlət vergilərindən azad olunma hüququ qanunla tənzim olunan xüsusi imtiyaz olub şah tərəfindən verilirdi. I Şah Abbas Gilanda qayda-qanun yaradaraq seyidlərin, ülamələrin, zahidlərin vəqf mütəvəllilərin maaf hüquqlarını öz imzası ilə təsdiq elədi.

"Təzkirət əl-müluk"da soyurqalın da başqa növü barədə məlumat verilmişdir. Qaynaqda qeyd olunur ki, bir çox vəzi-

fə sahiblərinə də xidmətlərinə görə soyurqal verilirdi. Belə ki, möhürdara soyurqal gəlirindən maaş verilirdi.

Artıq XVI-XVII yüzillərdə XV əsrdə olduğu kimi geniş ərazini əhatə edən böyük soyurqallara təsadüf olunmur. Bu daha çox I Şah Abbas və onun xələflərinin aqrar siyasəti ilə bağlı idi. Mümkün qədər çalışırdılar ki, mərkəzləşmiş dövlətin iqtisadi maraqlarına uyğun olmayan soyurqalları məhdudlaşdıraraq yeniləri isə verilməsin. Xüsusilə soyurqalın irsi sahibkarlıq, inzibati-məhkəmə və vergi immuniteti kimi xüsusiyyətləri dövlətin iqtisadi maraqlarına cavab vermirdi. Şah hökümətinin siyasətinə uyğun olaraq XVII yüzilin əvvəllərində soyurqal əraziləri və onların gəlirləri xeyli azalmışdı. XVIII yüzilin əvvəllərində Qızılbaş ölkəsi üzrə soyurqalların ümumi illik gəliri 367 778 800 dinara bərabər olmuşdu. Bu rəqəm tiyulun illik ümumi gəlirindən /3 753 663 000 din/ 10 dəfə və həme salenin illik ümumi gəlirindən /1 165 302 400 din/ 3 dəfə az idi. Bir qədər sonra, XVIII yüzil ərzində tədricən soyurqalın adı çəkilmir və o bir əmlak növü kimi yox olub gedir.

Səfəvilər dövründə xidmət müqabilində qulluq adamlarına verilən şərti əmlakın ən geniş yayılmış növü tiyul idi. V.F.Minorskiyə görə tiyul Yaxın Şərqin ən əski feodal institutu olan iqtanın davamıdır. O, qeyd edir ki, artıq Teymurilər zamanında "tiyul" istilahından istifadə olunduqda iqta aradan çıxmışdır. Səfəvi dövründəki tiyulu iqtaya yaxınlaşdırmaq mümkündür. Ancaq bu XIII-XIV yüzillərdəki moğol çağının iqtası yox, daha əski çağın iqtasına bənzəyirdi. İqta institutunun belə dəyişikliklə Səfəvilər tərəfindən dirçəldilməsi, Səfəvi dövlətinin mərkəzçilik siyasəti onun feodal başıpozuq-luğuna qarşı mübarizəsi, dövlət torpaq sahibkarlığı-

nı möhkəmləndirmək cəhdləri ilə bağlı idi. Bu həm də irsi mülk sahibi olan əyanları yeni qulluq adamları ilə əvəz edərək dövlətin iqtisadi və siyasi dayaqlarının möhkəmləndirilməsi tədbirlərinin yeni aqrar siyasətlə həyata keçirilməsi cəhdlərindən irəli gəlirdi. Səfəvilərin bəxş etdikləri tiyullar moğol çağının qulluq adamlarının lenlərinə oxşamırdı. Səfəvi tiyulları nəzəri baxımdan qulluq adamlarına xidmətləri müqabilində əvvəllər müəyyən bir ərazi, yaxud kəndin rəiyyətindən divan üçün yığılan torpaq və bəzən başqa vergilərdən ayrılıb bəxş olunan hissədir. Mərkəzi hakimiyyət xərac ərazisindən yığdığı torpaq vergilərini hissələrə bölür və onun çoxunu öz qulluq adamlarına verilirdi.

İ.P.Petruşevski Azərbaycanda XVI yüzildə feodal münasibətlərinin əsas əlamətlərini şərh edərək yazır ki, XVI yüzildən soyurqal torpaq sahibliyinin həcmi getdikcə azalırdı. Səfəviləır həyata keçirdikləri mərkəzləşdirmə siyasətinə uyğun olaraq soyurqalların azaldılması hesabına irsi deyil, şərti əmlak növü olan renta almaq hüququ verən məxsusi benefisinin-tiyulun möhkəmləndirilməsinə çalışırdılar.

Xidmət müqabilində verilən əmlak növünün geniş yayılan ikinci növü tiyul idi. Şarden səhvə yol verərək "tiyul"un hərfi mənasının "daimi" olduğunu yazmışdır. Bu istilah və əmlak növü Səfəvilərə qədər mövcud olmamışdır. Soyurqaldan fərqli olaraq tiyul müvəqqəti olub irsən verilmirdi. Tiyul birbaşa vəzifə ilə bağlı olub xidmət müqabilində bəxş olunurdu. Petruşevskiyə görə tiyul benefesi qəbilindən olub dövlət, hərbi və mülki xidmətlə bağlı idi. Bəxş olunan torpaq təyin olunan şəxsin adına deyil, onun vəzifəsinə aid olur və tiyuldar öldükdə, yaxud vəzifəsindən istefa verdikdə tiyul onun xidmətə götürülən varisinə verilirdi. Petruşevski qeyd edir ki,

Səfəvi şahlarının fərmanlarından anlaşılır ki, tiyul qulluq adamlarına xidmətə görə məvacib əvəzi təyin olunmuş ərazidən rentanın bir hissəsini almaq hüququ verməklə ancaq torpaq və süni suvarma qurğularına başçılıq, sərəncam vermək hüququ vermir.

V.Minorski də yazır ki, tiyul müvəqqəti həvalə olunmaqla iki cürdür. Birincisi bir qayda olaraq vəzifəyə əlavə olub vəzifə ilə birlikdə verilib alınır. İkincisini şah divan adından ömürlük həvalə edir (150, 45-46).

Səfəvi dövlətinin torpaq siyasətinə uyğun olaraq XVI yüzildən əsilzadə, mülki və hərbi qulluqçulara xidmət müqabilində daha çox tiyul verilməsinə üstünlük verilirdi. Tiyul haqqında ilk məlumatı XV yüzilin əvvəllərində Əbdürrəzzər Səmərqəndi məlumat vermişdir. Ancaq bu torpaq sahibliyi institutu XV yüzildə yox, XVI yüzildə, xüsusilə Səfəvilər ölkəsində dövlətin aqrar siyasətində xüsusi mahiyyət kəsb edərək geniş yayılır. Tiyul adı altında faktiki olaraq müəyyən ərazidən götürülən verginin bir hissəsi, yaxud hamısını qulluqda olan məmura onun gəlirindən yalnız xidmət dövrü üçün məvacib almaq hüququ verir. Ancaq mülki, yaxud hərbi qulluğuna görə tiyul alan məmura irsi sahibkarlıq və inzibati idarə hüququ verilmirdi. Əslində də XVI yüzildə dövlətin bu istiqamətdə həyata keçirdiyi tədbirlərdə güddüyü məqsəd iqtanın ərəb xilafəti dövründə mövcud olmuş formasınışərti benefesinin bərpası cəhdindən ibarət idi. Tiyullar əsasən divan torpaqlarından verilirdi (112, 256).

Yerlərdə vergi toplamaq üçün xüsusi səlahiyyətli nümayəndə fəaliyyət göstərirdi ki, o, mahalların vergisinin 10%-ni və uzaq bölgələrdə isə 5%-ni özünə götürdü. "Təzkirət əlmülük"da müxtəlif növ qoşunun tiyulunun təsis qaydaları

qeyd olunmuşdur. Tiyulun təsdiq olunmasına qədər o bir neçə zəruri mərhələdən keçirdi. əvvəlcə tiyulu qoşun başçıları qorçubaşı, qullarağası və s. bəyənib qəbul etdikdən sonra o baş vəzirin təsdiqinə verilirdi. Ancaq bundan sonra tiyul haqqında fərman qüvvəyə minirdi.

Qaynaqlarda "həme-sale" və "yek-sale" istilahı və bu qayda ilə bəxş olunan əmlak növlərindən məvaciblər haqqında da məlumatlar az deyildir. İ.P. Petruşevskiyə görə "həme-sale" tiyul növü olub burada hər hansı bir şəxsə çatacaq vergi əsasən bir neçə il üçün müəyyən olunur. Engelbert Kempferə görə dövlət məmurlarına  məvacib ödənilməsinin vahid qaydası mövcud olmamışdır. O, məvacibin ödənişinin əsas qaydasından bəhs edərkən həmesaleni "ömürlük" adı ilə verərək göstərir ki, bu tiyullar əsasən daha yüksək vəzifəli şəxslərə verilirdi.

Həme-salenin bir neçə il və yek salenin bir il üçün nəzərdə tutlması ilə bağlı faktlar "Təzkirət əl-müluk"la yanaşı dövrün bir sıra mənbələrində də vardır. V.Minorskiyə görə həmesale bəratı müəyyən olunan illər üçün vahid qaynağa həvalə edilmiş tiyul olub olduqca qiymətlidir. Ancaq yeksale ondan qiymətsiz olub bəratı hər il təzələnməli idi. Qeyd olunduğu kimi, tiyul bir qayda olaraq əsasən dövlət qulluğunda olan şəxslərə verilirdi. Aşağı rütbəli məmurlar, hərbçilər, Şah karxanalarının sənətkarları əsasən tiyuldan onlar üçün nəzərdə tutulan payı məvacib kimi dəftərxanalardan korporativ qaydada alırdılar. Ancaq daha yüksək rütbə və titullu əyanlara gəldikdə isə qulluqları müqabilində tiyulların özü birbaşa onların sərəncamına verilirdi. Ancaq şahdan tiyul almış əyanlar son nəfərinə qədər zəruri vaxtlarda onun hərbi yürüşlərində iştirak etməli idilər. Qeyd olunduğu kimi,

əsasən illik məvacib həddində verilir, yaxud onun bir hissəsini təşkil edirdi.

Aşağı rütbəli qulluq adamlarına gəlirləri az olan kiçik tiyullar, yaxud "həmesale" verilirdi. Müəyyən bir bölgənin götürülən vergisindən pul, yaxud natura (məhsul) formasında qulluq adamına ayrılan bəxşiş ya da ki, məvacib bu cür adlanırdı. Və qulluq adamının adına xəzinədən həmesale üçün qeyd olunan bərat onun alacağı məbləği göstərilməklə yanaşı, bu eyni zamanda onun qulluqda olduğunu təsdiq edən vəsiqə hesab olunurdu. Və bu həmesale idarə hüququ ilə verilmirdi.

Rəfael dyu Mans iri məmurların məvaciblərinin təxminən 1000 tümənə bərabər olduğunu müəyyən etmiş və bunun 400 min fransa livrinə, yəni çox böyük məbləğə bərabər olduğunu qeyd etmişdir. Bu məlumatı "Təzkirət əl müluk"dakı rəqəmlərlə tutuşdurduqda Rəfael dyu Mansın məvacibin orta həddini deyil, ən yüksək həddini göstərdiyi üzə çıxır. Və əsasən dövlət məmurlarının məvacibləri 500 tüməndən çox olmurdu. Müstəsna hal kimi divanbəyinin illik məvacibi bəzən 1000 tümənə çatırdı.

Soyurqal və tiyulun ümumi bir başlanğıcı olub hər iki institutda onların yeni sahiblərinə dövlətin verdiyi səlahiyyətə uyğun olaraq torpaqdan götürdükləri gəlir əsas yer tuturdu. Soyurqal hələ moğolların dövründən mövcud olmuşdur. Oturaq əhalinin becərdiyi torpaqlar hələ köçəri həyat tərzi ilə sıx bağlı olan və bir yerdə daimi dayanmayan əyanlara verilir. Onları isə bu torpaqlar deyil, ondan əldə olunan gəlir daha çox maraqlandırırdı. Daha sonra bu torpaqlar türk mənşəli əslzadələrə də geniş şəkildə verilmişdir. Bu qayda Səfəvilər sülaləsinin də idarəçiliyi dövründə geniş ölçüdə qalmaqla ilk növbədə Azərbaycanın yarımköçəri tayfaları ilə bağlı idi.

Səfəvilər dövründə soyurqal və tiyul sahibləri öz şərti mülklərində yaşamırdılar. Onların bir hissəsi qulluqda olur, hərbi rəislər qoşunla yürüşə çıxır və üçüncülər, yəni əyanlar şah sarayı ilə bağlı olub mərkəzdə yaşayırdılar.

Soyurqaldan fərqli olaraq tiyul müvəqqəti xarakteri ilə o qədər də möhkəm təsisat deyildi. Tiyulda sahibkarlıq istənilən vaxt dayandırıla, yaxud tam ləğv oluna bilərdi. Məsələn, Ustaclıların üsyanları yatırıldıqdan sonra I Şah Təhmasib onlara verilmiş tiyulu ləğv etmişdi. "Təzkirət əl-müluk" tiyul hüququnun dayandırılmasını təsdiq edir. Belə ki, möhürdar da bəzən tiyulu ləğv edirdi.

Qeyd olunduğu kimi, tiyuldara soyurqal sahibi kimi geniş hüquqlar verilmirdi. İrsi sahibkarlıq, inzibati-məhkəmə səlahiyyəti olmayan tiyuldar mərkəzi hakimiyyət üçün soyurqal sahibləri qədər sosial-iqtisadi baxımdan ciddi təsir göstərmək imkanına malik deyildilər. XVII yüzildə də dövlət orqanları soyurqalları sıxışdıraraq tiyulları daha çox genişləndirirdilər. "Təzkirət əl-müluk"da Səfəvi dövləti üzrə soyurqal sahiblərinin ümumi illik gəlirlərinin 367 778 800 dinar, tiyul sahiblərinin isə illik gəlirlərinin 3 753 663 000 dinar olduğu göstərilmişdir. Bu rəqəmlər faktiki olaraq tiyulların soyurqala nisbətən bu dövrdə üstünlüyünü təsdiq edir.

Ümumiyyətlə, xidmət müqabilində verilən soyurqal irsi və tiyul isə şərti xarakterə malik idi. Ancaq tiyulun da üzərində dövlətin nəzarəti o qədər də möhkəm deyildi. Səfəvilərin hakimiyyətinin müəyyən dövründən sonra tiyul sahiblərinin xidmət müqabilində aldıqları əmlakların özəlləşdirilməsi ənənəsi artır və hətta, onun üzərində irsi mülkiyyətçilik hüququ kəsb edirdi.

# II FƏSİL
# SƏNƏTKARLIQ VƏ TİCARƏT

## 2.1. Sənətkarlıq

Səfəvi məmləkətinin əlverişli təbii-coğrafi şəraiti, kənd təsərrüfatı, heyvandarlığın inkişafı və zəngin xammal-ehtiyatları XVII əsrdə də sənətkarlıq və ticarətin inkişafına təkan vermişdi. Ölkə miqyasında xalqın daxili ehtiyacları və Şərq ölkələrində istehsal olunan bir sıra mallara beynəlxalq bazarlardakı tələbat da sənətkarların və ticarətin inkişafında az rol oynamırdı. Uzaq Şərq, Mərkəzi Asiya ölkələri və Hindistanı Aralıq dənizi və Qara dəniz sahilləri ilə əlaqələndirən məşhur beynəlxalq karvan yolları Səfəvi dövlətinin ərazisindən keçirdi. Avropaya nadir daş-qaş, cürbəcür zərgərlik məmulatları, zərif ipək parçalar, ədviyyat, xüsusilə xam ipək bu yollarla aparılırdı. Səfəvi imperiyasının əlverişli coğrafi mövqeyi, yəni Avropa-Asiya və Rusiya-Şərq ticarət yollarının qovuşağında olması, onun xarici aləmlə əlaqələrinə müsbət təsir göstərirdi ki, bu da öz növbəsində sənətin yeni sahələrinin yaranmasına, sənətkarlıqda əmək məhsuldarlığının artmasına müsbət təsir göstərirdi. Ancaq onu da qeyd etmək lazımdır ki, XVII əsrin birinci yarısında imperiyanın şimal-qərb və cənub-şərq sərhədlərində qonşu dövlətlərlə baş vermiş müharibələr sənətkarlığa, ticarətə mənfi təsirlər etmiş, lakin onun inkişafının qarşısını tam ala bilməmişdir. Səfəvi dövlət başçılarından I Şah Abbasın həyata keçirdikləri tədbirlər iqtisadiyyatın bütün sahələrinin, o cümlədən sənətkarlığın da inkişafına təkan vermişdir. Məhz bu dövrdə Səfəvi məmləkətinə gəlmiş avropalı səy-

yahların məlumatına görə, İsfahan, Kaşan, Məşhəd, Təbriz, Marağa, Mərənd, Xoy, Gəncə, Bakı, Şamaxı və Naxçıvan şəhərləri sənətkarlıq və ticarət mərkəzləri idilər. Bu şəhərlərdə müxtəlif peşə və istehsal sahələri olub, hər növ sənətkarlıq məmulatları istehsal olunurdu. İri sənətkarlıq mərkəzlərində orta əsr sənətinin, demək olar ki, bütün növlərinə və sahələrinə təsadüf olunurdu. Ancaq XVII əsrin sonunda bütün Yaxın və Orta Şərqdə baş vermiş iqtisadi böhran Səfəvi məmləkətindən də yan keçməmiş, onun iqtisadi həyatına da öz mənfi təsirlərini göstərmişdir.

XVII əsrdə Azərbaycanda toxucu, başmaqçı, zərgər, misgər, dəmirçi, dulusçu, bənna, boyaqçı, nalbənd, topçu, tirgər, kamandar, barıtçı, kaşikar, şişəkar, dülgər, sandıxdar, dabbaq, sərrac, başmaqçı pinəçi, memar, qənnad, çörəkçi, sabunçu, cildçi, kağızsaz və s. ibarət peşə və sənət sahəsi vardı. M. X. Heydərov tədqiqatlarında 44 növ istehsal–peşə sahəsi haqqında məlumat vermişdir.

Dövlətə məxsus belə karxanaların sayı XVII əsrin ortalarında xeyli artmışdı. Bu karxanalar daxili əmək bölgüsünə əsaslanan karqahlar idi. Engelbert Kempferə görə XVII əsrin 80-ci illərində cəvahirsazan, zərgər və saatsaz daxili əmək bölgüsü prinsipi ilə işləyən karqahlar idilər. Var-dövlət yığmağa can atan ayrı-ayrı feodal hakimlər yerli mallarla kifayətlənmirdilər. Ona görə də emalatxanası və karvansarası olan bazarlar tikdirirdilər. XVII əsr Avropa səyyahlarının, habelə M.X.Heydərov, Ə.Rəhmani, S.M.Onullahi və bir çox başqa tədqiqatçıların əsərlərindən məlum olur ki, Təbriz, Ərdəbil, Şamaxı, Gəncə və digər iri və kiçik Azərbaycan şəhərlərində belə emalatxanalar vardı. Bu dövrdə Azərbaycanın bir çox böyük şəhərlərinin və xüsusilə S. M. Onullahinin

qeyd etdiyi kimi Təbriz əhalisinin çoxu sənətkarlıq və ticarətlə məşğul olurdu.

Sanson və E.Kempferin bəhs etdikləri XVII əsrin 80-90-cı illərində İsfahan Səfəvi dövlətinin ən böyük şəhəri olub, həm inzibati-siyasi, həm də ticarət-sənətkarlıq mərkəzi idi. Bu dövrdə Yaxın və Orta Şərq ölkələrinin böyük şəhərlərindəki istehsal-peşə sahələri İsfahanda da mövcud olmaqla yanaşı, burada ayrı-ayrı sənət növləri üzrə texniki tərəqqi getmiş, sənətin yeni növləri meydana çıxmışdı. İsfahan şəhərinin emalatxanalarında, karqahlarında istehsal edilən sənət məhsulları təkcə daxili tələbat üçün deyil, xarici ölkələrə də ixrac edilirdi. Engelbert Kempferin əsərində İsfahan şəhərindəki emalatxanalar və burada istehsal olunan məhsullar, sənət növləri barədə ətraflı məlumat vardır. O, yazır ki, Şah sarayın tələbatına uyğun çoxlu karaqah təsis etmişdi. İsfahan karaqahlarının məhsulu xarici bazarlara da çıxarılırdı. E. Kempferə görə bu dövrdə İsfahan şəhərində qurşaq (kəmər) toxuculuğu, başmaqçı, güləbətin tikən, zərgər, misgər, yəhər qayıran, zərrab, dəmirçi, boyaqçı, şüşə düzəldən, xarrat kimi sənət növləri vardı. Sansonun yazdığına görə İsfahan sənətkarları çox keyfiyyətli yəhər və yüyən hazırlayırdılar. Yəhər, yüyən və onların ləvazimatları qızılla, qiymətli daşlarla bəzədilir və üzəngini isə qızıldan düzəldirdilər.

Səfəvi dövlətinin şəhərlərindən olan Bakı və Naxçıvan müxtəlif peşələr üzrə sənətkarlığın inkişaf etdiyi mərkəzlərdən idi. Bakı Azərbaycanın iqtisadi mərkəzlərindən biri idi, burada müxtəlif peşə sahibləri vardı. Ətraf kəndlər Bakını xammalla təchiz edən baza idi. Bakı kəndlərində pambıq becərilir, ip əyirilirdi. Bunlardan isə şəhərdə pambıq parça toxunurdu. Engelbert Kempfer 1683-cü ildə Bakıda

olarkən burada, sənətkarlığın, xüsusən də toxuculuğun az inkişaf etdiyini qeyd etmiş, ancaq Bakıda sənətkarlıq emalatxanalarından bəhs etməklə əvvəlki fikrini müəyyən mənada təkzib etmişdir. E.Kempferə görə, corab emalatxanası yalnız Avropadan (Firəngdən) gətirilmiş yun əsasında işləyirdi. Çünki corab toxumaq üçün lazım olan zərif yunu Asiyada hazırlamaq çətin idi. Bu corab emalatxanası da sarayın ehtiyaclarını ödəmək üçün fəaliyyət göstərirdi.

Şirvan şəhərlərində xalçaçılıq əsas peşə sahəsi idi. Xalçanın dəyəri üçün onun keyfiyyəti və qiyməti aşağıdakı kimi müəyyən edilirdi: baş barmağı xalçanın qırağına qoyub barmağın eninə orada istifadə olunmuş sapın miqdarını hesablayırdılar. İstifadə edilmiş sap nə qədər çox olsa idi xalça o qədər baha qiymətləndirilirdi. Bir barmaqda 14, yaxud 15 ilməsi olan xalça ən yaxşı xalça hesab edilirdi.

Xalça və palazdan əlavə, məişətdə istifadə olunan çeşidli pərdələr, çul, aşırma heybə, çuval, xurcun və digər əşyalar da toxunurdu.

Bakı və onun ətrafında sənətkarlıq istehsalının əsas sahələrindən biri də metal emalı idi. Burada silah, mis qablar hazırlanırdı. Bakıda dəmirçi sənəti inkişaf edirdi. Holland dənizçisi və səyyahı Y.Streys silah istehsal edən Bakı sənətkarları haqqında məlumat verir. O yazır: "həmin gün 1671-ci il oktyabrın 29-da mən Şamaxıdan gedəndə ora Bakıda qul olan bizim Meynert Meynerts gəldi. O, burada dəmirçixanada bıçaq, qılınc düzəldən bir ustanın yanında işləyirdi, xalq içərisində polad bərkidən adı ilə məşhur idi". S.Onullahi farsdilli sənədlərə və digər qaynaqlara istinad edərək yazır ki, metalişləmə sənəti Azərbaycanın başqa şəhərlərində olduğu kimi, Təbrizdə də inkişaf etmişdir. Mis istehsalı şəhər

iqtisadiyyatında mühüm rol oynayırdı. Lakin Təbrizdə istehsal olunan mis daxili tələbi ödəyə bilmədiyi üçün xaricdən də şəhərə mis gətirilirdi. Həm də daxildə əldə edilən mis kifayət qədər yumşaq olmadığına görə sənətkarlar Yaponiya misinə üstünlük verirlər. Ancaq Engelbert Kempferin Səfəvi ölkəsinin faydalı qazıntı yataqları haqqındakı məlumatları artıq XVII əsrin ikinci yarısında sənətkarlıqda yerli mis və poladın üstün olnmasını göstərir. Səfəvi dövlətinin təbii zənginlikləri, yeraltı sərvətləri haqqında Engelbert Kempferin əsərində həm maraqlı, həm də elmi əhəmiyyət kəsb edən kifayət qədər məlumatlara təsadüf edilir. Kempfer yazır ki, İran körfəzində əvvəllər Hörmüzdə və hazırda isə Bəhreyn yarımadası sahillərində mirvari hasilatı üstünlük təşkil edir. Xorasan əyalətində Nişapur şəhəri yaxınlığında firuzə mədəni vardır. Ancaq Şah bu mədəndən firuzə çıxarılmasına bəzi vaxtlar icazə vermir. Çox məntəqədə qızıl və gümüş yataqları vardır. Ancaq onların hasilatı sərfəli olmadığı üçün bu yataqlar istifadə edilmir. Kirmanda çoxlu mis mədənləri vardı. Əvvəllər buradan hasil edilən filiz Yaponiyadan idxal olunan misə qatılırdı. İndi isə xaricdən mis alınmır və bu yataqlardan əldə edilən misi qatqısız istifadə edirlər. Kirman və Yəzddə qalay və Xorasanın bir çox nahiyələrində isə dəmir mədənləri vardır. İsfahan yaxınlığındakı mədənlərdən əldə edilən filizdən emal olunan polad, heç də Hind poladından keyfiyyətsiz deyildir. Səyyahın gündəliyində qeyd edilənlərlə yanaşı, kükürd və civə yataqları barədə də məlumatlara təsadüf.

Misgər, dəmirçi peşəsi ilə yanaşı, dulusçuluq da əsas sənət sahələrindən idi. Dulusçular cürbəcür nəfis, saxsı qablar hazırlayırdılar. Bakıda zərgər, inşaatçı, memar, bənna, rəs-

sam, gəmi ustası, dərzi, başmaqçı kimi bədii və adi peşə sənəti sahələri də vardır. Ən çox inkişaf etmiş sənətkarlıq istehsal sahəsi olan toxuculuğun payına daha çox karxana düşürdü. Çünki istər xarici, istərsə də daxili ticarətdə toxuculuq mallarına ciddi ehtiyac vardı. XVII əsrin ikinci yarısında Şirvanda iri feodal toxuculuq emalatxanalarının olması buna yaxşı nümunədir. İ.Q. Qerber XVIII əsrin əvvəllərinə aid məlumat versə də bir qədər geriyə ekuskurs edərək yazır: "İran (Səfəvi-İ.Ş) hakimiyyəti vaxtı Şirvanda böyük ticarət, ipək fabrikləri və manifakturalar vardı. Cürbəcür bahalı parçalar, xalçalar və s. istehsal edirdilər....". Bu cür çoxlu iri feodal toxuculuq emalatxanaları Şirvanın digər ipəkçilik rayonlarında-Şabran, Qəbələ, Ərəş, Ağdaş, Səlyan, Cavad və başqa yerlərdə vardı.

XVII əsrin ortalarında Şirvan, Gilan, Mazandaran və Qarabağda istehsal olunan ipəyin çoxu Təbrizə aparılırdı. Təbrizdə toxuculuq sənəti bir növ ənənəyə çevrilmişdi. Təsadüfi deyildir ki, Evliya Çələbi Təbrizdə toxunulan yun, pambıq və ipək parçalar, məxmər, qətifə, darainin hər tərəfdə "Təbriz parçası" adı ilə məşhur olduğunu bildirmişdi. Görünür, şəhərdə ona olan şəxsi münasibət səyyaha da təsir etmişdir. Çünki digər müəlliflər, xüsusilə XVII əsrdə türk səyyahı Evliya Çələbi Bakıdan inkişaf etmiş ticarət şəhəri kimi bəhs etdiyi halda E.Kempfer Bakıda toxuculuq və onunla bağlı olan sahələrin ticarət əhəmiyyətinin az olduğunu göstərir. S. Aşurbəyliyə görə bu həqiqətə uyğun deyil. Çünki XVII əsrin sonuna aid daha mötəbər mənbələrin məlumatına görə, şəhərdə qumaş istehsalı xüsusi ilə inkişaf etmişdi. Belə ki, XVII əsrin sənədlərində Bakıda xarici bazar üçün qumaş istehsal edilirdi. O dövrdə qumaşın satış üçün istehsal edilməsi

onu göstərir ki, XVII əsrdə Bakı Azərbaycanda ticarət mərkəzlərindən biri idi. Bakı öz əhəmiyyətinə görə, ən iri ticarət mərkəzləri olan Təbriz, Ərdəbil, Şamaxı, Gəncə, Naxçıvan, Marağa, Mərəndi də xeyli geridə qoyurdu.

Təbrizdə sənətkarlar bir neçə zümrədən ibarət idi. Onlar ildə "boniçe" adı ilə şaha müəyyən vergilər verirdi. Mənbələrdə belə sənətkar zümrələrindən ayaqqabıçıların, bıçaq düzəldənlərin, dəmirçilərin və başqa sənətkar zümrələrinin adları çəkilir. J. Tavernye saray sənətkarları birləşməsinin başçılarından bəhs edərək yazır ki, bu başçılar dövlətdən məvacib alır, özləri işləmirdilər, lakin əlləri altında olan sənətkarlar üzərində hökmranlıq edirdilər.

S.Onullahi ilk qaynaqlara istinad edərək Şərq və Avropa şəhərləri sənətkarlıq təşkilatları arasındakı ümumi cəhətlərin olduğunu nəzərə çarpdırmaq üçün dəyərli paralellər aparır. Əvvəla, Avropada sənətkarlar təşkilatının başçısı seçildikdən sonra şəhər hakimi tərəfindən təsdiq edilirdi. Şərqdə də sənətkarların öz aralarından seçdikləri başçı şəhər kələntəri tərəfindən təsdiq edildikdən sonra səlahiyyətli şəxs sayılırdı. Avropada sənətkarlıq təşkilatları öz daxili işlərini şəhər hakiminin ümumi nəzarəti altında həyata keçirirdilər. Şərqdə də dövlət tərəfindən sənətkarlar üzərinə qoyulmuş illik vergi sənətkarlıq təşkilatının ağsaqqalı və ya başçısının razılığı ilə həyata keçirilirdi. Bu işdə şəhərdəki dövlət məmurlarının da iştirakı vacib idi. Dövlət tərəfindən siyahı təsdiq edildikdən sonra həmin vergi alınırdı. Avropa şəhərlərində olduğu kimi, Şərq şəhərlərində də eyni sənət sahəsi ilə məşğul olan sənətkarlar öz təşkilatlarını birləşdirirdilər. Avropada sənətkar təşkilatı ilə yanaşı, ayrı-ayrı tacirlərin, digər peşə sahibləri-

nin təşkilatları vardı. Şərq ölkələrində tacirlər təşkilatına kəntxudalar başçılıq edirdilər.

Dövlətin toxuculuq karxanalarında əsasən saray üçün zəruri tələbat malları toxunulurdu. Sansonun yazdıqlarından aydın olur ki, Şah və onun hərəmxanası mərkəzi tərk etdikdə xüsusi çadır otaqlarda yaşayırdılar ki, çadırlar mahud və ipək parçadan hazırlanılırdı. Sözsüz ki, bu çadırların parçaları dövlətə məxsus karxanalarda istehsal olunurdu.

E.Kempfer yazdığı kimi, şalbabafxana çoxlu toxucu otaqlarından ibarət olub, burada onlar ipək və həmçinin qızıl saplarla parça toxuyurdula. Şalbafxana, həllacxana, dərzixana, corab, ayaqqabı və pustindüzxana karxanalarının istehsal fəaliyyətinə ustabaşıları ilə yanaşı, məlik üt-tüccar adlanan dövlət məmuru nəzarət edirdi. E.Kempfer qeyd edir ki, məlik üt-tüccar həmin karxanalar üçün xammalı satın alır; bundan başqa parçaların naxışlarını müəyyənləşdirir, hazır məhsulun anbarlara yerləşdirilməsinə də nəzarət edirdi. Misgərbaşı, zərrəbbaşı, nəccarbaşı, zindarbaşı və topçubaşının rəhbərlik etdiyi karxanaları isə xassə əmlakındakı əyalət hakimləri xammalla təmin edirdilər.

Şalbafxanada çox sayda toxucu çalışır ki, onlar ipək və zərli parça toxuyur, qurşaq (kəmər) hazırlayırdılar. Məlik üttüccar təkcə bu karqahı malla təmin etmir və həm də onun fəaliyyətinə də nəzarət edirdi.

E.Kempfer və Sansonun bu qeydləri XVII əsrin 80-90-cı illərində Səfəvi dövlətində şah sarayı tərəfindən idarə olunan karxanaların fəaliyyəti və həmin müəssisələrin ölkə sənətkarlığında və bütövlükdə iqtisadiyyatda yeri və rolunu düzgün qiymətləndirmək baxımından çox əhəmiyyətlidir.

Şah karxanasının hər birini dörd nəfər usta idarə edirdi. Onların rəhbəri ustabaşı adlanırdı. Hər karxananın illik xərci 350 tümənə çatırdı. Karxanada işləyən sənətkarların əksəriyyəti dövrünün mahir ustaları olub, yüksək ixtisas sahibləri idilər. Onlar işə müqavilə ilə qəbul olunurdular. Müqavilədə onlara veriləcək illik əmək haqqının dəqiq miqdarı qeyd edilir və hər üç ildən bir bu məbləğin artırılacağı göstərilirdi. Sənətkar üçün ən yüksək illik məvacib 800 ekyu, yəni 55 tümən idi. Hər bir karxana işçisi, sənətkar məvacibdən əlavə olaraq 6-7 nəfəri təmin edə biləcək cirə (norma, pay) də alırdı. Sənətkarlar cirə əvəzinə nəğd pul da ala bilərdilər. Onların aldıqları cirə 800-900 livr, yəni 20 tümən məbləğində idi. Başqa xərcləri üçün ildə onlara 20-70 frank, yəni 2 tümən də əlavə pul verilirdi.

E.Kempfer bu fikri tamamlayaraq yazır ki, dövlət karxanalarının rəislərinin illik məvacibi onların tutduqları vəzifəyə və rəhbərlik etdikləri müəssisələrin əhəmiyyətinə görə 20-40 tümən (340-680 taler) arasında dəyişə bilərdi. Hər hansı bir karxanada işləyən adi usta və qabaqcıl sənətkarın illik məvacibi isə 10-15 tümən (170-255 taler) idi. Onlara verilən yanacaq (odun), yemək və s. məvaciblərinə əlavə kimi daxil edilirdi. Bu əlavələrin bir hissəsi gündəlik, bir hissəsi həftəlik, bir hissəsi isə il ərzində ödənilirdi. Sansonun yazdığına görə Şahın xidmətində, yəni dövlət karxanalarında çoxlu avropalı fəhlələr (sənətkarlar) da vardı ki, onların çoxu fransalı idi. Xüsusilə fransalı saatsaz və zərgərlər daha çox olub, onlar öz peşələri ilə məşğul olurdular. Şah onlara çox yüksək əməkhaqqı verirdi ki, onlardan bəziləri hətta, 2500 livr maaş alırdı. Bundan əlavə onlara yemək haqqı da verilirdi. Şah on-

ların işinə çox yüksək qiymət verirdi. Şahın xidmətində Çindən və Asiyanın başqa ölkələrindən də sənətkarlar vardı.

Ümumən, Səfəvi məmələkətində dövlət ayrı-ayrı sənətkarlıq istehsalının təşkili zamanı özünün təsərrüfat-təşkilatçılıq və nəzarətedicilik funksiyalarından istifadə edirdi. Dövlətin nəzarəti altında olan sənətkarlıq karxanalarına rəhbərlik və istehsala nəzarət üçün ayrı-ayrı saray məmurları təyin olunurdu. Zinət əşyaları hazırlayan karxanaya zərgərbaşı, dülgərlik emalatxanasına nəccarbaşı nəzarət etdiyi kimi, silah-sursat istehsal edən karxanalara cəbbədarbaşı adlanan məmur nəzarət funksiyasını həyata keçirirdi. E.Kempfer yazırdı ki, Səfəvi məmləkətində barıt hazırlanır və hər bir silah növü ayrıca emalatxanalarda düzəldilir. Müxtəlif növ zireh, xəncər, tüfəng və başqa silahlar cəbbədarbaşının nəzarəti altında istehsal edilir.

Zərgərxanaya bir nəfər zərgərbaşı adlanan sənətkar başçılıq edir. Zərgərxanada yeddi nəfər zərgər və bir nəfər də qızıl və gümüş külçənin əridilməsini mükəmməl bilən fransalı mütəxəssis işləyir. Fransalı mütəxəssis vaxtilə II Şah Abbas tərəfindən dəvətlə gətirilmişdir.

Sansonun və Kempferin qeydləri Səfəvi dövlətinin sənətkarlıq sahələrində ehtiyac yarananda hətta Avropadan yüksək ixtisaslı mütəxəssislərin cəlb edilərək çalışdırıldıqları haqda əvəzolunmaz məlumatlar kimi qiymətləndirilmişdir.

Misgərxanada müxtəlif növ qab-qacaq istehsal olunurdu. E.Kempfer yazırdı: "İran (Səfəvi-Ş. İ.) misgərlərinin çevikliyinə və məharətinə "afərin"-demək lazımdır. Onlar bizə (yəni avropalılara) tanış olmayan bir çox mis qabların və bizə məlum olmayan digər ləvazimatların hazırlanmasında çox mahirdirlər".

Səfəvi dövlətində sikkə zərb edən müəssisə zərrabxana adlanırdı. Dövlət əhəmiyyətli iş olduğu üçün pul kəsilməsinə zərrabbaşı adlanan xüsusi bir məmur ciddi nəzarət edirdi. O, sikkənin çəkisi, ölçüsü və əyyarına nəzarət edən müəyyir adlı məmurla həmkarlıq edir. Çox mürəkkəb istehsal prosesindən keçən sikkə zərbi işində zərrabbaşı meyarbaşı ilə həmkarlıq edirdi. E.Kempfer yazırdı ki, zərrabxanada sikkə zərb etmək üçün metalı odda yararlı hala düşənədək qızdırırdılar.

E.Kempferin qeydlərinə görə, nəğğaşxana nəqqaşbaşının, nəccarxana isə nəccarbaşının nəzarəti altında fəaliyyət göstərirdi. Yəhər düzəldilən emalatxanada (zinxana) zindarbaşının nəzarəti altında ustalar yəhər, cilov və digər ləvazimatlar hazırlayırdılar. Zindarbaşı həmin ləvazimatları saray anbarında saxlayırdı. J. Tavernyeyə görə, nəccarbaşı vəzifəsi yalnız müsəlmanlara verilirdi.

Səfəvi dövlətində yaraq-yasaq istehsalına xüsusi diqqət yetirilirdi. Çünki ölkənin müdafiə qabiliyyətinin təmin olunması və möhkəmləndirilməsi birbaşa bu işin təşkilindən asılı idi. Dövlət öz cəbbəxanasını möhkəmləndirmək üçün metalişləmə müəssisəsinin və toptökmə karxanasının normal fəaliyyətini təmin edirdi. Metalişləmə müəssisəsində sənətkarlar nizə, zireh, ox ucluğu, bıçaq, xəncər, tüfəng və s. düzəldirdilər. E.Kempferin yazdığına görə, hər bir silah növü üzrə ayrıca emalatxanada sənətkarlar işləyir və cəbbədarbaşı onlara nəzarət edirdi. Dövlətə məxsus toptökmə karxanasının işinə isə topçubaşı nəzarət edirdi.

Karxana ilə əsnafın daxili quruluşunda oxşar cəhətlər olsa da, feodal hakimin xüsusi malı-mülkü kimi onlar daha yüksək səviyyədə inzibatiləşdirilmişdi və karxanalar əsnaf kimi maliyyə-satış müstəqilliyinə malik deyildi. Karxana sənət-

karlığın bədii ornamentdən qızılı tikiş işinə qədər demək olar ki, bütün sahələrini əhatə edirdi. Sənətkarların yerləşdirilməsi (peşəsindən asılı olmayaraq) bazarların sıralanması da əsnaflarda olduğu kimi idi. Sənətkar lazım olduqda evdə və ya başqa yerdə işləməyə xüsusi icazə ala bilərdi. Deməli, karxana üçün istehsalın manufakturaya xas olan dağınıq və quraşdırılmış forması səciyyəvi idi. Hər bir karxananın, sənətkarlığın növündən asılı olaraq öz adı vardı. Məsələn, zərgərxana, misgərxana, əsləhəxana və s. XVII əsrdə, habelə tədqiqatın əhatə etdiyi həmin yüzilliyin 80-90-cı illərində İsfahandakı şah karxanasında sənətkarlığın 32 sahəsi cəmləşmişdi və hər bir emalatxanada orta hesabla 150 nəfər fəaliyyət göstərirdi. Ehtimal ki, eyni tarixi şəraitdə olan Səfəvilər dövləti üçün çox mühüm tarixi əhəmiyyəti olan XVII əsr Azərbaycan şəhərləri–Təbriz, Şamaxı, Ərdəbil, Gəncədə də eyni vəziyyət idi. İri Azərbaycan feodalları da belə karxana sahibləri idilər. Onların hər birinin öz başçısı, habelə karxananın böyük baş ustası vardı. Bütün feodal institutları kimi karxanadakı "ustabaşı" institutu irsi xarakter daşıyırdı. Belə ki, XVII əsrdə şahın zərgər emalatxanasının başçısı–zərgərbaşı vəzifəsini Mir Məhəmməd Səid və onun nəsli idarə edirdi.

Mədaxil və məxaric müşriflər və ya hesablayıcılar tərəfindən hesablanırdı. Onlar xammalı alır və sənətkarlar arasında bölüşdürürdülər.

Sənətkarlar içərisində şah emalatxanasına mənsub olan sənətkarlar daha çox imtiyazlı idilər. Onların bir hissəsi şəhadətnamədə məbləği göstərilən yüksək məvacib alırdılar. Əylisli Zəkəriyyənin məlumatına görə, şah dülgərlərinin başçısı Culfa ustası Akupcan (Yaqub–Ş.İ.) şahdan ildə 30 tümən məvacib alırdı. Göründüyü kimi, karxana sənətkarları ilə

feodal-hakimə işləyən və sifarişçi üçün müstəqil işləyənlərin vəziyyəti arasında kifayət qədər fərq vardı.

Dövlət karxanasında işə qəbul olunarkən hər bir sənətkara Şahın hakim və ya ustabaşının möhürü ilə təsdiqlənmiş akta əsasən ona əvvəlcə az məvacib verilirdi, lakin zaman keçdikcə digər sənətkarların əmək haqqına bərabər məvacib alırdı. Sənətkarlar bütün həyatları boyu məvaciblə yaşayırdılar. Sənətkar xəstə olduqda, bədbəxt hadisə üz verdikdə onun məvacibini ailəsi alırdı. Sənətkarlın əmək haqqı üç ildən bir artırdı (79, 93). Lakin belə imtiyazdan əyalət sənətkarları deyil, şah karxanasının sənətkarları istifadə edə bilirdilər. Bütün bunlardan belə qənaətə gəlmək olur ki, yalnız yüksək ixtisaslı şah sənətkarlarına imtiyaz verilirdi.

İlk orta əsrlərdən fərqli olaraq, XVII əsr karxanası müəyyən daxili təkamül dövrü keçirmişdir; əgər ilk orta əsrlər karxanası quldarlıq tipli emalatxana (quldarlıq ukladı planında feodalizm cəmiyyəti) idisə, XVII əsr karxanası xeyli əmək bölgüsü aparılmaqla manufakturanın başlanğıcı idi. Burada sənətkarlar qismən azad idilər. Onlar müəyyən şərtlərlə azad muzdlu fəhlə ola bilərdilər.

Karxanada manufaktura istehsalı özünü hər şeydən əvvəl eynicinsli və yaxın sahələrin sənətkarlarının çoxunun iri emalatxanalarda sadə yol ilə birləşməsində, sahənin və vaxtın ixtisarında, xammalın və istehsal əməliyyatının sürətlənməsində, karxanada əməyin təşkilinin yığcamlığında özünü göstərirdi. Faktların müqayisəsi göstərir ki, XVII əsrdə feodal emalatxanalarında istehsal prosesinin ixtisaslaşması.

Azərbaycanın, demək olar ki, böyük bacarıq və dəqiqlik tələb edən sənətkarlıq istehsalının qismən inkişaf etmiş, ən mürəkkəb və zəhmət tələb edən sahələrindən biri sikkə zərbi

idi. Pullar Təbriz, Ərdəbil, Şamaxı, Gəncə, Naxçıvan, Ordubad və b. şəhərlərin adı ilə zərb olunurdu. Hal-hazırda həmin pulların çoxu Moskva, Sankt-Peterburq, Bakı, İrəvan, Tiflis və digər şəhərlərin muzeylərində saxlanır.

Böyük emalatxanalarda müxtəlif əməliyyatlar aparan çoxlu sənətkarlar cəmləşmişdilər. Vaxtın və sahənin azlığı, həmçinin istehsal prosesinin intensivləşdirilməsi sayəsində kiçik sənətkarlıq emalatxanalarına nisbətən burada əməyin məhsuldarlığı yüksək idi. Bu da texnikanın təkmilləşdirilməsi yolu ilə əldə edilmirdi. Burada istehsal alətləri, demək olar ki, hər yerdə olduğu kimi idi. Lakin bəzən vəziyyət həmin sənətkarlıq alətlərindən başqa cür istifadə etməyi tələb edirdi. Məsələn, əgər ayrı-ayrı sənətkar, hətta zərbaf toxuma sənətkarlığı ilə məşğul olan kiçik sənətkarlıq emalatxanasının (iri dövlət və ya feodal emalatxanalarında zərb olunan pullar istisna olmaqla) bu növ sənətkarlığın bütün növlərinin əməliyyatı ilə eyni vaxtda məşğul olmağa imkanı yox idisə, (Məsələn, qızılı və gümüşü sapları çəkməyə, xam ipəyi daramağa, sarımağa, boyamağa və s.) karxana sənətkarlıq sahələrinin bu növünün hamısını özündə birləşdirirdi. Karxanada istehsal vasitələrinin təkmilləşdirilməsinə az təsadüf edilsə də, bu sahədə ixtisaslaşma aydın görünürdü, lakin Şardenin qeyd etdiyi kimi, sənətkalıq texnikasının aşağı səviyyədə olması daha çox inkişaf etmiş manufaktura formasına xas olan sahələrdəki kimi, əmək məhsuldarlığının artmasında əsaslı rol oynamırdı. Karxana ustalarının istehsalat vərdişinin təkmilləşdirilməsinə daha çox fikir verilirdi. Əvvəla, feodallar və şahlar öz imkanlarından istifadə edərək ən yaxşı ustaları karxanaya toplayırdılar. İkinci, sənətkarların texniki mədəniyyəti daha dar ixtisaslaşma yolu ilə, daimi eyni əməliyyatı

təkrar etməklə yüksəldilirdi. Feodal hakimə, demək olar ki, xam malın müftə verilməsi sadələşdirilirdi. Beləliklə, sənətkar xammal axtarmaqla və satın almaqla məşğul olmurdu. Çünki bu çox vaxt və xərc tələb edirdi. Bunun üçün xüsusi müşrif vəzifəsi təsis edilmişdi. Bir çox sənətkarlıq sahələrini əhatə edən karxana istehsalının inkişafı, o cümlədən əsas toxuculuq sahəsi tədricən əsas istehsal sahəsinin–daha kiçik emalatxanaları sıxışdırırdı. Karxanada istehsal olunan parçaların keyfiyyəti və işlənməsi xeyli aşağı səviyyədə idi. Lakin ucuz olduğuna görə daxili və xarici bazarda tez satılırdı. Bunlar əsas etibarilə sadə pambıq parçalar idilər. Qızılı və gümüşü tikmələri olan zərbaf, tafta, məxmər və digər daha bahalı parçalar isə sarayda, şəhərdə ali feodal əyanları içərisində geniş yayılır və öz əvvəlki keyfiyyətini və möhkəmliyini saxlayırdı. Bəzən onlar öz zərifliyi və ziynəti ilə əvvəlkiləri ötüb keçirdi. XVII əsrin sənədləri Təbriz, Ərdəbil və Şamaxıda belə parçaların geniş istehsalına, habelə Rusiya, Avropa və digər ölkələrə daşınmasına şəhadətlik edirlər. Ayrı-ayrı sənətkarlar bahalı parçalar istehsal edə bilmədiklərinə görə, onlar ancaq iri feodal emalatxanalarının məhsulu ilə alver edirdilər. Bu, o demək idi ki, karxanalar kiçik sənətkarlıq istehsalatını təkcə əməyin təşkili və məhsuldarlığı ilə deyil, həmçinin öz məhsullarının əmtəəliyi baxımından da ötüb keçirdilər. Onlar həm də istehsalın daha mütərəqqi formasını, manufakturanın ilkini özlərində təcəssüm etdirirdilər. Bütün məhdudiyyətlərinə baxmayaraq, feodal təsərrüfat forması kimi karxananın xarici və daxili bazarla əlaqəsi onu göstərir ki, o geniş təkrar istehsal imkanına malik idi. Lakin təşkilat baxımından bütün bu mütərəqqi cəhətlərinə, məhsulun əmtəəliyi ilə bağlılığına və digər az əhəmiyyəti olmayan amillərə

baxmayaraq, onu əsl manufakturaya çevirmək mümkün olmadı. Belə amillərdən biri karxana sistemində tam muzdlu əməyin olmaması idi. Tədqiq etdiyimiz dövrün mənbələri göstərir ki, karxanada işləyən sənətkarlar digər sənətkar kateqoriyalarından daha çox asılı vəziyyətdə idilər.

Düzdür, XVII əsrdə Azərbaycan şəhərlərində karxanalara cəlb edilə biləcək çoxlu azad sənətkarlar yaşayırdılar. Lakin bu işin mahiyyətini dəyişmirdi. Karxanaya düşən sənətkar faktik olaraq öz şəxsi müstəqilliyini itirirdi. Çünki feodal təkcə emalatxananın sahibi deyil, həm də inzibati şəxs idi.

XVI əsrdə olduğu kimi, XVII əsrdə də Səfəvilər dövlətinin əsas gəlirini vergi və mükəlləfiyyətlər, kömrük rüsumları təşkil etsə də, I Təhmasib, I şah Abbas, Şah Səfi ölkənin təsərrüfat həyatının canlandırılması üçün müəyyən tədbirlər görmüş, vergiləri ləğv etmiş və ya yenidən bərpa etmişlər. Məsələn, 1556-1557-ci illərdə şah I Təhmasibin "malcəhət" və "vocuhat" adlı vergilərin ölkə miqyasında azaldılması barədə fərman vermişdi. I Abbas (1587-1629) Azərbaycanın bəzi vilayət və şəhərlərində vergi yükünü yüngülləşdirmək üçün bəzi tədbirlər gördü. Abbasın sələfi I Səfi (1629-1644) tacqoyma münasibətilə bütün vergi verən rəiyyətin vergi borclarını ləğv etdi.

Dövlət tərəfindən kənd təsərrüfatının inkişaf etdirilməsi, şəhərlərin abadlaşdırılması, ticarət karvan yollarının qaydaya salınması, vergi və mükəlləfiyyətlər barədəki islahatların hamısı bu məqsədə, yəni dövlət xəzinəsinə xidmət edirdi.

"Təzkirət əl-müluk"un məlumatından aydın olur ki, sexlər toplantı keçirirdilər. Bu toplantıda sex hər hansı bir şəxsin yüksək ixtisaslı olmasını nəzərə alaraq onun usta vəzifəsinə seçilməsini tövsiyə edirdi. Ustanın seçilməsi barədə sənədlər

hazırlanır və sonra, onu kələntərin yanına gətirirdilər. Kələntər ona şəhadətnamə verirdi. Sənətkar emalatxanasında bir və ya bir neçə şagirdlə işləyirdi. Bura eyni zamanda sənətkarlıq məmulatının satış yeri–dükanı idi. Ustanın yanında sənətkarlıq öyrənən şagird ilk gündən etibarən ümumi razılığa əsasən donluq alırdı. Usta ilə şagird arasında heç bir yazılı öhdəlik olmurdu. Usta istədiyi vaxt şagirdi qova bilərdi. Şagird də həmçinin istədiyi zaman ustanı və sexi tərk edə bilərdi. Sexə daxil olmayan fərdi sənətkarlar da vardı

Öz dükanında işləyən sənətkar, hazırladığı məmulatı özü də satırdı. Bu sənətkarlar kiçik tacirlər adlanırdılar. Sex nizamnaməsi haqqında və istehsalın nizama salınması barədə məlumatımız yoxdur. Ancaq bəzi risalə adlanan traktatlar saxlanılmışdır. Bu traktatlarda sənət haqqında risalə və sənətkarlara təlimat öz əksini tapmışdır. Sexlər şəhər inzibati idarələri ilə sənətkarlar arasında vasitəçi idi və əsas etibarilə inzibati vergi səlahiyyətini yerinə yetirirdi. Sex daxilində özünüidarə mövcud idi. Əsas etibarilə isə həm sexlər, həm də əsnafın üzvləri (sənətkarlar) kələntərdən, şəhərin feodal hakimindən, ticarət sıraları və dükan sahibləri və satıcılardan asılı idilər. Epiqrafik məlumatlardan belə nəticəyə gəlmək olar ki, sənətkarlar içərisində abidələrdə adları həkk olunan memarlar və qiymətli silahları, qab-qacağı ornamentlərlə bəzəyən zərgərlər daha çox imtiyazlara malik idilər. Avropa səyyahlarının məlumatlarına görə, Bakı və Azərbaycanın digər şəhərlərində müxtəlif sənət sahibləri və tacirlərlə yanaşı, ətraf kəndləri tərk etimiş, cüzi əmək haqqı alaraq günəmuzdla məşğul olan, kəndlilər, qayıqçılar, gəmiqayıran fəhlələr, yükdaşıyanlar, malları limana daşıyan hamballar və b. yaşayırdılar. Şəhərlərdə, həmçinin dərvişlər, şəhər əhalisinin ən

tavanasız təbəqəsi–"əcəmire və oubaş–avam camaat və pozğun ünsürlər" yaşayırdılar. Bunlardan əlavə, mənbələrdə rind (cəm halda-runud), fitiyan, cavanmərd, (cavan adam), avam, izdihamçılar, ixtişaşçılar, dəcəllər istilahlarına da təsadüf edilir. Bu istilahlar Yaxın Şərq şəhərlərindəki sosial hərəkatla, Azərbaycan şəhərlərində–Beyləqan, Şamaxı və Cənubi Qafqazın digər şəhərlərində baş verən və haqqında az məlumatımız olan üsyanlarla sıx bağlı idi. Bizim mənbələr şəhər əhalisinin bu təbəqəsi haqqında, demək olar ki, heç bir məlumat vermir.

Beləliklə, feodal-patriarxal münasibətlərin hökmran olduğu şəraitdə ilkin manifaktura istehsalı öz sonrakı inkişafının lazımi həllini tapa bilmədi.

XVII əsrdə Azərbaycanda manufakturanın ilkin inkişafı üçün daha mütərəqqi forma möhtəkir vasitəsilə yayılmış toxuculuq forması olmuşdur. Bazarla bilavasitə əlaqə möhtəkirlərin toxuculuq emalatxanalarına yiyələnmələrini göstərir. Daha imkanlı ustaların istehsalatdan ayrılmaları və öz tabeliyində olan adamların mallarını satmaqla məşğul olmaları da bizə məlumdur. Lakin XVII əsrin sonundan etibarən Azərbaycan feodal təsərrüfatında, o sıradan şəhər həyatında olan tənəzzül karxanadakı bu mütərəqqi başlanğıcın kapitalist istehsalına çevrilməsinə imkan vermədi. Feodal istehsal üsulunda olan böhranla yanaşı, tənəzzülün mühüm səbəblərdən biri də Avropa ölkələrində kapitalist manufakturasının inkişafı və tranzit ticarətin əhəmiyyətinin azalması idi. XVII əsrin sonlarında ixrac olunan bir sıra malların və parça istehsalının azalması fonunda Asiyadan, o cümlədən Azərbaycandan aparılan bahalı parçaların çoxu Avropa ölkələrində istehsal olunmağa başlandı. Bir sıra Şərq mallarının (toxucu-

luq, dulus və s.) istehsalına yiyələnən kapitalist Avropası onları istehsal etməyə və nisbətən ucuz qiymətə satmağa başladı. Məmulatın bir hissəsi xarici bazarın tələbini ödəməyə sərf edildi.

E.Kempfer və Sanson XVII əsrin sonlarında bu məsələ ilə bağlı kifayət qədər aydın məlumatlar verirlər. Xaricə ixrac olunan malların keyfiyyətinin pisləşməsi, Şərqin, o cümlədən Azərbaycanın sənətkarlıq məmulatlarının satış dairəsinin daralmasına səbəb oldu. Sanson gündəliyində Səfəvi dövlətində iqtisadi tənəzzülün səbəblərini şərh etməsə də, toxuculuq mallarından zərbaft (qızıl və gümüş saplarla toxunulan parça) adlı parçanın xarici bazarlarda alınmaması barədə məlumatları ölkədə artıq böhranın getdikcə dərinləşməsindən xəbər verir. O yazırdı ki, İsfahan, Kaşan, Məşhəd şəhərlərində toxuculuq karxanaları tikilmişdi və ipəyin çoxu bu karxanalarda sərf olunurdu. Bu karxanalarla qiymətli zərbaft parçalar toxunurdu ki, bu parçaları əsasən ölkə daxilində yerli əhali alıb istifadə edirdi. Ona görə ki, Böyük Moğol hakimləri həmin parçanın Hindistana gətirilməsini qadağan etmişdilər. Qızıl və gümüş saplarla toxunmuş bu parçanı Osmanlı ölkəsi əhalisi də almırdı. Ancaq Sansona görə nə xam ipək, nə də zərbaft parça ixracının azalması bu məhsulların daxili bazarlarda satışından kifayət qədər mədaxil əldə edən Şaha, yəni dövlət büdcəsinə hələlik o qədər də maddi ziyan vurmurdu.

XVII əsrin sonu - XVIII əsr ərəfəsində Səfəvi dövlətində şəhər həyatının tənəzzülü, ticarət-sənətkarlıqla məşğul olan əhalinin sayının azalması-bütün bunların hamısı şəhərlərdə karxanaların tənəzzülünə gətirib çıxarmışdıdı. İri emalatxanaların xırdalanması, öz növbəsində sənətkarlıq istehsalının

naturallaşması onu öyrəndiyimiz dövr üçün səciyyəvi olan mütərəqqi xüsusiyyətlərdən məhrum etmişdi. Bu zaman Səfəvi dövlətində baş vermiş siyasi böhran həmin prosesi, yəni sənətkarlığın zəifləməsini daha da sürətləndirirdi.

## 2.2. Ticarət

XVII əsrin ortalarında Səfəvi məmləkətində əmtəə-pul münasibətlərinin daha da genişlənməsi ilə əlaqədar olaraq bir çox şəhərlər təkcə ölkəmizin deyil, Yaxın və Orta Şərqin ticarət və sənətkarlıq mərkəzinə çevrilmişdilər. Artıq karvan ticarəti yolu üzərində yerləşən İsfahan, Kaşan, Təbriz, Ərdəbil, Gəncə, Şamaxı kimi şəhərlərin iqtisadi həyatında ticarət mühüm rol oynayırdı. Avropalı səyyahların bu şəhərlərdə bazarlarla yanaşı, topdan və pərakəndə satış mərkəzləri olan karvansaralar, onların sayı haqqındakı məlumatlar, ticarətin yüksək səviyyədə inkişafından xəbər verir.

S.M.Onullahı çoxsaylı qaynaq materiallarından əldə etdiyi məlumatları araşdırmış, Təbriz şəhərində ticarətin inkişafında, genişlənməsində karvansaraların müstəsna rola malik olması qənaətinə gəlmişdir. O yazır ki, Təbrizdə ticarəti inkişaf etdirmək üçün xeyli karvansara tikilmişdi. Artıq müxtəlif malların satışı üzrə ixtisaslaşmış bazarlar da vardı.

Karvansaralar əsasən şəhər darvazalarına yaxın yerdə, yaxud böyük bazarlarda tikilirdi. Bu karvansaraların bir çoxunda eyni vaxtda 100-300 nəfər gecələyə bilərdi. Təbrizdəki şah Səfi karvansarasında bir gecədə 100 nəfər öz minik və yük heyvanları ilə gecələyirdi. Gecələr tacirlərin malları və heyvanlarını qorumaq üçün karvansaranın ətrafında bir dəstə gözətçi dururdu.

Evliya Çələbinin 1647-ci il məlumatına görə, İsfahanda 24 karvansara olduğu halda, Təbrizdə 200 iri və orta, 70 kiçik karvansara, 1670-ci ildə Şardenin yazdığına görə hər birində 300 nəfər gecələyə bilən 300 karvansara vardı Bu da XVII əsrdə Təbrizdə ticarətin daha yüksək səviyyədə inkişaf etdiyini göstərir. Təbrizdə Zübeydə, Cahanşah, Aləmşah, Şah İsmayıl, Pirbudaq, Şah Abbas adlı karvansaralar daha məşhur idi. Karvansaraların sayı ticarətin də inkişafını göstərir.

Səfəvi məmləkətində istər xarici, istərsə də yerli tacirlərdən və adi satıcılardan yollarda kömrük nəzarətçiləri (rahdarlar) «rahdari» adlı yol kömrüyü (rüsum), şəhərlərin giriş darvazaları və bazarlarında isə bac (ticarət rüsumu) alırdılar. Engelbert Kempfer yazır ki, tacirlər karvan yollarında mallarına və yük heyvanlarının sayına görə rüsum ödəyirdilər. Burada mal araba ilə deyil, yük heyvanları dəvə, at və ulaqlardan ibarət karvanla aparılırdı. Rahdari rüsumu hər bir mahal ərazisindəki yollarda əmniyyətin təmin olunması üçün alınırdı. Əgər karvanlardan rüsum alınmasına yolların təhlükəsizliyini təmin edən rahdarlara Şah muzd verməli idi. Ancaq indi rahdarlara məvaciblərinin müqabilində yollarda tacirlərdən rüsum alırdılar. Ancaq harada ki, rahdari rüsumu rahdarlar üçün nəzərdə tutulmuş ümumi məvacibdən artıq toplandıqda bu məbləğ dövlət xəzinəsinə ödənilirdi.

XVII əsrdə Səfəvi dövləti ilə Hindistan arasında geniş ticarət əlaqələri vardı. Böyük kapitalı olan hind tacirləri İsfahanda, Bakıda və Azərbaycanın bir çox şəhərlərində ticarət koloniyaları salmışdılar. Onlar XVII əsrə qədər də ticarət məqsədi ilə İsfahana, Bakıya və Şamaxıya gəlirdilər. İri ticarətlə məşğul olan bu tacirlər Abşeronda zaviyələrdə yaşayan

hindliləri, atəşpərəstləri müdafiə edir, onlara ərzaq və pulla kömək edir, «Əbədi atəş» yerində hücrə və məbəd tikilməsinə yardım edirdilər. Hind tacirləri yerli tacirlərlə birlikdə Bakı vasitəsilə ildə Həştərxana 400 yükə qədər (hər yükdə 25 batman olmaqla) xam ipək aparırdılar. "Azərbaycan tarixi" muzeyinin ekspozisiyasında XVII əsrə aid «tirmə» parçası saxlanılır. Parça fil sümüyü rəngi fonunda "buta şəklində açıq-qırmızı" ornamentdədir. Tacirlər Hindistandan müxtəlif ədviyyat, əsasən Kəşmirdə istehsal olunan, Şərqdə geniş yayılan və "tirmə" adı ilə məşhur olan qızıl dəyərli müxtəlif parçalar, habelə qızılı saplarla toxunmuş pambıq və ipək parçalar gətirir, buradan isə xam ipəklə bərabər ağ neft alıb aparırdılar. Bakı və Azərbaycanın digər şəhərlərinin əyanları Hindistandan və Şərqin digər ölkələrindən gətirilən bahalı yun və pambıq parçalardan istifadə edirdilər.

XVII əsrdə hind malları Volqa-Xəzər yolu ilə Qərbi Avropaya və Rusiyaya daxil olurdu. Bu dövrdə Bakı, Şamaxı, Şabran, Ərdəbil, Təbriz ticarətin başlıca mərkəzləri idi. Azərbaycan şəhərləri və Həştərxan vasitəsilə Qərbi Avropa ilə daim ticarət əlaqələri yaranırdı. Şirvandan gətirilən ipək burada qiymətli xəz, dəri, misə, qalaya və digər mallara dəyişdirilirdi. Tacirlər buradan su yolu ilə Dərbənd, sonra isə Şamaxı ilə beynəlxalq tranzit ticarətdə mühüm rol oynayan, neft və duzun satılmasında vacib liman şəhəri və satış bazarı olan Bakıya gedirdilər. Daha sonra onlar quru yol ilə karvanla şimala və Cənuba, Səfəvinin digər əraziləri vasitəsilə Hindistana gedirdilər. Bakıda və Şirvanın digər şəhərlərində əmtəə-pul münasibətlərinin inkişafını XVII-XVIII əsrlərə aid olan iri pul dəfinələrinin tapılması təsdiqləyir (64, 33).

XVII-XVIII əsrin əvvəllərində Bakı Xəzər dənizində bir çox səyyahların qeyd etdiyi kimi, Şərqin Qərblə beynəlxalq tranzit ticarətində başlıca liman idi. Evliya Çələbi bu barədə yazır ki, Çin, Kitay, Xotan şəhərlərindən, Kalmıq və Moskva diyarından karvanlar Bakıya mal gətirirlər. Moskvalılar isə daim Bakıya gəlib duz, neft, zəfəran, ipək alıb aparırlar. Moskva diyarından isə samur və sincab xəzi, balıq dişi, bolqar dərisi gətirir, Bakı vasitəsi ilə bir hissəsini Gilandan keçərək Əcəmə aparırlar. 1683-cü ildə Bakıda olmuş Kempfer də şəhərin daxili və xarici ticarətdə önəmli mövqeyə malik olmasına toxunur. O yazır ki, bura Rusiyadan, Dağıstandan, Çərkəzistandan, Özbəkistandan və İrandan gələn gəmilər üçün çox rahatdır, yəni xüsusi ticarət əhəmiyyətinə malik liman şəhəridir. Şəhərin meydanındakı bazarda sənətkar və tacir emalatxanaları, dükanları yerləşirdi. Bura Özbəkistandan, qonşu ölkələrdən tərəvəz, düyü, taxıl gətirilir, neft və duz aparılırdı. Ancaq Evliya Çələbidən fərqli olaraq Engelbert Kempfer şəhərdə ticarətin zəif olduğunu qeyd etmişdir ki, bu XVII əsrin 80-ci illərindən etibarən bütün ölkə miqyasında təsərrüfatın ümumi tənəzzülü, daxili və xarici ticarətin çökməsinin nəticəsi idi.

XVII əsrdə Həştərxan Şərq ticarətini Qərblə bağlayan ticarət mərkəzi idi. Burada ruslarla alver edən, İran və Azərbaycan şəhərlərinə gedib, qızğın ticarət aparan hindlilər yaşayırdılar. Hind tacirləri ruslarla, Yaxın və Orta Şərq bazarları ilə ticarətdə başlıca vasitəçi idilər. Bu tacirlər XVII əsrin birinci rübündə Həştərxanda məskən salmışdılar. Onlar Azərbaycanda və İranda çoxdan bəri olan düşərgələrindən bura gəlirdilər. Təbriz, Ərdəbil, Şamaxı, Bakı, Salyan və Ərəşdə çoxlu hind tacirləri yaşayır və hind sənətkarlarının

məmulatları ilə alver edirdilər. Y.Streys XVII əsrin 70-ci illərində Şamaxı kənarında 100-dən çox banyan görmüşdü. Y.Streys yazır ki, onların inamı nə qədər incədirsə, özləri də bir o qədər incə, cəld, ticarət işlərində fəndgi, hiyləgərlikdə hindlilərin çoxunu ötüb keçəndirlər. Bir Fransız missioenerinin məlumatına görə, həmin əsrin 80-ci illərində Şamaxıda geniş ticarət aparan və ən varlı tacir hesab edilən 200-ə yaxın hind taciri yaşayırdı. Onların külli miqdarda pulları vardı, ticarət vasitəçiliyi ilə yanaşı, sələmçi-bank sahibi rollunu oynayaraq Azərbaycan və İran feodallarına iri məbləğdə, böyük faizlə borc pul verirdilər. Belə ki, 1666-ci ildə hind tacirləri Şamaxıda 100 manat gümüş pula 107 manat gümüş pul hesabı ilə 7860 manat Səfəvi pulunu dəyişmişdilər. Hind tacirləri Rusiyadan və Azərbaycandan çoxlu rus qızılı və gümüş pul aparırdılar.VII əsrin ikinci yarısından etibarən Azərbaycan və İran bazarlarının hindlilər tərəfindən zəbt olunması prosesi başlayır. XVIII əsrin əvvəllərində bu tacirlər Azərbaycan və İran bazarında üstünlük təşkil etməyə başladılar. Engelbert Kempferin yazdığına görə ölkənin mərkəzi İsfahan şəhərində hindlilərin sayı 10 min nəfər olub, onların hamısı ticarətlə məşğul idi. Onlar 4-5 min və daha yüksək məbləğdə ticarət əməliyyatı aparırdılar. Bu dövrdə Azərbaycanda hind tacirləri ticarətinin genişlənməsini Təbriz, Ərdəbil, Şamaxı, Bakı, Dərbənd və digər şəhərlərdə olan hind karvansaralarının olması təsdiq edir: 1637-ci ildə Şamaxıdan Ərdəbilə gedən ticarət yolu üzərində Şamaxı ilə alver edən hind tacirləri tərəfindən böyük karvansara tikilmişdi. Rus taciri F.Kotov 1623-cü ildə Şamaxıda 7 belə iri karvansaranı qeydə almışdı. Korneli de Bruin karvansaraların sayını 20-ə çatdırır və əlavə edir ki, "onların bəziləri hindlilərindir, daş-

dandır, yüksəkliyi 23-24 futa çatır, bunlar ən gözəlləri idi. Ticarətin canlanması şəraitində karvansaraların rolu artırdı. Karvansaralar dördbucaqlı, hündür daş divarlarla əhatə edilmişdi. Xarici ticarətdə karvansaraların da böyük rolu vardı. Çünki onlar bir ticarət alveri mərkəzinə çevrilmişdilər. Əvvəl qeyd etdiyimiz kimi, XVII əsrin 30-cu illərində Səfəvilərin paytaxtı olan İsfahanda 24, Qəzvində 3, Kaşanda 3 karvansara olduğu halda, 40-cı illərdə Təbrizdə 200-300 karvansara vardı. Orta hesabla bir gecədə karvansarada 50 əcnəbi tacirin gecələdiyini nəzərə alsaq, onda eyni vaxtda Təbrizdə azı 10 min nəfər əcnəbi tacirin olduğunu ehtimal etmək olar. Məlumdur ki, Şamaxı bu vaxt Azərbaycanda ipək istehsalı baxımından birinci yeri tutan iri ticarət mərkəzi idi. Əmin Əhməd ər-Rəzinin (XVII əsrin əvvəli) məlumatına görə, Şamaxıda ildə 20 min yükdən artıq ipək satılırdı. Ticarətdə ipək mühüm rol oynayırdı. Şəhərlərin iri feodalları ticarətlə əlaqədar idilər. Onlar ticarətə nəzarət edir, ondan külli miqdarda gəlir götürürdülər. I Şah Abbas dövründə ipək ticarəti dövlət xəzinəsinin inhisarına alınmışdı, lakin I şah Səfinin (1629-1642) islahatı nəticəsində ipək ticarətinin dövlət inhisarından çıxması feodalların ticarətdəki rolunu xeyli artırırdı. Yəni I Şah Səfiyə qədər rəiyyət və torpaq sahiblərindən ipək alınması xəzinənin inhisarında idi. Şah Səfi ipək ticarəti üzərindəki dövlət inhisarını ləğv edərək, dövlət məmurlarının xam ipəyin hazırlanıb reallaşdırılmasının qarşısını almağı qadağan etdi.

Artıq I şah Səfinin göstərişi ilə kəndlilərdən xəzinə vasitəçiliyi olmadan ipək almaq olardı. Əylisli Zəkəriyyədə bu barədə xeyli maraqlı məlumat vardır. O, yazır ki, Azərbaycan vəziri, Əylis tacirlərini özlərinin ikinci növ ipəyini 12500 di-

nara almağa məcbur edirdi. Halbuki həmin ipəyin həqiqi dəyəri 800 dinar idi. Vəzir qiymətdəki fərqi özünə götürürdü.

XVII əsrdə fransız missioneri Şamaxı haqqında yazır: «İri ticarət şəhəri olan Şamaxı Moskva ilə İran (Səfəvi-Ş.İ.) arasında anbar yeridir». Yezuit katolik rahibi Avril Flip (1686) qeyd edir ki, şahın bütün imperiyasında çoxlu xaricilərin görüşdükləri belə bir yer yoxdur.

Şamaxı bazarında hind tacirləri ipək və pambıq mallar, qızılı və gümüşü parçalar, hind sənətkarlarının bədii məmulatlarını satırdılar.Hind malları aşağıdakılardan ibarət idi: pambıq parça, ağ pambıq kətan, ipək parça, cızıxlı və ya damalı hind parçası-hind istehsalı pərdələr, pəncərə pərdəsi kimi istifadə etmək üçün parçalar, pəncərə pərdəsi və yataq örtüyü kimi istifadə etmək üçün hind ipək parçaları, bir rəngli kobud naxışlı çit, güllü lahor (hind şəhəri Lahorda istehsal olunan güllü parça), hind qırmızı qumaşı (al qırmızı rəngli pambıq parça), hind ipək parçası və s. Hind tacirləri, həmçinin qiymətli daş-qaş, mirvari və ədviyyə alveri edirdilər. Onlar Şamaxıdan Hindistana çoxlu xam ipək, ipək parça, Bakıdan qara və ağ neft, Abşeronda yetişdirilən zəfəran aparırdılar. Hind tacirləri çox iri miqyaslı və fərdi alver edirdilər. Avropa səyyahları XVII əsrin II yarısında hind tacirlərinin Azərbaycan şəhərlərinin Həştərxan vasitəsilə Rusiya və Avropa ilə tranzit ticarətində fəal iştirak etmələri barədə məlumat verirlər. Azərbaycan şəhərlərində yaşayan hindlilər Həştərxandan Dərbənd, Bakı, Şamaxıya gələn rus tacirləri ilə qızğın alver edirdilər. Onlar rus və Qərbi Avropa mallarını Azərbaycan şəhərlərinin bazarlarına gətirir, həmçinin Şərq mallarını Bakı limanı vasitəsilə Rusiyaya daşıyırdılar. Səyyah E.Kempfer 1683-cü ildə Bakıda hind karvansarasında Molta-

nı taciri ilə görüşmüşdü. Həştərxanda yaşayan hind tacirləri rus mallarını dəniz yolu ilə Niyazabad körpüsünə, Dərbəndə və Bakıya gətirir, habelə quru yolu ilə Şamaxı, Ərdəbil, Təbriz, daha sonra İsfahan vasitəsilə karvanla Bəndər-Abbasa qədər, oradan da Bəndər Surat körpüsünə, Hindistana aparırdılar.

Artıq XVII əsrdə hind tacirlərinin Həştərxanda rus mallarını almaları barədə məlumat vardır. Onlar bu malları Şirvana, daha sonra Yaxın Şərq bazarlarına çatdırırdılar. 1639-cu ilə aid bir arxiv sənədində gəmilərdə Həştərxandan dəniz yolu ilə Niyazabad körpüsünə, oradan da Şamaxı və Dərbəndə rus mallarının aparılması barədə məlumat verilir. Onlar bahalı xəzlərdən ibarət idi: samur qarınaltı xəzi, safsar xəzi, samur və dələ xəzindən kürk, qu tiftiyi, rəngli mahud, mis, qalay, yazı kağızı, qırmızı dəri, xam dəri, yağ, piy, yapışqan, səndəl, kürü. 1688-ci ilə aid digər bir sənəddə hind tacirlərindən Bxaqata və Qanqa Ramanın Dərbəndə aparmaq üçün Həştərxan gömrükxanasından buraxılan aşağıdakı malları qeydə alınmışdır: 75 tay qırmızı parça, 16 tay arşınlıq mahud, 16 top mahud, uzunluğu 12 sajen olan 50 top yun iplik, 10 top açıq xətmi rəngdə mahud, qoyun dərisindən 57 papaq, 9 noqay qoyun dərisi, 50 tay təmiz dələ dərisi, 50 min sancaq, 60 min iynə, 30 litr zahiri bəzək üçün işlədilən rəng. Hind tacirləri Azərbaycan şəhərlərində öz mallarını realizə etdikdən sonra Şamaxı, Bakı və digər şəhərlərdən xam ipək və ipək məmulatları alırdılar. 1676-ci ilə aid bir sənəddə qeyd edilir ki, hind taciri Ləki 15 il öncə, Razinin Həştərxana hücümundan əvvəl Hindistandan Farsa gəlmişdir. Yürüş vaxtı isə Hindistandan və Şamaxıdan Həştərxana mal gətirmiş və burada hərdən yarımil, sonra isə bir il yaşamışdır.

XVII əsrdə Təbriz böyük ticarət şəhəri idi. Mənbələr yazırlar ki, Təbriz Səfəvi dövlətində öz əhəmiyyətinə, miqyasına, zənginliyinə, ticarətinə və əhalisinin sayına görə (550 min nəfər) hind tacirlərini özünə cəlb edən ikinci şəhər idi. Ümumən, əmtəə-pul münasibətlərinin inkişafı tədricən ticarətin inkişafına səbəb olurdu. 1648-ci ildə Təbrizdə olmuş fransız Aleksandr de Rud yazır: «Bu şəhərdə hər şey ucuz qiymətə satılır. Mən şəxsən müşahidə etdim ki, bir sikkə gümüş verməklə o qədər çörək aldıq ki, bir adam bir həftə ərzində onu yeyib qurtara bilməzdi.

Avropa səyyahlarının məlumatına görə, XVII əsrin ortalarında Azərbaycan şəhərlərində gur ticarət gedirdi. Şəhər əhalisinin tələbatını ödəmək üçün müxtəlif zərgərlik (sırğa, üzük, qolbağı), toxuculuq (ipək, yun, kətan parça) məmulatları satılırdı. Bu çeşidli məmulatlar Azərbaycan şəhərlərinin daxili və xarici ticarətinin əsasını təşkil edirdi. Azərbaycan şəhərlərinin xarici aləmlə ticarət əlaqələri də geniş idi. Şah Səfi və II Şah Abbasın (1642-1666) hakimiyyətləri dövründə ticarət yolları I Şah Abbasın dövründə olduğu kimi, yenə də təhlükəsiz olaraq qalırdı. Səfəvilər dövləti ərazisində malları yoxlamadan gözətçilərə müəyyən məbləğdə rahdari vergisi (pul vergisi) verilirdi. Avropa səyyahlarının təsvirinə görə, XVII əsrin 70-ci illərində Təbrizdən ildə 130 min tümən rahdari toplanıb İsfahan xəzinəsinə göndərilirdi.

Göründüyü kimi, Səfəvilər dövründə gətirilən və aparılan mallar üçün rahdari yol rüsumu və kömrük xərci mövcud idi. Tavernyeyə görə gömrük rüsumu malların bazarlarda satış qiymətinin bahalaşmasına təsir göstərirdi.

Təbriz təkcə Rusiya ilə Azərbaycanın ticarət əlaqələrində deyil, Türkiyə vasitəsilə Avropa ölkələri ilə də ticarət müna-

sibətlərinin yaranmasında mühüm rol oynayırdı. 1645-ci il noyabrın 29-da Təbrizdə olmuş fransız Labullay Təbriz ticarətini belə şərh etmişdir: «Təbriz Asiyanın ən məşhur ticarət şəhəridir. Ticarət karvanı buraya hər cür mal gətirir. Qərb ölkələrindən, həmçinin Yunanıstandan, Polşa və Venesiyadan oraya qızıl, gümüş, zərif parça, mirvari, kəhrəba, Şərq ölkələrindən–Tatarıstandan, Özbəkistandan, Tibetdən, Çindən, Şərqi Hindistandan ipək, yaqut, almaz, şilə adlı təsvirli kətan parça, darçın, istiot, müxtəlif ədviyyat gətirirdilər. Bu şəhərdə çoxlu ipək toxuculuğu malları hazırlanıb Yunanıstan və Afrikaya göndərilirdi».

E. Kempfer Səvəfi şahlarının əlaqələrindən söhbət açaraq, İsveç səfirinin ölkəsinin kralı XI Karlın (İsveç dilində) Polşa kralının (28 yanvar 1686-cı il) Şah Süleymana ünvanlanmış məktubunun mətni və məzmunu, Fransa, Moskva və digər ölkə səfirlərinin Şah Süleymanla (1666-1694) görüşləri və bu görüşlərdə ticarət əlaqələrinin genişləndirilməsi təklif etmələri barədə məlumat vermişdir.

Ölkənin sosial-iqtisadi vəziyyətini sahmana salmaq üçün I Şah Abbasın islahatlarından sonra, karvan yollarının təhlükəsizliyi əsasən təmin edilmişdi.

XVII əsrin 60-70-ci illərində Təbrizin xarici ticarəti daha da inkişaf etmişdi. «Öz əzəməti, sərvəti, ticarəti, əhalisinin sayına görə İsfahandan sonra ikinci şəhər hesab olunan Təbrizə Asiyanın bütün ölkələrindən tacirlər gəlir, məskən salırdılar». Xaricdən gətirilən malların çoxu karvansaralarda iri tacirlər vasitəsilə alınırdı.

XVII əsrin sonunda bir sıra səbəblərə görə, Azərbaycanın digər şəhərləri kimi Təbriz də iqtisadi tənəzzül dövrü keçirsə də, burada olmuş Avropa səyyahları, tacir, diplomat və mis-

sionerlərin qeydlərindən aydın olur ki, Təbriz bu dövrdə Yaxın və Orta Şərqdə böyük sənətkarlıq və ticarət mərkəzi olmuşdur. Ancaq onu da qeyd etmək lazımdır ki, XVII əsrin 80-ci illərindən etibarən Səfəvi dövləti miqyasında baş verən iqtisadi böhran istər-istəməz Təbriz şəhərinə də öz təsirini göstərmişdi. Bu böhranın bəzi elementləri Sansonun da diqqətindən yayınmamışdır. O yazır ki, artıq İsfahan, Kaşan, Təbriz, Məşhəd şəhərlərinin karxanalarında zərli parçalardan toxunan paltarların geyimi Hindistanda qadağan edilmişdi. Türkiyə və başqa qonşu ölkələrdə də istifadə olunmadığı üçün ixracatı azalmışdı. Ümumiyyətlə, Səfəvi dövlətinin xarici ticarəti məhdudlaşmış və bu səbəbdən gömrük gəlirləri də azalmışdı ki, nəticədə bütün bunlar dövlətin mədaxilinə ciddi ziyan verirdi.

Yeri gəlmişkən qeyd edək ki, bir qayda olaraq tacqoyma mərasimində qızıl sikkə zərb edilirdi. Bu sikkələr ənam, hədiyyə formasında əyanlara verilirdi. Xəzinədə və əhali arasında da tək-tək hallarda qızıl sikkəyə təsadüf edilirdi. Deməli, Azərbaycanda və İranda qızıl pul tədavüldə çox az idi. Bayramlar keçdikdən sonra ayrı-ayrı şəxslər onlara bağışlanmış qızıl sikkələri sərrafların yanına aparıb tədavüldə olan pullara dəyişirdilər. Qızıl sikkələrin dəyəri 5 franka və ya Almaniyanın 2 dükatına bərabər idi. Gümüş pullar isə abbası, yarımabbası və ya xudabəndədən, şahı və bistidən ibarət idi. Abbası reyhstalerə bərabər idi. Bahalı mallar tümən ilə qiymətləndirilirdi. Abbası pul vahidi isə I Şah Abbasın adı ilə əlaqədar zərb edilmişdi və dövriyyədə idi. Yarımabbası Xudabəndə adlanırdı. Çünki Səfəvi hökmdarı Sultan Məhəmməd Xudabəndə dövründə zərb edilmişdi. Gümüş pullar barədə J.Tavernyenin məlumatı A.Olearinin məlumatına nis-

bətən daha ətraflıdır. Azərbaycanda və İranda hər cür gümüş qab-qacaq, sikkə, gümüşdən olan hər şey tədavüldədir. Azərbaycan və İrana daxil olmuş hər bir əcnəbi tacir ölkəyə daxil etdiyi gümüşün miqdarını bildirməlidir. Ticarət karvanı İsfahandan Hindistan səfərinə çıxarkən hər bir gümüş sikkə üçün tacir 13,5 və ya 14 şahi verməli idi. İpək almaq üçün Gilana yollanan tacirlər Tiflisdən keçməli, orada gümüşlərini sikkəyə çevirmək üçün zərrabxana rəisinə yüzdə iki mənfəət verməli idilər.

Sansonun yazdığına görə, Səfəvi dövlətinin zərbxanalarında gümüşə tələbat çox olduğuna görə Avropa ölkələrindən də gümüş külçə alırdılar. Avropa ölkələrindən Səfəvi zərbxanaları üçün gümüş alıb gətirən erməni tacirləri mənfəətin az olacağından şübhələndikdə gümüş külçəni gizli yollarla Hindistana aparıb orada satırdılar. Şah üç il əvvəl dövriyyədə olan sikkələrin dəyişdirilməsi, yəni yeni sikkə zərbi haqqında göstəriş vermiş, ancaq xəbər tutmuşdur ki, yeni sikkə zərb etmək üçün kifayət qədər gümüş yoxdur. Ona görə ki, ölkəyə İspaniyadan gümüş gətirən erməni tacirləri burada kifayət qədər mənfəət əldə edə bilməyəcəklərindən şübhələndiklərinə görə gümüşü Bəsrə yolu ilə Hindistana aparmışdılar. Şah dərhal erməni tacirlərinin böyüklərinə bildirdi ki, əgər erməni tacirlərinin İspaniyadan alınan gümüşü Hindistana aparması davam etsə, siz on min əşrəfi cərimə ediləcəksiniz. Bu zaman erməni tacirlərinin Bəsrədə səkkiz yüz min əşrəfi dəyərində gümüş ehtiyatı vardı. Onlar Bəsrədəki gümüş ehtiyatını Hindistana Hollandiya gəmisi ilə aparmaq fikirində idilər. Holland səfiri onlara bildirmişdi ki, gümüş külçələrini Holland gəmisinə yükləyə bilərlər, ancaq gəmi İran sahilinə yan alıb burada dayanmayacaq və birbaşa

Hindistana üzəcək. Ancaq səfir sözünə əməl etmədi və gümüş yüklü gəmi Bəndər-Abbasa üzüb burada lövbəri endirib dayandı. Limanın gömrük rəisi gümüşü müsadirə etdi. Bu zaman sarayda olan Holland səfiri malın azad edilməsi üçün heç bir cəhd göstərməmişdi. Öz xeyirləri, yəni Səfəvi sarayı ilə yaxınlaşmaq xatirinə ermənilərə zərər dəyməsinə razı olur. Şah sonda lütfükarlıq göstərib erməniləri cərimədən azad edir. Sansona görə Şah erməniləri və ticarət məqsədi ilə digər ölkələrdən gələn xristianları vergidən azad edirdi. Göründüyü kimi, erməni tacirinin Hindistana apardığı gümüş külçə müsadirə edilsə də, onlar cərimədən azad edilir. Dövlətin iqtisadiyyatının zəiflədiyi bir dövrdə erməni tacirlərinin bu cür işləri dövriyyədə gümüş sikkənin azalmasına və bu da öz növbəsində ticarətin zəifləməsinə təsir edirdi.

Avropa səyyahlarının məlumatına görə, sikkələr üzərində heyvan şəkilləri təsvir edilirdi və bu təsvirlər hər il dəyişilirdi. Bu da türk dünyasının mənəvi dəyərlərini yaşatmaq nümunəsi idi. Çox ehtimal ki, bu 12 ayın hərəsinə bir heyvan adının verilməsi ilə əlaqədar idi. Sonralar isə Şərq aləmində müsəlmanlar arasında yeni ilin hansı heyvan üzərində təhvil olması məsələsi meydana çıxır ki, bu ənənə indiyə qədər davam edir.

Gümüş sikkələrin bir üzündə şahlıq dövründə zərb edilmiş şahın adı, digər tərəfdən isə zərb olunduğu şəhərin adı və zərb olunduğu tarix hicri təqvimi ilə verilmişdir. Lakin mis sikkələrin bir üzündə şir şəkli və üstündə günəş təsviri həkk edilmişdir. Digər üzündə isə zərb olunmuş şəhərin adı qeyd edilmişdir.

XVII əsrin ortalarında iqtisadi dirçəliş və sikkəyə tələbin artması ilə əlaqədar olaraq Təbrizdə Mirzə Tahir karvansara-

sı zərrabxanaya çevrilmişdi. Təbrizə daxil olan tacir gümüşünü Təbriz zərrabxanasına təhvil verərək şahın adını üzərinə zərb etdirməklə sikkəyə çevirməli idi. Gümüşünü gizlədib zərrabxanaya təhvil verməyən tacirlərdən cərimə alınırdı.

XVII əsrin 80-ci illərində Avropa ölkələrindən Səfəvi dövlətinə göndərilən elçilər hədiyyələr gətirir və bunun qarşılığında onlara öz dövlət başçılarına aparmaq üçün hədiyyələr verirdilər. Bu əslində dövlətlərarası hədiyyələr mübadiləsi ilə səciyyəvi qarşılıqlı ticarət münasibətləri idi. Engelbert Kempfer 1684-cü ildə İsfahanda İsveç, Moskva, Polşa səfirlərinin gətirdikləri hədiyyələri rəsmi qaydada Şaha təqdimatı mərasimində iştirak etmiş və bu barədə əsərində ətrafli məlumat verir. Belə ki, Səfəvi Şahına İsveç səfiri bir saat, 9 ov tüfəngi, 7 at, Moskva səfiri əla samur dəriləri, 2 güzgü, 1 şüşə sandıq, Polşa səfiri isə 5 qızılquş təqdim edir. Ancaq qeyd edilənlərdən əlavə xeyli hədiyyə gətirilmişdi ki, bunlar ipək, yun və pambıq parçalar, qiymətli xəzlər, yorğan, döşək, qızıl və gümüş əşyalar, ayaqqabı və bir çox başqa predmetlərdən ibarət idi.

İngilislər 1622-ci ildə portuqalların Hörümüzdən çıxarılmasında Səfəvi dövlətinə kömək etmişdi. Bunun qarşılığında isə Səfəvi dövləti üzərinə götürdüyü öhdəliyə görə ingilis tacirləri idxal və ixrac əməliyyatında gömrük rüsumundan azad edilmişdilər. Əlavə olaraq Bəndər Abbas limanının illik gömrük rüsumunun yarısı da İngiltərəyə verilməli idi. Bu vaxtdan etibarən portuqallar İran körfəzində əvvəlki üstünlüklərini itirmiş və burada ingilis tacirlərinin mövqeyi güclənmişdi. Ancaq Şah Süleyman (1666-1694) ingilis tacirlərinə verilmiş imtiyazları ləğv etmişdi. XVII yüzilini 60-70-ci illərində İngiltərə-Səfəvi qarşılıqlı əlaqələri yenidən genişlə-

nir. Elə Engelbert Kempferin də İran körfəzində İngilis tacirlərinin mövqeyi möhkəmlənmişdi dedikdə, təkcə XVII əsrin 30-cu illərini deyil, həmin əsrin 70-80-ci illərini də nəzərdə tutur.

Səfəvi-Fransa dövlətləri arasında qarşılıqlı ticarət əlaqələri Fransanın 1664-cü ildə Şərqi Hind şirkətini yaratdıqdan sonra mövcud olmuşdur. Sanson bu barədə çox az məlumat verir. O, yazır ki, Əlahəzrət Şahın Fransa tacirlərinə münasibəti çox yaxşı idi. Belə ki, on bir il əvvəl limanın gömrük idarəsinin rəisi Fransanın Ost-Hind şirkətinin ticarət təşkilatının rəisi Monte Ferrenin pulunu müsadirə etmişdi. O, Şahdan həmin pulun qaytarılmasını xahiş edir. Şah dərhal göstəriş verdi və alınmış bütün pul ona qaytarıldı. Şahın naibi rəisülvüzarə də ona çox mehribanlıq göstərdi. 1683-cü ildə Şah sarayına xəbər çatdırıldı ki, dörd Fransa gəmisi İran körfəzi sularında lövbər salmaq istəyir. Şah bütün sahil hakimlərinə göstəriş verdi ki, Fransa gəmilərini ehtiramla qarşılasınlar onlar üçün ərzaq, içməli su hazlrlasınlar və pulsuz versinlər. Sansonun gündəliyində Səfəvi-Fransa qarşılıqlı iqtisadi əlaqələrinə çox az yer verilmişdir. Sözsüz ki, bu XVII əsrin son illərində Səfəvi dövlətinin iqtisadiyyatının tənəzzülü və bununla əlaqədar olaraq bir çox Avropa ölkələri kimi Fransa ilə də ticarət münasibətlərinin zəifləməsi ilə əlaqədar idi. Engelbert Kempferə görə bu zaman Hollandiyanın Səfəvi dövləti ilə ticarət əlaqəsi çox güclü idi. Əgər hollandlar istəsələr, Şahla razılığa gəlib hər ilə Səfəvi dövlətinə gömrük rüsumu ödəmədən 25000 tümən (425000 taler) mal ixrac edə bilərdilər. Ancaq bu zaman onların Səfəvi dövlətin ixrac etdikləri malın ümumi dəyəri 20000 tüməndən artıq deyildi. Səyyaha görə bu zaman İran körfəzinin limanlarında Hollandiya,

Fransa və bir neçə başqa Avropa dövləti istisna olmaqla digərlərinin nümayəndəlikləri yox idi.

Sanson əsərində Səfəvilərin Hollandiya ilə qarşılıqlı ticarət əlaqələrinə bir qədər geniş yer verir. O, yazır ki, hollandlar Şahla bağladıqları müqaviləyə görə hər il 300 tay ipək almaq hüququ əldə etmişdilər. Və müqaviləyə əsasən hər tay ipəyin bazar qiymətindən əlavə 1000 livr də ödəməyi öhdələrinə götürmüşdülər. Ancaq bunun müqavilində Səfəvi bazarlarına gətirdikləri bütün malları gömrük rüsumundan azad olunmuşdu. Lakin ilk vaxtlar hollandlar Səfəvi bazarlarına kifayət qədər ticarət malı gətirdikləri üçün müqavilənin şərtləri mənafelərinə uyğun idi. Çox keçmir ki, beynəlxalq münasibətlərdə gərginlik baş verdiyinə görə Hollandiyanın Səfəvi dövlətinə mal ixracı azalır. Belə bir vəziyyətdə holland tacirlərinin aldıqları hər tay ipəyə görə əlavə pul vermələri mənfəətlərinin azalmasına səbəb olmuşdur. Lakin Hollandiyanın Səfəvi dövlətinə mal ixracının azalması və müqaviləyə əsasən ipək almalarının davam etməsi Şah üçün sərfəli idi. Elə bu məsələ ilə bağlı Hollandiyadan İsfahana Van Lıen adlı səfir göndərilir. O, Şahla danışıb ipəyin qiymətini azaltmağa müvəffəq olmalı idi. Bu məqsədlə İsfahana gəlmiş səfir Şaha çox qiymətli hədiyyələr də gətirmişdi. Holland səfirinə şifahi olaraq ipəyin hər tayının qiymətini 3 ekü azaldılacağı vəd edilir. Ancaq bu barədə rəsmi razılıq əldə edilmədi. Əslində Holland səfiri qiymətli hədiyyələr gətirdiyinə görə onu incitməmək xatirinə ipəyin qiymətini endirəcəkləri barədə şifahi vəd verilmişdi. Holland səfiri dövlət məmurlarına da rüşvət verib şifahi verilmiş vədi kağız üzərində rəsmiləşdirməyə cəhd etsə də, buna müvəffəq olmadı. Səfir paytaxtı tərk edib Lara çatdıqda rəsmən Səfəvi hökümətini təhdid

edərək elan etdi ki, şirkətin Bataviyadakı hərbi gəmilərini körfəzə gətirib buradakı limanları məhv etdirəcək. Ancaq Səfəvi höküməti çox yaxşı bilirdi ki, Bataviyadakı şirkət buna qadir deyildir. Həm də bu zaman Hollandiyanın rəqibi olan Fransanın böyük hərbi gəmiləri tez-tez körfəzə gəlir və onların Səfəvi sarayı ilə əlaqələri, gediş-gəlişləri vardı. Sanonun yazdığına görə Şah Fransanın Ost-Hind şirkətinin tacirlərinə imtiyazlar vermişdi. Buna görə də körfəzdəki Fransanın hərbi gəmiləri Səfəvi dövlətinin maraqlarını qoruyurdu və Hollandiya gəmilərinin belə bir vəziyyətdə İran körfəzinə müharibə məqsədilə girməsi mümkün deyildi. Engelbert Kempfer isə yazır ki, fransızlar peşkəş verib gömrük rüsumundan azad olmuşdular.Ancaq onların gəmiləri İran körfəzinin limanlarına çox az gəlirdilər.

Bu zaman Səfəvi dövləti ilə ticarətdən zərər çəkən və narazı qalan təkcə hollandlar deyildi. Belə ki, Səfəvi dövlətinin dövriyyədə olan sikkələrinin çoxu qəlp olub dəyəri çox azalmışdı və heç kim öz ticarət malını Səfəvi ölkəsinə gətirib burada mis pula satmaq istəmirdi. Bu zaman ölkə zərrabxanalarında kifayət qədər saxta pul kəsilirdi. Zərrabxanalarda nəzarət zəifləmiş, qəlp sikkə kəsənlər tutlduqda belə, rüşvət verib razılaşır, yenə öz işləri ilə məşğul olurdular. Nəticədə dövriyyəyə həddən çox qəlp pul daxil edilmişdi. Sanson yazır ki, doğrudur, Şah on il olardı ki, sikkələrin dəyişdirilməsi və düzgün əyyarda zərb edilməsi sahəsində az iş görməmişdi. İsfahan, İrəvan, Təbriz, Ərdəbil, Həmədan, Dadiyan, Həvizedə Şahın göstərişi ilə yeni sikkələr zərb edilmişdi. Şah bu sikkələrin ölkədən çıxarılmasını da qadağan etmişdi. Buna baxmayaraq sikkələri yenə də daha çox hindlilər ələ keçirir öz ölkələrinə aparırdılar. Bu zaman hindlilərin Bəndər Abbas

hakimi ilə gizli əlaqələri vardı. Ona rüşvət verib yeni sikkələri ölkədən çıxarırdılar. Elə buna görə də nə qədər sikkə zərb olunsa da, daxili bazarda yenə də tapılmırdı. Ancaq yüksək əyyarlı sikkələrin qiymətini qaldırmaqla bu çətinliyə son qoymaq olardı. Çünki sikkənin qiyməti yüksək olduqda onun ölkədən çıxarılması hindlilər üçün sərfəli olmayacaqdı. Avropanın qızıl və gümüş sikkələri Səfəvi bazarlarında dəyərsiz olduğuna görə heç kim onları bu ölkənin bazarlarına gətirmirdi. Bu zaman hindlilər Bəsrədən Venesiya sekinlərinin və İspan ekүsünü də ələ keçirib birbaşa Hindistana aparırdılar. Səfəvi dövlətinin zərrabxanalarında qəlp sikkələr kəsilməsi və bu pulların külli miqdarda dövriyyəyə daxil olması, hindli tacirlərin müxtəlif yollarla yüksək əyyarlı sikkələri Hindistana aparmaları ölkənin təkcə xarici iqtisadi əlaqələrini deyil, daxili ticarətini də zəiflədir, böhranı daha da dərinləşdirirdi.

# III FƏSİL
# SOSİAL MÜNASİBƏTLƏR VƏ İDARƏÇİLİK SİSTEMİ

## 3.1. Şəhər həyatı və sosial struktur məsələləri

XVII əsrin birinci yarısında Səfəvi dövlətinin istər şimal-qərb, istərsə də cənub-şərq sərhədlərində baş vermiş müharibələr ölkənin kənd təsərrüfatı ilə yanaşı, şəhərlərin sosial-iqtisadi həyatına da mənfi təsirlər göstərmişdir. Ancaq əvvəl qeyd edildiyi kimi, II Şah Abbasın (1642-1666) həyata keçirdiyi bərpa və quruculuq işləri sayəsində bir çox şəhərlər yenə də ticarət-sənətkarlıq mərkəzlərinə çevrilmiş, onların ictimai həyatlarında da ciddi dəyişikliklər baş vermişdir. Sansonun, Engelbert Kempferin əsərlərində və dövrün bir çox mənbələrində Səfəvi məmləkətinin şəhər əhalisinin məşğuliyyəti və ümumiyyətlə şəhər əhalisi barədə məlumatlar verilir. Ancaq ölkə və şəhər əhalisinin sosial tərkibi, sayı məsələsinə ötəri toxunulur. Onu da qeyd etmək lazımdır ki, əhalinin sayı və sosial tərkibi barədə xüsusi statistik material da yoxdur. XVII əsrin ortaları və ikinci yarısında Səfəvi dövlətində İsfahan, Kaşan, Təbriz, Şamaxı, Gəncə, Ərdəbil və s. ən böyük şəhərlər idilər.

I Şah Abbasın (1587-1629) dövründə İraqi Əcəmdə yerləşən İsfahan şəhəri dövlətin mərkəzi olduqdan sonra bura ölkənin müxtəlif bölgələrindən, o cümlədən Təbrizdən əhali köçürülüb yerləşdirilmiş, tikinti-təmir işləri aparılmış, yeni yaşayış kvartalları salınmış, bazarlar, karvansaralar, məscidlər, mədrəsələr, hamamlar tikilmişdi. Şəhərin ətrafındakı münbit torpaqlara Zayəndərud çayından su arxları çəkilmiş,

əkinçilik təsərrüfatının bir çox sahələri, xüsusilə bağçılığın, bostançılığın, taxılçılığın inkişafı üçün əlverişli şərait yaradılmışdı. İsfahan ölkə miqyasında çox böyük iqtisadi əhəmiyyət kəsb etmiş və ticarət-sənətkarlıq mərkəzinə çevrilərək dövlətin əcnəbi ölkələrlə qarşılıqlı ticarət əlaqələrində də əsas iqtisadi mərkəzə çevrilmişdi. XVII əsrin I yarısında baş vermiş Osmanlı-Səfəvi savaşlarında ölkənin mərkəzində əlverişli təbii-coğrafi şəraitdə yerləşən İsfahan şəhəri dağıntıya məruz qalmamış, öz iqtisadi nüfuzunu ölkə miqyasında nəinki saxlamış, şəhərin ticarət və sənətkarlıq mərkəzi kimi əhəmiyyəti daha da artmışdı. Elə buna görə də XVII əsrin sonlarında Səfəvi dövlətində başlanmış iqtisadi böhranın bir çox şəhərlərlə müqayisədə İsfahana təsiri hələ ki, bir o qədər güclü deyildi. Bu illərdə İsfahanda uzun müddət yaşamış Engelbert Kempferin məlumatları da deyilənləri təsdiq edir. Engelbert Kempferə görə I Şah Abbas dövründə İsfahan dövlətin mərkəzi olduqdan sonra şəhər sürətlə inkişaf etmiş və Asiyanın ən böyük şəhəri olmuşdu. Müəllif sözünə davam edərək göstərir ki, bu gün də, yəni XVII əsrin 80-ci illərində də müxtəlif səbəblərlə əlaqədar bura ölkənin hər tərəfindən adamlar gəlib yerləşir və şəhər getdikcə genişlənirdi. O, İsfahanda çoxlu kvartallar (məhəllələr) olduğunu qeyd etmiş, ancaq onlardan Abbasabad və Culfanın adlarını çəkmiş, atəşpərəst farsların isə Culfanın cənub tərəfində 600 evdən ibarət böyük bir kənddə yerləşib və əkinçiliklə məşğul olduqlarını qeyd etmişdir. Səyyah əsərində İsfahan əhalisinin ümumi sayını qeyd etməmiş, ancaq atəşpərəst kvartalının 600 evdən ibarət olduğunu və Culfada isə təxminən 3000 nəfər yaşadığını yazmışdır. Engelbert Kempferə görə XVII əsrin 80-ci illərində İsfahan əhalisi tərkibinə görə əsilzadə, ta-

cir, sənətkar, əkinçilərdən ibarət olub, şəhərdə bir xəstəxana, yüzdən çox məscid və mədrəsə, çoxlu karvansara, hamam mövcud olmuşdu. Bu dövrdə ölkənin böyük şəhərlərində yüksək keyfiyyətli, bahalı mallar satılan Qeysəriyyə adlı bazar mövcud olmuşdu. İsfanadakı bu bazar Şah məscidi yaxınlığında yerləşirdi. Şəhərdə yerli əhaliylə yanaşı, tatar, hindli, rus, ərəb, türk və qeyri millətlərdən olan əhali də məskun idi. Bu zaman şəhərdə ümumi sayı on mindən çox hindli vardı ki, onların əksəriyyəti tacir idi. Gürcü, Çərkəz, dağıstanlıların sayı isə təxminən iyirmi min olub, onlar da müxtəlif işlərlə məşğul olurdular. Şəhərin avropalı sakinlərindən yeddi nəfər fransalı saatsaz, minakar və zərgər idilər. İngilis və hollandların İsfahanda ticarət nümayəndəlikləri vardı. Şah ingilis nümayəndəliyinə yaşamaq və işləmək üçün xüsusi saray vermişdi. Holland nümayəndəliyinə isə yaşayış və iş yerini dövlət verməmişdi. Bu zaman şəhərə Portuqaliyadan da tacirlər gəlirdi. Fransız tacirlərinə çox nadir hallarda təsadüf edilirdi. Səyyah Kempferin bu məlumatları XVII əsrin 80-ci illərində İsfahanın ölkənin Şimal-Qərb şəhərləri ilə müqayisədə iqtisadi nüfuzunun güclü olmasını bildirsə də, bu dövrdə baş vermiş iqtisadi böhran İsfahana da öz təsirini göstərməyə bilməzdi.

Naxçıvan, Marağa, Mərənd, Ordubad, Gəncə mühüm sosial-iqtisadi mərkəzləri idilər. Onların içərisində Gəncə ipək parça istehsalı ilə fərqlənir və şəhərdə sənətkarlar əhalini xeyli hissəsini təşkil edirdi. XVII əsrin ortalarından Gəncə xam ipək ticarəti ilə təkcə Azərbaycanda deyil, bütün Səfəvilər dövləti ərazisində ən böyük şəhərlərdən biri idi. Gəncə şəhərinin sənətkarlığında dəmir məlumatlar istehsalı əsas yerlərdən birini tuturdu. Bunu Evliya Çələbiinin Gəncə şəhə-

ri və onun sosial-iqtisadi həyatı haqqında verdiyi məlumatlar da təsdiq edir. XVII əsrin ortalarında şəhərin ictimai-iqtisadi durumunu Səyyah müşahidə edərək yazır: "Hal-hazırda Əcəm elində olan böyük bir şəhərdir... Gəncə şəhərində 6000 ev, cümə məscidi, karvansara, imarət, hamam, bədistan, üstüörtülü abad bazar vardır... Gəncənin tut ipəyi hər tərəfdə məşhurdur. Dörd çevrəsindəki düzənliklər 7 rayondan ibarətdir. Əhalisinin əsas məşğuliyyəti düyü əkmək və ipək istehsal etməkdir. Gəncənin at nalı, dəmiri də ipəyi kimi məşhurdur". Holland rəssamı Korneli de Bruin Gəncə şəhərindən danışarkən qeyd edir ki, "XVII əsrin sonunda şəhərdə çoxlu daş evlər vardı, çoxusu iki mərtəbəli idi, gözəl bazarı, iri karvansarası, qubernatorun (bəylərbəyinin-Ş.İ.) böyük və geniş sarayı var. Səyyah Şamaxı ilə müqayisədə Gəncəyə üstünlük verərək, Səfəvilər hakimiyyəti dairəsində olan şəhərlər içərisində ən iri və abad şəhər hesab edir. Gəncənin Şamaxıdan dörd dəfə böyük olduğunu qeyd edir. Ümumən, XVII əsrdə şəhərlər və şəhər təsərrüfatının vəziyyəti iqtisadi amillə yanaşı, xarici siyasi amildən də çox asılı idi.

Azərbaycan şəhərlərində toxuculuq boyaqçılığın inkişafı ilə bilavasitə bağlı idi. Əlimizdə olan az məlumatdan bəlli olur ki, bəhs etdiyimiz dövrdə Azərbaycanda boyaqçılıq işi əsas toxuculuq mərkəzləri olan Təbriz, Ərdəbil, Şamaxı, Gəncə, Naxçıvan, Marağa və digər şəhərlərdə inkişaf etmişdi. Boyaqçılığın inkişafı təkcə toxuculuqla yox, digər sahələrlə də, qismən gön-dəri işləri ilə də bağlı idi. N. Süleymanov dövrün mənbələrinə istinad edərək bu dövrdə Azərbaycan şəhərlərində toxucularla bərabər, boyaqçı sənətkarların da sayının çox olduğunu qeyd edir. O, yazır: "Səfəvi məmləkıtinin boyaqçı sənətkarları qızıl boyadan (marena), zəfəran-

dan, nar qabığından, indiqodan (mavi boyaq-Ş.İ.), lumu şirəsindən, lazuritdən (laciverd daşı), Braziliya və yapon ağacından xüsusi boyalar hazırlayırdılar". Onlar ölkənin hər yerinə yayılan yerli boyaqlardan istifadə edirdilər. Azərbaycan torpağı müxtəlif cür boyaqların–qırmızı boya (qırmızı), qızıl boya və s. istehsalının mənbəyi idi.

XVII əsrdə Mərənd əvvəlki kimi, qızıl boya istehsalının mühüm bölgəsi olub, əhalisinin əsas məşğuliyyəti boyaqçılıq idi. Şardenin fikrincə heç yerdə Səfəvi ölkəsindəki qədər gözəl boyaq istehsal olunmurdu. Bu ölkədə istehsal edilən boyaqlar həddən çox parlaq olub, uzun müddət solmur.

Azərbaycanın təsərrüfatında qırmızı boyaq xüsusi yer tuturdu. Bu boyaq bir sıra bitkilər üzərində, xüsusilə palıd ağacının yarpağında yaşayan, qırmızı boyaq verən böcəkdən alınırdı. Onu qaynar suya salıb üstünə sirkə əlavə edərək toxuculuqda istifadə edilən qırmızı rəng alırdılar. Ə.Rəhmaninin tədqiqatlarından bəlli olur ki, IX-X əsrlərdə bu böcək əsasən indiki Qərbi Azərbaycanın Dəbil (Dvin), Şimali Azərbaycanın Bərdə şəhərində geniş yayılmışdı. Həmdullah Qəzvini XIV əsrdə Azərbaycanda Mərəndin qırmızı böcəyin yeganə yaşadığı yer olduğunu göstərir. Görünür, bu vəziyyət XVII əsrdə də davam etmişdir. Şarden də Mərənddə qırmızı böcəyin olmasını göstərir. Əgər xatırlasaq ki, Mərənd eyni zamanda qızıl boyanın məkanı idi, onda boyaq məmulatları istehsalında Azərbaycanın bu bölgəsinin müstəsna yeri aydın olar. Çünki Azərbaycan qədimdən əla boyaq keyfiyyəti ilə fərqlənən qızılboya ilə şöhrət tapmışdı. Hələ ərəb xilafəti dövründə Arandan ixrac olunan malın əsas hissəsini qızılboya təşkil edirdi. J.Tavernye Azərbaycanda–Culfanın cənubunda kiçik bir bölgədə "dünyada qızılboyanın yetişdirildi-

yi" yeganə yer hesab edir. Y.Streys qeyd edir ki, Şirvan vilayəti qızılboya və digər boyaq bitkiləri ilə zəngindir.

Mərənd, Ordubad, Gəncə Xoy və digər şəhərlərin təsərrüfatında boyaq maddələri istehsalı mühüm rol oynayırdı. Şamaxı, Təbriz, Gəncədə də həmçinin qızıl boya və digər boyalar istehsal edilirdi. Bakıda və Abşeron kəndlərində yerli əhali xalçaçılıqla əlaqədar təbii bitkilərdən boyaq üçün rəng də hazırlayırdılar. Artıq boyaqçılıq, rəngsazlıq bir peşə sahəsi kimi formalaşmışdı. Çünki ölkənin bütün Xəzər dənizi boyu və daxili bölgələrində xalçaçılığın inkişafı üçün zəruri olan müxtəlif təbii boyaqlar bol idi. Abşeronda və yaxın adalardan əldə edilən qızıl boyadan qırmızı boyaq düzəldirdilər. Zəfəranla ipəyi və yunu narıncı rəngdə boyayırdılar. Nar qabığından gözəl sarı-qəhvəyi rəng alırdılar. Limon qabığından və digər bitkilərdən, çiçəklər, həmçinin ağac kökündən boyaq hazırlayırdılar.

Şarden yazır ki, müxtəlif bitkilərdən və meyvələrdən hazırlanmış boyaqlar açıq rəngli, şəffaf və möhkəm olub müəyyən zaman çərçivəsində solmur, gözəlliyini itirmir. Onlardan, həmçinin ipək, yun və pambıq ipləri, müxtəlif parçaları boyamaq üçün istifadə olunurdu.

Azərbaycanda, xüsusən Bakı ətrafında yetişdirilən digər boyaq bitkilərindən biri də zəfəran idi. Zəfəran əyirmə və toxuma sənayesində işlədilirdi. Zəfəranla yumşaq narıncı rəngdə ipək və yunu, bəzən də xalını rəngləyirdilər. Zəfəran xörək üçün də istifadə edilirdi. Səyyahlar xaricə ixrac üçün son dərəcə əlverişli olan Abşeron zəfəranının yüksək keyfiyyətindən danışırlar.

Avropa səyyahlarının Azərbaycanın bəzi şəhərləri barədə verdikləri məlumatlardan belə qənaətə gəlmək olar ki, bu şə-

hərlər, sənətkarlıq və ticarət mərkəzi olub, əhalisinin çoxunu tacirlər, sənətkarlar təşkil edirdi.

Ancaq XVII yüzilin 20-30-cu illərində baş vermiş Səfəvi-Osmanlı savaşları Azərbaycan şəhərlərinin təsərrüfat həyatına müəyyən qədər zərbə vurmuş, məhsuldar qüvvələrin inkişafına əylədici təsir göstərmişdir. Lakin bütün bunlar feodal cəmiyyətində məhsuldar qüvvələrin tədricən inkişafının genişlənməsini və təkrar istehsalını təmin edən kompleks sosial-iqtisadi və siyasi amillərin mövcudluğunu istisna etmir. Mərkəzi hakimiyyətin və hakim zümrələrin iqtisadiyyat sahəsində ayrı-ayrı müsbət tədbirləri şəhər iqtisadiyyatının inkişafına səbəb olurdu. Digər tərəfdən onu da qeyd etmək lazımdır ki, XVII yüzilin 30-40-cı illərində I Şah Səfinin verdiyi qanunlar və həyata keçirdiyi iqtisadi tədbirlər bütövlükdə ölkənin təsərrüfat həyatının tərəqqisinə müsbət təsir göstərmiş, əmtəə-pul münasibətləri genişlənmiş, şəhərlərinin iqtisadi həyatı dirçəlmiş, kiçik yaşayış məskənləri ilə şəhərlər arasında əlaqələr bərpa olunmuş, şəhərlərin sosial strukturunda müəyyən dəyişikliklər meydana gəlmişdir.

XVI əsrin sonu–XVII əsrdə xarici və daxili siyasi hadisələr, XVII əsrin son rübündə şəhər iqtisadiyyatının tənəzzülü Azərbaycan şəhərlərinin vəziyyətində xeyli dəyişiklik yaratdı. XVII əsrdə Azərbaycana səyahət etmiş Avropa səyyahlarının əsərlərini diqqətlə öyrəndikdə aydın təsəvvür yaranır ki, bu dövrdə əsas sənətkarlıq-ticarət mərkəzləri XVI əsrdə olduğu kimi qalırdı. Təbriz, Ərdəbil, Şamaxı, Gəncə, Naxçıvan, Marağa, Mərənd, Xoy, Bakı, Xalxal, Urmiya, Ordubad, Dehhərqan, Şabran, Təsuc, Dərbənd, Zəncan, Miyanə, Səlmas, Azad (Azadabad), Sufyan, Əhər, Bərdə, Şəki, Qəbələ,

Lahıc, Sərab, Qarabağ, (Kiçik) Bərgüşad və s. sənətkarlıq və ticarət mərkəzləri idilər.

İri şəhərlərdə olduğu kimi kiçik şəhərlərdə də kifayət qədər sənətkar və tacir vardı. Bu şəhərlərdə xarici və daxili ticarətlə məşğul olan ticarət və sənətkarlıq mərkəzləri də mövcud idi. İri yaşayış məntəqələri əhalinin sayına və xarici görkəminə görə, demək olar ki, kiçik yaşayış məntəqələrindən kəskin şəkildə fərqlənmirdi. Ancaq kiçik şəhərlərin çoxunun iqtisadiyyatında, bəzi hallar istisna olmaqla sənətkarlıq və ticarət əsas təsərrüfat sahələri olan əkinçilik və maldarlıqla müqayisədə (hərçənd az əhəmiyyətli idi) yardımçı təsərrüfat rolunu oynayırdı.

Qeyd edilən şəhərlərdən XVII əsrdə Təbriz, İsfahan, Ərdəbil, Məşhəd, Şiraz və bir çox başqaları çox mühüm ticarət və sənətkarlıq mərkəzləri olub böyük şəhərlər idilər. Ancaq Səfəvi dövlətinin digər şəhərləri kimi bu şəhərlər də inkişaf və tənəzzül keçirmiş və bütün mərhələlərdə inkişaf səviyyəsi eyni olmamışdır. Şəhər əhalisinin müəyyən zümrəsi həmçinin kənd təsərrüfatı ilə, hər şeydən əvvəl texniki bitkilər və sənətkarlıq istehsalı üçün vacib olan xammal istehsalı ilə məşğul idi. Əhalinin bir qisminin şəhər daxilində və şəhərdən kənarda geniş yardımçı təsərrüfatı (bağ, bağça, kiçik və iri buynuzlu mal-qara və s.) vardı. Bu da müəyyən dərəcə

də təsərrüfatın xammal bazasını təşkil edirdi. Şəhər sakinlərinin geniş sahəsi olan bağları vardı. XVI əsrin 70-ci illərində venesiyalı Vinçentsa d'Alessandri yazırdı ki, Təbrizdə "saysız miqdarda bağlar vardır". Şəhərin çevrəsi 15 milə bərabərdir. XVII əsrdə isə şəhərin sahəsi və bağları xeyli genişlənmişdi. Qeyd edilən əsrin ortalarında Evliya Çələbinin yazdığına görə artıq Təbrizin 7000 bağ-baxça seyrangahı

vardı. Sözsüz ki, bu bağ və baxçaları şəhərə köçüb, müflisləşmiş kəndlilər və günəmuzd fəhlələr əkib becərirdilər. XVII əsrdə Təbrizdə bazarla sıx əlaqədə olan yüksək ixtisaslı, peşəkar sənətkar və tacirlərin sayının getdikcə artması, ticarət-sənətkarlıq mərkəzlərinin genişlənməsi şəhərin iqtisadi həyatının bərpasına, inkişafına öz müsbət təsirlərini göstərə bilmişdi. Evliya Çələbinin yazdığına görə 1585-ci ildə Osman paşanı əvəz edən Cəfər paşa Təbrizə gəldikdən sonar şəhər əhalisinin sayımı aparılmışdı. Bu sayımda şəhər əhalisinin sayı 300 min nəfər, əyalətlərinin əhalisinin sayının isə 500 min nəfər olduğu göstərilmişdi. Əgər Təbriz əhalisinin sayı Osmanlı ağalığı (1585-1603) dövründə 300 min nəfər idisə, onda Şardenin XVII əsrin 70-ci illərində şəhər əhalisinin 550 min nəfərdən ibarət olduğu haqqında verdiyi məlumat şübhə doğura bilməz. Lakin italiyalı Cemlli Kareri əsrin sonlarında Təbrizinin əhalisinin 250 min nəfərdən çox olmadığını yazır. Şəhər əhalisinin sayının belə kəskin şəkildə azalması sözsüz ki, əsrin sonlarında Səfəvi dövləti miqyasında baş vermiş iqtisadi tənəzzüllə bağlı olmuşdur. Əhalinin sayı ilə yanaşı, bazar, dükan, karvansaralar, yəni ticarət-sənətkarlıq mərkəzləri haqqında mənbələrdə verilən məlumatlar ayrı-ayrı dövrlərdə şəhərin sosial-iqtisadi səviyyəsi və quruluşunun əsas göstəricisidir. Evliya Çələbinin XVII əsrin ortalarında Təbrizdə 200 karvansara, 70 ticarət sarayı, çarşı (bazar,), Bədestan (örtülü bazar-Qeysəriyyə), 7000 dükan olduğunu yazır. Evliya Çələbidən iyirmi il sonra Səfəvi ölkəsinə gəlmiş Şarden isə şəhərdə 300 karvansara, 15 min dükan olduğunu qeyd edir. XVII əsrin 80-ci illərində bu ölkədə olmuş Engelbert Kempfer Səfəvi imperatorluğunun inzibati vahidləri haqqındakı məlumatında Azərbaycan əyalətinin 55

məntəqəyə bölündüyün və əyalətin mərkəzinin Təbriz olduğunu qeyd edir. O, bu məlumatlarında Təbrizi çox mühüm ticarət şəhəri kimi təqdim edir.

Qeyd etmək lazımdır ki, Ərdəbil də Səfəvilər imperiyasının ən iri şəhərlərindən biri idi. Burada bütün digər mallarla yanaşı, qızğın ipək alveri gedirdi. Dövrün mənbələrinin məlumatına görə, buna səbəb şəhərin külli miqdarda xam ipək istehsal edən, beynəlxalq ticarətdə mühüm rol oynayan Gilan və Şirvan arasında yerləşməsi idi. İpək ticarəti nəticəsində Ərdəbil ölkənin ən məşhur və mötəbər şəhərlərindən birinə çevrilmişdi. Səfəvi şahları məqbərəsinin Ərdəbildə yerləşməsi və əhalinin bura ziyarətə gəlməsi də şəhərin şöhrətini artırmışdır. Şəhərə hər il Gilan və Şirvandan 800-900 dəvə yükü ipək gətirilirdi. Ərdəbil həm də İstanbul və İzmir ticarət karvanı yolu üzərində yerləşirdi. Bu şəhərə ardıcıl olaraq ticarət karvanlarının gəlməsi, Ərdəbilin sənətkarlıq və ticarət mərkəzi kimi əhəmiyyətini xeyli artırmışdı. Bu şəhərdə hər cür ticarət malları tapılırdı. Ərdəbil şəhəri Səfəvilərin ata yurdu olduğuna görə, bütün XVI-XVII əsrlər ərzində onun abadlığına xüsusi əhəmiyyət verilirdi. Şəhər ətrafındakı düzənliklərdəki əkinçilik təsərrüfatları mənbəyini Savalan dağından alan Balıqlı çayından ayrılan arxlarla suvarılırdı. Bu çaydan ayrılmış qollardan şəhərin bütün küçələrindən su axırdı. Avropa səyyahları Ərdəbili Venetsiyaya bənzədirlər.

Ərdəbil şəhərinin tranzit ticarət yolu üzərində yerləşməsi və Səfəvilərin ulu babası Şeyx Səfiəddinin (1252-1334) qəbrinin də burada olması orta yüzillərdə şəhərin social-iqtisadi, mədəni həyatının inkişafında az rol oynamamışdı. Şəhər XVI əsrdə olduğu kimi, XVII əsrdə də Azərbaycanın sənətkarlıq, ticarət və mədəni mərkəzi kimi əhəmiyyətli mövqeyə

malik olmuşdur. Adam Oleari yazır ki, şəhərdə kifayət qədər yaxşı və geniş bir meydan vardır. Gəzinti yeri olan bu meydanın uzunu 300, eni isə 150 addım olardı. Meydanın hər iki tərəfi başdan-başa gözəl, sıra ilə tikilmiş dükanlardan ibarətdir. Bu dükanlarda hər bir peşənin sənətkarları ayrı-ayrılıqda işləyirlər. Meydanın girəcəyinin sağ tərəfində Şeyx Səfi türbəsi ucalır.

A.Olearidən əvvəl Təvəkkülü İbn Bəzzazın yazdığı «Sərfvət əs-səfa» adlı əsərində qeyd edir ki, Şeyx Səfi Ərdəbildə öz evinin qabağında dəfn edilmişdi. Evin yanında bağça və hovuz vardı. Bura həm də müridlər qəbiristanlığı adlanırdı. Sağda isə söyüd ağacı əkilmişdi. Məqbərənin tikilişində Şeyx Səfinin müridləri muzdsuz işləyirdilər. O vaxt məqbərə kərpic və gəc ilə tikilmişdi. Orada bir çox usta və fəhlə 5-6 il çalışmışdır. Sədrəddin Musa özü nəql edir ki, məqbərəni tikərkən işləmək üçün o qədər adam gəlmişdi ki, Ərdəbildə bir nəfər müsəlman və qeyri-müsəlman qalmamışdı. Hətta qadınlar da məqbərənin tikintisində iştirak edirdilər.

1623-cü ildə dövlətin xəzinə mallarının satışı üçün Rusiyadan Azərbaycana göndərilmiş tacir F.A. Kotov "İran şahlığına gediş" (səyahət) adlı hesabat hazırlamış və hesabatında Ərdəbil şəhərindəki Şeyx Səfi məzarı haqqında maraqlı məlumat vermişdir. O, bu məzar haqqında yazırdı: "Ərdəbildə şahın göstərişinə əsasən rus monastrına oxşayan Şah Səfi deyilən böyük məqbərə inşa edilib... Məqbərəni, onun əmlakı və işlərini şah tərəfindən təyin olunan və mütəvəlli adlanan müdir idarə edir ki, ona ağa deyirlər".

Şeyx Səfi məzarı çox varlı idi. Müharibə vaxtı Şeyx Səfi məzarının gəliri ilə müharibə xərclərini Şah Abbas daha yaxşı təmin edə bilərdi. Məzarın nəqd puldan əlavə müxtəlif ma-

hal və şəhərlərdə evləri, mağazası, karvansara, hamam və s. kimi vəqfi vardı. Məsələn, Ərdəbildə 200 ev, 9 hamam, 8 karvansara, çoxlu dükan, bütün mağaza və tikililərlə Qeysəriyyə, meydan, bazarda yerləşən 100 dükan Şeyx Səfiəddin məqbərəsinin vəqfi idi. Hətta Ərdəbildə açıq havada alver edənlər də həmin məzara müəyən miqdarda gəlir verirdilər.

Səfəvi şahları öz ulu vətənləri, Səfəvi xanədanının beşiyi, ziyarətgah olan Ərdəbilə xüsusi fikir verir, ticarət karvanlarının buradan keçməsini təmin edir və Şeyx Səfi kompleksinə ibadətə və mütaliəyə gedirdilər.

XVII əsrin birinci yarısında Ərdəbil şəhəri ətrafında hasar yox idi. Evlər həyətdəki meyvə ağacları ilə əhatə olunmuşdu. Ərdəbil şəhərdən çox meşəyə bənzəyirdi. Küçələrdə arxlardan gur su axırdı. Petro Della Valle yazır: “Bu şəhərdə su o qədər çox idi ki, insanın gözündə Venetsiya şəhəri canlanır. Bütün arxlar yaxşı balıqlarla doludur. Bir gün gördüm ki, mənim evimin qabağından keçən arxda bir dəstə suvari balıq tutmaqla məşğuldur və mən də onlara qoşuldum... yayda arxların suyu azalır, qışda çoxalır. Buna görə də Ərdəbilin bütün küçələrində arxların üstündən kərpicdən körpülər salmışdılar. Arxların ətrafında çoxlu ağaclar əkilmişdi ki, onlar da şəhərə gözəllik verirdi.

Şəhərin bir çox küçələrinin darısqal olmasına baxmayaraq, onun 5 böyük və enli küçəsi vardı: Dərvanə (Dervanae), Tabar (Tabar), Niyardover (Niardover), Qumbalan (Kumbalan) və Qəsrküçə (Kasirkutre). Bu küçələr çox enli idi, kənarlarında isə ağaclar əkilmişdi ki, bu da isti vaxtlarda şəhər əhalisi üçün kölgəliklər yaradırdı.

Şəhərdə çoxlu ticarət meydanı vardı. Onların birinin eni 150, uzunluğu isə 300 addım idi. Şəhərin böyük meydanı isə

düzbucaqlı şəkildə idi, ətrafındakı evlərin görkəmi o qədər də yaxşı deyildi.

A.Oleari ilə yanaşı Ərdəbildə olmuş Petro Della Valle, J.B.Tavernye, Y.Streys və Cemelli Karerinin də Ərdəbildəki şeyx Səfi məqbərəsi barədə maraqlı qeydləri vardır.

Şeyx Səfi məqbərəsinə giriş yolunun üstü iri, gümüş zəncirlərlə bəzədilmişdir. Qapı böyük dördkünclü daşlardan tikilmişdi. Onun hər iki tərəfində yüksək qübbə vardır. Aşağısında isə bir neçə kiçik mağaza yerləşirdi. Orada böyük geniş bağda camaat istirahət edirdi. Digər bir darvazada üçbucaq şəklində gümüşü zəncir asılmış, həmin zənciri Qarabağ hakimi Məhəmməd xan asmışdı.

Qaynaqların yazdığına görə, birinci həyətdən ikinciyə keçərkən adamlardan silahları, hətta əsanı da alırdılar. Sonra böyük qapı və dəmir zəncirin altından keçirirdilər. Tavernyenin məlumatına görə, ikinci qapı çox geniş və uzun bir saraya açılır. Bu sarayın sağında təmiz və şəffaf su vardı. Bu su mis borularla Ərdəbildən bir mil kənarda yerləşən dağdan gətirilirdi. Su arxı keçən həyətin bir tərəfində hamamlar, digər tərəfində isə buğda və düyü anbarları, həyətin qurtaracağında isə mətbəx yerləşirdi. Oradan gecə-gündüz yoxsullara xeyrat verilirdi. Mətbəxdə 25 ocaq üstündə 25 qazan vardı, onun bir hissəsində plov, digər bir hissəsində ət xörəyi bişirilirdi. Hər gün qazanlara töküləcək ərzaq qabaqcadan nəzarətçinin gözü qarşısında çəkilir və qazana tökülürdü. İsgəndər bəy Münşi qeyd edir ki, Şah Abbas mübarək məqbərənin qapılarını qızıl və gümüşdən düzəltdirdi.

Şeyx Səfi məqbərəsi gözəl mərmər daşdan tikilmişdi və döşəmədən tavana qədər hündürlüyü 3 fut, uzunluğu 9, eni 4 futa qədər idi. Məqbərədə Şeyx Səfinin qəbrinin üstü oyma

üsulla işlənmiş taxta ilə örtülmüşdü. J.B.Tavernye yazır ki, həmin qəbrin hündürlüyü orta boylu kişidən hündür idi. Böyük bir sandığa bənzəyirdi. Onun üst dördbucağına dörd böyük qızıl alma yapışdırılmışdı. Şeyx Səfi qəbrinin üst örtüyü qırmızı zərli saplarla toxunmuş parçadan ibarət idi. Onun yanında yerləşən qəbirlər nəfis parçalarla bəzədilmişdi. Orada qızıl, gümüş mina ilə işlənmiş çoxlu lampalar asılmışdı. Bundan əlavə, əla ağacdan düzəldilmiş və üzləri gümüş vərəqələrlə örtülmüş 6 böyük şamdan qoyulmuşdu. Bu şamlar yalnız bayram vaxtlarında yandırılırdı. Bu dövrdə Səfəvi dövləti miqyasında iqtisadi cəhətdən daha az mənfi təsirlərə məruz qalmış şəhərlərdən Məşhəd və Şiraz xüsusi yer tutur. Hər iki şəhərin ticarət karvan yolu üzərində yerləşməsi onların iqtisadi vəziyyətinə müsbət təsirləri olmuşdu.

Sözsüz ki, XVII əsrin ikinci yarısında Yaxın və Orta Şərq ölkələrində baş vernmiş iqtisadi böhran bu şəhərlərə də təsirsiz ötüşməmişdi. Qeyd olunan şəhərlər haqqında Engelbert Kempferin əsərində müəyyən məlumatlara təsadüf edilir. Ancaq müəllif bu şəhərlərin iqtisadi nüfuzu barədə danışmır. O, yazır ki, Xorasan Hindistana qədər uzanır və dörd məntəqədən ibarət olub mərkəzi Məşhəd şəhəridir. Digər üç məntəqə də ona tabedir. Engelbert Kempfer dini mərasim və məzhəblərə də xüsusi diqqət yetirmiş və Səfəvi dövlətində Məşhədin dini mərkəz, müqəddəs şəhər olmasına işarə etmişdi. Kempferə görə Səfəvi imperiyasının Cənub bölgəsində yerləşən Fars İran körfəzinə qədər geniş ərazini əhatə edirdi.Bu əyalət iyirmi məntəqədən ibarət olub, mərkəzi Şiraz şəhəri idi.

Avropa səyyahları Zəncanı binaları pis olan şəhər adlandırmış, lakin gözəl karvansarası olduğunu qeyd etmişlər.

J.Tavernye yazır ki, axırıncı dəfə ora səfər edərkən karvansarada o qədər adam var idi ki, mənim orada gecələməyimə yer olmadı. Zəncan şəhərinin ətrafı açıq idi, heç bir hasar yox idi. Şəhərdən yarım mil məsafədə, sağ tərəfdə Tavr dağı yerləşirdi.

E. Kempfer, Sanson, J. Tavernye, A. Olearinin səyahətnamələri ilə yanaşı, dövrün bir sıra başqa qaynaqları üzərində aparılmış araşdırmalar göstərir ki, XVII əsrin ortalarında Şamaxı, Ərdəbil, Qəzvin, Zəncan, Sultaniyyə, Dərbənd, Şabran və Ərəş kimi Azərbaycan şəhərləri ölkədə çox böyük sosial-iqtisadi əhəmiyyətə malik mərkəzlər idilər. Eyni zamanda bu məşhur Azərbaycan şəhərlərində Şərq memarlıq üslubunda tikilmiş qalalar, məscidlər, üstüörtülü bazarlar və bir çox ictimai binaların olması da bu dövrdə həmin şəhərlərin böyük mədəniyyət mərkəzləri olduqlarına da dəlalət edir.

Göründüyü kimi, I Şah Abbasın islahatları, eyni zamanda I Şah Səfinin həyata keçirdiyi sosial –iqtisadi tədbirlər şəhərlərin iqtisadi –siyasi, mədəni siması dəyişmiş, ölkənin ictimai həyatında yeni dəyişikliklər baş vermişdi.

XVII əsrdə Azərbaycanın bir çox şəhərlərinin, xüsusilə Bakının iqtisadi həyatında və sosial strukturunda baş vermiş dəyişikliklərdə neft hasilatının və alqı –satqısının müəyyən rolu olmuşdur. S. Aşurbəyli yazır ki, XVI –XVII əsrin Şərq və Avropa səyyahlarının yol qeydlərində şəhərin iqtisadi həyatının daha çox neftlə bağlı olmasına dair məlumatlar verilmişdir. Dövrün avropalı səyyahlarından Y.Streysin ümumən, Azərbaycanın yeraltı sərvətləri, iqlimi haqqında məlumatı diqqəti cəlb edir. O, yazır: “Ayın 5-də (1667-ci il sentyabr) Parmax və ya Barmax dağının yanından ötdük; bu dağ dənizin yaxınlığında olub, ağ və qara petroliumun və ya neftin

yerdən fəvvarə vurub axması ilə məşhurdur.... Dağın zirvəsi olduqca soyuqdur, hətta bəzən otların və bitkilərin üzərində buz lüləcikləri görünür, ancaq onun aşağısında hava çox isti və xoşa gələndir. Bir vaxtlar bu dağın üstündə güclü qalalar varmış, Xəzər dənizini və ətraf torpaqları bu yandan qoruyarmış, hələ indi də enli divarların və dəyirmi meydançaların nişanələri və özülü görünməkdədir, onların arasında qazıldıqdan sonra içi daşla hörülmüş quyular qalmaqdadır. Neft və ya petroliuma gəldikdə isə o, torpağın təkindən yer qatını oyub çıxaraq, qayaların arası ilə şaxələnib axır. Burada təqribən 40-a qədər neft çıxarılan quyular vardır, ancaq başlıcası üç quyudur, neft onlardan bulaq kimi qaynayıb axır. O neft güclü iy verir və iki növdən: qəhvəyi və ağ rəngli neftdən ibarətdir. Birinci növ neft pisdir, qoxusu ağırdır, ikincisi isə daha xoşdur.

1647–ci ildə Bakıda olmuş məşhur Osmanlı səyyahı Evliya Çələbi neft mədənlərinə tamaşa etmiş və bu barədə elmi əhəmiyyət kəsb edən məlumatlar vermişdir. O yazır ki, neft yağı yerin altından qaynayaraq üzə çıxır və bir yerə yığılaraq göl əmələ gətirir. Neft hasilatı ilə məşqul olan adamlar gündüz nefti yığıb keçi dərisindən hazırlanmış tuluqlara doldurur, sonra tacirlər nefti alıb, diyar –diyar aparıb satırlar. Səkkiz rəngdə neft olur ki, onlardan ən yaxşısı sarı rəngli neftdir. Qara rəngli neft Şaha məxsusdur. Səyyah nefti hasil edən işçilər (fəhlələr), onu diyar –diyar aparıb satan tacirlərlə yanaşı, neftin gecə -gündüz gözətçilərinin də olduğunu yazır. Evliya Çələbinin yazdıqlarından aydın olur ki, nefti hasil edənlərin, gözətçilərin sosial–iqtisadi durumuna görə şəhər əhalisinin beşinci kateqoriyası, yəni müflisləşmiş kəndli və günəmuzd fəhlələrdən ibarət olması heç bir şübhə doğurma-

malıdır. E. Kempferin yazdığına görə Bakıda neft olduqca çox olub, Şüştər şəhəri yaxınlığında da neft yataqları da vardı, Kempfer Şüştərdə neft yataqlarının olduğunu qeyd etsə də, burada neft hasilatı barədə məlumat vermir. Lakin Bakı və onun ətraf bölgələrində neft hasilatı, buradakı quyular, işçilərin sayı da göstərilir. O, yazır ki, Suraxanı kəndindəki quyularda ətraf kəndlərdən olan 32 fəhlə işləyirdi ki, hər biri ayda 7 -8 abbasi məvacib alırdı.

1683-cü ildə Bakıda olmuş Engelbert Kempferin gündəliyində neft quyularının sayı, neftdən dövlətin əldə etdiyi gəlir barədə ətraflı məlumatlar vardır. Balaxanı, Ramana, Binəqədi, Suraxanı neft mədənlərini gəzən səyyah Suraxanıda iki işlək, səkkiz baxımsız neft quyusunun olduğunu və bu quyuların dərinliyinin 40 orgi (2 m) olduğunu qeyd edir. Sözünə davam edən səyyah yazır ki, quyular ibtidai üsulla-bellə qazılırdı. E. Kempfer Balaxanı neft mədənlərində də olmuşdu. Burada qara neft quyularının hamısı işlək halda idilər. Səyyaha görə buradakı quyular daha dayaz olub, dərinliyi təxminən 30-40 dirsək olardı. Səyyah yazır ki, neft quyulardan dəri tuluqlarla, yaxud kiçik dolmaçarx vasitəsi ilə çıxarılırdı. Ancaq nefti kifayət qədər çox olan bir quyudan neft onun dövrəsində iki atın hərlətdiyi dolmaçarxla hasil edilirdi. Burada iş gecələr yalnız bir neçə saatlığa dayanırdı.

Neft xüsusi anbarlarda saxlanılırdı. Engelbert Kempfer belə anbarlardan biri haqqında yazır ki, onun eni yeddi, uzunluğu 17 addım olub, dayaz və tağlı tikili idi. Ona neft yaxınlıqdakı quyudan axıdılırdı.

XVIII əsrin 30-40-ci illərində Bakıda olmuş səyyah İ.Lerxin məlumatına görə, Balaxanıda 52 qara neft quyusu vardı. E.Kempferə görə, görünür ki, təkcə Suraxanıda 32 quyu ol-

muşdur. Beləliklə, quyuların ümumi sayı 150-dən çox deyildi. Quyuların müəyyən hissəsi işləmirdi. Neftin əsas hissəsini neftlə zəngin olan bir neçə quyu verirdi. Y.Streysə görə, Beşbarmaqda belə quyuların sayı cəmi 40 ədəd idi. Onların 3-dən istifadə olunurdu. Bunu neft çıxarılan digər bölgələrdə də müşahidə etmək olardı.

E.Kempferə görə, ildə 8000-10000 Təbriz batmanı neft çıxarılırdı. Lakin, mövcud texnikanın ibtidailiyinə baxmayaraq, Abşeronda neftin təbii bolluğu, quyulardan neft çıxarma potensialı, həmin müəllifin sözlərinə görə, daha çox idi.

E.Kempferin Bakıda ildə çıxarılan neft barədə göstərdiyi rəqəm müəyyən qədər həqiqətə uyğundur. Bunu xəzinənin neft quyularından əldə etdiyi gəlirlərlə hesablamaq olar. XVII əsrin sonunda Bakıya aid bir mənbədə oxuyuruq «mədənlər xəzinənin əsas hissəsini təşkil edir». Bunlar bolluqla, mənfəətlə çıxarılan neft quyularıdır. Şahın ildə neftdən aldığı 12000 tümən və ya 60 000 abbasi rusum bunu inandırıcı edir (106). Rəqəmlər xeyli şişirdilsə də, onlar Bakıda neftçıxarılma işinin əhəmiyyətini göstərir. E.Kempferin rəqəmləri bu mənada daha qaneedicidir. O, xəzinənin neft quyularından əldə etdiyi gəliri əmək və yük vurma haqqını çıxdıqdan sonra 7 min tümən müəyyən edir. Kempferlə demək olar ki, eyni vaxtda Bakıya gələn Anonim yezuit səyyahının fikrincə "Bakı hakimi hər il şah xəzinəsinə 7000 tümən, yəni 420 000 livr göndərməli idi". Müəllif yazır: "Bu məbləği ödəmək onun üçün çox asan idi. Çünki Bakı Xəzər dənizi yaxınlığından fövqəladə gəlir əldə edir". Düzdür, burada xəzinənin neftdən gələn gəliri konkret rəqəmlə göstərilmir. Lakin şübhəsiz, müəllif onu nəzərdə tutur. Çünki bütün mənbələrdə xəzinənin neftdən gələn gəliri ayrıca bəndlərlə verilir. Evliya

Çələbinin dedikləri bizim fikrimizi təsdiq edir. "Neft ildə əlavə 7000 tümən mənfəət verən xüsusi gəlir mənbəyidi". Sanson isə yazır ki, neft əsasən ixrac edilir ki, hər il "neft yağı" istehsalından bir milyon livr gəlir əldə edilir.

Beləliklə, xəzinənin neftdən gələn gəliri barədə yuxarıda göstərilən rəqəmlərin düzgünlüyü təsdiq edir. Məlum olur ki, Bakıda ən çox baha olan ağ neftin 1 batmanı 1 şahıya, qara neft isə bir az ucuz satılırdı. Şübhəsiz, neft Bakıdan kənarda baha satılırdı. Əgər orta hesabla 1 batman neft 1 şahıya satılırdısa, onda 7000 tümən rəqəmi almaq üçün 1,4 mln. Təbriz batmanı neft çıxarmaq lazım gəlirdi ki, o da 262 500 puda bərabər idi (98). Bu, əlbəttə, xəzinənin təmiz gəliri idi. Bura əmək haqqı, daşınma xərcləri daxil deyildi və s. Bəzi quyular "müqəddəs" Bibiheybətə mənsub idi. Ona görə də onlardan gələn gəlir xəzinəyə daxil olmurdu.

Yuxarıda deyilənlərdən belə ehtimal etmək olar ki, XVII əsrdə Bakıda təqribən 300-500 min pud neft çıxarılırdı (100). Hərəsində 7-8 tuluğ neft olan neft daşıyan 80 arabanın sayı da buna uyğun gəlir (101). Ən azında 10, ən çoxunda isə 20 Təbriz batmanı neft olmuşdur (107). Xarici ticarətin inkişafına və daxili bazarda neftə olan ehtiyac onun satış bazarını xeyli genişləndirdi. Neft dünyanın ən müxtəlif ölkələrinə İran, İrak, Hindistan, Özbəkistan, Kürdüstan, Gürcüstan, Dağıstan, tez-tez Rusiya və digər ölkələrə daşınırdı. Neftdən Azərbaycanda və digər ölkələrdə evlərin işıqlandırılması və yanacaq kimi, həm də müalicə məqsədi ilə istifadə olunurdu. Evliya Çələbinin yazdığına görə neft Əcəm diyarı, Özbəkistan, Hindistan, İraq, Gürcüstan, Kürdüstan, Dağıstan, həmçinin Osmanlı ölkəsinə aparılıb satılırdı.

E.Kempferin məlumatına görə, 32 quyunun hamısı işləyirdi. Orada ətraf kəndlərin sakinləri olan 32 «fəhlə» çalışırdı. M.Heydərovun ehtimalına görə, bu yalnız səyyahın olduğu Suraxanıda olmuşdur. Yuxarıda gördük ki, bütün Abşeronda 150 neft quyusu, təqribən bir o qədər də kankan vardı. Onlar ayda 7-8 abbası, ildə 2 tüməndən az əmək haqqı alırdılar. Əlbəttə, onları sözün əsl mənasında "fəhlə" adlandırmaq olmaz. Onlar hüquqi baxımdan iri feodal emalatxanalarından, müəyyən dərəcə asılı sənətkarlara yaxın olan ətraf kəndlərin sakinləri idilər. Arabaçılara gəldikdə isə onlar da feodal-asılı vəziyyətdə idilər və güman ki, xəzinədən müəyyən məbləğ alırdılar.

Bakıda neftdən sonra duz ikinci istehsalı sahə idi. Bu sahədə də bizim əsas mənbəyimiz E.Kempferin əsəridir. Onun yazdığına görə duz iki növ olub, biri xüsusi mədənlərdən çıxarılan daş duz, digəri isə dəniz suyundan əldə edilən duzdu. Səyyah Səfəvi ölkəsinin çox yerində duz yataqlarının olduğunu, ancaq Abşeronun duz yataqlarının xüsusi əhəmiyyət kəsb etdiyini yazır. Müəllifin sözlərinə görə, duz mədənləri Abşeronun şimalında "çar yolu yaxınlığında" yarımadaya yaxın idi". Bu kifayət qədər uzun, dairəvi, 1 fərsəng sahəsi olan dayaz göl idi. Bu kiçik kəndlərdə sadə adamlar-çobanlar və duz çıxarmaqla məşğul olanlar yaşayırdılar. Bu hovuzdan (deyilənlərə görə, dərinliyi 3 funta bərabər idi) düm ağ duz çıxarılırdı. Müəllif yazır, günəşli gündə şəffaf su tez buxarlanır, şirəsi qalır, ağırlaşmış duz qatı onu basır, (bərkiyir) qar kimi ağarmış maye təbəqəsi hovuzun dibinə çökür, duz orada ağacla qarışdırılır və kürəklə kürünüb çıxarılır, arabalara doldurularaq daşınır.

İkitəkərli arabalarla və dəvələrlə gölün qərb hissəsinə daşınan duz xarici ölkələrə, yerli əyalətlərə göndərmək üçün Bakı limanına çatdırılırdı.

Göründüyü kimi, neftlə bərabər Bakı duzu da xarici və daxili ticarətin mühüm məhsullardan biri idi. Bakının iqtisadi inkişafı onun neft və duz istehsalı sənayesi, ticarət və sənətkarlığın inkişafı ilə bağlı idi. Şəhərin Xəzər dənizinin ən yaxşı limanı olması və burada müxtəlif ölkələrin ticarət gəmilərinin dayanması faktoru da bu sahədə mühüm rol oynayırdı.

Azərbaycanın quzeyində çox mühüm ticarət və sənətkarlıq mərkəzi olan Şamaxı XVI əsrin sonu XVII əsrin əvvələrində baş vermiş Osmanlı-Səfəvi savaşlarında tənəzzülə uğramışdı. Ancaq XVII əsrin 30-40-cı illərində dövlət səviyyəsində verilən qanunlar, həyata keçirilən tədbirlər Şamaxı şəhərinin də sosial-iqtisadi həyatına öz müsbət təsirlərini göstərdi. Artıq XVII əsrin 20-ci illərində 4000 evdən ibarət olan Şamaxının sosial-iqtisadi həyatında ciddi inkişaf baş vermiş və şəhər genişlənmiş, burada Evliya Çələbinin qeyd etdiyi kimi evlərin sayı 7000-ə çatmışdır. Evliya Çələbidən xeyli sonra 1671-ci ildə Şamaxıda olmuş Yan Streysin verdiyi məlumatlar artıq şəhərin daha da inkişaf etməsindən və burada yeni sənətkarlıq-ticarət mərkəzlərinin meydana gəlməsindən xəbər verir. Y.Streys yazır ki, ayın 8-də biz məşhur İran (Azərbaycan - S.İ.) ticarət şəhəri Şamaxıya gəldik... Şəhərin cənubunda böyük bazar yerləşir, orada bir çox dükanı, köşkləri və piştaxtaları olan çoxlu abad və üstüörtülü sıralanmış tikililərdə xəz dərilər, ipək pambıq parçalar, gümüşü və qızılı saplarla işlənmiş baş örtükləri, qılınclar və başqa sənətkarlıq məmulatı və malları satılır. Bu bazarda bir çox ayrıca çıxışları və köşkləri olan iki böyük xüsusi meydança var, bura gələn əcnəbi tacirlər öz mallarını burada satırlar. Bura həm də çoxlu yəhudi gəlir. Şəhərin yenidən tikilib bərpa olunması Y.Streysi daha çox heyrətləndirmişdi. Halbuki Şamaxının

zəlzələdən köklü surətdə dağılıb viranə qalmasından heç üç il keçməmişdi. Bu dəhşətli dağıntı zamanı (1667) sayına görə qadın, uşaq və qulları çıxmaq şərti ilə yaraq daşıya bilən 80 mindən çox kişi həlak olmuşdur.

Dərbənd XVII əsrdə də əvvəlki yüzilliklərdə olduğu kimi Şirvanın tərkibinə daxil olub, çox mühüm liman şəhəri, ticarət və sənətkarlıq mərkəzi idi. E. Çələbiyə görə Dəmirqapıya hər il Çin, Maçin, Kitay, Xotan, Moskvadan ticarət məqsədi ilə yüz minlərlə adam gəlirdi. Səyyahın verdiyi bu məlumat şəhərin Səfəvi dövlətinin sosial-iqtisadi həyatında önəmli yer tutduğunu göstərir. Şəhərin gömrükxanalarından əldə edilən gömrük rüsumları dövlətin çox mühüm gəlir qaynağı idi. Elə buna görə də şəhərin Şirvan bəylərbəyinə tabe olmasına baxmayaraq bura hakimləri İsfahan sarayı təyin edirdi. Bütün orta əsrlər boyu, demək olar ki, Dərbənd yaxşı möhkəmləndirilmiş hərbi şəhər kimi şöhrət tapmışdı. XVII əsrin əvvəllərində Dərbənd çox möhkəm qala divarı və istehkamlı şəhər idi. Şəhərin ortasında Narınqala adlanan içqala yerləşirdi. Şah Abbas 1607-ci ildə şəhəri Osmanlıdan geri aldıqdan sonra Dərbəndin müdafiə istehkamlarının möhkəmləndirilməsi ilə maraqlanmışdı. Şah Abbas şəhər əhalisini dövlət vergilərindən azad etmişdi (1607). Lakin şəhərə verilən vergi immunitetinin müddəti barədə məlumat yoxdur. Ehtimal ki, Səfəvilərin hakimiyyətinin ilk illərində Dərbəndin şəhər həyatı və ticarətində məlum yüksəliş olmuşdu. Bu zaman şəhərə bir çox əcnəbi ölkələrdən gələn ticarət adamlarının, o cümlədən Polşa tacirlərinin toxunulmazlıq sənədi vardır ki, onunla tacirlər heç bir maneəsiz Dərbənd vasitəsilə "allahın nəzarəti" ilə Səfəvilərin idarə etdiyi bütün ölkəyə gedə bilərdilər.

İ.P.Petruşevskinin qeyd etdiyi kimi, "orta əsrlərdə Dağıstan, Şimali Qafqaz və Krımın adam oğrularının Şimali Qafqaz, Rusiya, Ukrayna və Polşadan oğurlayıb Dərbəndə gətirdikləri əsirlər əsas ticarət obyekti idi". XVII əsrin 70-ci illərində Dərbənddəki "qul" bazarı barədə, özü burada qul kimi satılan Y.Streys də ətraflı məlumat verir. Dağıstan sərhədlərində Streysi feodallardan biri əsir aldı və qul kimi İrəvanda yaşayan oğluna göndərdi. "Qatıra mindirilib" İrəvana gətirilən səyyah bu qədim Azərbaycan şəhəri barədə maraqlı məlumatlar verərkən burada, hətta "bir neçə məscid" olduğunu da qeyd etməyi unutmur. İrəvanın dövrümüzə qədər gəlib çatmayan memarlıq və təsviri sənət əsərləri haqqında məlumatların çoxu zəlzələdən sonrakı (1679) illərə aiddir. Kərpicdən və daşdan zövqlə inşa edilmiş şəbəkəli, tağlı, dördkünc karvansaralar öz orjinallığı, üslubu, fəvvarələri və ümumi memarlıq quruluşu ilə hamını valeh etmiş, şəhərin möhtəşəm və gözəl tikililəri səyyahların diqqətindən yayınmamışdır. Gürcü karvansarasının 78, Culfa və Sərdar karvansaralarının hər birinin 38, Tağlı, Sulu və Susuz karvansaraların üçünün birlikdə 74, Hacı Əli karvansarasının isə 40 dükanı olmuşdur. Hollandiya səyyahı İrəvandan danışarkən yazır ki, onu bir nəfər azərbaycanlı tacir satın alıb Dərbəndə gətirdi. Y.Streys Dərbənddən bəhs edərkən göstərir ki, burada yaşayan azərbaycanlılar özlərinin qədim mənşəli olmaları və əsil-nəcabətləri ilə, həmçinin "Midiya monarxiyası ilə fəxr edirlər. Xüsusilə qızılbaşlar və ya kralın saray qvardiyasının əsgərləri özlərindən müştəbeh idilər".

Liman şəhərlərində idxal və ixrac əməliyyatlarında malın çeşidi, yaxud miqdarına görə gömrük alınırdı. Gömrük rüsumu alınması üzrə məsul dövlət məmuru şahbəndər adlanırdı.

Bu zaman Xəzər dənizinin gömrük məntəqələrinin mədaxili o qədər də çox deyildi. Ancaq onun əksinə olaraq Alman səyyahı E.Kempferin yazdığına görə İran körfəzinin liman məntəqələri olan Bəndər Abbas, Bəndər Qonq, Bəndər Rik çox gəlirli olub, bu məntəqələrdə həddən çox gömrük rüsumu yığılırdı. Kempfer yazırdı ki, bu limanların şahbəndərləri gömrük rüsumundan əldə edilən mədaxil barədə xassə mustoufisinə verdikləri hesabat qeydiyyata alınır və pullar bu heasabla xəzinəyə daxil edilirdi. Əvvəllər Hambrun adlanan Bəndər Abbasın illik mədaxili 10000 tümən, Bəndər Qonqun mədaxili isə bundan bir qədər az olurdu. Təxminən Engelbertlə eyni vaxtda XVII əsrin 80-ci illərində Səfəvi ölkəsində olmuş Sanson isə Bəndər Abbas, Bəndər Qonq, Bəndər Rik və Bəhreynin illik gömrük rüsumundan əldə edilən mədaxilin 65000 tümən olduğunu qeyd edir. Hər iki müəllifin məlumatlarından aydın olur ki, bu liman şəhərləri o qədər də böyük olmasalar da, çox mühüm ticarət məntəqələri kimi dövlətin iqtisadi həyatında xüsusi rola malik olmuşdular.

. Səfəvi şahlarının bəzi fərmanlarında, Avropa səyyahlarından Kempfer, Sanson, Y.Streysin əsərlərində və digər mənbələrdə verilən məlumatlara istinad edərək deyə bilərik ki, XVII əsrdə Azərbaycanda “ev köləliyi” də vardı.

XVII əsrdə Səfəvi şəhərləri barədə Y. Streys, C. Tavernye, J. Şardenin məlumatları çox dəyərlidir. Lakin bu məlumatları dövrün digər qaynaqları, xüsusilə Şərq və digər Avropa səyyahlarının qeydləri ilə müqayisəli şəkildə nəzərdən keçirmədən məsələnin hərtərəfli həlli mümkün deyildir. Təqribən bizim qaynaqların müəllifləri olan E.Kempfer və Sansonla eyni dövrdə yaşayan Petro Della Valle, Evliya Çələbi və digər səyyahlar da Azərbaycan şəhərlərində olmuş, gördüklərini qələmə

almışlar. Əsil həqiqəti üzə çıxarmaq üçün bu qaynaqların hamısının məlumatlarını tutuşdurmağın böyük əhəmiyyəti vardır. E. Kempfer və Sansonun əsərləri şəhərlərin sosial-iqtisadi tarixini öyrənmək, Səfəvi dövlətinin iqtisadi həyatında onların rolunu dəqiqləşdirmək və tamamlamaq baxımından da müstəsna əhəmiyyətə malikdir. Bu müəlliflərin Səfəvi şəhərləri haqqında verdikləri məlumatlara o dövrün digər qaynaqlarında çox nadir halllarda təsadüf edirik.

Şəhərdə icra hakimiyyətinin başında bəylərbəyi, xan və sultan rütbəsi olan hakim, həmçinin məlik dururdu. İnzibati idarə bölgüsünə görə, əyalətlər mahallara bölünürdü. Əyalətə daxil olan mahala başçı sultan titulu ilə təyin edilirdi. Xan və ya mirmiran əyalətə və onun inzibati mərkəzi olan şəhərə başçılıq edir və öhdəsində 3 min nəfər qoşun olurdu.

XVII əsrin 80-ci illərində əyalətlərin inzibati mərkəzi olan şəhərləri həmin şəhər əhalisinin birinci təbəqəsinə daxil olan hakim idarə edirdi. Engelbert Kempferin yazdığı kimi, bu hakimlərə Şah bəylərbəyi, yəni ağalar-ağası rütbəsi və xan titulu verirdi. Əyalət tərkibindəki mahallar və onların mərkəzi olan şəhərləri yerli idarə strukturunda ikinci yerdə duran, ancaq sosial vəziyyətinə görə xan kimi birinci kateqoriyaya aid olan, sultan titulu daşıyan əsilzadələr idarə edirdi. Qeyd olunduğu kimi Bəylərbəyi əyalətin bütün inzibati və hərbi işləri ilə yanaşı, mərkəzi şəhərinə də başçılıq edirdi. Şarden Təbriz hakimindən danışarkən yazır: "Təbriz hakimi bəylərbəyi titulu daşıyır, tabeliyində 3 min suvari əsgəri var idi. Qars, Urmiyə, Ərdəbil və digər yerlərdən 15 min qoşunu olan 20 sultan Təbriz hakiminə tabedir". Əyalət bəylərbəyi mənbələrdə bəzən əmirül-ümarə istilahının sinonimi kimi işlənir. Bəylərbəyi qızılbaş əyanları arasından seçilib təyin

edilirdi. Qızılbaş əyanların nümayəndələri bəylərbəyi, əmirül-umarə və hakim kimi əyaləti idarə edirdilər. Bəylərbəyi hökmranlıq etdiyi əyalətin və şəhərin daxili işlərində müstəqil idi və birbaşa şaha tabe idi.

Səfəvi dövlətinin quruluşunu çoxsaylı mənbə materiallarının müqayisəli təhlil edərək araşdırmış Z.Bayramlıya görə ölkə inzibati ərazi bölgüsünə əsasən vilayət və mahallara bölünmüşdü. Vilayətləri bəylərbəyi səlahiyyəti ilə təyin edilən hakimlər idarə edirdilər. Vilayət hakimləri təyin olunduqları vilayətin mərkəzi olan şəhərlərin də hakimi statusuna malik idilər. Vilayətlərin tərkibinə daxil olan mahallar və onların mərkəzi şəhərlərinə isə sultan titulu və şox nadir hallarda isə xan ünvanı ilə təyin edilən əsilzadələr başçılıq edirdilər.

Dövlət strukturunda şahdan sonra yüksək vəzifə baş vəzir olub, səlahiyyətinə görə Şahın naibi hesab edilirdi. O, dövlət quruluşunda maliyyə orqanlarına rəhbərlik edirdi. Dövlətin idarə edilməsində çox geniş səlahiyyətə malik olan baş vəzirin aylıq məvacibi Sansona görə 1000 tümən idi. Engelbert Kempfer bu barədə yazır ki, baş vəzirin illik gəliri 20000 tümən olub, 340 min talerdən çoxdur.

Mənbənin yazdığına görə, darğa çox mühüm, etibarlı vəzifə idi. Şəhərlərə darğa Şah tərəfindən təyin edilirdi. Polis xidmətini ona tabe edilmiş aparatı ilə birlikdə darğa icra edirdi. Darğa öz müavinləri ehdas və mir-şəblə birlikdə 24 saat qulluqda olurdu. Onlar gecə bazara keşik çəkir, şəhər məhəllələrini gəzir və gecə asayişin keşiyində dururdular. O, həmçinin əhalinin var-dövlətinin təhlükəsizliyi üçün cavabdeh idi. Digər tərəfdən isə XVII əsrin 80-ci illərində Qəzvin xassə olduğuna görə, birbaşa mərkəzə tabe idi. Sansonun yazdığı kimi, Qəzvin darğa tərəfindən idarə edilirdi, yəni bu-

radakı darğa əslində hakim statusuna malik idi. Əgər ehdas oğurlanmış malı tutsa idi, onun 2/6 hissəsini alırdı, oğurluq olub, oğru tapılmayanda ehdas oğurlanmış malın dəyərini sahibinə ödəməli idi. Bakı şəhərində ümmal və ya amil adlanan Divanın canişini vergi toplaması ilə məşğul.

Şəhər əhalisinin böyük əksəriyyətini tacirlər təşkil edirdilər. Kempfer yazır ki, şəhərlərdə tacir ittifaqının başçısı tacirlərin özləri tərəfindən seçilən məlik ət-tüccar adlanırdı. O, tacirlər arasında baş verən ixtilafları həll edirdi. Adətən belə məsələlərə öz evində baxırdı. Məlik ət-tüccar alverdəki mübahisəli məsələlər və mülki iddia haqqında qərar qəbul etməli, həmçinin toxucu və boyaqçıların işlərinə nəzarət etməli idi. Şəhər həyatı və sənətkarlıqda möhtəsib az rol oynamırdı. Möhtəsib vəzifəyə ali ruhani idarəsi tərəfindən təyin edilirdi. Tavernye yazır ki, "möhtəsib polis kimidir. O, ərzaq mallarının qiymətini təyin edir. Onların üç-dörd nəfər mülazimi vardır. Həftənin birinci günü car çəkərək malların qiymətini elan edir, qiymətlərə nəzarət edir, baha satanları cəz. Onlar sex ağsaqqalları və ticarət ittifaqları tərəfindən təqdim olunan malların qiymət siyahılarını təsdiq edir, həmçinin bazarlara nəzarət edirdilər. Əgər tacirlərdən kimsə möhtəsib tərəfindən müəyyən edilmiş qiyməti dəyişsəydi, ona «taxta-qulah» tətbiq edirdilər, başqa sözlə, başını ağacdan hazırlanmış torbaya salırdılar, şübhəsiz, bu da böyük işgəncə idi. Kempferə görə orta əsr Azərbaycan şəhərlərində şəriət qanunlarının tələblərinə əhali tərəfindən riayət olunmasına nəzarət və lazım olduqda müxtəlif cəzalar müəyyən etmək möhtəsibin əsas vəzifəsi idi.

XVII əsrin ortalarında Azərbaycan şəhərlərinin iqtisadi inkişafına uyğun olaraq sənətkarlıq emalatxanalarının isteh-

sal-satış fəaliyyətini və emalatxanalarda usta-şagird münasibətlərini tənzim etmək üçün xüsusi tacir-sənətkar təşkilatları yaranırdı. Şəhərlərdə eyni sənət növündən olan sənətkarlara və sənət növünə görə müəyyən ərazidə birləşən sənətkarlar zümrəsinə “sinif”, bu siniflərin cəminə isə “əsnaf” deyilirdi. “Təzkirət əl-müluk” da əsnaf müəyyən sosial zümrə ilə yanaşı, şəhərlərdə tacir və sənətkarların peşələr üzrə birləşib yaratdıqları təşkilat mənasında işlənmişdir. Sənətkar təşkilatlarına əsnafla yanaşı “həmkar” da deyilirdi. Əsnafların başçıları “ustabaşı”, yaxud “həmkarbaşı” adlanırdı.

Ustabaşı istilahına müxtəlif variantlarda təsadüf edirik. M.X.Heydərov qeyd edir ki, ustabaşı istilahı XVIII-XIX əsrlər Cənubi Qafqaz həmkarları üçün səciyyəvi idi. Şübhəsiz, bu istilah XVII əsr Azərbaycanın sənətkarlıq təşkilatlarında da istifadədə idi. Bunu sübut edəcək bəzi məlumatlar vardır. Belə ki, 1672-ci ildə 23 erməni tacirinin çar Aleksey Mixayloviçə yazdıqları məktubda yeni Culfadan ustabaşı Akubcanın (Yaqub–Ş.İ.) adı çəkilir. “Ustabaşı” ifadəsi Culfa ermənilərinin dilinə Azərbaycan türkcəsindən keçmişdir. “Təzkirət əl-müluk”dan aydın olur ki, ustabaşı əsnafın özü tərəfindən daha çox ixtisaslaşdırılmış ustalar içərisindən irəli sürülürdü. Ustabaşılığa təqdim olunan ustanın yüksək ixtisaslı və peşəkar olması vacib şərt idi. Həm də onun peşəkar olması nəqib tərəfindən ciddi yoxlanılırdı. Bu vəzifəyə irəli sürülən şəxs nəqib tərəfindən kələntərə təqdim olundu. Kələntər isə ustabaşı vəzifəsini (ustadı) yazılı şəkildə təsdiq edirdi.

Sənətkarlıq təşkilatlarının daxili həyatı ilə bilavasitə kətxuda məşğul olurdu. Kətxudalar təkcə şəhərlərdə məhəllənin və kvartalın (məhəllə) böyüyü vəzifəsini deyil, həmçinin kəndin nümayəndəsi vəzifəsini də yerinə yetirirdilər. Kətxu-

da formal olaraq məhəllənin sənətkar-ticarət əhli tərəfindən irəli sürülürsə də, o əslində inzibati şəxs hesab olunurdu. Ancaq onlar ustabaşından fərqli olaraq görünür ki, əsnaflar istehsal-satış işlərinə qarışa bilməzdilər. E.Kempferin də yazdığı kimi, əgər kətxudanı əsasən kəndlilərin uçotu və vergi toplanması işi maraqlandırırdısa, ustabaşı birinci növbədə əsnafdaxili qaydalar yaratmaqla, usta ilə şagird münasibətlərini qaydaya salmaqla yeni şagirdlərin qəbulu, təzəcə təhsili başa vurmuş şagirdlərə-yeni öyrənənlərə lisenziya vermək, əsnaf daxilində yeni emalatxana açmaqla və s. məşğul idi.

E.Kempfer yazırdı ki, hər bir vilayətin hakimi şaha göndərəcəyi hədiyyələrin qabaqcadan miqdarını göstərir və əvvəlcədən bu haqda öhdəlik qəbul edirdi. Belə hədiyyələr xalı, qab-qacaq, ipək, pambıq, yun, at, dəvə, qatır, şahın quşu, müxtəlif ərzaqlar və nəğd puldan ibarət olurdu. Bəylərbəyi tərəfindən şaha təqdim olunan novruz (yeni il) hədiyyəsinin məbləği iki min tümənə çatırdı.

## 3.2. İdarəetmə orqanları

Əski çağlardan Azərbaycanda türk dövlətçiliyinin özünəməxsus idarəçilik sistemi mövcud olmuşdur. Səfəvilər sülaləsinin hakimiyyətə gəlməsi isə Azərbaycanda dövlət idarəçiliyi sisiteminin inkişafı və təkmilləşməsi tarixində yeni mərhələdir. I Şah İsmayıl hakimiyyəti illərində Qaraqoyunlu və Ağqoyunluların idarəçilik ənənələrini davam etdirmiş və daha da möhkəmləndirmişdir. I Şah Abbas dövründə həyata keçirilən islahatlar nəticəsində isə Səfəvi dövlətinin siyasi quruluşu və idarəçilik sistemi, xüsusilə mərkəzi idarəçilik sistemi yeni şəraitə uyğun olaraq daha da təkmilləşdirildi.

Lakin bəzi tarixçilər I Şah Abbasın islahatlar yolu ilə dövləti möhkəmləndirmək tədbirlərini yanlış olaraq mərkəzi idarəçilik sistemində başlanan farslaşma kimi izah edirlər. Bu mövqedə duran sovet tarixçi-şərqşünası İ.P.Petruşevski farslaşma prosesinin XVII əsrin əvvəllərindən başlandığını və uzun müddət davam etdiyini qeyd edir. Onun fikrincə I Şah Abbas dövründə qızılbaş dövlətinin fars dövlətinə çevrilməsinin ilkin şərtləri yaranır ki, bu da ancaq Zaqafqaziya, Türkmənistan və Əfqanıstan itirildikdən sonra XX əsrdə başa çatır. Azərbaycan Səfəvilər dövlətinin İran Səfəvi dövlətinə çevrilməsini Ə.Ə.Rəhmani də təsdiq edir. Lakin I Şah Abbas dövrünə aid bir sıra qaynaqlar XVII yüzillikdə də qızılbaş-türk əyanlarının hərbi-siyasi mövqelərinin qaldığını, hətta Azərbaycan türkcəsinin dövlət dili kimi əhəmiyyətini saxladığını sübut edir. İskəndər bəy Münşi də mərkəzi idarə sistemində qızılbaşların hakimiyyətinin möhkəm olduğunu göstərir.

O.Ə.Əfəndiyev Səfəvilər dövlətini tipik feodal monarxiyası adlandıraraq yazır: «Səfəvilər dövlətinə başçılıq edən şahlar dünyəvi hakimlər kimi məhdud hakimiyyətə malik deyildilər, ən başlıcası, onlar Ərdəbil dərviş ordeninin irsi başçıları olmaqla dini hakimiyyəti də özlərində təcəssüm etdirirdilər…».

Dövrün qaynaqlarında, xüsusilə Avropalı səyyahların gündəliklərində Səfəvi şahı və onun statusu haqqında maraqlı, həm də elmi əhəmiyyətə malik kifayət qədər məlumata təsadüf edilir. Qeyd olunan problemin araşdırılıb öyrənilməsi üçün Engelbert Kempfer və Sansonun əsərləri xüsusilə əhəmiyyət kəsb edir.

E.Kempfer yazır ki, şah geniş əraziyə malik olmaqla yanaşı, həm də idarəçilik sistemində xüsusi imtiyazlardan fay-

dalanırdı. Buna görə də Asiya qitəsinin digər hökmdarlarından seçilirdi. İranın (Azərbaycanın-Ş.İ.) Səfəvi şahı qanunun icrasında qeyri-məhdud və müstəqil idi. Dünyanın digər ölkələrində hökmdarların səlahiyyətləri qanunla məhdudlaşırdı. Məsələn, Rusiya çarının qüdrəti indiyədək boyarlar vasitəsilə məhdudlaşır. Digər tərəfdən öz əcdadının adət-ənənəsinə bağlı olması üçün, onun özbaşınalıq etməsinə maneçilik törədir. Osmanlı sultanı da yeniçərilərin özbaşınalıqlarının qarşısını ala bilmədiyi üçün özünün mütləq hakimiyyəti qarşısında onları böyük bir maneə hesab edir. Hind-monqol hökmdarları da əhalinin xüsusi himayəsindən faydalanan şəxsi övladlarından qorxur.

Lakin Səfəvi padşahının onlardan fərqli olaraq hər bir işi görməyə haqqı vardır və öz şahlıq səltənəti müqabilində heç bir maneə tanımır. Müqavilələr bağlamaq, sülh və müharibə elan etmək, ölkə qanunlarında dəyişikliklər aparmaq, yeni vergilər qoyulması, hətta hər bir şəxsin canı və malı, şəxsən özünün, qadın və uşaqlarının ixtiyarı şahın əlindədir. Əlaltılarının hüquqlarını qüdrətli bir hökmdar müqabilində qoruyan heç bir qayda, qanun yoxdur. Sanson isə yazır ki, hüquqlarına görə dünyanın heç bir ölkəsində ona bərabər hökmdar yoxdur. Təbəələri ona inanır və onun tərəfindən yersiz cəza gözləmirlər. Şah müqəddəsdir. O, bu müqəddəsliyi şəcərəsi Məhəmməd peyğəmbərə çatan öz sələflərindən almışdır. Hətta şaha o qədər inanırlar ki, xəstələrin çoxu müalicə olunmaq üçün şahın əlini yuduğu ləyənə tökülən suyu əczaxana dərmanından yüksək qiymətləndirirlər.

Engelbert Kempfer yazır ki, Şaha «Vəlinemət», yəni Allah və peyğəmbərin tam ixtiyarlı nümayəndəsi kimi dünya malını əhali arasında bölüşdürən-ləqəbi vermişdilər. Onu

dünya himayəçisi-"aləmpənah" adlandırırdılar. Şah da heç bir şey fikirləşmədən bu ləqəbləri özünə layiq bilirdi. Sanson da təbəələrinin Şaha " Aləm pənah" (dünyanın havadarı-Ş. İ), "bütün dünya millətlərinin etibarlı havadarı" epitetləri ilə müraciət etdiklərini yazır. Sanson gündəliyində qeyd olunan epitetlərə Şahın layiq olması haqqındakı fikir, sözsüz ki, Şah Süleymanın əcnəbi ölkələrdən gəlmiş xristianlara olan münasibəti ilə bağlıdır. Sanson Şahın əcnəbi ölkələrdən gəlmiş xristianlara münasibəti yaxşı olmasına rəğmən yazır ki, Asiyada elə bir hökmdar yoxdur ki, əcnəbiləri Səfəvi Şahı kimi qarşılasın, həm də onun kimi sevsin və onlara geniş imtiyazlar versin.

E.Kempfer yazır ki, şah Qərbdən Dəclə, Şərqdən Hilmend (Əfqanıstanda) cənubda Fars körfəzi, Şimalda Xəzər dənizinə qədər olan əraziyə hökmranlıq edirdi... Bu ölkə siyasət, elm və texnika cəhətdən digər şərq ölkələrinə nisbətən irəlidədir... İran (Səfəvi-Ş.İ.) padşahları mütləq hakim və öz əməllərində tam azad olmalarına baxmayaraq, ümumiyyətlə, onlar ölkənin idarə olunmasında ədalət, insaf və mehribanlığa riayət edirlər. Qeyri-adi bir işə əl atmaq istədikdə və ya həvəs, şəhvət, ehtiras onlara qalib gəldikdə əvvəlcədən o barədə yüksək divanın nəzər və fikrini öyrənirdilər. Həmçinin, vəzifəsinin öhdəsindən yaxşı gələ bilən dövlət məmurları əleyhinə xeyli kəskin iş görməkdən çəkinirdilər.

Əgər XVI əsrdə şahdan sonra vəkil rütbəsi alan məmur əsas dövlət xadimi hesab olunurdusa, XVII əsrdə Səfəvilərin mükəmməl bir dövlət aparatı vardı. Dövlət aparatında baş vəzir şahdan sonra əsas dövlət məmuru idi.

Sanson "Səyahətnamə"sində dövlətin mərkəzi maliyyə idarəsinin strukturu barədə ətraflı məlumat verərək baş vəzi-

rin tabeçiliyi altında altı vəzirdən ibarət vəzarət divanının olduğunu göstərmişdir. Onun yazdığına görə, vəzarət divanının birinci vəziri-mustoufi əl-məmalik idi. O, ölkənin bütün maliyyə idarələrinin rəisi hesab olunurdu. İkinci vəzir–mustofiye xassə olub, saray təşkilatının maliyyə müfəttişi idi. O, eyni zamanda İsfahan darüs-səltənətinin müfəttişlərinə də başçılıq edirdi. Üçüncü vəzir vəzarət divanındakı maliyyə dəftərxanalarına başçılıq edən dəftərxana darğası idi. Dördüncü vəziri əl-müluk olub, şahın xüsusi dəftərxanasına başçılıq edirdi. Baş vəzirin xassə əmlakının maliyyə məsələləri üzrə müavini olan beşinci vəzir sarayın gəlir və xərclərinə baxır və vəzire-xassə (xassə vəziri) adlanırdı. Altıncısı da xassə vəziri adlanmaqla, Təbrizin və İsfahanın ticarət işlərinə nəzarət edirdi. O, şəhərin və ətraf bölgələrin maliyyə məsələlərinə də baxırdı. Sanson sözünə davam edərək yazır ki, həmin bu altı vəzirin Fransadakı baş maliyyə idarəsi rəislərinə oxşadığını, onların hər birinin mərkəzdəki vəzifə xidmətlərindən başqa bir neçə əyalətin də maliyyə məsələlərinə nəzarət etdiyini yazmışdır.

Xassə əmlakına aid olmayan əyalətlərdən də müxtəlif vergilər (rüsum) alınırdı ki, bunun bir hissəsi məhsulla, digər hissəsi isə pula ödənilirdi. Ümumən, əyalətlərin gəlirlərinin bir qismi mərkəzləşdirilmiş qaydada vergilər şəklində dövlətin büdcəsinə daxil edilirdi ki, bütün bu maliyyə əməliyyatlarına baş vəzir və ona tabe olan dövlət məmurları nəzarət edirdilər.

Engelbert Kempfer və Sansonun dövlət quruluşu haqqındakı məlumatlarının təhlilindən aydın olur ki, mərkəz və yerli idarə orqanları arasındakı münasibətlər tabeçilik prinsipləri əsasında təmin edilirdi. Sansonun yazdığından aydın olur ki,

hər vilayətə xüsusi vəzirlər təyin edilirdi. Onlar burada dövlətin maliyyə məsələləri ilə məşğul olub, daha doğrusu müfəttiş statusunu yerinə yetirirdilər. Onlar birbaşa baş vəzirə tabe olub, onun qarşısında məsuliyyət daşıyırdılar. Vilayət vəzirlərinin hüquq və səlahiyyətləri barədə E.Kempfer yazır ki, vəzirlərin əsas işi təyin olunduqları vilayətin taxıl vergisini toplamaq idi. Onlar vergi ilə bağlı zəruri tədbirləri gördükdən sonra vilayətdən toplanmış illik vergi haqqında mərkəzi dəftərxanaya qeydiyyat aparmaq üçün məlumatlar göndərirdilər). Kempferə görə, xassəyə məxsus vilayətlərdə becərilən torpaqlar bəzən daimi istifadə üçün kəndlilərə verilirdi. Bu üsulla əldə edilən məhsulun əvvəlcədən müəyyənləşdirilmiş hissəsi şah xəzinəsinə ödənildikdən sonra yerdə qalan hissəsinə kəndli sərbəst şəkildə sərəncam verə bilərdi.

Baş vəzirin səlahiyyət və məsuliyyət dairəsi daha geniş idi. E.Kempfer yazır ki, haqlı olaraq onu şahın sağ əli və fasiləli ağılı adlandırırlar. Çünki ölkədə baş vermiş bütün hadisələr idari və ya şəxsi yol ilə ona çatdırılır. O, hadisələrin müəyyən hissəsi barədə şaha məlumat verir, şah sarayında hər gün onun xidmətində olur... ölkədə baş vermiş yeni hadisələr, eləcə də qonşu ölkələrdəki xəbərlər barədə şaha məlumat verir və çətinlikləri aradan aparmaq üçün nə iş görmək lazım gəldiyini ona deyir. Mühüm məsələlər, xüsusilə sülh və müharibə barədə şahın fikir və ya qərarını öyrənir, eyni vaxtda öz məsləhət və fikrini də şaha bildirir. Həmin məşvərət və məsləhətlər sonralar şahın hərəmxanasında, şahın anası, sevgili xacələri və yüksək rütbəli şəxslər arasında müzakirə edilir. Adətən, şah gün batmamış öz sağlamlığını qoruyub saxlamaq üçün ata minib saraydan çıxıb, gəzmək üçün bağlara gedir. Böyük vəzir də onun sağ tərəfində şah ilə bir-

likdə olur. Bu vaxt böyük vəzir vaxtdan istifadə edərək mühüm məsələlər barədə şaha məlumat verir və bu barədə onun sərəncam və göstərişlərini alır.

E.Kempfer yazır ki, dövlətdə ən yüksək vəzifə sahibi Ali divan rəisi və ölkənin böyük şəxsiyyətləri arasında nüfuzlu olan şəxsiyyət baş vəzir idi. Baş vəzir eyni vaxtda əlahəzrətin naibi hesab olunurdu. Tutduğu yüksək vəzifəyə görə «Etimad-əd-dövlə» ləqəbi və həm də «vəzir-i əzəm» böyük vəzir ləqəbi almışdır. O, ölkənin bütün rəhbər işçilərinə və əyanlarına başçılıq edirdi. Elə buna görə də ona bəzən "məmləkətin pənahı və dayağı" deyirdilər. Şifahi danışıqda «etimad əd-dövlə», rəsmi məktublarda isə «vəzir-i əzəm» istilahları işlədilir. Hər iki ləqəb İran (Səfəvi-Ş.İ.) dövlətinin ən böyük vəzifə sahibinə verilir. Həqiqətdə "vəzir-i əzəm"i İranın (Səfəvi dövlətinin-Ş.İ.) idarə edilməsi məsələlərinin məhvəri kimi bilmək olar. Çünki ölkədə baş vermiş bütün işlər və ümumi həyat onun vücudu ətrafında cərəyan edir, elə bir yol ki, məqam və rütbə, nüfuz və var-dövlətin artması ilə nəticələnir... O, istəsə və bir ərizəni əsas götürsə, şahın həmin ərizədən xəbəri ola bilər. Yalnız baş vəzir birini müdafiə etsə, həmin adam şah tərəfindən qəbul oluna bilər. Baş vəzir hakimlər tərəfindən göndərilmiş vəkilləri eşidir, onlarla məsələləri həll edir. O müqavilənamələri ya təsdiq, ya da rədd edir. Sikkə zərbi və şaha aid bəzi xüsusi işlər onun əlindədir. Şəxsən böyük vəzirin razılığı olmadan dövlət qüdrəti çərçivəsində heç bir dəyişiklik, yenilik ola bilməz və heç bir qərar qəbul oluna bilməz.

Qaynaqları diqqətlə nəzərdən keçirdikdə etimad əd-dövlə ifadəsinə ilk dəfə II Şah İsmayılın (1576-1577) hakimiyyəti dövründə rast gəlirik.

J.Tavernye yazır ki, məmləkətdə şahdan sonra əsas dövlət işçisi etimad əd-dövlədir. Bu vəzifə Osmanlı dövlətindəki vəzir-i əzəmi əvəz edir. Bu iki vəzifə arasında yalnız bir fərq vardır. Səvəfilər ölkəsində etimad əd-dövlə qələm sahibi olmalıdır. Çünki ölkənin bütün işləri də onun əlindən gəlib-keçir. Lakin Osmanlı dövlətində vəzir-i əzəm, həm də şəmşir əhli, döyüşlərdə qoşun sərkərdəsi olmalıdır. Azacıq günahı olduqda Osmanlı sultanının əmri ilə öldürülə bilər. Lakin Azərbaycanda hökumət yumuşaq və mülayimdir. Etimad əd-dövlə günahı olduqda paytaxtdan uzaq şəhərlərdən birinə sürgün edilir.

Valilər, hakimlər və daruqələr təsadüfi halda baş vermiş hadisələri və çətinlikləri şəxsən həll etmək ixtiyarına malik deyildilər və onların öhdələrində olan və idari vəzifələri öz təşəbbüsləri ilə yerinə yetirə bilməzlər. Hər şeydə, hər işdə baş vəzir ilə məsləhətləşməyə borcludurlar. O, həm də açıq gözlə ölkədə baş vermiş hadisələrə və məslələrə nəzarət edir.

“Təzkirət əl-müluk” da baş vəzirin statusu haqqında verilən məlumatda göstərilir ki, dövlət idarəçiliyində bütün məsələlərdə onun müstəsna hüquqları vardır. Bütün qərarlar onun məsləhəti ilə qəbul olunur və icra edilirdi. Ölkədə baş verən hadisələr ona vaxtında çatdırılırdı və o da öz növbəsində bu barədə Şaha vaxtaşırı hesabat verirdi.

E.Kempfer baş vəzirin fəaliyyət dairəsini açıqlayaraq yazır: “Baş vəzirin evi Səltənət sarayı yaxınlığında yerləşir. Şahın göstərişi ilə həll olunası müxtəlif dövlət işlərini təxirə salmaq olmaz. Nəticədə böyük vəzir bütün günü sarayın bayırında olub orada şahın əmr və sərəncamlarını alır. Müəyyən zəruri bir məsələnin həllində şah ilə görüşməsi vacib olduqda şahın yanına gedir... Baş vəzir orada vəkillərin məlu-

matlarını, ərizələri, yerli hakimlər tərəfindən aldığı məktub və xahişləri oxuyurdu…, o, həmişə işlə məşğuldur, çünki həmişə saray yaxınlığında sakindir. O, öz var-dövlətindən ləzzət almaq və öz ailəsi arasında sakit həyat sürməyə göz yummağa məcburdur.

Rəsmi qəbullarda yəni, məşvərətçi orqan olan məclisi əla (ali məclis) da o, "Divan-i Ali" rəisi kimi şahın yanında sol tərəfində otururdu. Bu vaxt o ərizələri şaha oxuyub bu barədə ondan göstəriş alırdı. Ölkənin və dövlətin vəziyyəti haqqında şaha məlumat verirdi  və şahın sərəncamı ilə məsələləri həll edirdi.

Baş vəzir işdə mövqeyini möhkəmləndirmək üçün vəzifə başına keçdikdə bütün qohum və dostlarını dərhal yüksək vəzifələrə qoyur, onları himayə edir və dövlətdə ən yaxşı vəzifə və kürsüləri onlara tapşırır. Bu işi ilə o, nəticədə öz mövqeyini möhkəmləndirir, qohumları və qəbiləsinin də nüfuzunu yuxarı qaldırır, yüksək vəzifədə olan digər əyanları müxtəlif bəhanələrlə işdən çıxartdırır, yerinə öz qohum və dostlarını qoyu). E.Kempfer sözünə davam edərək yazır ki, onun vəzifəyə qoyduğu bütün dost və qohumları hər il şahdan xələt alırdı. Şah tərəfindən hər hansı bir nəfərə xələt verilməsi mühüm hadisə hesab olunurdu. Şah bir nəfərin işi və xidmətindən razı olduqda, ona xələt verilirdi. Şah tərəfindən xələt almış hər bir şəxs digərlərindən seçilirdi. Buna görə də şahdan xələt almış yüksək rütbəli dövlət məmurlarının tabeliyində olan şəxslər belə rəislərdən qorxub ondan yuxarılara şikayət etməyə cürət etmirdilər. Bir çuxadan ibarət olan xələt dizə qədər bədəni örtürdü, zərli və gümüşü saplarla toxunmuş qiymətli güllü parçadan tikilirdi». Bəzən əmmamə və belbağı da ona əlavə olunurdu. Lakin nadir hallarda  qızıl qı-

lınc xələt verilirdi. Xələt alan şəxs xeyli imtiyazlara malik olurdu. Buna görə də baş vəzir öz məmurlarına maaş və vəzifə vermək əvəzinə, həmin xələtləri ilə onları razı salmağa çalışırdı. Məmurlar da onun bu işindən çox razı qalırdılar. Çünki xələt vasitəsi ilə onların əldə etdikləri gəlirlər illik maaşlarından xeyli çox olurdu. Xarici ölkə elçiləri və səfirləri də şah tərəfindən xələt alırdılar. Sarayda xələt almaq ən böyük hörmət əlaməti idi.

Baş vəzirin məhəbbət və hörmətini qazanmayan, hətta ən ləyaqətli dövlət məmuru belə şahdan xələt ala bilməzdi. Çünki şah hər hansı bir məmura xələt vermək istəyəndə sözsüz ki, baş vəzirlə məsləhətləşirdi. Baş vəzirin tutduğu vəzifəsinə görə xeyli gəliri də var idi. Valilər özlərinin hökmranlıq etdikləri məntəqənin nüfuzuna görə hər il ona müəyyən pul ödəməli idilər. Hakim və mənsəb sahiblərinin baş vəzirə ildə ödəyəcəkləri hədiyyələri də buna əlavə etmək lazım gəlir. Düzgün olmayan yollarla əldə etdiyi gəliri nəzərə alsaq, baş vəzirin gəliri 20.000 tümənə bərabərdir. Əgər baş vəzir tamahkar olsa, bu pulun miqdarı 30.000 tümənə çatır. Engelbert Kempfer sözünə əlavə edərək yazır ki, dövlətdə yüksək vəzifələrdə çalışan məmurların gəlirini dəqiq hesablamaq mümkün deyildir, çünki onların gəlirlərinin əsas hissəsi qeyri-şəri yol ilə əldə edilir. Sanson isə yazır ki, etimad əd–dövlə hər ay dövlət xəzinəsindən öz xərcləri üçün min tümən pul götürür ki, buradakı bir tümən bizim pulla 45 livrə bərabərdir. Bu hesabla o, hər il 540 min (12000 tümən) maaş alır. Ancaq bu rəqəm onun gəlirinin hamısı deyildir. Hər il Şahla yanaşı, vilayət və mahallardan ona da hədiyələr gətirilir. Taverniye isə baş vəzirin illik maaşının 863 tümən olduğunu yazmışdır.Ancaq Mirzə Səmiaya görə baş vəzir üçün dövlət

büdcəsindən illik məvacib müəyyən olunmurdu. Onun illik maaşı mahallardan yığılan rəsm əl-vüzarə, digər rüsumlar, ənamlar hesabına ödənilirdi.

Şarden yazır ki, etimad əd–dövlənin imzaladığı və təsdiqlədiyi sənədlər rəsmi hesab olunurdu. Hətta müxtəlif vəzifələrə məmurlar təyin edilməsinə, tiyul və "soyurqal"ların verilməsinə dair sənədlər onun möhürü olmadıqda etibarsız sayılırdı. O, dövlətin məxadil və məxaricinə, bütün məaliyyə işlərinə, xarici əlaqələr məsələlərinə də nəzarət edirdi. Etimad əd-dövlə həm də dövlətin xarici siyasət xəttini müəyyələşdirir, əcnəbi qonaqlar və diplomatları qəbul edirdi

Baş vəzir əcnəbi ölkələrdən gələn elçiləri qəbul edir, diplomatik danışıqlar aparırdı, müharibə və sülh məsələlərində onun rəyi nəzərə alınırdı.

Engelbert Kempfer mənsub olduğu Alman dövlətinin Səfəvi sarayındakı elçiliyinin əsas məqsədini açıq bəyan etmişdir. O, yazır: "İran (Səfəvi - Ş.İ.) sarayında bizim səfarətmizin əsas məqsədi bundan ibarət idi ki, İran şahını müştərək halda türklərə qarşı müharibəyə məcbur edək... Lakin "vəzir-i əzəm" bu işə qarşı çıxırdı və buna görə də bizim cəhdlərimiz nəticə vermədi.

Engelbert Kempfer Alman səfirliyi ilə diplomatik danışıqları aparmış baş vəzir Hacı Əlixan barədə yazır ki, onun şan və şöhrəti indi padişahın şan və şöhrəti kimidir. O hacı idi, Mədinədə Məhəmməd peyğəmbərin qəbrini ziyarət etmişdi. Şah öz başına and içmişdi ki, əgər bir gün baş vəzir onun məhəbbət və hörmətini qazanmamış olsa belə, yenə onun canına qəsd etməyəcəkdir. O, öz fikrini azad surətdə bəyan edir.

Engelbert Kempfer yazır ki, Hacı Əlixan xristian dövlətlərinin Osmanlı dövləti üzərində qələbəsini istəmirdi. Buna

görə bizə rədd cavabı verirdi. O deyirdi: “Sizin xahişlərinizi qəbul edib, yəni şahın müharibəyə başlaması Xondqar (Osmanlı sultanı-Ş.İ.)ilə bizim aramızda bağlanılmış sülh sazişinə uyğun gəlmir. İndiki vəziyyət də bizə müharibə etməyə icazə vermir. Bundan əlavə sizin ölkə ilə bizim aramızda xeyli uzaq məsafə vardır və bu bizim sizinlə müttəfiq olub, bir-birimizi qorumağa mane olur. I Şah Abbas dövrünün hadisələri bizə öyrədir ki, belə bir ittifaq təhlükəlidir, çünki o da firənglilərlə (avropalılar) müttəfiq idi. Lakin xristianlar I Şah Abbasa qabaqcadan xəbər vermədən və onunla razılaşmadan türklərlə dostluq müqaviləsi imzalamışdılar. O da (I Şah Abbas) məcbur oldu ki, müharibənin yükünü birbaşa öz çiyninə götürsün”.

Ali idarəçilikdə vəkil mənsəbi bəzən baş vəzirə və digər dövlət məmurlarına da əlavə verilirdi. XVI əsrdə bu mənsəbə yiyələnən məmur çox nüfuzlu olurdu. Şah I Təhmasib dövründə bu mənsəb uğrunda güclü mübarizə gedirdi. Buna görə də həmin mənsəb tədricən götürüldü, ləğv edildi. Əslində Səfəvilərin hakimiyyətinin ilk illərində etimad əd-dövlə ifadəsi işlənmirdi. Vəzir-i əzəm, yəni baş vəzir istilahı daha çox işlənirdi. Hökumətdə ən yüksək rütbə vəkil idi. Məsələn, I şah İsmayıl hakimiyyətə gələndən onun keçmiş müəllimi baş vəzir, başqa sözlə, nayib üs-səltənə oldu.

Əslində vəkillik birinci halda əmir ül-üməraya, sonra isə baş vəzirə əlavə bir mənsəb kimi verilirdi. O.Ə.Əfəndiyev yazır ki, vəkil şahdan sonra ikinci şəxs hesab olunurdu. O, dini və dünyəvi məsələlərdə şah qarşısında məsuliyyət daşıyırdı.

Səfəvi dövlətinin quruluşunda ən nifuzlu dövlət məmurlarından biri də münşi əl-məmalik olub onun adı mənbələrdə

vaqiyənəvislə eyni çəkilir. Mənbələrdə vaqiyənəvisin məclisnəvisə sinonim olması faktı ilə yanaşı, bəzən onların ayrı-ayrı vəzifə olması hallarına da təsadüf edilir. Ancaq əslində qeyd olunan bu vəzifələrin statusunda ciddi fərqə təsadüf edilmir. Vaqiyənəvis dövlət şurası iclaslarını sənədləşdirir, arxivi nizama salırdı. O, sarayın tarixşünası, şahın şəxsi katibi idi. Vaqiyənəvis vəzifəsi XVII əsrdə Azərbaycanda olmuş qərbli səyyahların da diqqətini özünə cəlb etmişdir. Onların əsərlərində verilən məlumatlara görə vaqiyənəvis və ya məclisnəvis həmin dövrdə dövlət dəftərxanasının rəisi idi. Məclisnəvisliklə yanaşı, bu vəzifəni daşıyan şəxsə başqa vəzifə də verilirdi. Vaqiyənəvis həm də saray salnaməçisi olub gündəlik hadisələri qələmə alırdı. E. Kempfer yazır; "Vaqiyənəvis"i ("Vəzirin sol əli") adlandırırlar. Çünki o, saray məclislərində şahın sol tərəfində otururdu. Onun əsas vəzifəsi şahın bütün sərəncam və fərmanlarını, təbrik məktublarını və əcnəbi ölkə səfirləri tərəfindən şaha ünvanlanmış bəyanatları və şaha təqdim edilmiş məktublara verilən cavab və sərəncamları, həmçinin saraya yaxın ölkədə və qonşu ölkələrdə baş vermiş hadisələri gündəlik dəftərlərdə qeydə almaqdan ibarətdir. Məsələn, şah I Abbas Məşhəddən olan qulamların vəziri Mir Feyzullaya həm də məclisnəvislik vəzifəsini tapşırmışdı. Onun yaxşı səsi vardı və yaxşı tambur çalırdı. Buna görə də şah Abbasın məclisinə yol tapıb onun yaxın adamı olmuşdu. Mir Feyzulla h.1020-ci ildə (1611-1612) öldükdən sonra onun vəzifələri Mir Əbdülməali Nətənziyə verilir. Mir Əbdülməali qulamların vəziri olmaqla yanaşı, həm də məclisnəvis vəzifəsini aparırdı. H.1032-ci ildə (1622-1623) isə bu vəzifə onun böyük oğlu Məmməd Rzaya tapşırıldı. "Tarix-i Abbasi" əsərinin müəllifi Məhəmməd Tahir Vəhid

h.1055 (1645)-ci ildə II Şah Abbas tərəfindən məclisnəvis (və ya vaqiyənəvis), vəzifəsinə bir müddətdən sonra isə baş vəzir vəzifəsinə təyin olundu. Vaqiyənəvislərin bəziləri dövrün gündəlik hadisələrini yazan tarixçilər idilər. Onlar min tümənə qədər məvacib alırdılar (150, 95).

Dövlətin idarə strukturunda mühüm vəziflərdən biri də divanbəyi olub o, cinayət məsələləri ilə məşğul olan baş məhkəmə rəisi idi (54, 893; 161, 576). Şarden yazır ki, onun başçılıq etdiyi məhkəmə iclaslarında sədr və qazı iştirak edirdilər. Divanbəyi çox vaxt məhkəmə işlərini təkbaşına aparırdı. Əyanlardan birini cəzalandırmaq lazım gəldikdə divanbəyi şahın əmri ilə məhkəmənin hökmünü təcili çıxarır və hökmü özü icra edirdi. Şardenə görə divanbəyi həm də cinayət məsələləri ilə məşğul olan məhkəmə rəisi idi. Qətl-qarət, bədən xəsarəti, namusa təcavüz kimi işləri cinayət qanunları əsasında təhqiq edib hökm çıxarırdı. Onun başçılıq etdiyi məhkəmədə əsasən qeyd etdiyimiz cinayət işlərinə baxılırdı. Divanbəyi həm də bütün ölkə üzrə bu cinayət işlərinə nəzarət edirdi.

"Təzkirət əl-müluk" əsərində divanbəyinin hüquq və vəzifəsi daha aydın göstərilir. Əsərdə qeyd olunur ki, bütün ölkədə baş vermiş ağır cinayət işlərinə divanbəyi baxırdı. O, sarayda oturub sədr ilə birlikdə şəriətə uyğun olaraq öz hökmünü verirdi. Lakin qəti qərar divanbəyidən, yaxud sədrin şəxsi nüfuzundan və qüdrətindən asılı idi. O, eyni zamanda şəriət məhkəmələri və onların işinə nəzarət edirdi. Həm də məhkəmənin çıxardığı qərarı icra edirdi. Deməli, divanbəyi həm hökm verir, həm də çıxarılan qərarları icra edirdi. Bununla belə o, ruhanilərin işlərinə nəzarəti də öz əlinə almışdı. Bütün ölkə üzrə əyalətlərdən gələn şikayətlərə də baxırdı.

Səvəfilər dövründə bir qayda olaraq hüquqi məsələlər iki hissəyə bölünürdü. Birinci ürfi, ikinci isə şəri hüquq adlanırdı. Qeyd olunduğu kimi ürfi hüquqa aid olan məsələlərə divanbəyi, darğa və şəri hüquqa aid olan məsələlərə isə başda sədr olmaqla şeyx ül-islam və qazi məşğul olurdu. Ürfi hüquqa-dörd cinayət hadisəsinə adam öldürmə, namusa təcavüz, diş sındırma və gözün kor edilməsi daxil idi. Bütün bu məsələləri Səvəfi məmləkətində diqqətlə nəzərdən keçirmiş Engelbert Kempfer yazırdı ki, divanbəyi cinayət işlərinə baxan yüksək vəzifəli məmur olub qətl və qarət işlərini cinayət qanunları üzrə təhqiq edirdi. Onun məhkəməsində bədənə xəsarət, kor etmə, namusa təcavüz və qətl kimi dörd cinayət hadisəsinə baxılırdı.

Sədr və "şəri hakim" adlanan ruhanilər isə şəri məsələlərə baxırdılar. Beləliklə, ürfı (dünyəvi) hakim ilə şəri hakim arasında olan fərq tam aydın olur. Qeyd olunduğu kimi, divanbəyinin əsas vəzifəsi qətl və talançılıq işlərini cinayət qanunları əsasında təhqiq edib bu barədə hökm verməkdən ibarət idi. Bu iş təkcə paytaxtda deyil, bütün ölkədə onun öhdəsində idi. Onun məhkəməsində əsasən göstərilən cinayət məsələlərinə baxılırdı.

Sarayın və dövlətin yüksək rütbəli şəxsiyyətləri, həmçinin xüsusi hüquqlara malik, özlərini "Əlahəzrətin qonağı" adlandıra bilən şəxslər, o cümlədən İran (Səfəvilər - Ş.İ.) sarayında sakin olan səfırlər, bu ölkənin əcnəbi təbəələri, digər yüksək rütbəli şəxslər yalnız ali məhkəmədə, yəni divanbəyinin hüzurunda hazır olur, onların mülki və cinayət iddəalarına (istər bir-biri arasında, istərsə də digərləri əleyhinə iddialara) orada baxılırdı. Məhz buna görə də bəzi vaxtlar şahzadələr də bu vəzifəyə təyin edilirdilər. Məsələn, Sultan Məhəmməd

Xudabəndənin oğlu Əbu Talıb Mirzə h.994 (1586)-cı ildə "vəkaləti divane əla" vəzifəsinə təyin edilmişdi. Sonralar o, dövlət əmirlərinin, o sıradan Əliqulu xan Fəthi oğlu Ustaclı, Vəli Şamlının oğlu İsmayılqulu xan Topçubaşının məsləhəti ilə vəliəhd elan edilir. Divanbəyiyə bəzən hərbi dəstə də verilir və vuruşmalarda iştirak edirdi.

Saray gözətçilərinə, yasavullara başçılıq edən eşikağasıbaşının da dövləti idarə olunmasında rolu az deyildi.

Səfəvi sarayının baş təşrifat məmuru, yəni eşik rəislərinin başçısı olan eşikağasıbaşı, onun hüquq və səlahiyyəti dövrün Qərb səyyahlarının əsərlərində, xüsusən də Sanson və Engelbert Kempferin gündəliyində geniş şəkildə öz əksini tapmışdır. Sanson yazır ki, eşikağasıbaşı xan məqamında olub, təşrifat və daha doğrusu bütün sarayın rəisi idi. Sarayın qarovulçularının rəisləri də ona tabe idilər. Bu barədə Engelbert Kempfer daha ətraflı məlumat verərək yazır ki, padişahın sarayını qoruyan və saray daxili təhlükəsizliyi təmin edən, şah süvari halda gəzməyə çıxarkən onun rikabında olan və şah sarayının bayırını qoruyan cəzairlərə eşikağası başı rəhbərlik edir. 2000 nəfərlik cəzairi dəstəsinin maaşı dövlət xəzinəsindən ödənilir. Lakin şah Suleyman qənaət edərək, onlardan 700 nəfərinin maaşını öz öhdəsinə götürdü. Həmin 700 nəfərin maaşı da dövlətin ordu büdcəsinə daxil edildi. Eşikağasıbaşı saray məclislərində nizam və intizamın bərqərar edilməsinə məsuliyyət daşıyır. O şəxsən qonaqları öz xüsusi yerlərində otuzdurur. Şaha ehtiram və hörmət qaydasını yerinə yetirmək üçün məclisə gətirilən səfirlərin əlindən tutaraq şah taxtı yanına gətirib otuzdurur. Şah, səfirlərə xüsusi hörmət göstərdikdə onları rəsmi ziyafət məclisinə dəvət edir. Eşikağasıbaşı həmişə şahdan sonra dayanır, əlində cəvahir ilə bə-

zədilmiş əlağaçı tutur, gözünü şaha dikir, onun kiçik işarəsini belə gözdən qaçırmır. Şahın əmrlərini dərhal icra edir. Eşikağasıbaşına tabe yasavulları saraya girişə qədər xidmətə hazır vəziyyətdə dayanır, aldıqları əmrləri yerindəcə içra edə bilmədikdə təcili qapıçılara çatdırırlar. Eşikağasıbaşı tutduğu vəzifəsindən xeyli gəlir əldə edir. Bu gəlirin əsas hissəsini, şaha təqdim edilən bütün hədiyyələrin 10 faizi təşkil edirdi. Hətta Şah, digər şəxslərə hədiyyə verdikdə, onun da qalığı eşikağasıbaşına çatırdı. Adamların çoxu həmin vəzifə həsrətindədirlər, çünki onun vəzifəsi, daim Şahın yanında olmağı tələb edir. Bu yol ilə bu vəzifə sahibi, başqalarına müyəssər ola bilməyəcək xeyli işlərə nail ola bilirdi.

Saray təşkilatında mühüm vəzifələrdən olan mehtər barədə E. Kempfer yazır ki, mehtər adətən ağdərili xacələrdən təyin olunur. Mənəvi həyəcan keçirmədən şahın arxasınca hərəmxanaya girə bilir. Ancaq bu gün bu vəzifə Ağa Qafur adlı zənci bir xacənin əlindədir ki, onun Nuh qədər ömrü vardır və o əvvəlki padşah dövründə də xidmət etmişdir. Mehtərlər saray xacələrindən təyin edilir və şahın xüsusi xidmətçisi kimi daim onun qulluğunda dururdu.

E.Kempfer, əsərində gərəkyaraq, tuşmalbaşı, davatdar, miraxurbaşı, şikar əmiri, səkbənbaşı (ov itlərinə baxan), süfrəçi, anbardar, mehmandar, müstofi, qorçubaşı, qulamlar, turşuçubaşı, şirəçibaşı, qullarbaşı, tüfəngçi, topçubaşı, mirab, nazir, ərbab-i təhvil, halvaçıbaşı, şərbətçibaşı, zərgərbaşı, yasavul və söhbət yasavulu, səfirlər, müfəttişlər, cilovdarbaşı, zindanbaşı, quşlarbaşı və s. vəzifələr barədə qısa məlumat vermişdir. O, şərabçıbaşı, münəccimbaşı, həkimbaşı, odunbaşı, nəccarbaşı, qəhvəçibaşı, dəlləkbaşı, qapıçıbaşı vəzifələrindən də daha ətraflı bəhs edir. Onun yazdığına görə, şah

özünün qulamlarının uşaqlarından 400-500 nəfərinə yazıb-oxumağı öyrətdirirdi. Onlar təhsildən başqa heç bir işlə məşğul olmurdular. Onların xərcini şah xəzinəsi ödəyirdi. Şah onları boya-başa çatdıqdan sonra, öz qabiliyyətlərinə görə, yuxarıda qeyd olunan hərbi və mülki işlərlə təyin edirdi.

Engelbert Kempfer Şahın xüsusi qulam alayından başqa saray təsisatları və karxanalarında da qulamların olması, onların ayrıca bir imtiyazlı zümrədə mövcudliğunu qısa da olsa qeyd edir. O yazır ki, sarayın müxtəlif təsisatlarında və karqahlarında ağdərililər vardır ki, onlar qulamlardan törəmə olub, çoxu gürcüstanlıdır. Onlar yazıb-oxumağı öyrəndikdən sonra sarayda, karqahlarda, ya da qoşunda xidmət edirlər. Şardenin bu barədə yazdıqlarını təhlil etmədən onların hərbi qulam alaylarından fərqli və xüsusi imtiyazlı dəstə, yaxud zümrə olduqlarını müəyyən etmək çox çətindir. J.Şarden "qulame şah" istilahın müstəqim mənada "şahın qulu" (esclave du Roi) mənasında və məcazi mənada isə "şaha sədaqətli şəxs" mənasını ifadə etdiyini göstərir. Onun fikrincə, onlar bu adı şaha sədaqətli olduqlarını nümayiş etdirmək üçün qazanmışdılar. Onlar "çox kiçik yaşlarından qulluğa götürülən qabiliyyətli uşaqlar idilər. Fransada zadəganların icra etdikləri vəzifəni yerinə yetirirdilər. Şardenin məlumatına görə, "belə uşaqları beş yaşından saraya, şaha xidmətə" verirlər. Onlar adətən, yüksək rütbəli əyan ailələrindən olub, daim sarayda yaşayır, ən vacib "qərarları yerinə yetirir, hakimlərə şahın hədiyyələrini" təqdim edir və digər işlər görürdülər. Bu qulamların illik məvacibi şah tərəfindən müəyyən edilirdi, məvacibləri onların yeməkləri ilə birlikdə 20 tümənə (900 qızıl franka) bərabər idi, Şah qulamı böyüdükcə məva-

cibi də artırdı. Şardenin hesablamasına görə, qulamların bir illik yeməyi gümüş pula 500 franka qədər idi.

1673-cü il martın 11-də İsfahandan İrəvan hakiminin yanına göndərilmiş qulamın qəbulunun şahidi olan Şarden qeyd edir ki, "bu zaman böyük adamlar ağır xərc çəkməyə məcbur idilər". Qulam mənzilə çatan kimi, onu geyindirməli, qaldığı müddətdə yedirtməli, əyləndirməli, gedərkən nüfuzuna və göstərdiyi qulluğa uyğun hədiyyələr verməli idilər. Şarden Şah qulamının gəlişinin, yatmaq və yemək xərci hesaba alınmadan İrəvan hakiminə 400 tümənə (18 min livrə və ya qızıl franka bərabər idi) başa gəldiyini qeyd etməyi unutmur.

Sarayda qulluq edən qulam Şaha son dərəcə yaxın şəxs hesab olunduğuna görə, əyalət hakimləri onun vasitəsilə şahla yaxın əlaqə saxlamaq imkanına malik olurdular. Şarden həm də Şah qulamının Fransadakı markiz (marquis) rütbəsinə uyğun gəldiyini göstərir.

Şardenin yazdıqlarından aydın olur ki, sarayda xidmət edən qulamlar da çapar, yaxud qasidlər kimi müxtəlif məqsədlə vilayətlərə göndərilirdi. Ancaq faktların müqayisəsindən məlum olur ki, qulam və «çapar» müxtəlif istilahlar olub, rütbə və nüfuz dairələrinə görə, bir-birindən seçilirlər: Qulam yalnız şahın iradəsinə tabe olub, onun göndərdiyi hədiyyələri hakimlərə təqdim edir, vacib qərarlarını yerinə yetirir və s. J.Şarden çaparlardan fərqli olaraq, Şah qulamının Fransadakı markizlər kimi daha nüfuzlu və daha etibarlı olduğunu qeyd edir. Şah qulamı yanına göndərildiyi hakimdən hədiyyə də alırdı. Şah qulamına veriləcək hədiyyənin miqdarı əvvəlcədən şahın özü tərəfindən müəyyənləşdirilirdi. Çox vaxt hakimlər onların yanına göndərilən qulama verə-

cəkləri hədiyyələri ikiqat artırmağa məcbur olurdular. Çaparlara isə bu «səadət» nəsib olmurdu. Dövlət qulluğunda olan qulamın valideyinlərinə də hədiyyələr nəzərdə tutulurdu. Lakin çaparlara belə üstünlük verilmirdi. Qeyd etdiyimiz kimi, bu qulamlar kiçik yaşlarından etibarən şahın qulluğuna verilir. O, daim sarayda olur və böyüdükcə «şahın iltifatı» ilə məvacibi də artırdı. Belə bir imtiyaz çaparlara verilmirdi.

Şah qulamlarından bir çoxu daha yüksək rütbə və nüfuz sahibi, ali feodal təbəqəsinə mənsub olan şəxs idi. Bunu xidmətə verilən uşaqların ali feodal nəslinə mənsub olmaları faktı da sübut edir. J.Şardenin verdiyi məlumata görə, İrəvan bəylərbəyinin iki oğlu sarayda şahın himayəsində idi. Buna görə.Şarden şahdan bəylərbəyinin oğlanlarının adına zəmanət məktubları verməyi xahiş edir. Şardenin dövründə İravanda bəylərbəyi olmuş Səfiqulu xan qulam əsilzadələrindən Rüstəm xanın oğlu idi.

Dövrün Qərb ədəbiyyatında göstərilən idarəetmə orqanları ilə yanaşı xüsusi xidmət aparatı barədə də ətraflı məlumatlar verilmişdir. Dövlət təşkilatında mövcud olan xüsusi xidmət institutları arasında mehmandar vəzifəsi xüsusi yer tutur. Bu dövrdə Səvəfi dövlətinin bütün sərhəd vilayətlərindəki idarələrdə xüsusi mehmandarlar vardır ki, onlar mərkəzdəki mehmandarbaşına tabe idilər. Ancaq yerlərdəki mehmandarların fəaliyyətinə birbaşa vilayətlərin hakimləri nəzarət edirdi. Mehmandarlar əcnəbi ölkələrdən gələn elçiləri sərhəddə qarşılayıb onlara mərkəzə qədər bələdçilik edirdilər. Mərkəzdə isə həmin elçiləri mehmandarbaşı qarşılayır və onlara Səvəfi sarayının qəbul qaydaları ilə tanış edirdi. Sanson yazır ki, o elçiləri sarayın qəbul qaydaları ilə tanış etdikdən sonra rəsmi qəbullarda olanları şaha təqdim edirdi. Mehman-

darbaşının vəzifəsini Engelbert Kempfer daha ətraflı şəkildə şərh edir. Onun yazdığına görə mehmandarbaşı elçiləri qarşılayıb qəbul qaydalarını öyrətməklə yanaşı, onların yerləşdirilməsi, gündəlik məsələləri ilə də məşğul olmalı idi ki, bu əslində onun vəzifə borcudur. Vilayətlərdəki mehmandarların hüquq və səlahiyyətləri Sanson və Engelbert Kempferdən fərqli olaraq Şardenin gündəliyində daha ətraflı verilir. O yazır ki, İrəvan bəylərbəyində olarkən, bəylərbəyi zabitlərdən birini ona mehmandar təyin edir. Həmin hadisəni təsvir edən Şarden mehmandarı «xidmətkar əsilzadə» kimi qiymətləndirir. Həmin gün, yəni 1673-cü il martın 10-da İrəvan bəylərbəyi mehmandara əmr edir ki, onu hər şeylə təmin etsin və ürəyi istədiyini hazırlasın. Əlavə olaraq, bəylərbəyi Şardenə bir qab (bir şüşə) Moskva arağı göndərir.

Mənbələrdə mehmandarların məvacibinin nə qədər olduğu göstərilməsə də, bu vəzifənin son dərəcə nüfuzlu olduğu göstərilir. Mənbədən aydın olur ki, mehmandarın xarici səfərlərində adamları xərcə salmamaq üçün hər yerdə onlara hədiyyə verirdilər.

Bu vəzifənin statusunun təhlilindən aydın görünür ki, artıq XVII əsrdə Səfəvilər imperiyasında idarəetmə sistemi xeyli təkmilləşmişdi. Digər tərəfdən Səfəvilər dövlətinin Avropa ölkələri ilə iqtisadi və siyasi əlaqələri məqsədli və sistemli səciyyə daşıyırdı. Ona görə də ayrı-ayrı bəylərbəyiliklərdə, o cümlədən Səfəvi dövləti tərkibinə daxil edilən Şərqi Gürcüstanda xarici ölkələrdən gələn nüfuzlu nümayəndələri yerləşdirmək, onları lazımi səviyyədə yola salmaq, müşaiyət etmək məqsədilə xüsusi idarələr fəaliyyət göstərirdilər. J.Şarden bunu «nazirlik», “idarə”, “müəssisə” mənasında işlənən “ministere” istilah ilə ifadə etmişdir. Şarden mehman-

dar vasitəsilə Tiflisdən İrəvana müşayət edildiyi kimi, İrəvandan da Təbrizə yola düşərkən yenə də mehmandarın xidmətindən istifadə etmişdir. Bütün bunlar XVII əsrdə Səfəvilər dövləti aparatının daha da inkişaf etdiyini və təkmilləşdiyini göstərir.

Avropa səyyahları mərkəzi idarə aparatında işləyən vəzifə sahiblərinin məvacibləri barədə də məlumat verirlər. Məlum olur ki, onların məvacibləri xəzinədən deyil, bilavasitə əyalət və mahallardan toplanan xüsusi vəsait hesabına ödənilirdi. Saray qulluqçularının bir qismi vergilərdən, digər qismi isə müxtəlif yollarla əldə edilən gəlirdən məvacib alırdılar.

Ali ruhani idarəsi və dini təsisatlar barədə həm yerli mənbələrdə, həm də dövrün Qərb ədəbiyyatında, o cümlədən, Engelbert Kempfer və Sansonun əsərlərində ətraflı məlumat verilmişdir. İsgəndər bəy Münşinin qeyd etdiyi kimi bir qayda olaraq ali ruhani idarəsinə yüksək dərəcəli təmiz seyidlərdən başçı, yəni sədr təyin edilirdi ki, o, bütün din xadimlərinin qayğısına qalmalı, onlara rəhbərlik etməli, vəqf gəlirlərinin vaxtında toplanılıb lazım olan yerlərə sərf edilməsinə nəzarət etməli idi. Səfəvilər dövlətinin divan əs-sədarə qurumuna bəzən iki sədr başçılıq edirdi ki, onlardan biri sədr-i xassə (xassə əmlakına rəhbərlik edən sədr), digəri isə sədr-i ammə (divan əmlakına rəhbərlik edən sədr) adlanırdı.

Sansona görə sədr-i xassə ümumi dini rəhbər olub, ikinci ruhani şəxs, yəni sədr-i ammə də onun məsləhəti ilə seçilir və o, həm də dini məsələlərdə şahın bələdçisidir. Sanson sözünə davam edərək yazır ki, sədr-i xassə dövlət qanunun rəisi, sədr-i ammə isə dini məsələlər üzrə onun müavinidir. "Təzkirət əl-müluk"da göstərilir ki, mərkəzi və yerli idarələrdə şeyx ül-islamlar, qazılar, mütəvəlilər, müdərisslər, nə-

qiblər də sədrə tabe olub, onun hökmü ilə işə qəbul edilir, yaxud da işdən azad olunurdu. Engelbert Kempferin dini divan barədə, yazdıqlarının təhlilindən aydın olur ki, ali ruhani idarəsinin rəisi, yəni sədr-i xassə şiə hüququnun təfsiri üzrə çox mühüm din xadimi, həm də geniş dini və dünyəvi səlahiyyətə malik olduğuna görə, ona bəzən şahın nəvvabı (şahın müavini) da deyilirlər.

J.B.Tavernyenin əsərində bu barədə daha ətraflı danışılır. Səltənət vəqflərinə baxan sədr "sədr-i xassə", ümumi vəqflərə baxan sədrə isə "sədr-i əmma" və ya "sədr əl-moqufat" deyilirdi. Sədr şəriət və dünyəvi qanunları yaxşı bilməli və bu barədə məlumata malik olmalı idi. Təkcə din xadimləri yox, həm də başqa adamlar da müəyyən məsələlərin həllində ona müraciət etdikdə ondan düzgün cavab almalı idilər. Onun rəyi düzgün və qəti olmalı idi. Çünki onun rəyindən asılı olaraq hökm çıxarılmalı idi. Bir sıra hökm və qərarı sədr özü verirdi. Çıxarılmış hökmu möhürləyib şahın təsdiqinə gətirirdi. Sədr tərpənməyən əmlakın-bağ-bağça, əmlak, ev, dəyirman, dükan, əkin yerlərinin girov qoyulması haqqında hökm verirdi. Girov saxlayan şəxs həmin əmlakdan istifadə edə bilərdi. Borc alan şəxs təyin edilmiş müddətdə borcunu verib, girov qoyduğu əmlak və malı geri götürməsəydi, girov qoyulmuş əmlak borc verənin şəxsi əmlakına çevrilirdi. Sədr həm də şəriət qanunlarına nəzarət edirdi. Məscid vəqflərinin idarə olunması ona tapşırılmışdı. Onlar gəlirləri toplayır, vəqfin lazım olan məxaricinə sərf edirdi.

Sədrdən sonra dini idarələrdə şeyx ül-islam və qazının nüfuzu daha möhkəm idi. Sanson yazır ki, şeyx ül-islam şəri məsələlər üzrə böyük vəzifə sahibi olub, yetim uşaqlar, dul qadınların vərəsəlik və qəyumluq üzrə mübahisəli məsələlə-

rini həll edirdi. Engelbert Kempfer də yazır ki, şeyx ül-islamla qazının məhkəməsində alqı-satqı, nigah və təlağ müqavilələrinə baxılırdı.

Şəriət məsələləri bu iki vəzifə arasında bölüşdürülmüşdü. Sədrin yerlərdə səlahiyyətinə aid olan bütün işləri əslində onlar icra edilirdilər. Ancaq bu iki vəzifəyə təyinat və vəzifədən azad edilmə şahın hökmündən asılı idi. Ölkənin iri, hətta kiçik şəhərlərində də şeyx ül-islam və qazı dini işlərə baxırdı.

Qaynaqların məlumatlarından aydın olur ki, şeyx ül-islam ilə qazı arasında iş bölgüsü baxımından əsaslı fərq nəzərə çarpmır. Vəzifəyə görə, şeyx ül-islam birinci, qazı isə ikinci şəxs hesab olunurdu. A.Oleari yazır ki, qızılbaşların ölkəsi geniş ərazini, əhatə edən əyalətlərə bölünürdü. Şah bu qədər geniş ərazini, əyalət və vilayətləri, şəhərləri, xanlar, sultanlar, kələntər və darğalar vasitəsilə idarə edirdi.

Səfəvilərin dövlət quruluşunun formasına uyğun olaraq ölkə, vilayət və mahallara bölünmüşdü. Dövrün yerli mənbələrində və o cümlədən, Sanson və Engelbert Kempferin əsərlərində Səfəvi dövlətinin inzibati-ərazi bölgüsü, inzibati vahidlərdəki idarə orqanları, onları statusları haqqında kifayət qədər məlumat vardır. Sansonun yazıdığna görə XVII əsrin 70-80-ci illərində Səfəvi dövlətində valilər tərəfindən idarə edilən 10 nahiyə vardı ki, onlar Gürcüstan, Luristan, Həvize, Bəxtiyarı, Zeytun-Ərdəlan, Mazandaran, Çərkəz, Herat, Qəndəhar və Kirmandan ibarət idi. Bəzən valilikdən biri ləğv edilir və həmin valiliyə bəylərbəyi təyin edilirdi. Bu valilikdən başqa ölkədə 12 bəylərbəyilik də vardı ki, onları şah tərəfindən təyin edilən bəylərbəyi idarə edirdi.

Qeyd olunduğu kimi, vilayətlər də dövrün inzibati-ərazi bölgüsü qaydalarına uyğun olaraq mahallara bölünürdü. Bu barədə məlumat verən Engelbert Kempferin Azərbaycan vilayətinin 55 inzibati vahidə bölünməsi və 9 digər inzibati vahidin və ona aid olması haqqındakı məlumatları Səfəvi dövlətinin yerli idarə etmə quruluşu haqqında aydın təsəvvür yaradır. Ancaq dövrün yerli qaynaqlarında, xüsusən də "Təzkirət əl-müluk" da inzibati sistem barədə yazılanlara müraciət etmədən bu dövlətin yerli quruluşunu mükəmməl öyrənmək mümkün deyildir.

"Təzkirət əl-müluk"da Səfəvi dövlətinin 13 bəylərbəyilik və dörd valiliyə bölündüyü qeyd edilmişdir. Təkcə Azərbaycanda Şirvan, Qarabağ, Çuxur–Səd və Təbriz adlı dörd bəylərbəylik vardı. Bəylərbəylikləri şahın bəylərbəyi, əmir əl-üməra rütbəsi və xan titulu verdiyi hakimlər idarə edirdilər. Tavernye yazır ki, Şah xanlara müəyyən miqdarda torpaq və məmur verirdi ki, öz xanlıqlarını idarə edə bilsinlər. Buna görə də onlar həmişə öz həyatlarını qoruyub saxlamağa cəhd edirdilər. Lakin onlarda ən kiçik nöqsan baş verdikdə, şah onları cəzalandırırdı. Məlum olduğu kimi, idarə sistemi iki formada idi. Amma adlanan əyalətləri xan, xassə (şahın şəxsi əmlakı xassə adlanırdı) şəhərləri isə xan deyil, darğa və kələntərlər idarə edirdilər. Kələntər şəhər ağsaqqalı və digər mülki idarə rəisi olub, şah tərəfindən təyin edilirdi. Kiçik şəhərlərə, hətta qalalara da mülki idarə rəisi kimi kələntər göndərilirdi. Xassə şəhərlərdə "daruqə" inzibati işlərə baxır və müasir dildə desək, polis rəisi vəzifəsini ifa edirdi.

Xandan əlavə, kiçik hakimlər də vardı, onlar xana tabe idilər. Onların işə təyin olunması və çıxarılması xanın hök-

mü ilə icra edilirdi. Bu kiçik hakimlər əslində şahın sultan titulu ilə mahallara təyin etdiyi başçılar idilər.

Səfəvilərin idarəçilik sistemi və dövlət quruluşu barədə qaynaqların məlumatlarını təhlil etdikdən sonra belə nəticəyə gəlirik ki, XVII əsrdə Səfəvilər dövlətində qızılbaşlar əvvəlki yerlərini qismən itirsələr də, baş vəzirdən əyalət bəylərbəyilərinə, sultanlara qədər heç biri müstəqil deyildi və dövlət aparatı elə qurulmuşdu ki, şah vəzifəli şəxsləri bir-birindən asılı hala salmış, birini digərinə nəzarətçi qoymuşdu. Ona görə də ən kiçik hadisədən belə şahın dərhal xəbəri olurdu.

Vilayətlərə hakim xan, sultan titulu, əmir əl-üməra, yaxud bəylərbəyi rütbəsi ilə təyin olunurdu.

Engelbert Kempfer yazır ki, vilayət hakimləri bəylərbəyi rütbəsinə və ünvanına malikdir ki, bu da ağaların-ağası, bəylərin-bəyi mənasını ifadə edir.

Qeyd etdiyimiz kimi, vilayətlərə bəylərbəyi, xan titulu və çox nadir hallarda sultan titulu verilməklə təyin edilirdi. Engelbert Kempferə görə "xan" titulu ölkənin yüksək dərəcəli şəxslərinə, vali və hakimlərə verilirdi. Vali və hakimlər başçısı olduqları vilayətlərin əhəmiyyətinə görə dərəcələrə bölünürdülər. Bu dərəcəyə uyğun olaraq onların titulları vardı.

Sanson isə yazırdı ki, Səfəvi dövlətində vali, bəylərbəyi, qolbəyi, vəzir, sultan və dərğadan ibarət altı cür hakim vardı. Valilər işğal olunmuş bölgələrin keçmiş hakimlərinin həmin bölgələrdə başçısı olan övladları, yaxud qohumlarıdır.

Xanın vəzifə və mövqeyinin qüdrəti hakim olduğu ərazinin genişliyi ilə ölçülürdü. Kiçik əraziləri idarə edənlər çox hallarda böyük ərazini idarə edən xanlara tabe edirlər. Xassə əmlakı tərkibinə daxil olan bölgələrə vəzir və darğa hakim statusu ilə təyin edilirdi. Xassəyə daxil olan inzibati vahidlə-

rə başçılıq edən vəzir və darğalar birbaşa Şaha tabe idilər. Ancaq xassə ərazisinə daxil olan inzibati vahidlərə hakim statusu ilə təyin edilmiş vəzir və darğanın statusu bəylərbəyilərlə müqayisədə daha məhdud idi.

Qeyd olunduğu kimi, vilayətlər mahallara bölünürdü. XVII əsrin 40-cı illərindən etibarən mahal hakimlərinə bir qayda olaraq sultan titulu verilirdi. Onlar bəylərbəyinə tabe olsalar da, vəzifəyə Şah tərəfindən təyin edilirdilər. Engelbert Kempferə görə onlar ikinci dərəcəli hakimlərdir. Sultanların az hissəsi şahın nəzarəti altında olub, çoxu vilayət hakimlərinə tabedirlər.

Vilayətlər tərkibindəki mahal hakimləri bəylərbəyi qarşısında məsuliyyət daşıyırdılar.

## 3.3. Azərbaycan türkcəsi, tədris ocaqları və bilik sahələri

Mərkəzi və yerli idarəetmə orqanlarının strukturunun aydınlaşdırılması, dövlət məmurlarının bu strukturda mövqeyi və statuslarının açıqlanması XVII əsrin 80-ci illərində də Qızılbaşların hakimiyyətdə nüfuzunun çox möhkəm olmasını göstərir. Pyetro della Vallenin qeyd etdiyi kimi bu dövrdə də türk dili dövlət, rəsmi diplomatiya və saray dili kimi öz nüfuzunu qoruyub saxlamışdı Hələ XV yüzildə Azərbaycan mədəniyyətinin inkişafında Baharlı və Bayandur hökmdarları Cahan şah, Uzun Həsən, Sultan Yaqub, XVI-XVII yüzillərdə isə Səfəvi hökmüdarları Şah İsmayıl Xətai, I Şah Təhmasib və I Şah Abbas böyük rol oynamışdır. İlk Səfəvi şahları dövründə türkcə yazılmış və tərtib olunmuş yüzlərlə məktub, sənəd, fərman Səfəvi dövlətində türk dilinin fars di-

lindən daha çox işləndiyini göstərir. I Şah Abbasın (1587-1629) dövründə 1618-ci ildə İsfahanda Səfəvi sarayında rəsmi qəbulu müşahidə edən İtaliyalı səyyah Pyetro della Valle yazırdı ki, sarayda aydın etdim ki, İranda (Səfəvidə-Ş.İ.) farscadan daha çox türkcə danışırlar. Gerçəkdən türk dili İranın saray və böyüklərinin dilidir. Pyetro della Valle fikrini davam etdirərək yazır ki, Şahın qızılbaş əsgərləri türkdürlər, başqa millətlərdən yığılan qulamlar da öz aralarında türkcə danışmaqla yanaşı, farsca bir şey bilmirlər. Onlara təlim türkcə keçirilir və Şah da vaxtının çoxunu onların arasında olur. Şaha onlarla türkcə danışmaq daha asandır. Sonra türk dili getdikdcə saray dili, dövlət başçıları və ordu dili olmuşdur. Holşteynli elçi Adam Olearinin 1638-ci ildə Şirvandan İsfahana qədər müşhidələrindən sonra türk dili haqqında məlumatları Pyetro della Vallenin bu barədəki qeydləri ilə üst-üstə düşür və bir-birilərini sanki tamalayır. Adam Olearinin şahın dövlət məmurlarının türkcə danışmaları, vilayətlərdə uşaqların bu dildə tərbiyə edilməsi, əcnəbi qonaqların iştirak etdiyi Şah ziyafətində süfrə duasının bu dildə oxunması haqındakı məlumatları. XVII əsrin ortalarında da türk dilinin dövlət və saray dili olduğu bir daha təsdiq edir.

Azərbaycan türkcəsinin rəsmi dövlət dili statusuna malik olması fransalı səyyah Tavernyenin də diqqətini özünə cəlb etmişdir. O, Osmanlı, Böyük Moğol saraylarından fərqli olaraq Səfəvi sarayının dilinin türkcə olduğunu birmənalı olaraq yazmışdır.

Yuxarıda qeyd edilənlərdən aydın olur ki, XVII yüzildə də Azərbaycan türkcəsi bütün Səfəvi impersiyasında hakim zümrə arasında da çox geniş yayılmışdı. Bu dövrdə yayılma arealı və işlənmə səviyyəsinə görə Azərbaycan türkcəsi özü-

nün inkişaf dövrünü yaşayırdı. Azərbaycan türkcəsinin ölkə miqyasında milliyyətindən asılı olmayaraq qəbul edilib işlənməsi, bu dilin Səfəvi xanədanının da doğma dili olması məsələsi ilə də əlaqədar idi. Engelbert Kempfer və Sansonda dil məsələləri ilə ciddi şəkildə maraqlanmış və gündəliklərində bu barədə ətraflı məlumat vermişlər. Sanson yazır ki, Şahın fövqəltəbii qüdrəti insanlara elə bir tərzdə təsir etmişdir ki, onlar Şah haqqında adı danışıqlarda, ona müraciət edərkən türkcə deyirlər: "Qurban olum din-imanın Padşah, başına dönüm". Təbəələrinin Şahı türkcə anmaları, ona türkcə müraciətləri onun doğma dilinə bağlılığını və bu dilin imperiya miqyasında işləndiyinin göstəricisidir.

Avropa səyyahları Azərbaycan türk dilinin yayılma arealından da danışırlar. 1685-1694-cü illərdə İranda və Azərbaycanda olmuş alman səyyahı E.Kempfer sarayda işlənən Azərbaycan türkcəsindən bəhs edərək yazırdı: "İran sarayında çox işlənən dil, Səfəvi sülaləsinin ana dili olan türk dilidir və ölkənin adi camaatnın dilindən fərqlidir" səyyahın bu qeydlərindən aydın olur ki, sadə cammatın danışıq dili ilə ədəbi türkcə arasında müəyyən qədər fərq mövcud olmuşdur. Sözsüz ki, hakim zümrə daha çox dövrün ədəbi türkcəsində danışırdı. Səyyah sözünə davam edərək yarır: Türk dili saraydan, kübarların və hörmətli şəxsiyyətlərin evlərinə də daxil olmuş və nəhayət elə bir vəziyyət əmələ gəlmişdir ki, şahın hörmətini qazanmaq istəyən bütün adamlar bu dildə danışırlar. Bu gün iş o yerə çatıbdır ki, başı bədəni üçün dəyərli olan şəxslərə türk dilini bilməmək günah sayılır. Azərbaycan türkcəsi Şərqin bütün dillərindən asandır, həmçinin onun qrammatik quruluşu sadə olub, incəsənət elmləri sahəsində xüsusi istilahlara malik deyildir. Ümumən, onu səmərəsiz dil

hesab etmək olmaz. Digər tərəfdən onun danışıqda olan vüqarı, qulağa dəyən səsində olan əzəmət, sarayda və səltənət qəsrində müstəsna danışıq dilinə çevrilməsinə səbəb olmuşdur.

E.Kempfer yazır ki, iranlıların istifadə etdikləri əlifba ərəb əlifbasıdır. İslam dini meydana gəldikdən sonra bu əlifbanı həm iranlılar, həm də türklər qəbul etmişlər. Ərəb əlifbası Hindistan və hətta Cavə yarımadasında, Sumatrada da yayılmışdır. Bu ölkələrin hamısında kitablar ərəb əlifbası ilə yazılır. Ancaq həmin ölkələrdə əlifba, həm də xəttə cuzi dəyişikliklər də edilmişdir. E.Kempfer süls, nəstəliq, kufı xəttləri onların müqayisəli şəkildə təhlili barədə geniş məlumat verir.

E.Kempfer nəsx xəttini birinci qrupa aid olan xətt növləri tərkibinə daxil edir və ərəblərə məxsus olduğunu bildirir. O yazır: "Bu xəttdə hərflər aydın və aşkar görünür. Quranı bu xəttlə yazmaq lazımdır. Nəsx elə bir xəttdir ki, onun hərfləri bizim çapxanalarda mövcuddur. Digər xəttlərə nisbətən bu xəttdə yazıb, oxumaq daha asandır... Nəstəliq xəttilə daha rəvan və sürətlə yazmaq olur".

E.Kempfer yazır ki, kufi xəttini guya Həzrəti Əli ixtira etmişdir və bugünkü iranlılar onu islam dövrünün xəttlərindən hesab edirlər. Mən bürclərin və qədim məqbərələrin üzərində həmin xəttin nümunələrini görmüşəm...

Məlum olduğu kimi, XVI-XVII əsrlərdə Səfəvilər sarayında Azərbaycan türk dili, fars dili ilə yanaşı, rəsmi danışıq və yazı dili olmuşdur. Orduda, məktəb və mədrəsələrdə, idarəçilikdə fars dilindən daha çox (Azərbaycan) türk dili işlənirdi. Sarayda danışıqlar, əsasən türk (Azərbaycan) dilində

gedirdi. İtaliyalı səyyah Petro Della Valle İsfahanda olarkən I Şah Abbas ilə sarayda türk dilində danışmışdı.

Azərbaycan türk dilinin dövlət, saray, ordu, rəsmi diplomatiya dili olması haqqında gətirdiyimiz nümunələr, habelə dövrün tədris ocaqlarında bu dilin tətbiq olunması, Avropa səyyahlarının dedikləri kimi, qeyri-xalqlardan olan əyanların da uşaqlarını bu dildə tərbiyə etmələri aydın göstərir ki, Səfəvilər dövləti XVII əsrin ortalarında da özünün təbiətini saxlamışdı.

XV-XVI əsrlərdə Azərbaycan türkcəsi fars dilinin ədəbi-elmi sözlüyünə də dəyərli təsir göstərimişdir. Azərbaycanlı Həsən bəy Rumlu, İsgəndər bəy Münşi Türkman kimi görkəmli tarixçilərin farsca yazdıqları kitablarda saysız türk sözləri işlənmişdir. Çoxunda yeri gəldikcə Azərbaycan şairlərinin türkcə şeirləri, atalar sözləri verilmişdir. Fars, gilək, mazandaranlı, kürd, talış, ləzgi, yəhudi və ermənilər, yəni imperiyanın bütün əhalisi aralarında Azərbaycan türkcəsində danışırdılar. Bir çoxları onu yazı dili kimi də işlədirdi.

XVI əsrin əvvəllərində Azərbaycanın yenidən vahid mərkəz ətrafında birləşdirilməsi ölkənin sosial-iqtisadi inkişaf yolu üzərindəki maneələri də aradan qaldırırdı, elmin və mədəniyyətin inkişafına geniş imkanlar yarandı. Təbriz, Ərdəbil, Şamaxı və başqa şəhərlərdə yeni məktəblərin inşaası başlanır ki, bu daha çox dövlətin maarif işinə qayğısının nəticəsi idi. XVII əsrin 40-cı illərində Azərbaycanda olmuş Adam Oleari yazırdı ki, hər şəhərdə nə qədər məscid varsa, o qədər də məktəb vardır. Adam Olearinin qeyd etdiyi bu məktəblər, məscidlər nəzdində fəaliyyət göstərən ibtidai təhsil ocaqları idi. Ondan xeyli sonra Azərbaycana gələn Osmanlı səyyahı Evliya Çələbi Təbrizdə 600, Urmiyada 40, Həmə-

danda 40, Qəzvində isə bir neçə ibtidai məktəbin olduğunu yazmışdır. Məscid və mədrəslər nəzdindəki ibtidai məktəblərdən əlavə dövlət başçıları və şəhərlərin imkanlı adamları da öz vəsaitləri hesabına xüsusi məktəblər tikdirirdilər. İbtidai təhsil ocaqları saylan məktəbləri bitirən şagirdlər orta təhsil verən mədrəsələrə qəbul oluna bilərdilər. Mədrəsələr bir qayda olaraq şahlar və imkanlı adamlar tərəfindən inşa edilirdi ki, bu mədrəsələrdə tələbələrin təhsil xərcini valideyn ödəyirdi. Ancaq bəzi mədrəslər dövlət, yaxud vəqf əmlakı hesabına maliyyələşdirilirdi.

Holşteynli elçi Adam Oleari 1637-ci ildə Şamaxıdakı bir mədrəsə haqqında olduqca maraqlı məlumat verir. O, yazır: "... Mən bizim adamlardan bəzilərilə birlikdə çox qəşəng tikilmiş və bazarın yanında yerləşən fəlsəfə kollecinə oxşayan bir binanın həyətinə girdik. Bu binanın çoxlu girişləri və otaqları vardı. Bir neçə yerdə böyüklərin və uşaqların əllərində kitabla gəzişdiklərini və oturduqlarını görcək biz buranın nə olduğunu soruşduq. Cavabında öyrəndik ki, bura mədrəsədir. Yəni gimnaziya və ya akademiya ilə eyni bir şeydir ki, bunlardan Səfəvi dövlətinin ayrı-ayrı yerlərində bir neçəsi var". Holşteynli elçi mədrəsələrinin sayı barədə müfəssəl məlumat vermir. Osmanlı səyyahı Evliya Çələbi isə olduğu Azərbaycan şəhərlərində mədrəsələrin sayı haqqında dəqiq məlumatlar vermişdir. Onun yazdığına görə 1647-ci ildə Təbrizdə 47, Urmiyada 6, Həmədanda 9, Qəzvində isə bir neçə mədrəsə vardı. Engelbert Kempfer də Adam Oleari kimi şəhərlərdə mədrəsələrin sayını əsərində qeyd etmir, ancaq o da məscidlərin çoxunun yanında mədrəsə olduğunu yazır. Onun yazdığına görə həm dövlət başçısı, həm də imkanlı adamlar ad-sanları naminə və xeyirxahlıq məqsədilə çoxlu

ictimai binalar, o cümlədən, mədrəsələr tikdirirdilər. Elə buna görə də Səfəvi ölkəsinin şəhərlərində mədrəsə olduqca çox idi. Engelbert Kempfer mədrəslərin yaraşıqlı və böyük tikililər olduğunu qeyd edir. Ancaq bununla yanaşı yazır ki, bu mədrəsələrdə təlim və tədrisdə müəyyən çətinliklər olduğuna görə onları Avropadakı mədrəsələrlə müqayisə etmək mümkün deyildir. Onun yazdığına görə bu mədrəsələri, ancaq Avropadakı kolleclərlə müqayisə etmək olar. Ona görə ki, bu mədrəsələrdə tədris adətən bir nəfərin əlində olub, başqa bir savadlı şəxsin onunla ortaq olmasına razı olmur. Burada dil, şer, Aristotelin fəlsəfəsi, hədis, hətta riyaziyyat və astronomiyanı da yalnız bir müəllim tədris edir. Tələbələr saya görə qruplara bölünmür. Nə vaxt, nə də fənlər üzrə bölgüyə əməl edilmir. Ancaq Adam Olearinın Şamaxı mədrəsəsi haqqında məlumatları burada nizam-intizam olduğundan xəbər verir. O, Şamaxıda olduğu ilk mədrəsə haqqında yazır ki, burada tədrislə məşğul olan adama müdərris, yəni professor və ya müəllim deyirlər. Onu mədrəsənin başqa bi otağında artıq bir müəllim deyil, professorlar, yəni bir neçə müəllim qarşılamış və onlarla qlobus, astranomiya barədə söhbətlər aparmışdı. Adam Olearinin şəhərin başqa bir mədrəsəsində ilahiyyatdan dərs deyən bir nəfər alim, astranomiya müəllimi Xəlil münəccim, tədrisin üsul və metodları, üstürlab, qlobus və başqa dərs ləvazimatları haqqında verdiyi məlumatlar Azərbaycan şəhərlərindəki mədrəsələrdə hər fənni ayrı müəllimin tədris etdiyini, vaxt bölgüsünə əməl olunduğunu, tədrsidə müəllimlərin əyani vəsaitlərdən istifadə etdiklərini göstərir.

XVII əsrdə də Azərbaycan Yaxın və Orta Şərqin mühüm mədəniyyət mərkəzlərindən biri olaraq qalırdı. Ölkənin sə-

nətkarlıq, ticarət və mədəniyyət mərkəzi olan şəhərlərində müxtəlif tədris ocaqları fəaliyyət göstərirdi. Orta əsrlərdə bütün tədris ocaqları, o sıradan mədrəsə, məhəllə məktəbləri, təkyələr, təbiidir ki, dini səciyyə daşıyırdı. Avropa səyyahları, Şərq ölkələrinin, o sıradan Azərbaycanın tədris sistemi barədə son dərəcə dəyərli məlumatlar verirlər.

Məktəb və mədrəslərin sayı artdıqca buna uyğun olaraq kitabxanalar da təşkil edilirdi. Y.Streys Ərdəbildə olarkən şəhər kitabxanalarının zənginliyindən vəcdə gəlmişdir. O, yazır: "Biz kitabxanaya getdik, bu, bir dənə də sütunu olmayan böyük binadır. Orada kitablar rəflərdə bir-birinin üzərinə qoyulmuşdu, onların bəzilərinin üz qabıqları qızılı və gümüşü parçalara tutulmuşdu". Bu barədə İ.Şarden, J.Tavernye ətraflı məlumat verirlər.

Mədrəsələrdə ilahiyyat, hesab, cəbr, həndəsə, astronomiya, coğrafiya, tibb, fəlsəfə, tarix, ədəbiyyat fənləri öyrənilirdi. Orada Aristotelin fəlsəfi əsərləri, Sədinin "Gülüstan", Mirxondun "Rövzət üs-səfa" sı, Xacə Nəsrəddin Tusinin əsərləri, Nizami Gəncəvi, Xəqani Şirvani, Şəms Təbrizi, Əssar Təbrizi, Caminin əsərləri, Füzulinin "Leyli və Məcnun"u tədris edilirdi. Arsitotel, Evklid, Arximed və Qalileyin əsərlərindən də istifadə edilirdi. Engelbert Kempferə görə mədrəsələrdə Evkilidin həndəsəyə aid əsəri, Aristotelin fəlsəfəsi, Ptolomeyin əsərləri tədris edilirdi. Tavernyeyə görə tələbələrin istifadə etdikləri əsas dərsliklər Xacə Nəsrəddinin-Nəsrəddin Tusinin əsərləridir. Səyyahın Nəsrəddin Tusinin qədim alimlərin bəzi əsərlərinin yunan və ərəb dillərindən tərcümə etməsi fikri son dərəcə maraqlıdır. Bunların arasında Aristoteldən də dərsliklər vardır. Arximed və Evklidin əsərlərindən də dərslik kimi istifadə edilir. Mədrəsədə İbn Hey-

sərin işığa aid kəşflərindən, digər ali kitablardan dərs keçirlər. Məni inandırırlar ki, onlar hələ 800 il bundan əvvəl həndəsənin müxtəlif formaları, xətləri və bucaqlarını bilirdilər.

Şarden yazırdı ki, Azərbaycan mədrəsələrində Əbu Əli İbn Sinanın əsərlərindən də dərslik kimi istifadə edirdilər. Azərbaycanlılar şerə yüksək həvəs göstərirdilər. Onların mötəbər tarix kitabı Mirxondun "Rövzət əs-səfa" kitabıdır. Kitab burada bahadır. Buna baxmayaraq, bütün adamlar, o sıradan sənətkarlar və xırda kəsbkarlar da kitab alırlar. Çünki onlarda elmə və təhsilə maraq güclüdür. Azərbaycanlılar çalışırlar ki, uşaqlarını kiçik yaşlarından məktəbə göndərsinlər. Məhəllə məktəblərində uşaqlar dərslərini ucadan oxuyur və təkrar edirilər. Varlı uşaqları məktəbə getmir, müəllim onlara evlərində dərs keçir. Uşaq 18-20 yaşına çatmamış evdən bayıra buraxmırdılar.

E.Kempfer Şah Süleyman dövründə Azərbaycan Səfəvi dövlətinin iqtisadi tənəzzülündən də bəhs etmişdir. Bununla yanaşı, E.Kempfer Şah Süleyman dövründə Səfəvi dövləti, ölkənin ictimai-iqtisadi, siyasi vəziyyəti və mədəni həyatı barədə məlumat verərkən, yeri gəldikcə Almaniya və Avropadakı ümumi vəziyyətlə müqayisə etmiş və bəzi məsələlərdə öz ölkəsində də mənəvi mədəniyyətin inkişafı üçün belə bir münbit şəraitin olmasını arzu etmişdir. Məsələn o, Azərbaycan və İrandakı mədrəsə ilə Avropadakı Universitetləri, tədris və elmin səviyyəsini, müdərrislərə ildə 100 tümən məvacib verilməsindən bəhs edərək yazır: "Kaş Almaniyada da professorlara, bu elm çırağını işıqlandıranlara belə bir ənam qismət olaydı".

Məktəb və mədrəsə təhsilinin inkişafı elmi biliklərin, xüsusilə təbiət elmlərinin inkişafına təkan verirdi. Orta əsr

Azərbaycan mədrəsələri tədris müəssisələri olmaqla bərabər, həm də elm ocaqları idi. Həndəsə müdərrislərinin ilahiyyat və başqa ənənəvi fənlərlə yanaşı, dünyəvi elmlər barədə geniş məlumatları vardı. Onların bir çoxu ədəbiyyat, hikmət məntiqi, fizika, fəlsəfə, riyaziyyat, təbabət, coğrafiya, astronomiya, və s. elm sahələrinə dərindən bələd idi.

Azərbaycanda məktəb sisteminin tərəqqisi ilə paralel və ona uyğun olaraq müxtəlif bilik sahələri də irəli gedirdi. Artıq bu dövrün mədrəsələrində İbn Sinanın təbabətə aid əsərlərindən də geniş şəkildə istifadə edilirdi. Dərmanların çoxu bitkilərdən hazırlanırdı. Təbii bitkilərdən müxtəlif dərmanlar hazırlanması və bunlardan müalicə məqsədi üçün istifadə olunmasında Azərbaycan çox irəli getmişdi. Şərqin mədəni mərkəzlərindən biri olan Təbriz şəhərində təbabətin inkişaf səviyyəsi barədə Evliyyə Çələbi ərtaflı məlumat vermişdir. O yazır ki, "12 min nəfərə qədər qan almağı bacaran həkimlər, can həkimləri (terapevtlər), cərrahlar, okulistlər vardı. Lakin əhalinin onlara çox ehtiyacı yoxdur. Onlar əsasən dağlarda bitən otların köməyilə müalicə olunurlar".

Engelbert Kempfer ölkədə təbabətin ümumi vəziyyəti, həkimlər, saray həkimləri və həkimbaşı haqqında az da olsa məlumat verir. O, yazır ki, həkimbaşının yanında digər iki həkim də vardır ki, onlara böyük və kiçik həkim deyirlər. Dünyanın heç bir yerində İranda (Azərbaycanın cənubunda – Ş.İ.) olduğu qədər həkimə hörmət etmirlər. Belə ki, onlar kübar və əyanlar arasında xüsusi hörmət sahibdirlər. Lakin şah öldükdə, həkimlərin də taleyi dəyişir. Belə hallarda həkimləri saraydan qovurlar və onları ömürboyu Qumda olan bir bağda həbsxanada saxlayırlar. Əlbəttə, bu çox əzəmətli bağdır. Həkimlərin mallarını, var-dövlətini də zəbt və müsadirə

edirlər. Saray həkimlərinin yanında digər həkimlər də vardır ki, onlar da şahdan əmək haqqı alırlar və həkim adından da faydalanırlar.

Səfəvilər dövründə bir çox bilik sahələri ilə yanaşı astronomiya və astrologiya da inkişaf edirdi ki, bu bilik sahələrinin tərəqqisində dövlət başçıları da maraqlı idilər. Adam Oleari yazır ki, astronomiya və yaxud göy cisimləri haqqında elm qədim illərdə olduğu kimi indi də burada böyük hörmətdədir və bu bilik sahəsi ilə məşğul olanlara münəccim deyilir. Münəccimlərin başçısının saray təşkilatında xüsusi yeri olub, münəccimbaşı adlanırdı. Engelbert Kempfer bu barədə yazır ki, həkimlər kimi münəccimbaşı da iki münəccim, yəni böyük və kiçik münəccim ilə həmkarlıq edir. İranlıların nücüm elminə xurafat kimi sitayiş etmələri münəccimlərin sarayda tutduqları məqam və rütbə ilə uyğun gəlir. Adətən münəccimlər şahın mülazimləridirlər. Onların yanında ulduzların siyahısından ibarət bir lövhə vardır ki, uğurlu və uğursuz saatları istədikləri vaxt təyin etmək üçün ondan istifadə edib xəbər verə bilsinlər. Şah, münəccimbaşıdan məlumat almadan nə oturur, nə ayağa qalxır, nə ata minir, nə də başqa işə əl ata bilərdi. Şahdan əmək haqqı alan münəccimlərin sayı çoxdur. Saray xəzinəsindən həkimlərə və münəccimlərə illik ödəniləsi məvacib son illərdə 20000 tümənə bərabər olubdur ki, bu da 340000 talerə bərabərdir. Münəccimlərdən biri öldükdə bəzən onun oğlanlarından biri atasının yerinə təyin edilir. Münəccimlərin sayı fasiləsiz olaraq artır. Halbuki, ulduzların sayı sabit qalmışdır. Ancaq astronomiyaya meyl getdikcə azalır. Onların uzaqgörənliyi azalmış və dövlət münəccimləri dəfələrlə səhvlərə yol vermişlər.

## 3.4. Səfəvi ordusu

Ağqoyunlu dövründə olduğu kimi, Səfəvilər dövlətində nizami ordu vardı. İ.P.Petruşevski Qaraqoyunlu və Ağqoyunlu sülalələri tərəfindən idarə edilən Azərbaycan dövlətinin ordusu barədə yazır:"Qoşuna gəldikdə o, iki hissədən: biri padşahın xüsusi qoşunu, digəri isə vilayət canişinləri qoşunundan ibarət idi". Ümumən, qeyd etmək lazımdır ki, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində ordu təşkili işi Səfəvilərin dövründə az dəyişilmişdi. Ordu təşkilatına yalnız odlu silahlardan geniş istifadə edilməsi ilə bağlı olan dəyişikliklər əlavə edilmişdi. Səfəvilər qoşunu haqqında məlumat verən İran tarixçisi Əhməd Tacbəxş I şah Abbas dövründə onun "dövlət qoşununa, (vilayət hakimlərinin qoşunu, qorçular) və şah qoşununa (tüfəngçilər, qulam, qorçular, sufilər) bölündüyünü göstərmişdir"

Azərbaycan Səfəvi dövlətinin əsgəri təşkilatı barədə yerli qaynaqlarla müqayisədə dövrün Avropa ədəbiyyatında daha ərtaflı və həm də elmi əhəmiyyətli məlumatlar vardır.Sansonun Səfəvi dövlətinin əsgəri təşkilatı haqqında məlumatda ordunun ümumi sayının 140000 nəfərdən ibarət olub, beş növə bölündüyü göstərilmişdir. Onun yazdığına görə qeyd edilən qoşun növlərindən 2000 sufi, 4000 cəzair, 4000 qulam, 2000 tüfəngli, 2000 nəfər qorçu dəstəsi mərkəzdə yerləşdirilmişdir. Müxtəlif qoşun növlərindən sərhəd bölgələrində də hərbi hissə saxlanılırdı. Belə ki, Qəndəharda 12000, Xorasanda 20000, Şirvanda 12000, İrəvanda 17000, Luristanda 12000, Ərəbistan sərhədlərində də 12000 nəfərdən ibarət sərhəd qoşunu vardı.

Qeyd olunduğu kimi, qulam, topçu, tüfəngçi, sufilər şah qoşunu olub, xassə əmlakından götürülən mədaxil hesabına maliyyələşdirilirdi. Qulam, tüfəngçi, topçu alayları I şah Abbas (1587-1629) tərəfindən yaradılmış nizami hərbi qüvvə idi.Şaha məxsus qoşun növünə daxil olan tüfəngçilər rəiyyət və əkinçilərdən səfərbər edilmişdir. E.Kempfer şah qoşunu haqqında yazırdı ki, tüfəngçi komandiri tüfəngçiağası adlanır. O, sənətkar və kəndlilərdən səfərbər olunmuş tüfəngçi alayına komandanlıq edirdi. Tüfəngçiağası Azərbaycan ordusunda qoçubaşı və qullarağasından sonra rütbə cəhətdən üçüncü yeri tutur. Qüvvətli və çevik tüfəngçilər piyada qoşun növü olub tüfənglə barəbər həm də qılınc ilə döyüşür. Bəzən qalxan da götürürlər. Onların sayı 50000 nəfərdən az deyildir. At ilə döyüş meydanına girir, düşmənə yaxınlaşdıqda atdan enir, piyada döyüşürlər. Süvari qüvvə at ilə döyüşməyi özünə ar bilir. Buna görə də tüfəngçiləri «qılınc otu» hesab edirlər. İki hərbi qüvvə, yəni qulamlar və tüfəngçilər öz bacarığı və ləyaqətlərinə görə «kəbir» (böyük) ləqəbi almışdılar. Bu ləqəb onlara I Şah Abbas dövründə verilmişdi.

E.Kempfer yazırdı ki, Səfəvi ordusunda rütbə cəhətdən ikinci yeri qullarağası tutur, onun tabeliyində olan qulamlar və ya qullar əsasən gürcülərdən, çərkəslərdən, və qeyri-tayfalardan olan və bu ölkənin iqlim şəraitinə dözən əsgərlərdir. Bunlar uşaq ikən sünnət edilib şahın fərmanı ilə hərbi xidmətə götürülmüşlər. Qulamlar süvari qoşun növüdür Silahları əyri qılınc, nizə və kamandan ibarətdir. Onların bəzisinə tüfəng atmağı da öyrətmişdilər. Qorçulara nisbətən qulamlar döyüş bacarığı və say cəhətdən onlarla ya bərabər, ya da sayca bir az azdırlar. Onların sayı 15 minlə 18 min arasındadır. Şahın qorunması qulamların ixtiyarındadır. Onları bilavasitə

şah tərbiyə etdiyi üçün heç kəs onlardan fərmana tabesizlik gözləmir. Digər tərəfdən qulamların bir-biri ilə qohumluqları yoxdur. Buna görə də onların birləşmək və ya qiyam qaldırmaq ehtimalı da yoxdur.

Topçubaşı hərbi rütbə baxımından sonrakı yeri tutur. Topçubaşı, dəniz donanması döyüşündə də orduya komandanlıq edir, eyni zamanda «əmirül-bəhr» («dəniz əmiri») adlanır. Lakin İran (Səfəvi dövləti –Ş.İ.) xüsusi hərbi dəniz qüvvəsinə malik deyildir. Yalnız Fars körfəzi və Xəzər dənizində bir neçə müsəlləh gəmi get - gəl edir. Topçubaşılıq peşəsi o qədər də əhəmiyyətli deyildir və topçubaşının nüfuzu qorçubaşı, tüfəngçibaşı və qullarağasından xeyli aşağıdır. 1622-ci ildə Səvəfi döyüşçüləri və ingilislərin birgə səyi nəticəsində portuqaliyalılar Hörmuz şəhərindən qovularkən əldə edilmiş bir neçə top sarayların bəzəyinə çevrilmişdir. Onların bir neçəsindən bəzi qalaların müdafiəsində istifadə edilir. Ümumən, bu topların 10-u  Bəndər Abbas qalaları yaxınlığında, həmin sayda top isə Hörmuz qalasında mövcuddur. 1637-ci ildə Holşteyn hökmdarı III Fridrix tərəfindən göndərilmiş toplar isə Qəzvin səltənət bağlarının giriş hissəsini bəzəyir.

Sanson Səfəvi ölkəsində sərhədlərdə qala və istehkamların azlığını, top və topxananın da bu səbəbdən olmadığını yazmışdır. Ancaq E.Kempfer yazır ki, topxanaya xas olan sursat Təbərək qalasındakı cəbbəxanada saxlanılır. Bir yerdən digər yerə aparıla biləcək mütəhərrik top yoxdur. Baş vəzirdən sonra orduda sipəhsalar ən yüksək dövləti vəzifə hesab olunurdu. Lakin son zamanlar sipəhsalarlıq sabit bir vəzifə kimi hərbi təşkilatdan silinibdir. Baş vəzir lazım olan fövqəladə vaxtda ordunun hər üç hissəsini səfərbərliyə alır və bir sipəhsaların rəhbərliyi altına verir. Müharibə qurtaran kimi sipəh-

saları öz vəzifəsindən azad edirlər. Bu yol ilə də hər bir qoşun növü üçün bir sərkərdə təyin edilir və bu sərkərdə də müharibə qurtaran kimi öz vəzifəsindən kənarlaşdırılır. Hər üç ordu vahidi müxtəlif şöbələrə bölünür və hər bölməsi bir komandirin tabeliyinə verilir ki, onlar minbaşı, yüzbaşı, onbaşı adlanır.

E.Kempfer qeyd edir ki, Səvəfi dövlətində hərbi məşq, marş, hərbi intizam və geyimlər bizim ölkə ilə müqayisədə xeyli fərqlidir. Hərbi komandirlərin müxtəlif ordu vahidlərinin hərəkəti, topların işə salınması, işıq salmalar, mühasirə vəsaiti və sair barədə işlənən hərbi islahatlara rast gəlmədim. İranlıların (Səfəvilərin İ.Ş) silahları nizə, tüfəng, kaman, əyri qılıncdan ibarətdir. Müharibə meydanlarında top və zənburəkdən istifadə edilmir. Hər bir ordu vahidinə aid əsgərlərin xüsusi geyim forması yoxdur. Hər kəs öz istədiyi paltarı geyinir.

Hərbi düşərgə salmaqda heç bir qayda yoxdur. Hər kəs istədiyi kimi düşərgə salır, çadır qurur. E.Kempfer yazır ki, çadırqurma işlərində elə bir qayda vardır ki, güman edirəm az bir miqdarda düşmən gecə vaxtı həmin çadırlarda yatmış bütün ordunu məhv edib, aradan götürə bilər. Bununla yanaşı, iranlılar (səfəvilər İ.Ş), düşmənin onlara yaxınlaşdığını bilirlər, çünki yüksək yerlərdə gözətçilər qoymuşlar, onlar düşmənin hərəkəti və yaxınlaşmasını müxtəlif əlamətlərlə müəyyən edirlər. Əsgərlər öz yemək və geyimlərini hazırlamağa borcludurlar. Hətta xeyli yol gedib, çətinlik və maneələri arxada qoyduqdan sonra belə, yenə də əsgərlərə çörək verilmir. Lakin həmişə alverçilər ordunun arxasınca hərəkət edir, öz dükanlarından əsgərlərə ət, çörək, meyvə satırlar. Nəğd pulu olana mal satılır, etibarı olana borc verilir. Lakin nəqd

pulu və etibarı olmayanlar gecə oğurluq edib, yol kəsmək və talançılıqla məşğul olmağa məcbur olurdular.

E.Kempfer əlavə edir ki, "İranda (Səfəvi dövlətində İ.Ş.) həyəcan oyadan hərbi musiqi yoxdur, çünki onlar bizim qulağımızın adət etdiyi həmahənglik elmini öyrənməmişlər." Onlar hərbi musiqi aləti olan uzun gərənaylardan (qaraney) istifadə edirdilər ki, bəzi boruların bir hissəsi nazik və digərinin isə enli olur. İngiltərə şeypurlarına oxşayır. Onların müxtəlif ölçüdə olan barabanları, enli, böyük sinçləri də vardır. Sinçlərin orta tərəfində tutacaq yeri vardır. Onlar bir-birinə vurulduqda qulağı cingildədən səs çıxarırlar. Mənbə yazır ki, müharibə vaxtı hamı bir yerdə dəhşətli nərə çəkir və türk dilində yürü, yürü, yürü! deyirlər. Bu nərələrdən hava titrəyir, sanki yerin, göyün səsi bir-birinə qarışır.

Səfəvilərdə döyüş günü düşmən üzərinə hücüm etmək qaydası yoxdur, ya da düşmən qüvvəsi ilə bərabər ya onlardan sayca az olduqda müharibəyə başlamırlar. Onlar müharibə üçün aşağıda qeyd edilən taktikanı seçirlər; kəndləri viran edir, körpüləri dağıdır, tarlaları məhv edir, bu xarabalıqları düşmənlərə təhvil verirlər və bu yolla düşməni çətinliklərlə üzbəüz qoyub geri çəkilirlər. İranlılar (Səfəvilər-Ş.İ.) darısqal yollarda, dağlarda pusquda durur, hər şeydən, hər yerdən xəbəri olmadan düşmən həmin yerlərdən keçərkən onların üzərinə hücum edirlər, ya da dağ zirvələrindən və mağaralardan düşmənin hərəkətini nəzarət altına alırlar, düşmən gözləmədiyi halda onun üzərinə qəfil hücum edirlər. Bir sözlə, onlar bəxtə və ya dilavərliklərinə arxalanaraq özlərini dənizə vurmurlar, yalnız o vaxt hücuma keçirlər ki, qələbə çalacaqlarına qəti əmin olurlar. Bu taktikadan istifadə edərək I şah Abbas dövründə bir nəfər belə tələfat vermədən Osmanlıla-

rın qüvvətli və böyük ordusu üzərinə hücum edib, qələbə çalmışlar. Bir qayda olaraq Səfəvilər Osmalılarla savaşda Araz çayı körpüsünə yaxın şəhərləri, həmçinin yaxın kəndləri dağıdıb viran edirdilər. Beləliklə, düşmən yalnız xaraba bir səhra ilə üzləşirdi. Aclıq və susuzluqla üzləşən düşmən nəhayət, geri çəkilməyə məcbur olurdu.

İsgəndər bəy Münşi yazır ki, XVI-XVII əsrlərdə dövlət qoşununun əsas hissəsi əyalətlərdə yerləşirdi. Bu ordu əyalət bəylərbəyliyinin komandarlığı altında birləşən Azərbaycan tayfalarının silahlı qüvvələrindən ibarət feodal qoşun idi. XVI-XVII əsrlərdə Şirvan, Qarabağ, Çuxur-Səd və Azərbaycan bəylərbəyliyinin hər biri 2-3 min nəfərdən ibarət daimi hərbi qüvvə saxlayırdı. XVI-XVII əsrlərdə Səfəvi silahlı qüvvələrinin əsas hissəsi qorçulardan ibarət idi. Faruq Sumer yazır ki, ölkəni içəridən və xaricdən qoruyan qorçular Səfəvi xassə əsgərləri olmaqla, I Şah İsmayıl tərəfindən cığatay hərbi təşkilat nümunəsindən yaradılmışdı.

Ancaq Sansona görə, hələ XV əsrdə Azərbaycanda qorçubaşı vəzifəsi mövcud olmuşdu. Ölkənin sərhədlərinin qorunması və şahın mühafizəsi xüsusi dövlət qvardiyası olan qorçuların vəzifəsi idi. Mənbələrdən məlum olur ki, qorçular bütün əyalətlərdə sərbəst yaşayır, müharibə zamanı isə öz rəislərinin (qorçubaşlıların) ətrafında birləşirdilər.

Qorçular qızılbaş tayfa süvarilərindən ibarət idilər. Hər bir tayfanın qorçuları ayrıca hərbi hissəni təşkil edirdi. Onlardan hər birinin isə öz qorçubaşısı idi. Əyalətlərdəki qorçubaşılar-onbaşı, yüzbaşı, minbaşılar mərkəzdəki qorçubaşıya tabe idilər və qorçubaşının çox geniş səlahiyyətləri vardı.

E.Kempferə görə qorçu alayları türk igidlərindən təşəkkül tapmış, ox, kaman və nizə ilə müsəlləhdilər, boylarının hün-

dürlüyü, şücaət və cəsarətli olmaları ilə məşhurdurlar, onlar Səfəviləri hakimiyyətə gətirərkən göstərdikləri şücaətə görə, özlərindən çox razı və təkəbbürlüdürlər. 10-12 min döyüşgən kişidən ibarət olan bu qorçular mənsub olduqları tayfaların birliyinə və onların himayəsinə arxalanırdılar. Həmişə öz tayfaları arasında seçilmiş komandirlərin əmrinə tabedirlər. Onlar bu yol ilə şah qarşısında öz müstəqilliklərini qoruyub saxlaya bilmişlər.

E.Kempfer ordunun maliyyələşməsi məsələlərindən bəhs edərək yazır ki, hazırki sülh vaxtında bütün hərbi qüvvələr silahlı halda ölkənin müxtəlif bölgələrinə göndərilmişlər. Çünki onların belə saxlanması daha asandır, onların sayı təqribən 90000 nəfərdir. Hazırda hərbi xidmətdə olmasalar da, yenə də adları maaş cədvəlinə daxildir. Müxtəlif bölgələrdə yerli hakimlər onlara komandanlık edirlər. Əsgərlər hakimlərin fərmanlarına tabe olmalıdırlar. Çünki onların maaşı hakimlərin öhdəsindədir. Onların tamahkarlığı üzündən bu əsgərlərin əksəriyyətinin yalnız adları kağız üzərindədir. Şah çalışır ki, yerlərə müfəttişlər göndərməklə bu işin qarşısını alsın. Lakin ala bilmir. Çünki müfəttişlər ya rüşvət almaqla məşğuldurlar və ya lazımi qədər bacarıqlı deyildirlər. Bu cəhətdən bizim Alman ölkəsində olduğu kimi asanlıqla aldanırlar və həqiqət onlara əksinə göstərilir.

Mənbə göstərir ki, qeyd edilən qoşun növlərindən yaxşı silahlanmış 2000 sufi adlı mühafizə dəstəsi də vardır. Bunların maaşları şahın şəxsi hesabına ödənilir. Onlar eşikağasıbaşına tabedirlər.

E.Kempfer yazır ki, "Hər üç ordu hissəsində əsgərlərin maaşı eyni deyildir. Bir atlı qorçu ildə minimum 9 tümən, gah da 10 tümən və ya daha çox maaş alır. Bir onbaşının

maaşı 15 tümən, yüzbaşının 30 tümən, minbaşının 70 tümən, komandirin 150 tüməndir. Atlı qulamlar bundan bir qədər az maaş alırlar. Piyada əsgərlərin maaşı qulamlardan da azdır. Bütün dövlət məmurlarının maaşları nəğd verilmir.

E.Kempferə görə, qorçular qulamlarla müqayisədə daha çox məvacib alırdılar. O qorçuların illik məvaciblərini aşağıda qeyd olunduğu kimi göstərmişdir.

Qorçuların məvacibləri

| | |
|---|---|
| Sıravi qorçu | 9-10 tümən |
| Onbaşı | 15 tümən |
| Yüzbaşı | 30 tümən |
| Minbaşı | 70 tümən |
| Qorçubaşı | 150 tümən |

Səfəvilərin ordu quruculuğu barədə alman səyyahı E.Kempfer, fransız Sanson və digər qaynaqların məlumatlarını təhlil etdikdən sonra belə nəticəyə gəlirik ki, XVII əsrdə Səfəvilər dövlətində padşahın və vilayət məmurlarının nizami orduları olmuşdur. Onlar iqtisadi baxımdan lazımi səviyyədə təmin olunmuş və Azərbaycanın ərazi bütövlüyünü qorumaq üçün həmişə müsəlləh olmuşlar.

# NƏTİCƏ

XVI əsrin əvvəllərində Azərbaycanın yenidən vahid dövlət tərkibində birləşdirilməsi, ara müharibələrinə son qoyulması, mərkəzi hakimiyyətin möhkəmləndirilməsi kənd təsərrüfatı və sənətkarlıq sahələrinin, daxili və xarici ticarətin inkişafına təkan verdi.

XVII əsrin birinci yarısında fasilələrlə davam edən Səfəvi-Osmanlı müharibələri dövlətin təsərrüfat həyatına mənfi təsir göstərsə də, Səfəvi dövlətində məhsuldar qüvvələrin inkişafına mane ola bilməmişdi. Alman E.Kempfer və fransız Sansonun, dövrün digər qaynaqlarının verdiyi məlumatların təhlilindən aydın olur ki, XVII əsrin ortalarında Azərbaycanın iqtisadi həyatında əkinçilik, bağçılıq, bostançılıq, ipəkçilik, pambıqçılıq, üzümçülük təsərrüfatları və heyvandarlıq önəmli yer tuturdu.

Səfəvi dövlətinin sosial-iqtisadi həyatının inkişafı üçün əlverişli təbii-coğrafi şəraitlə yanaşı, XVII əsrin ortalarında ölkədə istehsal edilən kənd təsərrüfatı məhsullarına həm daxili, həm də xarici bazarlarda tələbat daha da artmışdı. Bu tələbata uyğun olaraq iqtisadi həyatın ayrı-ayrı sahələrində əmək məhsuldarlığının artması dövrün başlıca qaynaqlarında, o cümlədən bizim istinad etdiyimiz mənbələrdə də öz əksini tapmışdır. XVII əsrin ortalarında da Azərbaycanın iqtisadi həyatında ipəkçilik, getdikcə əsas yer tuturdu və ipək tədricən sənaye və ticarət əhəmiyyəti kəsb edirdi. Əsrin ortalarında Şirvanda ildə 40, Qarabağda 30 min batman ipək istehsal olunurdu. Bu rəqəmlər ölkənin iqtisadi həyatında artıq ipəkçiliyin ön plana keçdiyini göstərir. Bu dövrdə Azərbaycanın iqtisadi həyatında pambıqçılıq da əsas yer tuturdu.

Pambıq demək olar ki, ölkənin bütün vilayətlərində becərilirdi. Dövrün qaynaqlarında ölkənin təsərrüfat həyatında üstünlük təşkil edən zağı, zəfəranı, ləli, xas, bəyaz adları ilə məlum olan yeddi növ pambığın adı çəkilir. Eyni zamanda XVII əsrin ortalarında ölkənin iqtisadi həyatında taxılçılıq və heyvandarlıq da əhəmiyyətli təsərrüfat sahəsi idi, müxtəlif dənli bitkilərlə yanaşı, yeddi növ buğda becərilirdi.

Səfəvi məmləkətinin əlverişli təbii-coğrafi şəraiti, zəngin xammal ehtiyatları, əvvəllərdə olduğu kimi, XVII əsrin ortaları və 70-80-ci illərində də sənətkarlığın və ticarətin yüksəlişinə öz müsbət təsirini göstərmişdi. Digər tərəfdən əhalinin daxili ehtiyacları və Şərq ölkələrində istehsal olunan bir sıra mallara beynəlxalq bazarlardakı tələbat da sənətkarlığın, ticarətin inkişafında az rol oynamırdı.

XVII əsrdə Azərbaycanda toxucu, başmaqçı, dərzi, misgər, dəmirçi, dulusçu, dabbaq, bənna və s. kimi 44 növ peşə-sənət sahələri vardı.

Alman səyyahı E.Kempferin və fransız Sansonun araşdırmaya cəlb etdiyimiz gündəliklərindən əldə edilmiş materialların təhlili göstərir ki, bu dövrdə Təbriz, İsfahan, Kaşan. Məşhəd, Marağa, Mərənd, Xoy, Gəncə, Bakı, Şamaxı və Naxçıvan əhəmiyyətli sənətkarlıq mərkəzləri idi. Bu şəhərlərdə müxtəlif cür sənətkarlıq məmulatları istehsal olundu. II Şah Abbasın iqtisadi siyasəti emalatxana tipində iri feodal karxanalarının genişlənməsinə təsir göstərmişdi. Bu yeni emalatxanalarda xalça, qızılı saplarla işlənmiş parça, tafta, ipək parça toxunur və müxtəlif silah hazırlayırdılar. Artıq Təbriz, İsfahan Ərdəbil, Şamaxı kimi şəhərlərdə də istehsal prosesi genişləndirilmiş və təkmilləşdirilmiş böyük emalatxanalar vardı. Bakı və Abşeron kəndlərində təbii bitkilərdən

boyaq üçün rəng hazırlayırdılar. Eyni zamanda silah, mis və saxsı qablar istehsal edirdilər. Burada zərgər, inşaatçı, memar, bənna, rəssam, gəmi ustası, dərzi və başmaqçı kimi bədii və adi sənət-peşə sahələri vardı. Təbriz, Gəncə, Naxçıvan və bir sıra digər Azərbaycan şəhərlərində müxtəlif pambıq və ipək parçalar istehsal edilirdi. Artıq Təbriz şəhərində toxunan pambıq, ipək, yun parça, məxmər və darai adlı parçalar dünya şöhrəti qazanmışdı.

XVII əsrin 30-40-cı illərindən başlayaraq Səfəvi dövlətinin Avropa, həmçinin Yaxın və Orta Şərq ölkələri ilə ticarət əlaqələri genişlənmişdi. Avropa səyyahları E.Kempfer və Sanson Səfəvi dövlətində şəhərlərin, ticarətin inkişafına xüsusi diqqət yetirmişdilər. Səfəvi şəhərlərinin çoxu geniş ərazini əhatə edən vilayətlərin iqtisadi mərkəzlərinə çevrilmişdi, ən iri şəhərlər isə ümumölkə əhəmiyyəti kəsb etməklə, xarici ticarət əlaqələrində mühüm rol oynayırdılar. Daxili ticarətin inkişafında ciddi maneələr azalmışdı.

Uzaq Şərq, Mərkəzi Asiya və Hindistan, Aralıq dənizi və Qara dəniz sahillərini əlaqələndirən məşhur beynəlxalq ipək yolu Azərbaycan Səfəvi feodal dövlətinin ərazisindən keçirdi. Avropaya müxtəlif parçalar, ədviyyat, malları və daş-qaş bu yollarla aparılırdı. Azərbaycanın əlverişli coğrafi mövqedə, yəni Qərblə Şərqi əlaqələndirən ticarət yollarının mərkəzində yerləşməsi, onun beynəlxalq ticarət əlaqələrinin inkişafına çox müsbət təsir göstərirdi.

E.Kempfer və Sansonun səyyah gündəliklərindəki məlumatların təhlili göstərdi ki, XVII əsrdə Səfəvi dövlətinin şəhərlərində böyük ticarət mərkəzləri vardı. Saysız-hesabsız dükanları olan bazarlar, xüsusilə örtülü bazarlar, karvansaralar mühüm ticarət mərkəzləri idilər. Ərdəbil şəhərində uzun-

luğu 300, eni 150 addım olan meydanın hər iki tərəfində cərgə ilə dükanlar yerləşirdi. Bu meydan çox mühüm ticarət mərkəzi hesab olunurdu. Karvansaralarda daha çox topdan-satış üzrə mal alveri gedirdi. Bu vaxt Şamaxı şəhərində "Şah karvansarası", "Ləzgi karvansarası" daha məşhur idi. Bu karvansaraylarda Rusiyadan və başqa xarici ölkələrdən gəlmiş tacirlər qalay, mis, dəri, xəz, satır və zəruri tələbat malları alırdılar. Əcnəbi tacirlər Azərbaycan şəhərlərində karvansaralarda yerləşərək hücrələr, anbarlar kirayə verən ticarət şirkətləri açırdılar. Şəhərlər arasında da ticarət yollarının kənarında tacirlərin gecələməsi, onların minik və mallarının yerləşdirilməsi üçün karvansaralar tikilmişdi. Başçı, xidmətçi, keşikçilərdən ibarət mükəmməl idarə təşkilatı olan bu karvansaralar ölkənin həm daxili, həm də xarici iqtisadi əlaqəsində çox böyük rol oynayırdılar.

E.Kempfer və Sansona görə, Ticarətdə ipək mühüm rol oynayırdı, şəhərlərin iri feodalları ticarətlə əlaqədar idilər. Onlar ticarətə nəzarət edir, ondan külli miqdarda gəlir götürürdülər. I Şah Abbas dövründə ipək ticarəti dövlət xəzinəsinin inhisarına alınmışdı, lakin I Şah Səfinin (1629-1642) islahatı nəticəsində ipək ticarətinin dövlət inhisarından çıxması yerli tacirlərin ticarətdəki rolunu xeyli artırmışdı. I Şah Səfiyə qədər rəiyyət və torpaq sahiblərindən ipək alınması xəzinənin inhisarında idi. I Şah Səfi ipək ticarəti üzərində dövlət inhisarını ləğv edərək, dövlət məmurlarına xam ipəyin əhalidən toplayıb satmağı qadağan etdi.

İpəklə yanaşı, ölkədaxilində, həm də dövlətin xarici iqtisadi əlaqəsində neftin xüsusi əhəmiyyəti vardı. E.Kempferin məlumatına görə, Bakının nefti Rusiyaya, Hindistana və başqa ölkələrə satılırdı.

Bu dövrdə Azərbaycanın Hindistan, Çin, Xarəzm, Buxara. İngiltərə, Fransa, İspaniya, İsveç və İtaliya ilə çox geniş iqtisadi əlaqəsi mövcud idi. Bu vaxt ölkədə abbasi, mahmudi, şahı və bisti adı ilə məlum olan sikkələr tədavüldə idi. Abbasi, mahmudi, şahı, bisti gümüşdən, kazbeki sikkəsi isə misdən zərb olunurdu. Bütün bunlarla yanaşı, çox az miqdarda qızıl sikkələr, tədavülə buraxılırdı. Avropa və Şərq ölkələrindən gələn tacirlər öz sikkələrini şəhərlərdəki sərraflarla yerli sikkələrə dəyişirdilər. Ölkənin xarici ticarət əlaqələrində gümüş, daxildə isə əsasən mis sikkələr daha da çox istifadə olunurdu.

Səfəvilər sülaləsinin hakimiyyətə gəlməsilə Azərbaycanda soaial münasibətlərin dövlət-idarəçilik sisteminin inkişafı və təkmilləşdirilməsi tarixində də yeni dövr başlandı. Azərbaycan türk tayfalarına məxsus idarəçilik sisteminin dirçəlməsi üçün əlverişli şərait yarandı. Səfəvilər, hələ I Şah İsmayılın hakimiyyəti illərindən başlayaraq Qaraqoyunlu və Ağqoyunlu dövlətçilik ənənələrini davam etdirir və daha da möhkəmləndirirdilər. I Şah Abbas dövründə həyata keçirilən islahatlar nəticəsində Səfəvi dövlətinin siyasi quruluşu və idarəçilik sistemi, xüsusilə mərkəzi idarəçilik sistemi yeni şəraitə uyğun olaraq daha təkmilləşdirilmişdi.

Səfəvilərin idarəçilik sistemi və dövlət quruluşu barədə alman səyyahı E.Kempfer, fransız Sanson və digər qaynaqların məlumatlarının təhlili əsasında belə nəticəyə gəlirik ki, XVII əsrdə Səfəvilər dövlətində qızılbaşlar əvvəlki movqelərini qismən itirsələr də, baş vəzirdən əyalət bəylərbəyləri və sultanlara qədər heç biri müstəqil deyildi, dovlət aparatı elə qurulmuşdu ki, şah vəzifəli şəxsləri bir-birindən asılı hala

salmış, birini digərinə nəzarətçi qoymuşdu. Ona görə də ən kiçik hadisədən belə şahın dərhal xəbəri olurdu.

Dövlət aparatında Azərbaycan əyanlarının üstün mövqeyi yenə də öz əvvəlki qüvvəsini qoruyub saxlamışdı. Bəhs etdiyimiz səyyahların əsərlərindən əldə etdiyimiz məlumatlarla yanaşı, dövrün digər qaynaqları da dövlət quruluşunda, ordu quruculuğunda XVI əsrdə olduğu kimi, XVII əsrdə də Azərbaycan tayfa əyanlarının mövqeyinin möhkəm olduğunu göstərir. Yenə də Azərbaycan türk əsilzadələri dövlətin idarə olunmasında üstün rol oynayırdılar.

E.Kempfer və Sansonun əsərlərindəki çox zəngin fakt və məlumatların təhlili belə nəticəyə gəlməyə əsas verir ki, XVII əsrdə Səfəvi dövlətinin əsgəri təşkilatında topçu, tüfəngçi və qulamlardan ibarət olan Şah qoşununun xüsusi yeri vardı. Topçu alayının rəisi-topçubaşı qullarağası və tüfəngçibaşından sonra, yəni hərbi rütbəsinə görə üçüncü yeri tuturdu. Topçubaşı bəhriyyə (dəniz) qüvvələrinə də komandanlıq edir, o, «əmir ül-bəhr» («dəniz əmiri») adlanırdı. Lakin Səfəvi dövləti xüsusi hərbi dəniz qüvvəsinə malik deyildi yalnız Fars körfəzi və Xəzər dənizində bir neçə gəmisi vardı. Topxanaya xas olan sursat Təbərək qalasında saxlanılır və bu topların bir neçəsindən bəzi qalaların müdafiəsində istifadə edilirdi. Ümumən, bu toplardan 10-u Bəndər Abbas qalaları yaxınlıqlarında, həmin sayda top isə Hörmuz qalasında idi. 1637-ci ildə Holştayn hökmdarı III Fridrix tərəfindən göndərilmiş toplar isə Qəzvin səltənət bağlarının giriş hissəsində yerləşdirilmişdi.

E.Kempfer və Sansonun səyahətnamələri ilə yanaşı, dövrün bir sıra digər qaynaqlarından əldə etdiyimiz məlumatların müqayisəli təhlili göstərir ki, XVII əsrin ortalarında Şa-

maxı, İrəvan Ərdəbil, Qəzvin, Təbriz, Naxçıvan, Zəncan, Sultaniyyə, Dərbənd, Şabran və Ərəş kimi Azərbaycan şəhərləri ölkədə çox böyük iqtisadi-siyasi əhəmiyyətə malik olan mərkəzlər idilər. Eyni zamanda məşhur Azərbaycan şəhərlərində Şərq memarlıq üslubunda tikilmiş qalalar, məscidlər, üstüörtülü bazarlar və bir çox başqa ictimai binalar həmin dövrdə şəhərlərin böyük mədəniyyət mərkəzləri olduqlarını göstərir. I Şah Abbasın islahatları, eyni zamanda şah Səfinin həyata keçirdiyi tədbirlər şəhərlərin iqtisadi-siyasi, mədəni həyatına müsbət təsir göstərməklə yanaşı, bütövlükdə Səfəvi ölkəsinin sosial-iqtisadi həyatında mühüm rol oynamışdı.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində

1. Abbasqulu ağa Bakıxanov. Gülüstani-İrəm. Bakı: "Mömin" intişaratı, 2001, 287 s.
2. Aşurbəyli S. Bakı şəhərinin tarixi. Ruscadan tərcümə edəni Azər Bağırov. Bakı: Avrasiya Press, 2006, 416 s.
3. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I c., Z.M.Bünyadov və Y.B.Yusifovun redaktəsi ilə. Bakı: Azərnəşr, 1994, 637 s.
4. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. Redaktor tarix elmləri doktoru, professor, əməkdar elm xadimi Süleyman Əliyarlı. Bakı: "Azərbaycan" nəşriyyatı, 1996, 872 s.
5. Azərbaycan tarixi. 7 cilddə, III c, Bakı: Elm, 1999, 584 s.
6. Azərbaycan tarixi üzrə qaynaqlar. Professor S.S.Əliyarlı və dosent Y.M.Mahmudovun redaktəsi ilə, Bakı: Azərbaycan Universiteti nəştiyyatı, 1989, 328 s.
7. Baxşəliyev A.B. Güney Azərbaycan şəhərlərinin mədəni həyatı səyyah gündəliklərində (XVI-XVII yüzilliklərdə). Bakı: 2003, 181 s.
8. Baxşəliyev A.B. Səfəvi dövlətinin sosial-iqtisadi həyatı və beynəlxalq əlaqələri. Bakı: ADPU-nun mətbəəsi, 2009, 274 s.
9. Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin idarə quruluşunun bəzi məsələləri Tavernyenin Səyahətnaməsində // Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, 2004, №1, s. 131-144

**10.** Bayramlı Z., Əzizli B. Azərbaycan Evliya Çələbinin 1654-cü il "Səyahətnamə" sində. Bakı: "Azərbaycan" nəşriyyatı, 2000, 174 s.
**11.** Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri. Azərbaycan dilinə çevirənlər akademik Z.M.Bünyadov və tarix elmlər namizədi N.R. Ağayeva, Bakı: "Elm" nəşriyyatı, 1999, 160 s.
**12.** Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Bakı: ADPU, 2006, 258 s.
**13.** Dadaşova R. Səfəvilərin son dövrü (ingilis tarixşünaslığında). Bakı: "Nurlan" 2003, 439 s.
**14.** Dadaşzadə M. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti. Bakı: "Elm" nəşriyyatı, 1985, 216 s.
**15.** Evliya Çələbi. Səyahətnamə. Türk dilindən işləyəni və şərhlərin müəllifi. Tarix elmlər doktoru, professor Seyidağa Onullahi, Bakı: 1997, 87 s.
**16.** Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərbaycan dövlət nəşriyyatı, 1993, 301 s.
**17.** Fərzəlibəyli Ş.F. Azərbaycan XV-XVI əsrlərdə. Bakı: "Elm" nəşriyyatı, 1983, 150 s.
**18.** Fərzəlibəyli Ş.F. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər) Bakı: "Kür" nəşriyyatı, 1999, 241 s.
**19.** Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlər Hüsaməddin Məmmədovundur. Bakı: "Şuşa" nəşriyyatı, 2000, 576 s.
**20.** Həsənalıyev Z.M. Səfəvi dövləti. (XVII əsrin I yarısı). Bakı: "Altay" nəşriyyatı, 2000, 163 s.
**21.** Həsənalıyev Z.M. XVII əsrdə Səfəvi dövlətinin beynəlxalq əlaqələri. Bakı: "Nurlan", 2007, 344 s.

**22.** İsgəndər bəy Münşi. Tarix-i aləm aray-i Abbasi. Farscadan tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü, t.e.d., prof. O. Əfəndiyev, t.e.n. N.Musalı, Bakı: "Təhsil" 2009, 792 s.
**23.** Kruşinski Y.T. Xristian səyyahı tarixi. Farscadan tərcümə edəni Ş.Fərzəliyev, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 105 s.
**24.** Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı: "Azpolioqraf", 2008, 448 s.
**25.** Mahmudov Y.M. Səyyahlar, Azərbaycana gəlir. Bakı: "Gənclik", 1977, 138 s.
**26.** Mahmudov Y.M. Odlar yurduna səyahət. Bakı: "Gənclik", 1980, 119 s.
**27.** Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı: "Gənclik", 1985, 184 s.
**28.** Mahmudov Y.M. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Bakı: "Azərbaycan Dövlət Universiteti", 1986, 96 s.
**29.** Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı: "Təhsil" nəşriyyatı, 2006, 416 s.
**30.** Məhəmmədəli Tərbiyət. Danişvəndani - Azərbaycan. Tərcümə edənlər İsmayıl Şəms, Qafar Kəndli, Bakı: Azərnəşr, 1987, 464 s.
**31.** Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: "Elm" nəşriyyatı, 1977, 157 s.
**32.** Məmmədov S.A. Azərbaycan XV-XVIII əsrin birinci yarısında. Bakı: APİ, 1981, 98 s.
**33.** Məmmədov S.A. Azərbaycan tarixi. Bakı: Çaşıoğlu, 2004, 291 s.

**34.** Müsəvi T.M. Orta əsr fars dilində yazılmış sənədlər. Bakı: Azərbaycan SSR EA-nın nəşriyyatı, 1965, 131 s.
**35.** Müsəvi T.M. Bakı tarixinə dair orta əsr sənədləri. Bakı: Azərbaycan SSR EA-nın nəşriyyatı, 1967, 142 s.
**36.** Müsəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI-XVII əsrlər). Bakı: "Elm" nəşriyyatı, 1977, 237 s.
**37.** Nemətova M.X. Şirvanın XIV-XVI əsrlər tarixinin öyrənilməsinə dair. Bakı: Azərbaycan SSR EA-nın nəşriyyatı, 1959, 142 s.
**38.** Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı: "Elm" nəşriyyatı, 1982, 278 s.
**39.** Petruşevski İ.P. XV əsrdə Azərbaycan dövlətləri // Azərbaycan SSR Elmlər Akademiyası Tarix və Fəlsəfə İnstitutunun əsərləri, C. I, Bakı: Azərb. EA-nın nəşriyyatı, 1951, s. 49-108
**40.** Piriyev V.Z. Azərbaycanın tarixi coğrafiyası. Bakı: "Araz" nəşriyyatı, 2002, 152 s.
**41.** Süleymanov N. Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı: "Elm" nəşriyyatı, 2006, 400 s.
**42.** Venesiyalılar Təhmasibin sarayında (Mikel Membre və Vinçenso Alessandri). İngilis dilindən tərcümə, ön söz, giriş və şərhlər AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyevindir. Bakı: Təhsil, 2005, 112 s.

### Türk dilində

**43.** Erol Güngör. Tarihte türkler. İstanbul: Ötüken neşriyyat, A.Ş., 1990, 425 s.

**44.** Evliya Çelebi. Seyahetnamesi. Kitab I, Ankara: Baş Bakanlıq Basınevi, 1982, 411 s.
**45.** Evliya Çelebi. Seyahetnamesi. II cild, İstanbul, 1314, 466 s.
**46.** Evliya Çelebi. Seyahetnamesi. Kitab III, İstanbul: Kardeş matbaası, 1972, 320 s.
**47.** Evliya Çelebi. Seyahetnamesi. Kitab VII, İstanbul: Kardeş matbaası, 1970, 336 s.
**48.** Faruk Sumer. Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolu. Ankara: Türk Tarih Kurumu Basınevi, 1977, 263 s.
**49.** Xoca Sadeddin Efendi. Tacüt-Tevarih. c. 3-4, İstanbul: Milli Eğitim Basınevi, 1979, 399; 407 s.
**50.** İslam Ansiklopedisi. X cild. İstanbul: Milli Eğitim basımevi, 1966, 785 s.
**51.** Osmanlı devleti ile Azerbaycan türk hanliqları arasindakı münasıbetlere dair arşiv belgeleri. Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy (1578-1914). c. I, Ankara: 1992, 427 s.
**52.** Osmanlı devleti ile Azerbaycan türk hanliqlar arasindakı münasıbetlere dair arşiv belgeleri. Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy (1578-1914). c. II, Ankara: 1993, 483 s.
**53.** Peçevi İbrahim Efendi. Peçevi tarihi. c. I, hazırlayan prof. Bekir Sitki Baykal. Ankara: Baş Bakanlıq matbaası, 1981, 356 s.

## Rus dilində

**54.** Адам Олеарий. Подробное описание путешествия Голштинского посоль-ства в Москву и Персию в 1663, 1636 и 1639 годах. Составление секретарем посольства Адема Олеарием, пер. с немец. П. Барсова. Москва: Универ-ситетская типография, 1870, 1033 с.

**55.** Алиев Ф.М. Миссия посланника русского государства А. П. Волынского в Азербайджане. Баку: «Элм», 1979, 122с.

**56.** Альтман М.М. Исторический очерк города Гянджа. Ч.1, Баку: Изд. АН Азерб СССР, 1949, 115с.

**57.** Английские путешественники в Московском государстве. Перевод с английского Ю.В. Готье. Ленинград: Соц. ЭКГИЗ, 1937, 308 с.

**58.** Аракел Давришеци. Книга историй. Перевод с армянского А.Ханларяна. Москва: Наука, 1973, 623 с.

**59.** Армяно-русские отношения в XVII веке. Сб. док. Под ред. В. А. Парсамяна. Ереван: Изд-во Акад. Наук Арм. СССР, 1953, 288 с.

**60.** Армянская анонимная хроника 1722-1736 гг. Переводс с турецкого и примечания академика Буниятова З.М. Баку: Элм, 1988, 62 с.

**61.** Арунова М.Р., Ашрафян К. З. Государство Надир шаха Афшара. Москва: Восточная Литература, 1958, 283 с.

**62.** Ахмедов Б. А. Третья экспедиция англичан в государство Сефевидов (1565-1567) // «Ученые

записи» АГУ им. С.М.Кирова, серия исторических и философских наук, 1966, №8, с. 90-97.

**63.** Ашрафян К. Падение государства Сефевидов (1502-1722 гг.) / Очерки по новой истории стран средневекового Востока (Индия, Афганистан, Иран,). Москва: Изд. Московского Университета, 1951, с. 188-210.

**64.** Ашурбейли С.Б. Экономические и культурные связи Азербайджана с Индией в средние века. Баку: «Элм», 1990, 150 с.

**65.** Ашурбейли С.Б. Очерк истории средневекового Баку (VIII-начало XIX вв.). Баку: Изд. АН Азерб ССР, 1964, 334 с.

**66.** Ашурбейли С.Б. «Сеяхат-наме» Эвлия Челеби как источник по изучению социально-экономической и политической истории городов Азербайджана в первой половине XVII века. XXV Международный Конгресс востоковедов / Доклады делегации СССР. Москва: Восточная литература, 1960, 11 с.

**67.** Ашурбейли С.Б. Государство Ширваншахов (VI-XVI вв.). Баку: Элм, 1983, 342 с.

**68.** Босворт К.Э. Мусульманские династии. Пер. с анг. П.А.Грязневича. Москва: Наука, 1971, 324 с.

**69.** Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. Ч.1, Москва: Изд. АН, Спб., 1869, 548 с.

**70.** Бушев П.П. Посольства дипломатических отношений Русского и Иранского государств 1613-1621 гг. (по русским архивам). Москва: Наука, 1978, 278 с.

71. Бушев П.П. Посольство Артемия Волынского в Иран в 1715-1718 гг. Москва: Наука, 1978, 286 с.
72. Гасан-заде Д.Г. Англо-Сефевидские отношения в конце XVI-в начале XVII веков (по материалам английских источников). Автореф. дисс. канд. истор. наук. Баку: 1991, 23 с.
73. Гейдаров М.Х. Города и городские ремесла Азербайджана XIII-XVII вв. Баку: Элм, 1982, 280 с.
74. Гейдаров М.Х. К вопросу о ремесленных организациях в городах Азербайджана в XVI в. // Известия Академии Наук Азербайджанской ССР, серия общественные науки, 1961, №1, с. 34-36
75. Гейдаров М.Х. О системе и количестве торгово-пошлинного сбора в Азербайджане XVII в // Известия Академии Наук Азербайджанской ССР, серия истории, философии и права, 1968, №1, с. 55-64
76. Гейдаров М.Х. О термине «Boниче» // ДАН Азерб. ССР, т. XVIII, 1962, №3, с. 25-28
77. Гейдаров М.Х. О центрах ремесленного производства в Азербайджане в XVII в. // Известия Академии Наук Азербайджанской ССР, серия общественных наук, 1962, с. 43-55.
78. Гейдаров М.Х. Ремесленное производство в городах Азербайджана в XVII в. Баку: Изд. АН. Азерб. ССР, 1967, 200 с.
79. Гейдаров М.Х. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII-XVII вв. Баку: Элм, 1987, 210 с.

**80.** Гербер И.Г. Описание стран и народов вдоль западного берега каспийского моря / История, география и этнография Дагестана в XVII-XIX вв. Под редакцией М.О.Косвена и Х.М.Хамаева, Москва: Изд-во восточной литература, 1958, 120 с.

**81.** Гусейнов Ш.С. Последствия налоговой политики шаха Султан Гусейна и Надир шаха для экономики Азербайджана // Известия Академии Наук Азерб. СССР, 1967, №4, с.11-23.

**82.** Джидди Г.А. Средневековый город Шемаха IX-XVII века. Баку: Элм, 1981, 174 с.

**83.** Закария Акулисский. Дневник. Ереван: Издательство армянского филиала АН СССР, 1939, 198 с.

**84.** Зевакин Е.И. Азербайджан в начале XVIII в. «Общество изучения и обследования Азербайджана». Баку: Изд. «Общество обследования и изучения Азербайджана», 1929, №8, вып. IV, 31 с.

**85.** Ибрахим Эфенди Печеви. История. Перевод с турецкого языка З.М. Буниятова. Баку: Элм, 1988, 99 с.

**86.** Иванов М.С. История Ирана. Москва: Издательство Московского Университета, 1977, 487 с.

**87.** Иванов М.С. Очерк истории Ирана. Москва: Государственное Издательство Политической Литературы, 1952, 467 с.

**88.** История стран Азии и Африки в средние века. Под ред. Симоновской Л.В. и Ацамба Ф.М. Москва: Издательство Московского Университета, 1968, 496 с.

**89.** Каргаманов Дж.В. Описание Археографических документов. Баку: Элм, 1969, 100 с.

**90.** Какаш Стефан и Тектандер. Путешествия в Персию через Московию 1602-1603гг. Пер. с немец, на русск. А. Станкович. Москва: Университет-ская типография, 1896, 62 с.

**91.** Камбай-заде Х.А. Взаимоотношения государаства Сефевидов с западно-европейскими странами (в конце XVI - первая треть XVII вв.). Автореф. Дисс…канд. истор. наук. Баку: 1991, 24 с.

**92.** Корнели де Бруин. Извлечения из путешествия Корнели де Бруина. Пер. с франц. яз. Я.Абезгуз, AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, inv. № 480

**93.** Книга Орудж-бека Байата дон-Жуана Персидского. Перевод с английского, введение и комментарии д.и.н. Октая Эфендиева, к.и.н. Акифа Фарзалиева. Баку: Язычы, 1988, 215 с.

**94.** Куканова Н. Г. Очерки по истории русско-иранских торговых отношений в XVII - в первой половине XIX века (по материалам русских архивов). Саранск: Морд. Кн. Изд-во, 1977, 286 с.

**95.** Курбанова Ч.А. Шелк Азербайджана в торгово-дипломатических отношениях Сефевидского государства со странами Европы в I половине XVIII в. Автореф. дисс. канд. истор. наук. Баку: 1984, 23 с.

**96.** Куция К. К. Города и городская жизнь Сефевид-ского Ирана. Автореф. дисс. докт. истор. наук. Баку: 1984

**97.** Мамедов С.А. Исторические связи Азербайджанского и Армянского народов (вторая половина XVII в. - первая треть XVIII в.). Баку: Элм, 1977, 261 с.

**98.** Мамедова Г.Н. Русские консулы об Азербайджане (20-30-ые годы XVIII века). Баку: Элм, 1989, 127 с.

**99.** Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Баку: Издательство Бакинского Универси-тета, 1991, 263 с.

**100.** Новосельцев А.П. Города Азербайджана и Восточной Армении в XVII-XVIII вв. // « История СССР», 1959, №1, с.87-108.

**101.** Памятники дипломатических и торговых сношений Московской Руси и Персией. Изданы под редакцией И.И.Веселевского, том 1. Петербург: Товарищество Паровой Скоропечатии Яблонской и Перотть Лештуковь, 1890, 453 с.

**102.** Памятники дипломатических и торговых сношений Московсой Руси с Персией. Изданы под. ред. И.И.Веселевского, том 2. Санкт Петербург: Лештуковская Паровая Скоропечатня П.О. Яблонского, 1892, 445 с.

**103.** Папазян А.Д. Персидские, арабские и турецкие официальные документы Матенадарана XIV-XIX вв. и их значение для изучения социально-экономической жизни стран Ближнего Востока. Москва: Изд-во. вост. лит. 1960, 22 с.

**104.** Персидские документы Матенадарана. Указы, т. 1, вып. 1. (XV-XVI вв.). Составил А.Д. Папазян. Ереван: Изд. АН Армянской СССР, 1956, 295 с.

**105.** Персидские документы Матенадарана. Указы, т. 1, вып. 2 (1601-1650 гг.) Составил А.Д. Папазян. Ереван: Изд. Ан. Армянской СССР, 1949, с.295-565.

**106.** Петрушевский И.П. Азербайджан в XVI-XVII вв. / Сборник статей по истории Азербайджана, вып. 1. Баку: Изд. АН Азерб. СССР, 1949, с. 225-299

**107.** Петрушевский И.П. Вакфные имения Ардебильского мазара в XVII веке // Труды Института Истории им. Бакиханова, т. 1. Баку: Изд. АН Азерб. СССР, 1947, с. 24-39

**108.** Петрушевский И.П. Земледелие и аграрные отношения в Иране. Москва-Ленинград: Изд-во АН СССР, 1960, 492 с

**109.** Петрушевский И.П. Иранские источники по истории Азербайджана и Армении в XVI-XVIII вв. / Сборник статей по истории Азербайджана, вып.1. Баку: Изд. АН Азерб. СССР, 1949, с. 299-310

**110.** Петрушевский И.П. Ислам в Иране в VII-XV вв. Ленинград: Изд. Ленинградского Университета, 1966, 400 с

**111.** Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. Ленинград: Изд. ЛГУ, 1949, 379 с.

**112.** Пигулевская Н.В., Якубовский А. Ю., Петрушевский И. П., Строева Л. В., Беленицкий А.М. История Ирана с древнейших времен до конца XVIII

века. Ленинград: Изд. Ленинградского Университета, 1958, 390 с.

**113.** Полиевтков М.А. Европейские путешественники XIII-XVIII вв. по Кавказу. Тифлис: 1-я тип. Сахелгами, 1935, 217 с.

**114.** Путешественники об Азербайджане, т. 1, Составил З.И.Ямпольский. Баку: Изд. АН Азерб. СССР, 1961, 497 с.

**115.** Рахмани А.А. «Тарих-и алам ара-и Аббаси» как источник по истории Азербайджана. Баку: Изд. АН Азерб. СССР, 1960, 192 с.

**116.** Рахмани А. А. Азербайджан в конце XVI и в XVII веке. Баку: Элм, 1981, 238 с.

**117.** Русско-индийские отношения в XVII в. / Сборник документов. Москва: Издат. восточ. литер., 1958, 435 с.

**118.** Стрейс Я.Я. Три путешествия. Пер. с немец, на русск. Э.Бородиной. Москва: ОГИЗ-СОЦ ЭКГЗ, 1935, 415 с.

**119.** Сысоев В.М. Баку прежде и теперь. Краткий исторический очерк. Баку: 1928, 86 с.

**120.** Туманович Н. Н. Европейские державы в Персидском заливе в XVI-XIX вв. Москва: Наука, 1982, 188 с.

**121.** Фехнер М. В. Торговля Русского государства со странами Востока в XVI веке. Москва: Государственное Издательство Культурно-просветительской литературы, 1956, 120с.

**122.** Хожение Купца Федота Котова в Персию. Москва: Изд. Восточной литературы, 1958, 110 с.

**123.** Шахмалиев Э.М. Об англо-русских торговых противоречиях на Переднем Востоке второй половины XVI века // «Ученые записи» АГУ, им. М. Кирова, 1957, № 12, с. 113-120

**124.** Шахмалиев Э.М. О сотрудничестве армянского торгового капитала с венецианскими в позднее средневековье (XVI века) // «Ученые записки» АГУ им. С.М. Кирова, серия общественных наук, 1961, №1, с.51-55

**125.** Шахмалиев Э.М. Об англо-русских торговых противоречиях на Переднем Востоке второй половины XVI века // «Ученые записки» АГУ, им. С.М. Кирова, 1958, №5, с.103-112

**126.** Шахмалиев Э.М. Донесение папского посла Веккьетти о Сефевидском государстве // «Ученые записки» АГУ им. С.М. Кирова, серия история и философия, №4, с.32-37

**127.** Шахмалиев Э.М. Дипломатические отношения Испании с Сефевидским государством во второй половине XVI века // «Ученые записки» АГУ им. С.М. Кирова, 1955. №7, с. 117-127

**128.** Шпаковский А.Я. Торговля Московской Руси с Персией в XVI-XVII вв. / Сборник статей. Киев: Типография И.И.Чоколова, 1915, вып. VII, с. 1-54

**129.** Эвлия Челеби. Книга путешествия (извлечение из сочинения турецкого путешественника XVII века). Москва: Наука, Вып. 3, 1983, 376 с.

**130.** Эфендиев О.А. Азербайджанское государство Сефевидов в XVI веке. Баку: Элм, 1981, 370 с.

**131.** Эфендиев О.А. Образование Азербайджанского государства Сефевидов в начале XVI века. Баку: Изд. АН Азерб. СССР, 1961, 206 с.

## Fars dilində

132. ابو القاسم سحاب، تاريخ زندگی شاه عباس کبير، تهران، چاپخانه علمی، 1325، 309 ص.

133. ابو القاسم طاهری، تاريخ سياسی و اجتماعی ايران (از مرگ تيمور تا مرگ شاه عباس اول)، تهران، 1347، 399 ص.

134. احسن التواريخ، تأليف حسن روملو، به سعی و تصحيح چارلس نارمن سيدن، تهران: از انتشارات کتابخانه صدر، 1342، 541 ص.

135. احمد تاجبخش، ايران در زمان صفويه، تبريز: چاپخانه شفق، 1340، 416 ص.

136. اسکندر بيگ ترکمان، تاريخ عالم آرای عباسی، جلد 1-2، تهران، چاپ گلشن، 1350، ص. 1-607؛ 607- 1235

137. اسکندر بيگ ترکمان و محمد يوسف واله، ذيل عالم آرای عباسی، بتصحيح آقای سهيلی خوانساری، تهران، 1317

138. امين بنانی، دارلی دران، دوبروين، سيوری لکهارت، نيومن، کری ولش، صفويان، ترجمه و تدوين دکتر يعقوب آژند، تهران: چاپخانه ايران مصور، 1380، 375 ص.

139. باستانی پاريزی، سياست و اقتصاد عصر صفوی، تهران: چاپخانه کاويان، 1348، 533 ص.

140. پيترو دلاواله، سفرنامه پيترو دلاواله، ترجمه و حواشی از شعاع الدين شفا، تهران: شرکت انتشارات علمی و فرهنگی، 1348، 483 ص.

141. درويش توکلی بن اسمعيل بزاز صفوة الصفا. تبريز، ۱۳۷۳، ۱۳۴۸ ص.

142. جملی کارری، سفرنامه کارری، ترجمه دکتر عباس نخجوانی و عبدالعلی کارنگ، تبريز: چاپخانه شفق، 1348، 206 ص.

143. حسن جوادی، ایران از دیدگاه سیاحان اروپایی (از قدیم ترین ایام تا اوایل عهد صفویه). جلد اول، تهران: نشر بوته، 1378، 250 ص.
144. حمدالله بن ابی بکر بن محمد بن نصر مستوفی قزوینی، نزهة القلوب، تهران: ناشر کتابخانه طهوری، 1336، 245 ص.
145. خانبابا بیانی، تاریخ نظامی ایران در دوره صفوی، تهران: از انتشارات ستاد بزرگ آرتشداران، 1353، 593 ص.
146. در دربار شاهنشاه ایران، تالیف انگلبرت کمپفر، ترجمه کیکاووس جهانداری، تهران: شرکت سهامی افست، 1350، 312 ص.
147. راجر سیوری، ایران عصر صفوی، ترجمه : کامبیز عزیزی، تهران: نشر مرکز، 1374، 390 ص.
148. راجر سیوری، در باب صفویان، ترجمه ی رمضان علی روح الهی، تهران: نشر مرکز، 1380، 334 ص.
149. رحر برن، نظام ایلات در دوره صفویه، ترجمه کیکاووس جهانداری، تهران: چاپخانه بهمن، 1349، 247 ص.
150. سازمان اداری حکومت صفوی یا تعلیقان مینورسکی بر تذکرة الملوک، ترجمه مسعود رجب نیار، تهران: انتشارات امیر کبیر، 1368، 340 ص.
151. سفرنامه تاورنیه، ترجمه: ابوتراب نوری، اصفهان: چاپخانه پروین، 1346، 719 ص.
152. سفرنامه دن گارسیا د سیلوا فیگوئروآ، ترجمه غلامرضا سمیعی، تهران: چاپخانه کتیبه، 1363، 530 ص.
153. سفرنامه سانسون، وضع کشور شاهنشاهی ایران در زمان شاه سیلمان صفوی، ترجمه دکتر تقی تفضلی، تهران، 1346، 237 ص.
154. سفرنامه ونیزیان در ایران (شش سفرنامه)، ترجمه دکتر منوچهر امیری، تهران: شرکت سهامی، انتشارات خوارزمی، 1349، 450 ص.
155. سید حسین بن مرتضی حسینی آسترآبادی، تاریخ سلطانی از شیخ صفی تا شاه صفی، تهران: چاپخانه بهمن، 1358، 311 ص.
156. شاه عباس صفوی، اسناد و مکاتبات تاریخی همراه با یادداشت های تفصلی، به اهتمام دکتر عبدالحسین نوائی، جلد اول، تهران: انتشارات فرهنگ ایران، 1352، 374 ص.

157. شاردن، سفرنامه شاردن، ترجمه اقبال یغمائی، ج. 1-5، تهران: چاپخانه حیدری، 13-1372-1374، ص. 464، 464-912؛ 912-1308؛ 1308-1656؛ 1656-1952.
158. شاردن، سیاحتنامه شاردن، ترجمه محمد عباسی، ج. 2-4، تهران: انتشارات امیر کبیر، 1335-1336، ص. 301؛ 470؛ 510.
159. لمبتون، آن. ک. س. سیری در تاریخ بعد از اسلام، ترجمه یعقوب آژند، تهران: انتشارات امیر کبیر، 1381، 336 ص.
160. محمد احمد پناهی سمنانی، شاه سلطان حسین صفوی، تهران: چاپخانه سلمان فارسی، 1373، 340 ص.
161. محمد جواد مشکور، نظری به تاریخ آذربایجان، تهران: چاپخانه بهمن، 1349، 970 ص.
162. محمد یوسف قزوینی، خلد برین، تهران: چاپخانه شیرین، 1372، 900 ص.
163. ملا کمال بن جلال الدین محمد منجم، زبدة التواریخ، نسخه خطی؛ همچنین دو کتاب نفیس از مدارک اولیه تاریخ صفویان، خلاصة التواریخ – تاریخ ملا کمال، اراک، 1334، 127 ص.
164. میرزا سمیعا، تذکرة الملوک، به کوشش دکتر سید محمد بیر سیاقی، تهران، انتشارات امیر کبیر، 1368، 140ص.
165. نصر الله فلسفی، زندگانی شاه عباس اول، ج. 1-2، تهران: چاپخانه مهارت، 1364، ص. 309-738
166. نصر الله فلسفی، زندگانی شاه عباس اول، ج. 3، تهران: چاپخانه مهارت، 1364، ص. 738-1254
167. نصر الله فلسفی، زندگانی شاه عباس اول، ج. 4-5، تهران: چاپخانه مهارت، 1364، ص. 1254-2102
168. نصر الله فلسفی، سیاست خارجی ایران در دوران صفویه، تهران: شرکت سهامی، 1337، 320 ص.

## İngilis dilində

169. Roger Savory. Iran under the Safavids. London: Cambridge University Press, 1980, 277 p.

## Fransız dilində

170. Estat de la Perse en 1660 par le P. Raphael du Mans, Superieur de la mission des capucins d`ispanan. Paris: Publie Avec Notes et Appendice Par CH Scheffer, 1890,464 p

## QEYDLƏR ÜÇÜN

**Şahismayıl İsmayılov**

# XVII ƏSRİN 80-90-CI İLLƏRİNDƏ SƏFƏVİ DÖVLƏTİNİN SOSİAL-İQTİSADİ HƏYATI

*Dərs vəsaiti*

Yığılmağa verilmişdir: 14.01.2023
Çapa imzalanmışdır: 15.02.2023
Tiraj 100; ş.ç.v. 12
“................” nəşriyyatının mətbəəsində
çap olunmuşdur